**ZƏLİMXAN YAQUB**

# ƏSƏRLƏRİ

ON ÜÇ CİLDDƏ

XI CİLD

"Şərq-Qərb"
Bakı – 2013



Bu, tarixdi, kim yaratdı,
kim yaşatdısa,
Yaddaş onun, kitab onun,
əsər onundur.
Gələcəyi qucaqlayan
məhəbbət onun,
Qılınclardan kəskin olan
kəsər onundur.

**Zəlimxan Yaqub. Əsərləri, 13 clddə, XI cild.**
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 376 səh.

Tərtib edəni və
redaktoru: **Musa NƏBİOĞLU**

Xalq şairi Zəlimxan Yaqubun 13 cildlik əsərləri külliyatının 11-ci cildinə ulu öndər Heydər Əliyevə həsr etdiyi "Böyük ömrün dastanı" və digər poemaları daxil edilmişdir.

**ISBN** 978-9952-34-998-6

Şərq Qərb 1986-cı ildən
East West since 1986

www.eastwest.az
www.fb.com/eastwest.az

© Zəlimxan Yaqub, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

# ƏBƏDİYYƏT DASTANI

## I KİTAB

## BÖYÜK ÖMRÜN DASTANI

Ulu öndərimiz, xalqımızın ölməz oğlu, millətimizin şərəfi Heydər Əliyevin müqəddəs ruhuna bağışladığım "Böyük ömrün dastanı" poeması isti-isti, birnəfəsə yazılmış acılı-şirinli bir xatirədir, elegiyadır.

Ölümünə heç vaxt inanmadığım, ölümsüzlüyü ilə ömrüm boyu öyünəcəyim bir şəxsiyyətlə bağlı üstümüzü alan, qapımızı döyən qəfil qara xəbər hamı kimi məni də dərindən sarsıtdı. Bu sarsıntılar içində əlimə nə vaxt qələm götürdüyümdən heç özümün də xəbərim olmadı. O vaxt özümə gəldim ki, artıq sonuncu misranı yazıb, son hissəni tamamlamışam.

Bu əsəri mən yazmadım.

Ürəyimin qanı, gözlərimin yaşı, ruhumun çırpıntısı, əllərimin titrəyişi, həyəcanlı duyğularımın ləngəri, Haqqın sədası, Tanrının hökmü yazdırdı.

İstər xarici səfərlərdə, istər Azərbaycanda, istər şəxsi görüşlərimizdə ona olan ulu sevgim, güclü rəğbətim, böyük məhəbbətim məni rahat buraxmadı. Yaşadığım "kövrək duyğuları, zərif düşüncələri, üzüntülü anları, incə hissləri, çaxnaşmalı məqamları vərəqlərə köçür, şeirə, dastana çevir" dedilər. Xəyalən yenidən Çin səddinə qalxdım, "Manas" dastanının 1000 illiyində türk ruhunun qəhrəmanlıq dünyasına baş vurdum. Kəbədə Qara daşın yanında onun elədiyi duaları xatırladım. 80 illik bir ömrün bənzərsiz, unudulmaz anlarını gözlərimin önünə gətirdim. Gördüm ki, bu insan tarixdə tarix yaratmağa qadir olan, son min ilin yetirdiyi ən böyük Vətən oğlu, millət qəhrəmanı, xalq fədaisidir.

Şax duruşlu, şux yerişli, sərrast danışıqlı, aydın baxışlı, iti zəkalı, möcüzə yaddaşlı, şair təbiətli, alim təfəkkürlü, sərkərdə cəsarətli,

ən gözəl bəşəri sifətləri öz varlığında birləşdirən bir insan xalqın böyük şərəfi, millətin böyük xoşbəxtliyidir.

Şəxsiyyət. Vətəndaş. İctimai xadim. Dahi dövlət adamı bütün çalarları ilə yenidən canlandı ruhumda, xəyalımda, yaddaşımda!

Bizdən əvvəl olduğu kimi, bizdən sonra da dünyaya gələn nəsillərin hər birinin öz əsəri, öz kitabı, öz xatırlaması olacaq bu böyük şəxsiyyət haqqında. Mənim əsərim, mənim şeirim, mənim kitabım şəxsi duyğularımın, o şəxsiyyətin mənə böyük diqqətinin məntiqi, poetik nəticəsi kimi dünyaya gəlib. Hansı əsəri yazıramsa yazım, hansı kitabı nəşr etdirirəmsə etdirim, heç vaxt bu böyük şəxsiyyətə borcumu qaytara bilməyəcəyəm.

"Böyük ömrün dastanı"nı mənə yazdıran da məhz həmin o müqəddəs minnətdarlıq duyğularıdır. Bu duyğular elə duyğulardır ki, gecəli-gündüzlü hər yerdə həmişə mənimlə birgə fəaliyyətdə, hərəkətdə, yaşatmaqda və yaşamaqda olacaq.

O, yaradıcı ziyalıların ən böyük dostu və qayğıkeşi idi. Son 30-40 ildə elə bir görkəmli Azərbaycan ziyalısı yoxdur ki, Heydər Əliyevin onun şəxsi həyatında və yaradıcılıq taleyində diqqəti, qayğısı olmasın. Təkcə sənətkarların ad və soyadını alt-alta yazsaq, sözsüz ki, bir kitab alınar.

Rəssamın da, şairin də, bəstəkarın da, heykəltəraşın da, memarın da, xalçaçının da, müğənninin və xanəndənin də, aktyorun və rejissorun da yaxını, əzizi, doğması idi Heydər Əliyev!

Məndə zərrə qədər şübhə yoxdur ki, şair qələmi, rəssam fırçası, memar zövqü, heykəltəraş tişəsi, xalçaçı ilməsi, bəstəkar bəstəsi, muğam sehri Heydər Əliyevin bənzərsiz və rəngarəng, çoxşaxəli fəaliyyəti ilə bağlı hələ çox işlər görəcək. Mənim də gücüm qələmə, dəftərə çatdı, ilhamımla baş-başa qaldım, ağrımı-acımı misralara çevirib, ipə-sapa düzüb vərəqlərə köçürdüm.

# PROLOQ

Eşqə qadağa yox, sevgiyə sərhəd,
Xatirən canlıdır, şöhrətin diri.
Ömrünün mənası millətə xidmət,
Adının mənası Allahın şiri.

Ruhun dolaşacaq başımız üstə,
Adın yaşayacaq təbiət kimi.
Neçə doğma qanda, doğma nəfəsdə
Qəlbin döyünəcək məhəbbət kimi.

Xalqı zirvələrə qaldırmaq üçün
Sevgi şahlığının taxtına çıxdın.
Oğul xalq üçündü, zirvə dağ üçün,
Nə yaxşı bu xalqın baxtına çıxdın.

Şəxsiyyət girəndə elin qəlbinə,
Onunla birlikdə taxt ucalarmış.
Tapınıb eşq adlı Tanrıya, dinə,
Zaman ucalarmış, vaxt ucalarmış.

Tanrının, Allahın sözünə baxar,
Şeytanın felinə uymaz bu dünya.
Kəmfürsət düşməni yandırar, yaxar,
Səni unutmağa qoymaz bu dünya.

Döydü qapıları qara bir xəbər,
Hərə öz içinə qısılı qaldı.
Təyyarə torpağa enənə qədər,
Baxışlar göylərdən asılı qaldı.

Bu, ərzi titrədən bir xəbər idi,
Çiçəklər saraldı, gül həşəm oldu.

Həyatın nə qədər mötəbər idi,
Ölümün o qədər möhtəşəm oldu.

Yazsın yaddaşına tarix bu sözü,
Zaman bu çəkidə qəm görməmişdi.
Dünya yaranandan dünyanın gözü
Bir xalqı bu qədər cəm görməmişdi.

Dağları daşıyıb çiyinlərində,
Bağrının başında bir yük görmüşəm.
Nə qədər olsa da dərdi dərində,
Bu xalqı həmişə böyük görmüşəm.

Dincəlib özünə gələcək yenə,
Qəmin ləngərindən yorğundu xalqım.
Sığışmır zamanın cazibəsinə,
Caviddi, Müşfiqdi, Vurğundu xalqım.

Bu xalqa bağlıdır öndərin canı,
Ulu həqiqəti heç kəs danmasın.
Böyük kişilərin adı, ünvanı
Xırdalar dilində xırdalanmasın.

Dindi ürəyimdə saz pərdə-pərdə,
Onun ürəyini, ağlını sevdim.
Qəhrəman gəzmədim yad ölkələrdə,
Mən öz millətimin oğlunu sevdim.

Başına tac bildi torpağı, daşı,
Vətən bayrağıdı, millət canıdı.
O, mənim xalqımın mərd vətəndaşı,
Şeirimin əbədi qəhrəmanıdı!

## QARA XƏBƏRİN ACISI

Yuxudan qaldırdılar
məni, dərin yuxudan,
Rəngim ağappaq oldu
səksəkədən, qorxudan.
Gördüm başımın üstə
dayanıb Bəhlul balam,
O anda, o saatda
baxışı məlul balam.
Gördüm nəsə sözü var,
deməyə çatmır gücü,
Bir anın intizarı
min il qədər üzücü.
Bəd xəbəri deyəndə
insanlar fağır olur,
Bir sözün ağırlığı
min dağdan ağır olur:
"Xəbər verdilər, ata,
köçdü Heydər Əliyev,
Vida dedi həyata!".
Bu söz başımın üstə
çaxdı ildırım kimi,
Parçaladı sinəmi,
dağıtdı şırım kimi.
İnanmadım bu sözün
yanğısına, dağına,
Güllə kimi atıldım
ekranın qabağına.
Qəfil bu qara yellər
hardan əsdi, bilmədim,
Dişim dodaqlarımı
necə kəsdi, bilmədim.
Qarışdı göz yaşlarım
dodağımın qanına,
Döndü gözümdə dünya
bir matəm meydanına.

Bircə damla göz yaşı
buludlardan ağırdı,
Göydən yox, o gün yağış
gözlərimdən yağırdı.
Mən belə ağlamışdım
qanlı fələk ilk dəfə
ürəyimi qıranda:
Yetim qalıb atamı
torpağa tapşıranda,
O məzarın önündə
boynubükük qalanda,
Körpə çiyinlərimdə
dağ boyda yük qalanda.
Mən belə ağlamışdım
20 Yanvar günü,
Mən belə ağlamışdım
Vətənin ağlar günü.
Dönmüşdü gözlərimdə
qəmli bir tamaşaya,
Mən belə ağlamışdım
Xocalıya, Şuşaya.

## "HEYDƏR KÖÇDÜ" DEYƏNDƏ

Sazın sinəsi yandı,
muğamat xal itirdi,
Bülbüllər yaşıl çəmən,
çiçəklər bal itirdi,
Qaya xınalı kəklik,
zirvə qartal itirdi, –
"Heydər köçdü" deyəndə.

Od tutdu ağ zirvələr,
dağların qarı yandı,
Alov düşdü güllərə,
ağ yandı, sarı yandı,
Könlümün kamançası,
ruhumun tarı yandı, -
"Heydər köçdü" deyəndə.

Əklillər yasa batdı,
tər çiçəklər ağladı,
Üzüldü kimsəsizlər,
sındı təklər, ağladı,
Baxdı bu günə sarı,
gələcəklər ağladı,
Ağsaqqallar sızladı,
ağbirçəklər ağladı, –
"Heydər köçdü" deyəndə.

Çağlarını yaşadıq
ən şirin çağlar kimi,
Boynumuzda haqqı var
ən ağır dağlar kimi,
"Xəzəl oldum töküldüm
viranə bağlar kimi", –
"Heydər köçdü" deyəndə.

Sağı-solu görünməz
bir izdiham ağladı,
Sındı şair qələmi,
daşan ilham ağladı,
Gilə-gilə yaş töküb
əriyən şam ağladı,
Səhər bükdü boynunu,
qərib axşam ağladı, –
"Heydər köçdü" deyəndə.

## AĞIM, QOŞMAM, BAYATIM

Dərk edəndə dərindən
Bu amansız ölümü,
amansız saatı,
Axdı dodaqlarımdan
Ürəyimi yandıran
layla, ağı, bayatı.
Tutdum, laylaya tutdum,
səkkiz əsrə sığmayan
Səksən illik bir ömrü,
səksən illik həyatı.

Dilbərim, sonam ağlar,
Ev uçar, xanam ağlar,
Səksən yaşlı oğula
Yüz yaşlı anam ağlar.

Şam söndü, şöləsi yox,
Gözümün giləsi yox,
O qədər dərd görmüşük,
Dərd olar, beləsi yox.

Bağ barına qovuşdu,
Dağ qarına qovuşdu,
Axır ki, xiyabanda
Yar yarına qovuşdu.

Çiçəksən, zərin gəldi,
Anasan, ərin gəldi,
Oyan, Zərifə xanım,
Gəldi, Heydərin gəldi.

Saçda dən ağlamadın,
Gözdə çən ağlamadın,
Ona hamı ağladı,
Təkcə sən ağlamadın.

Sən də bu axına gəl,
Qılınca dön, qına gəl,
Uzaqda dayanmısan,
Gəl, bir az yaxına gəl.

Dağ layla, dərə layla,
Xanıma, ərə layla,
Öz dilində layla çal,
Layla Heydərə, layla.

Saz qırıldı, sim qaldı,
Görən bizə kim qaldı?
Millətin dərdinə bax,
Nə yerdə yetim qaldı.

Barxana yüklənməsin,
Saz bəmə köklənməsin,
Qoruyun tək oğulu,
Meydanda təklənməsin.

Qanadsız quşum, haray,
Dağılan huşum, haray,
Necoldu bağbanımız,
Bu torpaq, bu şum, haray!

Paşam, gəl, ay paşam, gəl,
Qarlı dağlar aşam, gəl,
Taxtım-tacım bəzənib,
Qurulub tamaşam, gəl.

Qara bir bulud gəldi,
Buludda sükut gəldi,
Endi dağ çiyinlərə,
Göydən bir tabut gəldi.

Ay getdi yatan yerə,
Gün getdi batan yerə,
Nur yağdırdı mələklər,
Sorağın çatan yerə.

Saldılar güldən izi,
Getməz könüldən izi,
Oldu məzarın üstü
Gül dağı, gül dənizi.

Xal-xal açar,
Yaralar xal-xal açar,
Sənə duadan ötrü
Göylərə xalq əl açar.

Üzük qaşsız qalmasın,
Divar daşsız qalmasın,
İgid elsiz, arxasız,
Ölkə başsız qalmasın.

Sinəsi yara dağlar,
Bağrı min para dağlar,
Təpələr yerindədir,
Yıxıldı qara dağlar.

Nə saydı,
Çox nəhs gündü, nəhs aydı,
Mən nə saymaq istədim,
Gör bir fələk nə saydı?

Ellərin mərd atası
Fələklə nərd atası,
Dərdimizi çox çəkib,
Dərd oğlu, dərd atası.

Nisgil eynində gedir,
Kəfən əynində gedir,
Ellərə çiyin verən
Elin çiynində gedir.

Yağı yağ eylər, gedər,
Dağı dağ eylər, gedər,
Xəbər qara gələndə
Rəngi ağ eylər, gedər.

Ər gəlsin, ərən gəlsin,
Qəm gülü dərən gəlsin,
Bu dərdi çəkəmmirəm,
Çiynini verən gəlsin.

Odu baxışda gedir,
Gülü naxışda gedir,
Dünyaya yazda gələn
Dünyadan qışda gedir.

Əridi bu şam, haray,
İçildi bu cam, haray,
Köməksiz elim-günüm,
Arxasız arxam, haray!

Ovçuya, ova neylim,
Çaxmağa, qova neylim,
Şaxıyan ildırıma,
Qalxan alova neylim?

Baxtı qar, şaxta canım,
Daş canım, taxta canım,
Necə dözdü, dayandı,
Qaldı bu vaxta canım?

Cövhərə can yaraşır,
İgidə şan yaraşır,
Sənə ağı yaraşmır,
Sənə dastan yaraşır!

## YARALI QOŞMALAR

Vaqiflə Vidadi deyişməsidi,
Kimi ağlatmadı, kimi, bu dünya?
Məclisin, söhbətin şirin yerində
Qırdı sazımızda simi bu dünya.

Uyu, bu qəmlərin içində uyu,
Daşınmaz dərdlərin qırx arşın quyu,
Bostanın üstünə çatmamış suyu,
Uçurdu dəhnəni, himi bu dünya.

Toyundan min dəfə çox oldu yası,
Yaslı ürəklərin açılmaz pası,
Yoxsa xilaskarı, yoxsa xilası,
Batmış bir gəmidi, gəmi, bu dünya.

De, hansı gününü xoş gətirəcək,
Hər yerdən əlini boş gətirəcək,
Elə yaş üstünə yaş gətirəcək,
Qurutmaz yanaqda nəmi bu dünya.

Min bir bəhanəsi, min bir fəndi var,
Acı zəhəri var, şirin qəndi var,
Bir əcəl deyilən qıfılbəndi var,
Buraxmaz fürsəti, çəmi bu dünya.

***

Aşıq, ağlat məni, dolum, boşalım,
Əridi, qəlbimin yağımı qaldı?
Yaşıl bostanımın, yaşıl bağımın
Kökdən üzülməmiş tağımı qaldı?

Külək qəfil əsdi, ağır gəldi qış,
Üzlərdən qəm yağdı, gözlərdən yağış,
Tufan dağıtmamış, xəzan vurmamış
Ömrümün bağçası, bağımı qaldı?

Suyu zəhər oldu içilən camın,
Tükəndi piltəsi əriyən şamın,
Saralan günəşin, solan axşamın
Qara saçlarında ağımı qaldı?

Arzular, diləklər düşdü dərbədər,
Ağrılar əlində ömrümüz hədər,
Bizim canımıza amansız kədər
Cəlladmı kəsildi, yağımı qaldı?

Yüz də göz yaşı tök, yüz də ağla, yan,
Əlacı tapılmır üzüləndə can,
Gördü öz işini qoca dəyirman,
Elin xəstəsimi, sağımı qaldı?

Əlndik, gözündən keçdik ələyin,
Əlində yem olduq qarın, küləyin,
Bizə qan ağladan qanlı fələyin
Qəlbə çəkilməmiş dağımı qaldı?

Oxu asta-asta, de sərin-sərin,
Dərdimiz ağırdı, yaramız dərin,
Karvanı köçdüsə dədə Heydərin,
Daha deyib-gülmək çağımı qaldı?

## GÖRƏN TORPAQ BİLİRMİ?

Bu da Fəxri xiyaban,
son mənzil, son düşərgə,
Ziyarətin adı bir,
zəvvarı cərgə-cərgə,
Gedir insan axını
güllə, çiçəklə birgə, –
Tarixə şöhrət olan
bir ər oğlu ər yatır,
Görən torpaq bilirmi,
qoynunda Heydər yatır?

Tək oldu, sınmaz oldu,
vahid oldu bu kişi,
Nə qədər tufanlara
şahid oldu bu kişi,
Öz millәti yolunda
şəhid oldu bu kişi, –
Arzuları müqəddəs,
ruhu təzə, tər yatır,
Görən torpaq bilirmi,
qoynunda Heydər yatır?

Durna qatarı kimi
arzusu səf-səf oldu,
Qibləsi xalqa doğru,
millətə tərəf oldu,
Uyuduğu torpağa
əbədi şərəf oldu, –
Bu yurda arxa, dayaq,
bu xalqa rəhbər yatır,
Görən torpaq bilirmi,
qoynunda Heydər yatır?

Dağın, daşın, qayanın
qəddi bükülüb gedir,
Yurdun, elin, obanın
bağrı sökülüb gedir,
Gözümüzün yuxusu
ərşə çəkilib gedir, –
Hər kəsin ürəyində
sonsuz bir kədər yatır,
Görən torpaq bilirmi,
qoynunda Heydər yatır?

Bu qışa, bu bahara,
bu yaya bir də gəlməz,
O, çeşmədən süzülüb,
bu çaya bir də gəlməz,
Tayı, hökmü, oxşarı
dünyaya bir də gəlməz, –
Yaddaşı bir möcüzə,
sinəsi dəftər yatır,
Görən torpaq bilirmi,
qoynunda Heydər yatır?

Oğulsan, zəhmətə sal,
el yolunda üz ömrü,
Hamı yaşaya bilmir
bir ömürdə yüz ömrü,
Allah hamıya vermir
belə ölümsüz ömrü, –
Tanrının yaratdığı
ən böyük əsər yatır,
Görən torpaq bilirmi,
qoynunda Heydər yatır?

Bu gün Heydər yatan torpaq
Yatana rəhmət yeridi.
Oxunur Allah kəlamı,
Adətə hörmət yeridi.

Adı Fəxri xiyabandı,
Millətindən bir nişandı.
Xalq özünü tanımaqçün
Əsl ibadət yeridi.

Asta yeri, asta danış,
Ey bu yerdən keçib-gedən.
Unutmayaq borcumuzu,
Ruhlara diqqət yeridi.

Durul, saflaş, müqəddəsləş,
Ömrü yaşa ömür kimi.
Həyatdan dərs almaq üçün
Güc yeri, qeyrət yeridi.

Burda görüş, burda dilə
Ürəyindən keçən nə var.
Burda səni Haqq eşidər,
Sevgi, mərhəmət yeridi.

Ruhu şad, torpağı yüngül,
Yeri daim cənnət olsun.
Birlik üçün bura bizə
Əbədi sərvət yeridi.

Məkkənin də, Kəbənin də
Yeri var gözlər üstündə.
Bura mənim xalqım üçün
Yeni ziyarət yeridi.

## O, HƏYATI SEVİRDİ

Kəskin zəka, iti göz,
ayıq baş, aydın fikir
Siyasət dünyasında
sağlam toxumlar əkir.
Baxışlarda sual var:
“Alimdi, yoxsa rəssam,
şairdi, yoxsa memar?
Memar ilə danışır
kərpiclə daş dilində,
Heykəl ilə danışır
heykəltəraş dilində,
Nəğməni dilləndirir
şux nəğməkar dilində,
Zirvəylə qar dilində,
budaqla bar dilində.
Muğamlara baş vurur
görəndə xanəndəni,
Allah belə yaradır
çox sevdiyi bəndəni”.
Açılardı dilində
elmin dərin qatları,
Göylərə baş vurardı
fikrinin qanadları.
Torpaqla danışardı
sarı sünbül dilində,
Çəmənlə danışardı
çiçəklə gül dilində,
İnsanla danışardı
sevən könül dilində,
Allahı – qurmaq eşqi,
Tanrısı – zəhmət idi,
Təpədən-dırnağadək
sevgi, məhəbbət idi.

Yaratdıqca hər anı,
hər saatı sevirdi,
Həyat onu sevirdi,
o, həyatı sevirdi.

Tanrı ona verəndə
odlu nəfəs də verdi,
Sarayları titrədən
gur, məğrur səs də verdi.
Qanadlanan bir ilham,
coşan həvəs də verdi,
Qılıncdan kəskin olan
ən iti söz də verdi,
Yüz il, min il sonranı
görməyə göz də verdi.
Baxışına qəzəbdən
çaxan şimşək də verdi,
Dünyanı dünya boyda
duyan ürək də verdi,
Həyatın yaddaşından
silinməz iz də verdi,
Qatlanmaz bir bilək də,
bükülməz diz də verdi.
Xırda fikirlərə yad,
Böyük işlərə ustad,
ulu niyyət də verdi.
Oddan-sudan qorxmayan
bir qətiyyət də verdi.
"Yarat!" dedi,
"Yaz!" dedi,
"Ucalt!" dedi,
"Qur!" dedi,
Hər işinə İlahi
ürəkdən "Uğur!" dedi.

Susmaq, durmaq, dayanmaq
varlığına yad oldu,
Ən müqəddəs duyğular
ona qol-qanad oldu.
Bir yurdu-yuvanı yox,
Bir ovuc havanı yox,
Yeri, göyü, varlığı,
kainatı sevirdi,
Həyat onu sevirdi,
o, həyatı sevirdi.

Bir ömürdə bu insan
görün nələr yaratdı,
Həqiqətə sığmayan
əfsanələr yaratdı,
Bulaq çəkdi, "İç!" – dedi,
körpü saldı, "Keç!" – dedi,
qanad verdi, "Uç!" – dedi.
"Mən çəkdiyim bulaqdan
içməyi bacarmasan,
Mən saldığım körpüdən
keçməyi bacarmasan,
Mən verdiyim qanadla
uçmağı bacarmasan,
Daha məndən incimə,,
özündədi suç", – dedi.
Tanrı kimi tapındı
mənalı ömürlərə,
Mənasız keçən ömrə
"yalan" dedi, "puç" – dedi.
Ağac əkdi, "barını
şirin-şirin dər", – dedi,
Şəhər saldı, "bu işdə
gücünü göstər", – dedi.
Sinəsi sipər oldu,
kirpiyi çəpər oldu,

Qanında qeyrət, hünər,
canında təpər oldu.
Yer üzündə şöhrəti
o qədər yüksəldi ki,
Göy üzündə mələklər
alnından öpər oldu.
Torpağın qucağında
qurmağı, yaratmağı,
Göylərdə yeddi rəngi,
yeddi qatı sevirdi,
Həyat onu sevirdi,
o, həyatı sevirdi.

Bir dahi doğulub
gəldi dünyaya

Naxçıvanda doğuldu
23-ün mayında,
Güllü bahar fəslinin
ən işıqlı ayında.
Anası İzzət xanım,
atası Əlirza
Şükürlər oxudular
onlara oğul verən
Tanrıya, İlahiyə,
bu bahara, bu yaza.
Ata-ana ad qoyub
adına Heydər dedi,
"Bu həyatın barını
dərdikcə hey dər!" – dedi.
O, boy atıb böyüdü
gündə bir darı boyda,
Ona layla çalanın
xoş arzuları boyda.

Hər anla, hər saatla,
hər fəsillə böyüdü,
Damar-damar bərkidi,
pillə-pillə böyüdü.
Bir gün əskik olmadı
laylası, oxşaması,
Atanın yeridiyi
yerişlə, tərpənişlə,
Ananın danışdığı
şirin dillə böyüdü.
Gəzirdi cığırları,
dolaşırdı yolları,
Göyləri qucmaq üçün
qartal qanadı kimi
açılırdı qolları.
Hər nəyə baxırdısa,
dönüb yenə baxırdı,
Uşaq marağı ilə
təkrar-təkrar baxırdı,
dönə-dönə baxırdı.
Oda, közə, kömürə,
daşa, tunca, dəmirə,
Daş üstündə çiçəyə,
qaya üstə mamıra,
Dağa, düzə, dərəyə,
göz oxşayan, qəlb açan
Hər cürə mənzərəyə
hey baxdıqca baxırdı,
Bulaqlar qayadan yox,
ürəyindən axırdı.
Ana onu bir dəfə
doğub verdi dünyaya,
O, hər gün bir nəğmədən,
bir səsdən doğulurdu,

Tükənməz bir maraqdan,
həvəsdən doğulurdu.
Dar komadan, daş evdən,
məbəddən, məqbərədən,
Sıldırımdan, keçiddən,
aşırımdan, bərədən,
Məsciddən, minarədən,
Haqqın ona verdiyi
İlahi bir vergidən,
eyhamdan, işarədən,
Yoldan, cığırdan, izdən,
Atabəy Eldəgizdən,
Mömünə xatın adlı
türbənin naxışından,
Günəşin işığından,
buludun yağışından,
Çəmənlərin dumduru
şehindən doğulurdu.
Kimdi Məhəmməd Cahan,
kimdi Memar Əcəmi,
Bu yurdun memarından,
şahından doğulurdu.
Mirzə Cəlil yanğısı
onun uşaq qəlbini
göynədib-sızladanda,
Dünyanın acısını,
şirinini dadanda,
Ölülərin dərdini
dirilər çəkməyəndə
Bu xalqın fəryadından,
ahından doğulurdu.
Naxçıvan torpağının
şəhdindən, şirəsindən,
Qayaların ağzından
çıxan od kürəsindən,

Qədim tikililərin
bağından-bağatından,
Şəhər səliqəsindən,
köhnə kənd həyatından,
Günlü güneylərindən,
qarlı quzeylərindən,
Allahın yaratdığı
qaya muzeylərindən,
Ürəyə işıq salan
Günəşdən doğulurdu,
Şimşəkdən, ildırımdan,
atəşdən doğulurdu.
Kim deyə bilərdi ki,
bugünkü körpə uşaq
sabahkı bir dahidi,
Biz kimik hökm verək,
Hökmü verən-çıxardan
Tanrıdı, İlahidi!

## GİZLİ TƏŞKİLATDA

Gəldi-keçdi ömürdən
neçə gün, neçə gündüz,
Durmadı, dayanmadı,
oxudu təbiəti,
öyrəndi cəmiyyəti.
Yatmadı gecə-gündüz,
odun içinə girdi,
Baxmadı bir qıraqdan,
keçdi çətindən-çətin
imtahandan, sınaqdan.
Əqidəsi yolunda
dağ kimi, məğrur, mətin,
qaya kimi sal oldu.

Dəyişdi hərb illəri
            arzuların səmtini,
O, memar olmalıydı,
            əsl general oldu.
Elə bir general ki,
Sarsılmaz qətiyyəti!
Basılmaz şəxsiyyəti!
Danılmaz həqiqəti!
İmperiya cəlladıyla
            dayansa da üz-üzə,
Qorxmadı, çəkinmədi,
            başlandı fəaliyyət,
            başladı mübarizə.

Gizli bir təşkilatda
            aydın bir rəhbər oldu,
Öz milləti yolunda
            hər gün səfərbər oldu,
Kəskin bir qılınc olub
            döyüşdü qına qarşı,
Bir də imkan vermədi
            təxribat eləsinlər
            onun xalqına qarşı.

İlahi! Gör bu yerdə
            o kimlərlə döyüşüb,
Çox əliqanlılarla,
            hakimlərlə döyüşüb.
Cavidi sərt Sibirin
            şaxtasında çürüdən,
Böyük Əhməd Cavadı
            gilə-gilə əridən,
Başımızın üstünə
            göydən odlar ələyən,
Müşfiqi bir gecədə
            al-qanına bələyən,

Adı hələ də dildə
"Dənizkənarı" qalan,
Anaların saçında
əriməz qarı qalan,
Zülüm, qan ocağının
dağıtdı yuvasını,
Təmizlədi ruhunu,
dəyişdi havasını.
Onun hərarətindən
göy gözlər, sarı saçlar
yavaş-yavaş əridi,
Dəyişdi dünya, düzən,
buz sındı, daş əridi.
Bu millətin qaragöz,
qaraqaş oğulları,
Ayaqda sürünməyən
başda baş oğulları
Sahib oldu o gündən
öz doğma ocağına,
öz işıqlı elinə,
Gördü bu mənzərəni
xalq sevinə-sevinə.

Qan tökənin gözləri
oyum-oyum oyuldu,
Bugünkü dövlətinin
sağlam özül daşları
O kişinin əliylə
bax o zaman qoyuldu!
Dağılmasa o yuva,
dəyişməsə o hava,
Yenə ayaq açardı
bu millətin üstünə
iftiralar, riyalar.

Bir-bir güllələnərdi
Müşfiqlə Cavid kimi
Bəxtiyarlar, Ziyalar.
Nə göylər durulardı,
nə yer təmizlənərdi,
Bir cəlladın içində
min qisas gizlənərdi.
Nə qədər səs itərdi,
nə qədər qan batardı,
O qanların içində
Azərbaycan batardı.

Gülü tikandan qorudu!
Torpağı qandan qorudu!
Qorudu o, bu xalqı,
bu milləti qorudu,
Azərbaycan adlanan
bir dövləti qorudu!

## ZƏRİFƏ SEVGİSİ, HEYDƏR SEVİNCİ

"Çiçəksən, arını sevmə" – dedilər,
"Budaqsan, barını sevmə" – dedilər.
"Zərifə adında, mələk donunda,
İstəkli yarını sevmə" – dedilər,
Qadağa qoydular məhəbbətinə.

"Bir də o tərəfdə izin olmasın,
Bu haqda söhbətin, sözün olmasın,
Bir daha o qızda gözün olmasın,
Sən dövlət adamı, o, bir yad qızı", –
Qadağa qoydular məhəbbətinə.

Duru bir bulağa “axma” – dedilər,
Odlu bir şimşəyə “çaxma” – dedilər.
“Duyğusan, durulma, dilsən, danışma,
Gözsən, gözəlliyə baxma” – dedilər,
Qadağa qoydular məhəbbətinə.

O gün kök budaqdan ayrılmalıydı,
O gün ət dırnaqdan ayrılmalıydı,
O gün Ay ulduzdan, işıq Günəşdən,
Bərəkət torpaqdan ayrılmalıydı, –
Qadağa qoydular məhəbbətinə.

Bu söz sərt zamanın tapşırığıydı,
Tüstünün, dumanın tapşırığıydı,
Tutqun bir səmanın tapşırığıydı,
Yaxşını yaxşıdan ayırmaq üçün
Tapşırıq yamanın tapşırığıydı.

Qorxu-qadağanın yekəsinə bax,
Vaxtın çirkabına, ləkəsinə bax,
Tarixin hökmünə, hikkəsinə bax,
Tapşırıq verənin naşılığına,
Tapşırıq alanın Məkkəsinə bax!

Küləyə “yellənmə” demək olarmı?
Yağışa “sellənmə” demək olarmı?
Ürəyə “tellənmə” demək olarmı?
Gülün budağına qonan bülbülə
“Oxuma, dillənmə” demək olarmı?

Açan çiçəklərə qadağa yoxdu,
Coşan diləklərə qadağa yoxdu,
Uçan mələklərə qadağa yoxdu,
Odlu baxışlara, dolu gözlərə,
Sevən ürəklərə qadağa yoxdu.

Sevdilər, seçdilər, sehrləndilər,
Görüşüb, qovuşub mehrləndilər,
Zamanın hökmüylə ayrılmadılar,
Allahın hökmüylə möhürləndilər.

Tanıdı yaxından, gəldi uzaqdan,
Bir dərya yarandı iki bulaqdan,
Çıxdı imtahandan, keçdi sınaqdan,
İlahi məhəbbət işini gördü,
Özünü yormasın bəndə nahaqdan.

Zamanın bağrından qopdu, yaşadı,
Nur olub torpağa hopdu, yaşadı,
Əbədi ünvanı tapdı, yaşadı,
Zərifə sevgisi, Heydər sevinci.

Qılınca bağlanıb, qından gəlibdi,
Ürəkdən süzülüb, qandan gəlibdi,
Cövhərə çevrilib, candan gəlibdi
Zərifə sevgisi, Heydər sevinci.

Çiçək solasıdı, zər solasıdı,
Vaxtında gülləri dər, solasıdı,
Gələn nəsillərə dərs olasıdı
Zərifə sevgisi, Heydər sevinci.

Ruhu – zərifliyim, nazım olacaq,
Nəfəsi – baharım, yazım olacaq,
Min il bu millətə lazım olacaq
Zərifə sevgisi, Heydər sevinci.

Ömrün ləzzətində, dadında qaldı,
Yazıldı, yaddaşın yadında qaldı,
Göylərin yeddinci qatında qaldı
Zərifə sevgisi, Heydər sevinci.

## ANANIN ƏMANƏTİ

Allah İzzət ananın
baxtına, qismətinə
yazdı gözəl bir gəlin,
Yaxşısıydı yaxşının,
gözəliydi gözəlin.
Arzuları uğurlu,
qədəmləri sayalı,
Halal süddən-sümükdən,
halal kökdən mayalı.
Yasəməndən ətirli,
bənövşədən həyalı.
Xisləti ipək gəlin,
ədəbi, insanlığı
gözəllikdə tək gəlin.
O bir göz həkimi idi,
Onun xoş gəlişiylə
böyük bir ailənin
gözünə işıq gəldi,
Bu evə bar-bərəkət,
yurda yaraşıq gəldi.
Ana kövrək, əzabkeş,
gəlinsə xanım-xatın,
Ən böyük xoşbəxtliyi
elə budur həyatın.
Olmasa ocağında
səni duyan bir qadın,
Uça bilməyəcəksən,
qırılacaq qanadın.
Qanadı sındıran yox,
qanad verən gərəkdi,
Qadın incədən-incə,
kişi ərən gərəkdi.

Oğul evdən çıxanda
Ana əl qaldırardı
Tanrının dərgahına,
Dil açıb yalvarardı
Yerin-göyün şahına:
“Sən mənim övladımı,
qolumu, qanadımı,
Şər-şeytandan,
Quru böhtandan
uzaq elə, İlahi,
Söndürmə çırağımı,
ocaq elə, İlahi!”.

Bilirdi ki, xata var
bəd gözdə, bəd nəfəsdə,
Üzərlik yandırardı
tez-tez başının üstə.
Heydər nəfəsindəki
odu qorumaq üçün
Ana yaşıl bağça-bağ,
gəlin çiçək olardı.
Gülüşün, xoşbəxtliyin,
sevginin gur yerində,
Hər şey yerli-yerində,
gözəl-göyçək olardı.
Bir gün İzzət ananın
sümüyünə damdı ki,
Qürubu yaxınlaşır,
ölümü dağdan aşır.
Qızı qədər sevdiyi
əziz Zərifəsini
çağırdı öz yanına,
Bir neçə xoş söz dedi
gəlinin ünvanına.

Dirsəkləndi, dikəldi,
mətləb üstünə gəldi:
"Qızım, çatdı ömrümün
son günü, son saatı,
Mən köçürəm dünyadan,
Heydərim amanatı!
Mən onu ömrüm boyu
oğul kimi qorudum,
sən də qoru ər kimi.
O, dünyaya gələndə
Heydər kimi doğuldu,
Ürəyinə işıq sal,
qoy elə ömrü boyu
yaşasın Heydər kimi!".
Qulaqda sırğa oldu
ananın vəsiyyəti,
Bu tapşırıq, bu nida
yaddan çıxmadı qəti.
Bu ilahi sevgilər
şöhrətə-şana döndü,
Zərifə-Heydər eşqi
dildə dastana döndü.

## 14 İYUL BAYRAMI

Gəlişinlə qondu bizim çiynimizə
dövlət quşu,
Gəlişinlə sən gətirdin
bu torpağa qurtuluşu,
14 iyul – on dörd illik rəhbərliyin
özül daşı,
O tarixdən işıqlandı
gözlərimiz,
O tarixdən qanadlandı
sözlərimiz,

O tarixdən dil duruldu,
təmizləndi,
O tarixdən ana dilim
anam kimi əzizləndi.
Səsim çatdı hər ölkəyə,
hər diyara,
O zamandan qanadlandı
Fikrət, Qara,
Həmin tarix üfüqlərə
çatan əldi,
Yaddaşında bir heykəldi.
Həmin tarix düşmənlərin
ürəyini yaran gündür,
Nərimanı ikinci yol
bizlərə qaytaran gündür,
Maqadandan Naxçıvana
Cavid uçub gələn
gündür,
Yağıların ayaq üstə
diri-diri ölən gündür,
Həmin tarix Cabbarlıya
məğrur heykəl yapan
gündür,
Həqiqətin öz yerini tapan
gündür.

Mən o zaman tələbəydim,
Döyüşlərdən qalib çıxan
bir kişinin sayəsində
bir zəfərdim,
qələbəydim!
İsinərdim odu ilə,
öyünərdim adı ilə,
Dostu ilə dost olardım,
döyüşərdim yadı ilə.

Azərbaycan öz haqqını
alsın deyə,
Bu millətin zəfərini
çalsın deyə,
Ucalırdı Günə kimi,
Aya kimi,
Tərpənirdi bir dağ kimi,
yeriyirdi qaya kimi.
Rəqibləri dinə bilmir
qorxusundan,
Lal edirdi, lal onları,
titrədirdi gur səsiylə
ən möhtəşəm salonları.
Özü bütöv, sözü tamdı,
O, basılmaz, qalib şəhər,
o, bir qala, istehkamdı.
Söhbətində
dilimizin duzu vardı,
Əllərində
bar-bərəkət, ruzu vardı,
Duruşunda
xalqımızın əzəməti,
Baxışında
yurdumuzun hərarəti.
Ağ pambığa əli dəysə,
aşıb-daşar, sellənərdi,
Ağ üzümə əli dəysə,
dolu salxım, qızıl tənək
Xanım-xatın gəlin kimi
nazlanardı, yellənərdi.
Əkin üçün, səpin üçün
qara torpaq qarış-qarış
qazılardı, bellənərdi.
Ağacını barlı görüb,
millətini varlı görüb,

Qürur ilə danışardı,
iftixarla dillənərdi.
Hara getsə, gedişindən
iz qalardı,
Hara baxsa, baxışından
köz qalardı,
Harda olsa, hər sözündən,
söhbətindən
Ellər üçün bir yadigar
söz qalardı.

## KREMLDƏ KEÇƏN ÖMÜR

Yaxınlara, uzaqlara xəbər oldu:
"Türk oğlu türk Kremldə rəhbər
oldu!".
Ekran, efir yer üzünə yaydı səsi,
Yeniləşdi ruhumuzun mənzərəsi.
Bu, adi bir xəbər deyil,
Tarixi bir hadisəydi,
Bu xəbərə dostlarımız sevinsə də,
Düşmənlərin başına bir qapaz dəydi:
"SSRİ Yer üzünün yarısına sahib olan
bir ölkədi,
Azərbaycan bu ölkədə bir bölgədi,
İndi gəlsin bu bölgənin bir adamı
Bu ölkəyə rəhbər olsun,
Onda gərək bizdən ötrü
Yediyimiz, içdiyimiz zəhər olsun".
Sirr sandıqda qalan deyil,
Bu söz dilə-dişə düşdü,
Şər-böhtanlar, iftiralar,
Fırıldaqlar işə düşdü.
"Ov"la, "yan"la sirdaş olan,

Özgələrə qardaş olan,
Canı-qanı mənim olan,
Ancaq mənə qənim olan,
Öz əliylə özümüzü
Kəsib-tökən baltalar da
Bir nəhəngi qoydu darda.
“Vəzifədən getməlidir!” –
Fikir aydın, qərar qəti,
Təzə xəbər deyil ki bu,
Saymaq ilə qurtararmı
Bu mərkəzin xəyanəti?
Bax beləcə ayaq açdı
Addım-addım üstümüzə
Qarabağın xəyanəti.
Boş sualın nə yeri var,
Niyə getdi, nəyə getdi?
Hər gedənlə can əridi,
Ürək getdi, bədən getdi!
O getməklə əlimizdən
Parça-parça Vətən getdi!

## NAXÇIVANDA KEÇƏN GÜNLƏR

Nəslinə, millətinə
şöhrət olan bir oğul,
Öz doğma beşiyinə
böyük bir adla gəldi.
Yurduna, torpağına
arxa-dayaq olmağa,
Tanrılara yaraşan
bir istedadla gəldi.
Ağır zərbələr aldı,
qırılmadı inadı,
Zaman onu neçə yol
sınaqlarda sınadı.

Dalbadal daş atdılar,
qəlbi, ruhu qanadı.
Yenə də bükülmədi
onun polad qanadı.
Gəmisi daşa dəydi,
parçalanıb sınmadı,
Öz müqəddəs ocağı
xoş oldu, əziz oldu,
Əl açıb özgələrin
oduna qızınmadı.
Xalqı onu qorudu
bədxahların şərindən,
Vətən onu uzağa
qoymadı gözlərindən,
Qırmızı imperiya
onu gözdən salanda,
Xəyanət yolu tutub,
alçaqlar alçalanda,
Doğulduğu Naxçıvan
Öz doğma balasına
qol açdı, "gəl-gəl" – dedi,
"Səni isitmək üçün
Ruhumu köz elərəm,
qəlbimi məşəl" – dedi.
Naxçıvan... şam işığı...
Dar otaq, soyuq bucaq
ona kainat oldu.
Onu Vətən havası
Bu Vətənə qaytaran
qaynar bir həyat oldu.
Böyük ürək sahibi
şamı günəş elədi,
Qığılcımı döndərib
qızmar atəş elədi.

Mömünə xatın ruhu,
Əcəmi memarlığı,
Hüseyn Cavid türbəsi
canı, qanı, varlığı,
Onun geniş ürəyi
gen elədi darlığı,
Axşamı nurlu səhər,
sübhü dan qucaqladı,
Öz böyük övladını
Naxçıvan qucaqladı.
Pardaqlandı yenidən,
açıldı güllər kimi,
Ətri tutdu dünyanı
dolu sünbüllər kimi,
Axdı eli-obası
yanına sellər kimi,
Nəfəs nəfəsi çəkdi,
canı can qucaqladı,
Öz böyük övladını
Naxçıvan qucaqladı.
Qədəminə kəsilən
qurbanların sayı yox,
Bəlkə də bu görüşün
yer üzündə tayı yox.
Tanrının bundan böyük
sovqatı yox, payı yox,
Sanki torpaq qabardı,
gur meydan qucaqladı,
Öz böyük övladını
Naxçıvan qucaqladı.

## ONU ZAMAN AĞIRDI

Bir tərəfdə Qarabağ
kənd-kənd talanıb gedir,
Bir tərəfdə Lənkəran
oda qalanıb gedir,
Eşidəndə adamın
ürəyi al-qan olur,
Gah "Ləzgistan" yaranır,
gah "Talış-Muğan" olur,
Hər fəlakət dalınca
bir fəlakət doğulur,
Cavad xanın Gəncəsi
od içində boğulur,
Hər eldə bir qoçu var,
hər mahalda bir lotu,
Sanki dilotu yeyib
danışanlar, dilotu.
Sözü var, əməli yox,
ayağı var, əli yox,
Aqillər nişandadı,
ağıllılar hədəfdə,
İki adam əyləşib
bir üzə gələ bilmir,
Hərəsi bir yandadı,
hərəsi bir tərəfdə.
Həsrətini bir ev yox,
oba çəkir, el çəkir,
Xilaskara göz dikib,
xalqın gözü yol çəkir.
Onun adını çəkən
Alır öz ölümünü
gözlərinin altına,
Gözləri baxa-baxa
bu həyatdan əl çəkir,

Qətlinə fərman verir,
ölümünə qol çəkir.
Onun adı gələndə
ağız büzənlər də var,
Qorxusundan girməyə
deşik gəzənlər də var.
“Birdən danışar” deyib,
Telefon xətlərini
qırıb-kəsənlər də var.
Tərəddüdlər, yalanlar,
şübhələr, ehtiraslar,
Ölümlər, intiqamlar,
didişmələr, qisaslar:
“O gəlsə, filankəsin
kitabı bağlanacaq,
O gəlsə, filankəsin
lap dədəsi yanacaq,
O gəlsə, filankəsin
çatdı sonu, axırı,
O gəlsə, filankəsin
açılacaq paxırı.
O gəlməsə, millətin
ölüm günü gələcək,
qəbir günü gələcək,
Köç günü, sürgün günü,
Sibir günü gələcək.
O gəlməsə, batacaq
dövlət adlı bir gəmi,
Nə arxası qalacaq,
nə dostu, nə həmdəmi.
Yaşasınmı bu millət,
ölsünmü, ölməsinmi?
Millətin böyük oğlu
gəlsinmi, gəlməsinmi?”.
Çəkdi düzü, əyrini
tərəzinin gözündə,

Xoş gündə, xoş saatda
xalqın üzünə baxdı,
Allah iftiranın yox,
haqqın sözünə baxdı,
Ər itirən sonalar
"O gəlməlidir!" – dedi,
Oğlu ölmüş analar
"O gəlməlidir!" – dedi,
Sinəsi dağlı qalan,
Od-ocağı kül olub
Qapısı bağlı qalan
"O gəlməlidir!" – dedi,
Toyu yarımçıq qalan
Gəlinlərin əlindən
getməmiş xınası da,
Neçə-neçə şəhidin
Ağlayan anası da
"O gəlməlidir!" dedi,
Xalqın uzağı görən
düşüncəli başları,
Böyük şəxsiyyətləri,
Böyük vətəndaşları
"O gəlməlidir!" – dedi,
Əsən külək, axan su,
düşən yarpaq, coşan çay,
Ürəkdən qopan səda,
Könüldən qalxan haray
"O gəlməlidir!" – dedi.
Onu zaman çağırdı,
Onu ürəkdə təpər,
damarda qan çağırdı,
Ayağa durmaq üçün
dizində hey qalmayan,
Yanı üstə can verən
Azərbaycan çağırdı!!!

Hökmü budur Allahın:
bir kimsəni ölümdən
qurtarmaq istəyirsə,
Ona qızıl xonçada
qırmızı nar göndərir,
Ürəyi yananları
həyata qaytarmağa
Dağların zirvəsindən
bir ovuc qar göndərir.
Hökmü budur Allahın:
bir xalqı, bir milləti
Yox olmaq bəlasından
hifz etmək istəyirsə,
O xalqı xilas üçün
Qəlbi Allaha bağlı
bir xilaskar göndərir.

## BAKI GÖRÜŞÜ

Gəldi Bakıya,
min cürə sifətləri gördü,
Tez-tez dəyişən
imzaları, xətləri gördü,
Üst-üstə yığılan
çəkilməz dərdləri gördü,
Millətə dərd verən
nə qədər namərdləri gördü,
Üzüdönükləri gördü,
Çəkilməz yükləri gördü,
Məzlumları, miskinləri gördü,
İnsan cildinə girmiş cinləri gördü,
"Can-can" deyənləri görmək
çətin oldu,
"Qan-qan" deyən
ehtirasları gördü.

Nə qədər matəmləri,
yasları gördü.
Gördü bu böyük insan,
gördü, hər şeyi gördü,
Millətin sinəsindən
qalxan ahı, fəryadı,
Millətin ürəyində
sızlayan neyi gördü.
Gəl indi gəmi yarat,
Nuhun gəmisi kimi,
Salamat keç tufanın,
qasırğanın yanından,
Qurtar bu məmləkəti
zamanın tufanından,
Dil tap yağışla, qarla,
danış qasırğalarla.
Fələk də baş açmayan
bu kələfi aç görüm,
Düyünlənmiş sirlərin
pəncəsindən qaç görüm,
Ağlayan uşaqlara
layla çal, kirit görüm,
Səndən ümid gözləyən
şikəsti yerit görüm,
Dərmanı tapılmayan
xəstəni sağalt görüm,
Sarğı yoxdu, əlinlə
yaranı bağlat görüm,
Karın qulağını aç,
kor gözlərə işıq ver,
Xaraba bir ölkəyə
nizam tap, yaraşıq ver.
Göz açmağa aman yox,
dalğa-dalğa çən keçir,

Gəl indi bacarırsan
koru körpüdən keçir.
Umu-küsüləri kəs,
ruhu sıxmasın qəfəs,
Ayılt bir az keyləri,
silkələ lakeyləri.
Böyüklük qəlbə bir yük,
zamanın üzü dönük,
Bu qarışıq zamanda
Seç-ayır bir-birindən
yaxşıları, pisləri,
Tanı görüm yaxından
safları, naqisləri.
Batan gəmini qurtar,
dayandır axan qanı,
Qasırğanı cilovla,
ram elə bu tufanı,
Qır qıcanan dişləri,
Bir az sahmana düşsün
bu ölkənin işləri.
Seç, öyrən, ayırd elə
işini, əməlini,
Yığ bir evin altına
ağıllını, dəlini,
Çalxalanmış sulara
duruluq, saflıq gətir,
Cəmiyyətə təmizlik,
ruha şəffaflıq gətir,
Özünə dincəlməyi,
yatmağı haram elə,
Parçalanmış torpağı
bütövləşdir, tam elə,
Bunlar hamısı arzu,
bunlar hamısı istək,
Yollar daşlı-kəsəkli,
havalar da çən, çisək.

Daşla üz-üzə qoyub,
“Daşı dindir” – dedilər,
“Üşüyən ürəkləri
gəl isindir”, – dedilər,
Ölkəyə od vuranlar
“Odu söndür” dedilər,
“Qumu göyərt gül açsın,
külü yandır”, – dedilər.
İndi hünər istəyir
bu dövləti saxlamaq,
“Bizi öz hünərinə
gəl inandır”, – dedilər,
Qardaş qanı tökənlər
“Qanı saxla”, – dedilər,
“Bu əsri, bu zamanı,
gəl qabaqla”, – dedilər,
Öhdəsindən gəl görüm,
xeyir də çox, şər də çox,
Çatmalı arzular da,
görməli işlər də çox.
Axır ki, bircə dəfə
bir insaf elədilər,
Onun böyük gücünü
etiraf elədilər.

Döyüşə gir, Vətən oğlu,
ver düşmənin cavabını,
Sakit olmaq vaxtı deyil,
döyüş yeri, qan yeridi.

İstəyirsən bu millətin
məğrur qəddi
bükülməsin,
İgidə bir hünər vaxtı,
şəhidə meydan yeridi.

“Qurban olum” – demək ancaq
quru sözdü, yalvarışdı,
Oğul üçün imtahandı,
keçmək üçün can yeridi.

Daldalara çəkildinsə,
qaranlıqdan çıxmaz
Vətən,
İgidlərin açıq alnı,
günəş öpən dan yeridi.

Gözdə qoyma parçalanmış
bir torpağın arzusunu,
Burulğandan çıxmaq üçün
ən müqəddəs an yeridi.

Ulu öndər! Ana millət
səndən umur xilasını,
At imzanı tarixlərə,
şərəf yeri, şan yeridi.

## HEYDƏR “XALQ!” DEYƏNDƏ XALQ “HEYDƏR!” DEDİ

Qara imperiya caynaqlarından
Salamat qurtaran tək kişiydi o.
Böyüdü, ucaldı fələklər qədər,
Yerin də, göyün də gərdişiydi o.

Ağbirçək ananın saçları kimi,
Öpdü ağ pambığı baxışlarıyla,
Hər yerdə Vətənə xalı toxundu
Torpağa vurduğu naxışlarıyla.

Əlində bərəkət, gözündə işıq,
Çəkdi qara nefti ağ yanağına,
Dünyanı gətirib qədəmlərinə,
Qaldırdı millləti Tanrı dağına.

Sahildən-sahilə körpülər atdı,
O əsri bu əsrə bağlamaq üçün.
Keçdi birdəfəlik sağlamlığından,
Vətəni salamat saxlamaq üçün.

Memar baxışıyla baxdı dağlara,
Əridi, yonuldu qranit qaya,
Nəsimi, Cabbarlı, Cavid, Nəriman,
Heykələ çevrilib gəldi dünyaya.

Gecə də, gündüz də həvəsindədir,
Yaz günü, yay günü, qış günü yoxdu.
Bütün könüllərə səyahətdədir,
İşsiz iş saatı, iş günü yoxdu.

Yüksələn dövlətlə qalxır, ucalır,
Sünbüllə, zəmiylə ətirlənir o.
Hər eldə bir şirin xatirə qalır,
Hər yerdə sevgiylə xatırlanır o.

Sevgi birdən-birə yarana bilməz,
Aylarla-illərlə yığılıb gəlir.
Gözdən qəlbə köçür, candan ürəyə,
Millətin bağrından doğulub gəlir.

Xalqını dünyaya tanıtmaq üçün
Səsi qanadlandı altı qitədə.
Bu gün diqqəti var bütün dünyanın
Azərbaycan adlı bir xəritədə.

Məkkədə görmüşdüm, o xoş günləri
Ömrünün ən gözəl vaxtı sayırdı.
Orda da əl açıb dua yerinə
"Azərbaycan" sözü pıçıldayırdı.

Çində də görmüşdüm böyüklüyünü,
Orda ucalmışdı Çin səddi kimi.

Onu qoruyurdu baxışlarımız,
Vətənin müqəddəs sərhədi kimi.

"Manas" dastanının min illiyində
Yaratmaq eşqiylə aşıb-daşırdı.
Ordaca bizləri yığıb başına,
Qorduq bayramına hazırlaşırdı.

Zamandan zamana gələcək səsi,
Bir qaya səngəri, daş qalasıdı.
O, mənim xalqımın baş sərkərdəsi,
O, mənim yurdumun baş qalasıdı.

Xalq elə güclüdü, sevdiklərini
Qaldırar başında qızıl tac eylər.
Onun hər sözünü, işarəsini
Hər ağır dərdinə bir əlac eylər.

Xalq elə güclüdü, o dirildəni
Əzrayıl heç zaman öldürə bilməz.
Min dəniz qabara, min çay kükrəyə,
İzini torpaqdan sildirə bilməz.

Oğullar doğular… bu qoca dünya
Bir də əvəzini gətirməz onun.
Yazar yaddaşına, hafizəsinə,
Heç vaxt zəhmətini itirməz onun.

Qorquda bənzətdi "Dədə" deyənlər,
Kimi "ata" dedi, kimi "ər" dedi.
Ana-bala kimi qucaqlaşdılar,
Heydər "Xalq!" deyəndə,
Xalq "Heydər!" dedi.

Xilaskarın gəlişiylə
alov yatdı, qan dayandı,
Sanki bir az rahatlandı,
nəfəs dərdi Azərbaycan.
Əldən-ələ keçən dövlət
ortalıqda bazar malı,
Ər kişinin hesabına
yenə ərdi Azərbaycan.
Canı-qanı bahasına
qazandığı istiqlalın
Müstəqillik meyvəsini
gültək dərdi Azərbaycan.
Tufanların cilovunu
özbaşına buraxmadı,
Zirvələrə qaya kimi
sinə gərdi Azərbaycan.
Ölüm-itim qorxusu yox,
başçı başda, yerindədi,
Saf arzular qaynağıdı,
təzə-tərdi Azərbaycan.
Öz varını özünə ver,
aşıb-daşsın dəniz kimi,
Dolu qızıl külçəsidi,
parlaq zərdi Azərbaycan.
Sərkərdələr sərkərdəsi
öz işinin başındadı,
Bir də hardan tapasıdı
belə mərdi Azərbaycan?
Hünərsizlər bacarmadı,
bu Vətəni saxlamağa
Öz hünərli oğlu ilə
hünərvərdi Azərbaycan.

# PREZİDENT ÖMRÜNÜN SON SAATLARI

Olmamışam yanında,
görməmişəm mən onu,
Necə başa yetişib
böyük bir ömrün sonu?
Görən nəyi düşünüb
son anda, son saatda,
Kimi yadına salıb,
nəyi anıb həyatda?
Əcəl gəlib çıxanda
ömrün axır çağına
Görəsən kimlər gəlib
gözünün qabağına?
Bəlkə, quşa çevrilib,
Azərbaycana sarı
qalxıb uçmaq istəyib?
Bəlkə, nəvələrini
öpüb-qucmaq istəyib?
Kimi görmək istəyib:
yarı Zərifənimi,
anası İzzətimi?
Varlığını göynədən
canının ağrısımı,
Vətənin həsrətimi?
Bəlkə də ürəyinə
dünyaya göz açdığı,
Torpağının üstündə
yüyürdüyü, qaçdığı
Qədim Naxçıvan düşüb,
Elə bu ağrıdan da
ürəyinə qan düşüb?
Bəlkə, yanan qəlbinə
Qoşqarın zirvəsindən
bir ovuc qar istəyib?

Bəlkə, sağalmaq üçün
Göygölün yaxasından
güllü bahar istəyib?
Dilimizi titrədər,
ruhumuzu silkələr,
Sinəmizdə dərd olar
bu amansız "bəlkə"lər.
Əcəl aman verəydi,
Xalq ona gözündən od,
Canından can verəydi.
Çıxaydı nur heykəli
təyyarənin qaşına,
Yenə salam verəydi
yarına, yoldaşına.
Bizə əl eləyəydi,
gəlişi aşıb-daşa,
gəlhagəl eləyəydi.
Təyyarədən düşəndə
o, əsgəri nizama,
O, hərbi intizama
baxıb qürurlanaydı,
Gözlərindən sevinib,
içindən nurlanaydı.
Səksən yaşlı bir kişi
igid bir oğul kimi
qaldıraydı səsini,
Kürsülərdə duyaydıq
alovlu nəfəsini.
Baxıb Azərbaycana
"Sən mənimsən", – deyəydi,
Səməd Vurğun şeirinə
"Vətənimsən", – deyəydi.
Duyulaydı nəfəsi
hər isinən yuvada,

Yenə çıxış edəydi
yumruqları havada.
Bunlar hamısı arzu,
bunlar hamısı xəyal,
Gözlərim bir nöqtədə,
baxışım lal, dilim lal.
Necə keçib bilmirəm,
bilmirəm son anların,
Gözü yollarda qaldı
həsrətdən donanların.
Bildiyim ancaq budur:
"Qürbətdə Əzrayıla
vermərəm can!"
demisən,
Son anda, son saatda
İLHAM pıçıldamısan,
AZƏRBAYCAN demisən.

## GEDƏN MİLLƏDƏN GEDİR

Evdən gedən elin deyil,
eldən gedən millətindi,
Bu gün köçüb gedən kişi
ulu bir millətdən gedir.

Doğulduğu məmləkətdə
bir gözəllik yaratmışdı,
Nəyi varsa burda qalır,
cənnətə cənnətdən gedir.

Allah onu ən ilhamlı
çağlarında xəlq elədi,
Xaliq bilir, gedən oğul
xalq adlı xilqətdən gedir.

Dəfələrlə dik baxmışdı
sərt ölümün gözlərinə,
Söhbət bu gün ölümdən yox,
əsl cəsarətdən gedir.

Şairlərin nəfəsiydi,
rəssamların rəngi-ruhu,
Özü bütöv millət idi,
o, milli sərvətdən gedir.

Səksən ildə bircə dəfə
əyilmədi, bükülmədi,
O, milli qəhrəmanlıqdan,
əsl qətiyyətdən gedir.

Tale onu göndərmişdi
bizlərə bir qismət üçün,
Halal süddən, halal kökdən,
halal bir qismətdən gedir.

Bir sözündə dolaşmadı,
bir cümləsində çaşmadı,
Gedən sərvət möcüzədən,
sehrdən, heyrətdən gedir.

Mən kiməm ki, qələmimlə
verəm onun qiymətini?
Söhbət burda zaman verən
ən böyük qiymətdən gedir.

Bu, ötəri kədər deyil
beş gün çəkib ayrılasan,
Söz amansız ayrılıqdan,
ən böyük həsrətdən gedir.

O gələndə dağ sevinər,
daş gül açar, düz gülərdi,
Nə itirir yurd itirir,
gedən təbiətdən gedir.

Layiq idi ən ilhamlı
şairlərin sözlərinə,
“Nemətsə də gözəl şeir”,
ən şirin nemətdən gedir.

Rəhminin də, zəhminin də,
fəhminin də yeri vardı,
O, ən düzgün bir ölçüydü,
əsl ləyaqətdən gedir.

Çox üzülmə, Vətən oğlu,
gedən sənsən, qalan odur,
O dayanıb öz yerində,
gedən cəmiyyətdən gedir.

Tarixlərin yaddaşında
zaman-zaman qalan səsdi,
O nə torpaqdan ayrılır,
nə əbədiyyətdən gedir.

## ATA HEYDƏR – ATATÜRK

Eyni vaxtda, bir əsrdə,
bir zamanda,
Tarix türkə iki dahi
bağışladı,
Hər birini Allah özü sevdi, seçdi,
Hər birini Haqq-İlahi
bağışladı.

İnsanların ən sevdiyi
                    ayda gəldi,
Hər ikisi bu dünyaya
                    mayda gəldi,
Hər birinin gözlərinin
                    rəngi eyni,
Hər birinin ömrünün
                    ahəngi eyni,
Ataların adı eyni,
                    ikisi də Əlirza,
Hünər gərək
                    bu hikməti, sirri yaza.
Hər ikisi bir sualın
                    min cavabı,
Hər ikisi əlifbanın
                    inqilabı,
Hər ikisi öz xalqının
                    generalı,
Hər ikisi millətindən
                    yaxşı halı.
Heyran qalıb bütün dünya,
                    bütün varlıq,
Bir ananın əkiz oğlu
                    belə olmaz.
Nədən olub,
                    hardan gəlib bu oxşarlıq,
Təbiətin sehridimi?
Yaradanın möhrüdümü?
Türkü türkə bağlamaqçün
İlahinin mehridimi?
Bir millət, iki dövlətdi!
İki qanad, bir qüdrətdi!
İki oğul, bir qeyrətdi!
Hər birisi ayrılıqda
                    bir mərhələ,

Hər ikisi birləşəndə
qəhrəmanlıq, qətiyyətdi!
Hər ikisi türkə oğul,
türkə ata,
Hər ikisi işıq saldı
kainata.
Ölüm-dirim vuruşunda
çırpınanda İzmir, Maraş,
Çanaqqala savaşında
Bir orduya çevriləndə hər vətəndaş,
Şəhidlərin, qazilərin şərəfinə,
Anaların gözlərindən
yağış kimi yağanda yaş,
Sakaryada zərbə vurub
düşmənlərin hərbəsinə,
Atatürküm övlad kimi
gərən zaman hərbə sinə,
Döyüşlərdə mətinləşir,
sınaqlarda sınanırdı,
O, millətə dayaq olur,
millət ona inanırdı.
Həmin inam, həmin məslək
Türkiyəni qorudu bir sərvət kimi!
Yaşatdı bir millət kimi!
Ucaltdı bir dövlət kimi!
Atatürküm Türkiyənin
taleyinə imza atdı,
Tarixinə möhür basdı
ulu bir məmləkət kimi.
Ata Heydər ucaltdığı
millət bizim!
Qoruduğu dövlət bizim!
Ruhu bizim ruhumuzdu,
Qanındakı qeyrət bizim!
Əqidəsi dayağımız!

İstiqlalı bayrağımız!
Yatmaq bilmir, yuxu bilmir,
ölüm bilmir, qorxu bilmir.
Necə qurdu, möhkəmlətdi
viran qalmış bir ölkəni,
Çoxu bilir, çoxu bilmir.
Neçə-neçə ağlı şikəst, başı xəstə
əl atanda sui-qəsdə,
O qorxmadı, çəkinmədi,
Qüvvət aldı bu millətdən,
Özünə bir heykəl qoydu
qətiyyətdən.
Ən müqəddəs arzularla
gözü dolu, qəlbi dolu,
Üfüqlərə qovuşdurdu
Atatürkdən gələn yolu.
Yüz əlləşsin, yüz vuruşsun,
tapa bilməz xata türkü,
Onu min il qoruyacaq
Azərbaycan torpağının
Heydər adlı Atatürkü!!!

## ÖLMƏZLİK

Bu izdiham, bu ləngər,
bu çalxantı, bu axın,
Torpağa candan əziz,
Haqqa yaxından yaxın.
Ürəyi həsrətinlə
birgə döyündü xalqın,
Vətənə sığmazlığın
bu Vətəni böyütdü,
Sən ölümü böyütdün,
ölüm səni böyütdü.

Göstərdin bu millətə
millətə xidmət nədir,
Göstərdin bu dövlətə
dövlətə hörmət nədir.
Göstərdin insanlara
insana rəğbət nədir,
Dən sünbülü bəslədi,
sünbül dəni böyütdü,
Sən ölümü böyütdün,
ölüm səni böyütdü.
Milyonların özüdü
bu axarın şahidi,
Səni belə ucaldan
Tanrıdı, İlahidi.
Tarix dedi MÖCÜZƏ ,
zaman dedi DAHİDİ,
Əbədi ünvan yerin
məndə məni böyütdü,
Sən ölümü böyütdün,
ölüm səni böyütdü.

## SƏNİN YERİN GÖRÜNƏCƏK!

Dünya durmaz bir məqamda,
dönər, haldan-hala düşər,
Yorulanda karvanbaşı
işi daldan-dala düşər.
Ayaqları dolaşanda
başı qeylü-qala düşər,
Bir xilaskar sorağıyla
çırpınanda arzu, dilək
Sənin yerin görünəcək!!!

Tərəzinin ağır gözü
şərə doğru əyiləndə,
Haqla nahaq savaşında
haqqın haqqı yeyiləndə,
"Bir ədalət tərəfdarı
gəlib çıxa" deyiləndə,
Qarışanda bir-birinə
insan, şeytan, iblis, mələk –
Sənin yerin görünəcək!!!

Keçir tarix, gedir zaman,
dövran əldən-ələ düşür,
Hava tez-tez dəyişəndə
canlara vəlvələ düşür,
Yada hər vaxt Ustad düşür,
Ozan düşür, Dədə düşür,
Öz hökmünü həftədə bir
dəyişəndə çərxi-fələk –
Sənin yerin görünəcək!!!

Bu tufanlar, qasırğalar,
bu dalğalar susandımı?
Müşkülləri, çətinləri
asan etmək asandımı?
Bu rahatlıq asanlıqla
yurda qədəm basandımı?
Qara yellər at oynadıb,
yarpaqları töksə külək –
Sənin yerin görünəcək!!!

Günəş varsa, çiskin, duman
insanlığı boğa bilməz,
Baxışlardan nur tökülər,
kin-küdurət yağa bilməz,

Anaların nə günahı,
hər gün dahi doğa bilməz,
"Oğul!" deyib uzaqlara
göz dikəndə bir ağbirçək –
Sənin yerin görünəcək!!!

Mini sevər, biri sevməz,
mini anar, biri anmaz,
Sənsizliyin həsrətində
mini donar, biri donmaz,
Haqq bilir ki, ölər, ancaq
haqlı olan Haqqı danmaz,
Həqiqətlər xatırlanıb
anılanda yalan-gerçək –
Sənin yerin görünəcək!!!

On il bizim aramızda
ata-oğul məhəbbəti,
On il bizim aramızda
ürək-ağıl məhəbbəti,
On il artıq bir əfsanə,
şirin nağıl məhəbbəti,
Nə vaxt məni vurmaq üçün
başım üstdə çaxsa şimşək –
Sənin yerin görünəcək!!!

Tariximin kökündə də,
zatında da, əslində də,
Bu dünyaya təzə gələn
neçə-neçə nəslində də,
Hər yüz ilin başında da,
hər ilin dörd fəslində də,
Hər il sənin ad günündə,
may günündə,

Sənin bizə ulu nemət,
İlahinin pay günündə,
Azərbaycan başdan-başa
açılanda çiçək-çiçək,
Dünya dadlı, dünya gözəl,
dünya şirin görünəcək,
SƏNİN YERİN GÖRÜNƏCƏK!!!
SƏNİN YERİN GÖRÜNƏCƏK!!!
SƏNİN YERİN GÖRÜNƏCƏK!!!

## SƏNİ ALLAH QORUDU

Şirin söhbət edirdin
“Təzəpir” məscidində,
Ruhun Tanrı yanında,
eşqin sevgidə, dində.
Durub Allah evində
dindarlarla yanaşı,
Əymişdin Haqq önündə
məğrur, əyilməz başı.

“Məni Allah qoruyur!”
deyib baxdın millətə,
Dilin şükürlər dedi
varlığa, təbiətə!
Acı həqiqətləri
yenidən varaqladım,
Boylanıb o günlərə
için-için ağladım.
Yenə Allah evində,
yenə “Təzəpir”dəsən,
Bu dəfə ölüm adlı
müəmmada, sirdəsən.

Bayrağıma sarılıb
qarşıda tabut qutu,
Tanrı göydən endirib
Dənizlərin üstündən
keçib gələn tabutu.
Millətin cənazəni
"Ər-Rəhman"la qaldırır,
Canı əlindən gedən
canı canla qaldırır.
"Məni Allah qoruyur!" –
bu sözdə bir ağrı var,
Möhtərəm bir insanın
köz-köz olan bağrı var.

Allahın nəzərində
kim ucadır, kim alçaq,
Bəndənin dilində şər,
əlində xəncər-bıçaq.
Qəlbində məkrin odu,
dilində dedi-qodu,
Bir insanda nə qədər
qərəz olar, qəsd olar?
Nə qədər başdan seyrək,
ağıldan şikəst olar?
Çox oldu sənə qarşı
kəmfürsətlər, nadanlar,
Bostanına daş atıb
qəlbini qanadanlar.
Heç zaman yetərincə
səni duya bilmədik,
Səni Allah qorudu,
biz qoruya bilmədik.
Sən varsansa, Vətən var,
sən varsansa, mən varam,

Səni hər gün qoruyan
Allaha minnətdaram.
Bizi qorumaq üçün
o səni qoruyurdu,
O səni qorumaqla
Vətəni qoruyurdu.
Bu qədər acıların,
ağrıların içində,
Bu qədər yalanların,
doğruların içində,
Bu qədər satqınların,
oğruların içində
Səni Allah qorudu,
biz qoruya bilmədik.

Səni qoruya bilsək,
Nə millət sarsılardı,
nə torpaqlar itərdi,
Qumlu səhramızda da
Sevgi-məhəbbət gülü,
qeyrət gülü bitərdi.
Əxlaqsızın, gədənin,
zatsız zatın əlindən,
Sui-qəsdin, terrorun,
təxribatın əlindən,
Tufanlı, qasırğalı
bir həyatın əlindən
Sənin böyüklüyünü
yaxşı duya bilmədik,
Səni Allah qorudu,
biz qoruya bilmədik.

Qırx il bu məmləkətin
nazını çəkən kişi,
Torpağını şumlayıb,
yerini əkən kişi,

Sevgi toxumlarını
səpib, göyərdən kişi,
Bu millətə qayğısı
zirvələrə tən kişi,
Dilimizin urvatı,
dinimizin şöhrəti,
Tanrı əsirgəmədi
səndən saf məhəbbəti.
Günahkarıq yanında,
Ağır günahımızı
heç vaxt yuya bilmədik,
Səni Allah qorudu,
biz qoruya bilmədik.

## ƏN BÖYÜK ABİDƏNİN ÖLMƏZ ADI SEVGİDİ

Gəlir məzarın üstə,
Hər kəsdə bir cür arzu,
hər kəsdə bir cür istək.
Kimi çiçək gətirir,
Kimi çiçəkdən zərif
səni sevən bir ürək.
Gül çaydı, gül çeşmədi,
selə dönüb axır hey,
Gəlir ziyarətçilər,
boylanır hey, baxır hey.
Bu dalğa nə dalğadı,
bu axın nə axındı,
Burda insan Allaha
gör nə qədər yaxındı.
Yerişlər asta-asta,
söhbətlər qırıq-qırıq,
Hər dodaqda ağrı var,
hər boğazda hıçqırıq.

Yaylıqlar yanaqları
silə-silə nəm olur,
Dağ boyda dərd gələndə
yurd boyda matəm olur.
Qalxır-enir sinəsi
dağların çayı kimi,
Haray varmı dünyada
ruhun harayı kimi?

Sanki ölən oğludu,
hönkürən anaya bax,
Ananın gözlərindən
axıb gedən çaya bax,
Göynəyən dodağına,
titrəyən əlinə bax,
Arı kimi sızlayan
qıza bax, gəlinə bax.
Oğlana bax, elə bil
ölən öz atasıdı,
Millətə bax, xalqa bax,
Bu yas, bəlkə, dünyanın
ən ağrılı yasıdı.
Xalqın ürəyindəki
Heydər məhəbbətinə
Məqbərəmi ucaldaq,
yoxsa heykəlmi yapaq?
Heydər boyda sevgini
millətə vermək üçün
Daşı harda axtaraq,
qayanı hardan tapaq?

Qranit heykəl üçün
dağlarımı çapdıraq?
Başı göylərə çatan
məqbərəmi yapdıraq?

Ətri dünyanı tutan
isti ürəkdən doğur,
Sualların hamısı
sonsuz istəkdən doğur.
Ən böyük abidənin
ölməz adı sevgidi,
Ruhu, canı, ürəyi,
qol-qanadı sevgidi.
Kim onu qazandısa
əbədidir, əbədi,
Xalq ürəyi insanın
Ən əziz türbəsidi,
ən müqəddəs məbədi.
Yaşadığı illəri
bir-bir salıb yadına,
Xalq öz borcunu verir
ən böyük övladına.
Çəksə də sinəsinə
fələk dağı-düyünü,
Göstərdi yer üzünə
xalq öz böyüklüyünü.

## BUDUR XALQ SEVGİSİ, EL MƏHƏBBƏTİ

Nəsillər dil açıb verir səs-səsə,
Budur xalq sevgisi, el məhəbbəti.
Min ildə bir dəfə doğulan kəsə
Budur xalq sevgisi, el məhəbbəti.

Ölüm peşman olub, Əzrayıl çaşıb,
Dəryalar qabarıb, dənizlər daşıb,
Heyrətdən yer ilə göy qucaqlaşıb,
Budur xalq sevgisi, el məhəbbəti.

Açılıb, qan verir ah damarımız,
Elə bil kəsilib şah damarımız,
Qurumur gözdəki şeh damarımız,
Budur xalq sevgisi, el məhəbbəti.

Dərddən dağ əyilib yeddi qat qalıb,
Dərddən bir ürəkdə yeddi çat qalıb,
Bu boyda sevgiyə zaman mat qalıb,
Budur xalq sevgisi, el məhəbbəti.

Gözümüz öyrəndi yaş havasına,
Oynadıq ağrının baş havasına,
Üşüyən olmadı qış havasına,
Budur xalq sevgisi, el məhəbbəti.

Solan bir arzudur hər çatılan qaş,
Bükülən bir dağdı hər əyilən baş,
Yarat bu lövhəni, ay heykəltəraş,
Budur xalq sevgisi, el məhəbbəti.

Yadda milyonların biri qalacaq,
Ocağı qalacaq, piri qalacaq,
Ölməzlər həmişə diri qalacaq,
Budur xalq sevgisi, el məhəbbəti.

## SON GÖRÜŞ, SON AYRILIQ

Aprelin 21-i,
Respublika Sarayı,
Hamının qürur yeri,
hamının sevinc payı.
Ali Hərbi Məktəbin
otuz illik bayramı,
Gur tonqala çevrilir
hər qəlbin yanan şamı.

Al şəfəqli dan olur
Cəmşid Naxçıvanski,
Otuz yeddinci ilin
qətlinə tuş gəlsə də,
Təzə anadan olur
Cəmşid Naxçıvanski.
Bu gün onun adını,
soyadını daşıyır
Ali Hərbi Məktəbin
yeri, ünvanı, adı,
Vətənə xidmət olub
onun eşqi, ilhamı,
hünəri, istedadı.
Səsi burda gurlaşır
basılmaz igidlərin,
Ruhu burda dolaşır
ölümsüz şəhidlərin.
Qəlbi burda döyünür
bu gün torpağın, daşın,
İman-güman yeridi
Vətən hər vətəndaşın.
Müəllimdən-həkimə,
əsgərdən-generala
Hər kəs basılmaz ordu,
hər kəs alınmaz qala.
Dağ kimi məğrur, uca,
qaya kimi sal olub,
Dünənki sıravilər
bu gün general olub.
Addımları sıx, ötkəm,
cərgələri mətindir,
Bu güc tək salonun yox,
ulu bir millətindir!
Hünərvər oğulların
qılıncı girməz qına,

Alqışlar dalğasından
az qalır tavan sına!
Çıxışlar, çıxışçılar
Bir mövzunun başına
hərləndikcə hərlənir,
Dayana bilmir insan,
Qürur hissi keçirir,
kövrəlir, qəhərlənir.
Bu mövzunun canı bir,
Adı bir, ünvanı bır,
Bu məktəb Heydər adlı
bir bağbanın barıdır,
Sağ ürək, sağlam nəfəs,
Qəlbə sığmayan həvəs,
Ürəklərin sirdaşı,
könüllərin yarıdır.
Gücümüz, dirliyimiz,
Ruhumuz, birliyimiz
bu məktəbin gücüdür,
Dalğalanan ilhamın,
daşan təbin gücüdür.
Gücün varsa, sözün var,
gücsüz sözün canı yox.
Bir insanın qeyrəti
bir milləti qaldırır,
təkcə bir insanı yox!
Burdadı bu məktəbin
dostu, arxası, yarı,
Müəllimi, ustadı,
başbiləni, memarı.
Salonda alqış qopur,
baxışlar gəlir cana,
"Söz verilir" deyəndə
"Ali Baş Komandana!".
O yenə kürsüdədir,
yumruq yarır havanı,

Silkələyir nəfəsi
döşəməni, tavanı.
Ali Hərbi Məktəbə
“doğma övladım” deyir,
Çatdığı uğurlara
“qolum-qanadım” deyir.
Boylanıb nəzər salır
otuz illik bir yola,
Tarixi günlər ilə
özü gəlir yanaşı,
özü gəlir qol-qola.
O danışır ürəklə
qəhrəman bir oğuldan
ata danışan kimi,
Bu çıxış da yazılır
tarixin yaddaşına
şərəf kimi, şan kimi!
Sarayın səhnəsində
bu çıxış son çıxışdı,
Baxır zala, salona,
Nə o bilir, nə də biz,
bu baxış son baxışdı.
O danışır ürəklə,
Heyif, bilmir ki, ancaq
bu gün min bir həvəslə
səsi qalxan saraydan
Üstündən il keçməmiş
cənazəsi qalxacaq!
Qatil bir dalğa gəldi
sözün şirin yerində,
Burulğan oldu birdən
selin dərin yerində.
Səksən ildə bir dəfə
xəstələnmək bilməyən,

Bir Allahdan özgə
    heç kəsə əyilməyən,
Baxışları nur kişi,
Qaməti məğrur kişi
Birdən əlini qoydu
    ürəyinin üstünə,
Zalım, amansız ağrı
    qəfil durdu qəsdinə.
"Bu nəydi məni vurdu?!" –
    bu söz çıxdı dilindən,
Bu söz təkcə onu yox,
    bircə anın içində
    bütün milləti vurdu!
Təzəcə ayaq açıb
    yeriməyə başlayan
    kövrək dövləti vurdu!
Hər gözdə, kirpikdə yaş,
    hər ürəkdə bir təlaş,
Salon heyrət içində,
    hamı lal, hamı çaşbaş.
Qalxan qasırğadımı,
    qopan zəlzələdimi?
Bir namərdin əliylə
    qurulan tələdimi?
Ömür-gün bağçasında
    sərt əsən küləkdimi?
Dağdan qaya qopardan
    ən güclü tufandımı?
Son ayrılıq adında
    ən dəhşətli andımı?
"Bu nəydi məni vurdu?!" –
Ürəyi vuran nədir?
Dağı uçuran nədir?
Nədir bu düşüncənin,
    nədir bu hissin adı?

Ömür-gün yollarında
nə qədər tufan görüb,
Heç zaman bükülməyib
o qartalın qanadı!!!
Apardılar səhnədən…
o yenidən qayıtdı!
Qayıtdı, daha gümrah,
daha da şən qayıtdı!
İşıqlanan baxışlar
al şəfəqli dan kimi,
O qayıtdı kürsüyə,
Naxçıvana, Bakıya
təkrar qayıdan kimi!
O qayıdış qətiyyət!
Bu qayıdış möcüzə!
Sarsılmağa qoymadı
nigaran ürəkləri,
Xalqıyla, millətiylə
Yenə baxdı göz-gözə,
yenə durdu üz-üzə.
Əvvəlki çıxışını
harda saxlamışdısa,
Nöqtəsi, vergülüylə
ordan başladı sözə.
Tanış səsi yenə gur,
görkəmi yenə məğrur!
Hər kəlməsi bir kitab,
hər cümləsi bir əsər,
Yenə fikrində məntiq,
yenə sözündə kəsər.
Elə bil heç olmayıb
bayaqkı sarsıntılar,
Yenə də nəfəsində
İlahinin gücü var.
Sınmayan, qırılmayan
şəxsiyyət nə deməkdir,

Ən ağır imtahanda
qətiyyət nə deməkdir,
Sərt dalğalar önündə
nə deməkdir sal qaya,
Nə deməkdir millətdən,
torpaqdan gələn maya,
O göstərdi zamana,
o göstərdi dünyaya!
Kürsüdən ayrılanda
hamıya əl eylədi,
Ağrısını, dərdini
heç kəsə bildirmədi,
Ağrıyan ürəyini
xalqa məşəl elədi!
Qoca tarix! Bu sözü
yaddaşına yaxşı yaz,
Dünyaya Heydər kimi
oğul verən analar
Öz başını dik tutar,
qan-yaş töküb ağlamaz!!!
O gedirdi əl eləyə-eləyə,
Bu, son görüş, son ayrılıq günüydü.
Arxasınca alqış seli axırdı,
Bu, son görüş, son ayrılıq günüydü.

Can təlaşda, könül hayda-harayda,
Bir qorxu var hər saatda, hər ayda.
Öz əliylə yaratdığı sarayda
Bu, son görüş, son ayrılıq günüydü.

Hökmü verən belə verib köhnədən,
Arx yıxılar, su kəsilər dəhnədən.
Ayrılırdı həyat adlı səhnədən,
Bu, son görüş, son ayrılıq günüydü.

O, sipərdi, o, qalaydı, o – səngər,
O, dənizdi, o, dalğaydı, o – ləngər,
O – general, o – komandan, o – əsgər,
Bu, son görüş, son ayrılıq günüydü.

Həyat eşqi qidasıydı Heydərin,
Bizə qalan sədasıydı Heydərin,
Bu dünyayla vidasıydı Heydərin,
Bu, son görüş, son ayrılıq günüydü.

## BAŞIN SAĞ OLSUN, VƏTƏ N!

Bu dünya necə gəldi
elə də keçib-gedər,
Əbədi sirdaşımız
ağrı, həsrət, dərd, kədər.
Bugünkü kədərimiz
ucadır Heydər qədər,
Başın sağ olsun, Vətən!

Cansağlığı verəmməz
başsağlığı verənlər,
Getməyən kimsə varmı,
köçdü ərlər, ərənlər.
Olub, yenə olacaq
doğru yol göstərənlər,
Başın sağ olsun, Vətən!

Bu dərdin öhdəsindən
kim bacarıb tək gələr,
Başımızın altında
daşdandı mütəkkələr.

Kimləri yola saldı
Mədinələr, Məkkələr,
Başın sağ olsun, Vətən!

Şah İsmayıl Xətaim
igid oğlu, ər oğlu,
O da Heydər oğludu,
İlham da Heydər oğlu.
Yenilməz bir ordudu
bu torpağın hər oğlu,
Başın sağ olsun, Vətən!

Nə çox ürəyini üz,
nə bağrını qan elə,
Yasdan çıx, şad xəbərlə
gecəmizi dan elə.
Qaytar Qarabağımı,
dərdinə dərman elə,
Başın sağ olsun, Vətən!

Tanrı səni heç zaman
nəzərindən salmasın,
Ürəyin küskünləşib
həvəsin azalmasın.
O kişinin işləri
yarı yolda qalmasın,
Başın sağ olsun, Vətən!

Artdı hörmətim, artdı
hər millətə, hər dinə,
Gör kimlər şərik oldu
kədərinə, dərdinə?
Gərək bu bir dərs ola
mərdinə, namərdinə,
Başın sağ olsun, Vətən!

Zədəsiz bir ürəyin,
sağlam bir canın olsun,
Həmişə qılınc çəkən
qeyrətin, qanın olsun,
Qoy mənim qara başım
sənin qurbanın olsun,
Başın sağ olsun, Vətən!

## SƏNDƏN SONRA

Ruhun deyir oğulsansa,
qoyma onu laxlamağa,
Səndən sonra hünər gərək
bu dövləti saxlamağa.
Hər birimiz millət üçün
bir əsgərə dönməliyik,
Səndən sonra sənsizləşmək
qorxusunu yenməliyik.

Səndən bizə qalan dövlət
ən müqəddəs əmanətdi!
Əmanətə xəyanət yox,
əgər varsa, fəlakətdi!
Yandırmısan çırağını,
Qorumusan torpağını,
Qaldırmısan bayrağını, –
Dövlət üçün
bu ən böyük kişilikdi,
bu ən böyük cəsarətdi,
Cəsarətə kölgə salmaq
alçaqlıqdı, xəyanətdi.
Səndən bizə qalan yollar
hünər yolu, qeyrət yolu,
Narahat bir ömür yolu,
fasiləsiz zəhmət yolu.

Cığırlardan bərk yapışıb
biz o yolu getməliyik,
Biz o yolla millət, vətən sevgisiylə
qəlbidolu getməliyik.
Addımları şax atmasaq,
ruhun bizi bağışlamaz,
Canda təpər, qanda qeyrət,
baxışda nur getməliyik,
Biz o yolu cəsur, mətin,
qalib, məğrur getməliyik,
Səndən sonra yaratdığın
o məktəbi keçməliyik,
O əxlaqı, tərbiyəni,
o ədəbi keçməliyik.
Kim oldusa o məktəbin
şagirdi, ya tələbəsi,
Bu, ən böyük uğurudu,
Bu, ən böyğk qələbəsi.
O biləcək Vətən nədir,
millət nədir,
O biləcək bu millətə
xidmət nədir.
O biləcək siyasətin
atişləməz yollarını,
O biləcək kimə açır,
nəyə açır qollarını.
Ağıl nədir, idrak nədir,
təfəkkür nə, beyin nədir,
O biləcək danışanda
yavaş nədir, yeyin nədir,
O biləcək siyasətdə
şahmat adlı oyun nədir.
Ulu ata!
Ulu öndər!
Daha bəsdir, dincəl bir az!

Hara gəldi məni buyur,
məni çağır,
məni göndər!
Bu milləti silkələdin,
yatanlara "Ayıl!" dedin.
"Səsin gəlsin,
Millətlərin arasında
Seçil!" dedin,
"Sayıl!" dedin.
Sən Vətənin özü qədər
müqəddəssən,
Dilimizdə odlu nəğmə,
qəlbimizdə nurlu səssən.
Vətən üçün çox vuruşdun,
çox əlləşdin,
Vuruşduqca mətinləşdin,
işlədikcə heykəlləşdin.
Sənin daha borcun yoxdur
bu millətə,
Şükür səni bizə verən
təbiətə.
Bizim sənə borcumuz var,
verməliyik,
Basdırdığın ağacların
meyvəsini dərməliyik,
Sənə sarı tufan gəlsə,
sinəmizi gərməliyik,
Vəzifəmiz bu dövləti
acı sözdən,
yaman gözdən,
köntöy üzdən,
yad baxışdan,
bəd naxışdan
qorumaqdı.
Haqq ocağı sönə bilməz,

Odum haqdı, qorum haqdı.
Səndən sonra
dinimizi dinlər yesə,
İçimizi kinlər yesə,
dilimizi dillər yesə,
Dağımızı sellər yesə,
Yanımızdan perik düşər,
ruhun bizi bağışlamaz,
Dərindən bir ah çəkərsən,
ahın bizi bağışlamaz.
Ulu ustad, ulu öndər,
İlhamından lap rahat ol!
O bir oğul – planetdi,
sən bir ata – kainat ol!
Ona necə inanırdın,
biz də elə inanırıq,
Bu torpaqda təzə açan
qızılgülə inanırıq.
Həm kövrək, həm sərtdi,
Həm məğrur, həm mərddi,
Əllərini kim sıxarsa,
təşəkkürlər,
Arxasından kim qaçarsa,
o, namərddi!!!
Tək oğultək baxma ona,
Bu gün onun yer üzündə
əlli milyon dayağı var,
Kürsülərdə ali sözü,
BMT-də bayrağı var.
Böyüklüyü, şəxsiyyəti
səninkidir,
Dar ayaqda qətiyyəti
səninkidir.
Hələ çətin enişlər var,
yoxuşlar var,

Hələ neçə tərəddüdlü
baxışlar var.
Adamlar var,
ürəyində şeytan gəzir,
Buynuzlar var,
oynamağa meydan gəzir,
Fürsət gəzir
qarınları deşmək üçün,
Yer axtarır
havalanıb şişmək üçün.
Cələ kəsən
cələlər var,
Hələ neçə təxribatlar,
tələlər var,
Ev yıxmağa hərislər var,
xəstələr var,
Saman altdan su yeridən
ustalar var.
Pişiklər var,
fürsət gəzir şirləşməyə,
Canavarlar məqam gəzir
birləşməyə,
Dəstələr var, qurumlar var,
Qurumların yaratdığı
yarğanlar, uçurumlar var.
Orda-burda didişənlər, deyişənlər,
Gündə yüz yol sifətini dəyişənlər,
Xislətini, xilqətini dəyişənlər,
Hamımıza yaxşı tanış,
yaxşı bəlli,
Belə gündə xalqın gücü,
elin gücü,
Tək arxadı, tək təsəlli.
Oxunmağa Quranımız,
tapınmağa dinimiz var,

Süfrəmizdə çörəyimiz,
tarlamızda dənimiz var.
Tanıyırıq yolumuzu,
qibləmiz var, yönümüz var,
Qulaqlara aydın çatan
səsimiz var, ünümüz var.
Üfürməklə sönüb keçən
şam deyilik,
Siyasətin məktəbində
xam deyilik.
Sünbülümüz dənsiz deyil,
yollarımız yönsüz deyil,
Oğullara arxa duran
bir oğul var,
Səndən sonra bu məmləkət
Səninlədir, Sənsiz deyil!!!

## BU DƏRDİ MƏN YAZMADIM

Bu şeiri mən yazmadım,
gözümün yaşı yazdı,
Qəlbimin qaynar qanı,
bağrımın başı yazdı,
Tarixin qədim kökü,
elin yaddaşı yazdı,
Onu ağı, bayatı,
qoşma, dastan elədi.

Bu dərdi mən yazmadım,
qurşandı fələk yazdı,
Durna qatarındakı
incə bir lələk yazdı,

Sevgi, ilham donunda
çırpınan mələk yazdı,
Yazdığım hər misraya
məni heyran elədi.

Bu şeiri mən yazmadım,
ellərin ahı yazdı,
Bəd xəbərlə açılan
yurdun sabahı yazdı,
Yer oğluna dastanı
göyün Allahı yazdı,
Məlhəm qoydu yarama,
dərdə dərman elədi.

Zay olmadı zəhmətim,
alnımda tər eşqinə,
Ölümlə pəncələşdim
atdığım zər eşqinə.
Qəlbim, canım, varlığım
dindi Heydər eşqinə,
Fikrim dar cığırları
geniş meydan elədi.
"Əldən vermə fürsəti,
ömür azdı, az", – dedi,
"Gedən geri qayıtmaz,
boşalan dolmaz", – dedi.
"Sevinci də, dərdi də
kişi kimi yaz", – dedi,
Məni bu ağır itki
dərdə qurban elədi.
Mən üzümü tuturam
əsl xeyirxahlara,
Mən üzümü tuturam
işıqlı sabahlara,

Tarixə imza atan
bir dahinin eşqinə,
O dahini yaradan
İlahinin eşqinə,
Ürəyimin qanıyla
yazdığım əsər budur!
Qılıncımın ağzına
ən iti kəsər budur!
Onu arxasızlara
ən böyük arxa bildim,
Şeirin misralarından
qurduğum səngər budur!
Bir dəvə karvanıyam
boz qumlu səhralarda,
Dərdimin zülmətində
işıqlı səhər budur!
İlhamlı sabahlara
aparan zəfər budur!

## MİNNƏTDARLIQ

Ata Heydər!
Ürəyimi sənə verdim,
mənə odlu ürək verdin,
Dövlət adlı bir bağçadan
qayğı adlı çiçək verdin.
Gur nəfəsim,
Məğrur səsim
gözlərindən yayınmadı,
Varlığıma qiymət verdin,
sözlərimə zinət verdin:
"Məkkədən bir xoş xəbər var,
Zəlimxanı tapın!" dedin,
"Çin səddinə bir səfər var,

Zəlimxanı tapın!" dedin.
Öz əlinlə sən adımı
başdan yazdın, başa yazdın,
Bu yazmaqla bir şairin taleyini
Vərəqə yox, sal qayaya,
daşa yazdın.
Daha kimsə ha əlləşir,
adı daşdan poza bilmir,
Bu sevgini, bu istəyi
başqa səmtə yoza bilmir.
Səndən əvvəl neçələri
gəldi-getdi,
Neçələri diri-diri
öldü getdi,
Öz içində ürəyinin
qurdu getdi,
Görən məni görməzliyə
vurdu getdi.
Üşüyəndə dərdim onu
üşütmədi,
Çağıranda gur səsimi
eşitmədi.
Mən şairə məhəbbəti
səndə gördüm,
Məhəbbətə sədaqəti
səndə gördüm.
Əbəs deyil sənə belə
vurulmağım,
Əbəs deyil səndən ötrü
çeşmə kimi durulmağım,
Əbəs deyil şəlalətək
qayalardan tökülməyim,
Əbəs deyil dəniz kimi
qabarmağım, çəkilməyim.
Bu dastanı yazan mənəm,
yazdıran sən,

Hər misranın, hər kəlmənin
odu üçün
Ürəyimi ocaq kimi
qızdıran sən.
Bu gün sənin eşqin ilə
dil-dil ötən ozan mənəm,
Bu gün sənin dastanını
parça-parça yazan mənəm.
Bu dastanın
"Ustadnamə" parçası var,
Bu dastanın
"Vücudnamə" parçası var,
Bu dastanın
"Qıfılbənd"i, "Müəmma"sı,
Xeyri,
şəri,
toyu,
yası,
Bu dastanın
"Divani"si, "Müxəmməs"i,
Bu dastanın
qulaqlarda qalan səsi,
Bu dastanın
ney havası, saz havası,
Bu dastanda
hər söhbətin
Öz ahəngi,
öz havası.
Əllərimi
neçə dəfə sıxmısansa,
Göz yaşımı
bir o qədər sıxacağam.
Bu dastanın
nöqtəsini qoymaq üçün

İmtahandan
kişi kimi çıxacağam.
Mənim ömrüm
bir dastana çata bilər,
Yazılmamış min dastanın
qalır hələ.
Bir gül dərdim
sənin şöhrət gülzarından,
Dərilməmiş gülüstanın
qalır hələ.
Əcəl bilsə, mən yazdığım
əsər nədir,
İnanıram, vallah,
mənə yaxın gəlməz.
Şeytan gələr
aralığı qatmaq üçün,
Neyləsə də, günah
mənə yaxın gəlməz.
İlham coşub-çağlayanda
Düz tanımır,
meydan bilmir,
Şair kimdir, kimdən yazır? –
Allah bilir,
şeytan bilmir.
Bu dastanda Məcnun da var,
qanı yerdə Leyli yazır,
Bu dastanda Qərib də var,
dərdini gileyli yazır.
Bu dastanda keşiş də var,
ortalıqda tikan əkir,
Bu dastanda Lələ də var,
Kərəmlərə keşik çəkir.
Heydər ata! Bu dastanda
Məcnun mənəm,
Qərib mənəm,
Kərəm mənəm.

Bu dastanın toxumunu
səpən sənsən,
çiçəyini dərən mənəm.
Yazacağam nə qədər ki
canda ruh var,
ruhda can var,

Bu dastanın hər sözündə,
cümləsində
Səni sevən, səni duyan
Zəlimxan var.
Həsrətini çəkəcəyəm
illər boyu,
Kövrək qəlbim
oyum-oyum
oyulacaq.
Eşqin ilə yaratdığım
bu dastanın
Son nöqtəsi
mən öləndə
qoyulacaq.

***2003, 15-30 dekabr***

## II KİTAB

## BÖYÜK ÖMRÜN DAVAMI

Əziz oxucular! Ulu öndərimizə həsr olunmuş “Böyük ömrün dastanı” poemasının son misraları belə tamamlanırdı:

“Eşqin ilə yaratdığım bu dastanın,
Son nöqtəsi mən öləndə qoyulacaq...”

Söz vermişdim. Bu sözü yerinə yetirmək üçün Ulu Tanrı həmişə mənə yardımçı olduğu kimi, ilhamım da sözümdən çıxmadı. “Böyük ömrün davamı” adlı ikinci kitabı yazmağa başladım. Qollarımı geniş açıb mübarək duyğulara, isti sətirlərə “Xoş gəldin!” elədim, yeni kitabın yeni fəsillərini bağrıma basdım.

### PROLOQ

Verdi salamını müdriklər kimi,
Önümdə bir aqil qoca dayandı.
Sandım ki Tanrıdı qarşımda duran,
Qalxdı, ucalardan uca dayandı.

“Eşitdim Heydərdən kitab yazırsan,
Gəldim əllərini sıxmağa, oğul.
Dizində güc gərək, qəlbində təpər,
O qarlı zirvəni çıxmağa, oğul.

Gəril kaman kimi, dartıl yay kimi,
Bir düşün, əsəri kimdən yazırsan.
Dövlətin dayağı, millətin ruhu,
Ən sağlam özüldən, himdən yazırsan.

Gör sənə nə qədər güc verib Allah,
Sən də öz gücünü bu əsərə ver.
Onun havasına, onun eşqinə,
Səsini ən odlu nəğmələrə ver.

Sənə bu kitabı bir göndərən var,
Dincəlmə, yuxlama, uyuma, oğul.
Qələmdən od yağsın, varaqdan atəş,
Soyuma, soyuma, soyuma, oğul.

Tərəzi deyilən elin gözüdü,
Səni də çəkəcək, kitabını da.
Ürəkdənmi gəlir, dodaqdanmı söz, –
Çox dürüst verəcək cavabını da.

Rəssamın silahı rəngdi, fırçadı,
Memarın sərvəti qayadı, daşdı.
Sözdən elə yarat o heykəli sən,
Desinlər ən böyük heykəltəraşdı!”.

Sıxdı əllərimi o müdrik qoca,
Köklədi qəlbimi, çəkdi tarıma.
Əlindən od aldım, gözündən işıq,
Axdı qüdrət kimi damarlarıma.

Onun könül açan ürək sözləri,
Döndü qanadlara, döndü qollara.
Dahi bir insandan yazmaq eşqinə
Allahı çağırıb çıxdım yollara.

Bu şərəfli yolda, çətin səfərdə
Çırpındım ən şirin diləklər ilə.
Yerdə insanlarla ülfət bağladım,
Göydə pıçıldaşdım mələklər ilə.

İnsan köküm oldu, mələk budağım,
Kökdən qanadlandım budağa doğru.
Çəkdi yaratdığım bu dastan məni
Vətənə, millətə, torpağa doğru.

Axdı qələmimdən odlu sətirlər,
Yollarda işığım, çırağım oldu.
Dərələr dəftərim, qayalar masam,
Düzlər qalaq-qalaq varağım oldu.

Dilində səslənən hər müqəddəs ad
Dilimdə sərvətdi, damağımda dad.
Ey böyük sərkərdə, ey böyük ustad,
Hər sətrin səngərim, yarağım oldu.

Eşqim, məhəbbətim, gücüm, qeyrətim,
Baxışım, marağım, sevgim, heyrətim,
Zəvvarı azalmaz bir ziyarətim,
Səcdəgah deyilən torpağım oldu.

Sevgin paylananda durmadım geri,
Öpdüm gül qarışıq sən yatan yeri.
Çiynimdə göylərə qaldırdım Yeri,
Əqidən sarsılmaz dayağım oldu.

Gəldi dostluq günü, gəldi dost anı,
Qoymadım qılıncım qında paslanı.
Adına yazdığım "Heydər dastanı"
Başımın üstündə bayrağım oldu.

## SƏNİ GÖRDÜYÜM ANLAR

Həmişə meydandayam,
çəkilmərəm kölgəyə,
Boylanıram, baxıram
yaratdığın, qurduğun
Müstəqil bir dövlətə,
mübarək bir ölkəyə.
Qızınnam alovuna,
isinirəm istinə,
Tez-tez gedib-gəlirəm
məzarının üstünə.
Tez-tez gəlib-gedirəm
Səndən işıq almağa,
səndən şüa almağa,
Öz dilindən eşidib
Sevdiyin bir şairə
xeyir-dua almağa.
Harda oluram olum
Səsin qulaqlarımda,
sözün ürəyimdədir.
Harda oluram olum,
Səhrada, ya çəməndə,
qürbətdə, ya vətəndə,
Qayğıların üstümdə,
əlin kürəyimdədir.
O əl qanada dönüb,
qaldırıb üfüqlərə,
Qovuşdurub ruhumu
ən nurlu şəfəqlərə.
O əl çətin günümdə
mənim əlimdən tutub,

O əlin sayəsində
sünbüllərim dən tutub.
O əl çatdırıb məni
Qara daşa, Kəbəyə,
O əl qaldırıb məni
ən uca mərtəbəyə.
Peyğəmbər məzarına
qurban verib canımı,
Minada Haqq yolunda
kəsmişəm qurbanımı.
Gördüyümü möhürtək
ürəyimə basmışam,
Zəmzəm suyundan içib,
Məkkə himni yazmışam.
Qırğızların elində
güc alanda "Manas"dan,
İliyimə, qanıma
işləyəndə bu dastan –
Yerişində əzəmət,
alnında nur görürdüm,
Mən də öz "Manas"ımı
uca, məğrur görürdüm.
Durmadan, dayanmadan
qalxanda Çin səddinə,
Çin sədditək baxırdım
əyilməyən qəddinə.
Al qanımdan keçirib,
göz yaşımdan süzmüşəm,
Gördüklərim nə varsa
ipə-sapa düzmüşəm.
Ən yaxın görüşdə də,
ən uzaq səfərdə də,
Ucaldığım göydə də,
əyləşdiyim yerdə də

Qayğın, nəvazişinlə,
Əməlinlə, işinlə
Ürəyimi od kimi
qızdıran sən olmusan.
Tarixi məkanları,
ulu ziyarətləri,
Candakı alovları,
gözdəki heyrətləri
Yazan mən olmuşamsa,
yazdıran sən olmusan.
Arzular qanadında
zirvələri aşandı,
Nərəli çaylar kimi
qaynayandı, daşandı,
Ən işıqlı səmadı,
ən nurlu kəhkəşandı
Səninlə görüşdüyüm,
səni gördüyüm anlar.
Dönə-dönə sıxmışam
mübarək əllərini,
Yaddaşıma yazmışam
nurlu əməllərini.
Duyğuların ucası,
fikirlərin dərini –
Səninlə görüşdüyüm,
səni gördüyüm anlar.
Mənim xoşbəxtliyimdi
sənin böyük varlığın,
Şərəfi uca olur
böyük bəxtiyarlığın.
Əbədi xilasıdı
çətinliyin, darlığın
Səninlə görüşdüyüm,
səni gördüyüm anlar.

Yaradanın üzümə
işıqlı baxışıydı,
Məhəbbətin leysanı,
sevginin yağışıydı,
Tanrının yazısıydı,
taleyin naxışıydı
Səninlə görüşdüyüm,
səni gördüyüm anlar.
Saf sevgim, saf əqidəm,
düz cavabım olacaq,
Fikirdə, səsdə, sözdə
inqilabım olacaq,
Şah sözüm, şah əsərim,
şah kitabım olacaq
Səninlə görüşdüyüm,
səni gördüyüm anlar.
Yazdığım şeirlərin
ünvanıydı, adıydı,
Ruhumun təravəti,
ləzzətiydi, dadıydı,
Xəyalımın göylərdə
çırpınan qanadıydı
Səninlə görüşdüyüm,
səni gördüyüm anlar.
Şəxsiyyəti görürdüm,
qətiyyəti görürdüm,
Haqlı mübarizəni,
həqiqəti görürdüm,
Azərbaycan adlanan
bir dövləti görürdüm
Səninlə görüşdüyüm,
səni gördüyüm anlar.

## YENƏ MƏN SƏNİNLƏYƏM

Tanrı bəla göndərib
məni zəlil eləsə,
Əldən-ayaqdan şikəst,
gözdən əlil eləsə,
Hər yandan, hər tərəfdən
bağlasa kitabımı,
Min sualdan birinə
verməsə cavabımı,
Səni sevdiyim üçün
düşmən qazanmış olsam,
İftiranın, nifrətin
oduna yanmış olsam,
Qismətimə yazılsa
qırx arşın dərin quyu,
Qurusa mən içdiyim
qaynar çeşmənin suyu,
Mənə arxa çevirsə
yaxınlarım, yadlarım,
Əl-ayağım köməşib,
qırılsa qanadlarım,
Şeytan girmək istəsə
qəlbimə, ürəyimə,
Paslı bıçaqlar ensə
dalbadal kürəyimə
Səndən ayıra bilməz
sevgimi, rəğbətimi,
Səndən ayıra bilməz
sənə məhəbbətimi.
Nə o an unudulub,
nə o vaxt yaddan çıxıb,
Bu məhəbbət min dəfə
alovdan, oddan çıxıb.

Yoğrulub xəmir olub,
bərkiyib dəmir olub,
Bu sevgi daşda çiçək,
qayada mamır olub.
Qranitdən yonulub
bu sevginin məbədi,
Göylər kimi ucadı,
dağlar kimi əbədi.
Selin gücümü çatar
dağ oynada yerindən,
Yelin gücümü çatar
tərpədə mehvərindən.
Ortalığa xəyanət,
məkrin odu düşsə də,
Dillərə yerli-yersiz
dedi-qodu düşsə də,
Ən dözülməz iftira
qəlbimi qan etsə də,
Yenə də imanlayam,
insaflayam, dinləyəm,
Kim kimlə olur-olsun,
Ey xalqın böyük oğlu,
yenə mən səninləyəm!
Səndən yazdıqlarımı
varağa yazmıram ki,
Qırılmaz qayalara,
qara daşa yazıram.
Toxunub ürəklərin
ən incə simlərinə,
Hər ürəyə köçürüb,
hər yaddaşa yazıram.
İçimdə sellər coşur
səndən söhbət açanda,
Çaylar kimi qabarıb,
daşa-daşa yazıram.

Xatirələr yazarlar
dünyadan köçmüşlərə,
Mən xatirə yazmıram,
canlı əsər yazıram.
Şax durursan yenə də
gözlərimin önündə,
Verib ürəyə qüvvət,
sözə kəsər, yazıram.
Gücüm, arxam, dayağım,
yenə səndən yazıram,
Səndən yazıramsa mən,
Bu eldən, bu ölkədən,
bu Vətəndən yazıram.
Yenə də bir yerdəyik,
yenə də səfərdəyik,
Yenə səninlə qoşa,
Məkkəyləyəm, Çinləyəm.
Məkkədə də, Çində də,
Evimin içində də
Yenə mən səninkiyəm,
yenə mən səninləyəm!

## SƏNİN MÜBARƏK ÖMRÜN

Onun qismət tarlası
əkildi bir şum kimi,
Düşdü münbit torpağa
sağlam, saf toxum kimi.
Təbiət öz əliylə
toxudu naxışını,
Günəş odunu verdi,
buludlar yağışını.
Uddu qışın qarından,
baharın leysanından,

Yağışı da, qarı da
keçirdi öz canından.
İşığını çilədi
göyün nurlu tavanı,
Həyat vaxtında verdi
odu, suyu, havanı.
Arzular qaynağında
pardaqlandı, gül oldu,
Sapsarı bir zəmidə
dopdolu sünbül oldu.
Böyüdükcə böyüdü,
cücərdikcə cücərdi,
Onu bəndədən əvvəl
Allah özü becərdi.
Halal maya üstünə
tükənməz maya gəldi,
Payızda düşən toxum
yazda dünyaya gəldi.
Saf toxumun, saf suyun,
saf havanın ömrüdü
Sənin mübarək ömrün!!!
Ağır elin-obanın,
yurd-yuvanın ömrüdü
Sənin mübarək ömrün!!!
Mayın onuncu günü
ən işıqlı gün oldu,
Bu gün aylardan uca,
günlərdən üstün oldu.
Körpə gəldi dünyaya,
güldü ev də, eşik də,
Şirin-şirin laylalar
dalğalandı beşikdə.
Sevgi halaldan halal,
körpə əzizdən əziz,
Ata sevgisi dərya,
ana sevgisi dəniz.

O, dünyaya gələndə
çaylar aşıb-daşırdı,
Qar əriyir, buz sınır,
sellər qucaqlaşırdı.
Min bir çiçəyə qonub
arılar bal çəkirdi,
Yaz mehi saçlarına
hər gün sığal çəkirdi.
Hər nəyi görürdüsə
könül açan görürdü,
Bənövşəni, nərgizi
işıq saçan görürdü.
Gəlirdi qulağına
sirli səslər, soraqlar,
Laylasını çalırdı
dağ döşündə bulaqlar.
Bir eşqin, bir sevginin,
bir cavanın ömrüdü
Sənin mübarək ömrün!!!
Çırpıntının, sevginin,
həyəcanın ömrüdü
Sənin mübarək ömrün!!!
Hər uca adın altda
ağır bir zəhmət durur,
Halal şöhrət yanında
sağlam məhəbbət durur.
Hər müqəddəs arzuda
ulu bir niyyət durur,
Saysız yuxusuz gecə,
sonsuz əziyyət durur.
Heç kəs asan bilməsin
zirvələrə çıxmağı,
Hamı bacara bilmir
Tanrı dərgahındakı
od əlləri sıxmağı.

Ora hər kəsin deyil,
Allahı zəhmət bilən,
Zəhməti Allah bilən,
Əqidəni, məsləki
öz ömrünə şah bilən,
Səbri, dözümü böyük
ərənlərin yeridi.
Gələcəyi, sabahı
ovcunun içi kimi
görənlərin yeridi.
Neçə-neçə yüz illər
gəlib-keçdi aradan,
Bir yer də bizə verdi
O müqəddəs zirvədə
uca, qadir Yaradan!
Mənim fəxrim, qürurum,
Eşqim, işığım, nurum,
İman və güman yerim,
Şərəf yerim, şan yerim
O yerdə tutdu qərar.
Niyyət təmiz, arzu saf,
Ürək dumduru, şəffaf!
O, bütün varlığını
xalqa, millətə verdi,
Millətin yaratdığı
milli sərvətə verdi.
Sazımızla alışdı,
tarımızla inlədi,
Xalqın nəbzini tutdu,
ürəyini dinlədi.
Tapdı xalq ürəyində
həqiqətin səsini,
Tapdı xalq ürəyində
səmtini, qibləsini.
Gördü Kəbə ordadı,
gördü Qara daş orda,

Gördü Vətən ordadı,
gördü Vətəndaş orda.
Vətənə arxalandı,
Vətəndaşa güvəndi,
Ağıla, təcrübəyə,
yetkin yaşa güvəndi.
Şöhrətin, ucalığın,
adın-sanın ömrüdü
Sənin mübarək ömrün!!!
Həqiqətə tapınan
mərd insanın ömrüdü
Sənin mübarək ömrün!!!
Ən çətin sualların
ən dürüst cavabıdı,
Ulu Dədə Qorqudun
abidə kitabıdı.
Xalqın yaratdıqları
qəlbi, ruhu, canıdı,
Kaşğarlı divanıdı,
Koroğlu dastanıdı.
Fələkləri yandıran
Füzulinin ahıdı,
Xətainin çatdığı
uca söz dəryasıdı.
Cavid məqbərəsidi,
Nəsimi heykəlidi,
"Ənəlhəq!" nidasının
göydəki məşəlidi.
Əcəmi naxışıdı,
Atabəy baxışıdı,
Sevgi çiçəkləridi,
məhəbbət yağışıdı.
Ələsgər müəmması,
Sabir satirasıdı,
Varlığı bu millətin
ən böyük mirasıdı.

Torpağın yarasıdı,
elin dərdi-səridi,
Yumşaq sözün sığalı,
sərt sözün kəsəridi.
Tükənməz nur qaynağı,
sehirli nur yeridi,
Məhəbbətin möhtəşəm,
sevginin gur yeridi.
Hər açılan sabahın,
nurlu danın ömrüdü
Sənin mübarək ömrün!!!
Dayağı torpaq olan
asimanın ömrüdü
Sənin mübarək ömrün!!!

Yaradanın verdiyi
ilahi bir fürsətdi,
Beş yüz ildə bir dəfə
yurda enən qismətdi.
Ağrının əlacıdı,
yaranın məlhəmidi,
Bir ümməti tufandan
sağ çıxaran gəmidi -
Azadlığı qoruyan
bir azadlıq quşudu,
Sevincin başlanğıcı,
qəmin qurtuluşudu.
Gördü, vaxtında gördü
öz işini Nuh kimi,
Başımızın üstədi
xilaskar bir ruh kimi.
Şirin, doğma dilimiz,
ucalan başımızdı,
Min illərə söykənən
kəskin yaddaşımızdı.

Dövlətimin sütunu,
bayrağımın rəngidi,
Cəsarət möcüzəsi,
siyasət nəhəngidi.
Qəlbində sonsuz istək,
gözündə sonsuz maraq, –
Açılan sabahlara
qollarını açaraq
O, böyük gələcəyə
ehtişamla gələcək!
Yeri, göyü, varlığı
sevən aşiqlər kimi,
Gəncliyə həyat verən
dolu camla gələcək!
Duracaq qulluğunda
səf-səf olan ordular,
Əsgəri bir nizamla,
intizamla gələcək!
Yıxacaq bircə anda,
poladdan sədlər olsa,
Bütün gücləri yenən
bir inamla gələcək!
İlhamsız bir həyatın
ömrü yox, davamı yox,
Bütün gələcəklərə
o, ilhamla gələcək!
Zamanlara sığmayan
bir zamanın ömrüdü
Sənin mübarək ömrün!!!
Azərbaycan adında
bir cahanın ömrüdü
Sənin mübarək ömrün!!!
Sinəsi sipər olur,
kirpiyi çəpər olur,
Üstünə daş atırlar,
daşı geri qaytarır.

Alovlu nəfəsiylə
eridir sal buzları,
Qarla, qırovla gələn
qışı geri qaytarır.
Alovlara atırlar
Həzrət İbrahim kimi,
Ocaqda yanmaz olur,
qordan salamat çıxır.
Dəryalara atırlar,
balıqlara yem olmur,
Dəmir tora salırlar,
tordan salamat çıxır.
Atırlar Abbas kimi
zəhərli quyulara,
Çağırır ağasını,
ordan salamat çıxır.
Yoluna yeddibaşlı
ac əjdahalar çıxır,
Qorxulu mağaralar,
acgöz kahalar çıxır,
Nə kaha, nə əjdaha,
nə mağara qorxusu
Əqidənin yolundan
onu sapdıra bilmir.
Ən dəhşətli zərbələr
Onun ümidlərini
sındırıb qıra bilmir.
Şeytanların dilində
Saysız dedi-qodular
olsa da qalaq-qalaq,
İsanı, Məhəmmədi
Yolundan sapdırmadı
nə çarmıx, nə daşqalaq!
Ucalanın adına
ucalıq yazılıbsa,

Alçaqlar ətəyindən
çəksə də, sala bilmir.
İlahidən yazılan,
Haqdan gələn qisməti
Əgər Allah veribsə,
bəndələr ala bilmir!
Bax, o zaman yaranır,
Əsl insan eşqinə
nağıllar, əfsanələr,
Yanmır, boşuna yanmır
işıqlar, pərvanələr.
Onun tunc iradəsi,
Haqqa yetişən səsi,
Həqiqətdən yoğrulan
nağılı, əfsanəsi –
Axan qanı saxladı,
torpağı qucaqladı!
Ayağının altını
eşənlər çox olsa da,
Nə sındı, nə laxladı!
Daha da möhkəm oldu!
Daha da ötkəm oldu!
Müqəddəs azadlığım,
Mübarək ölkəm oldu!
Nağıllardan güc alan
qəhrəmanın ömrüdü
Sənin mübarək ömrün!!!
Dastanlara sığmayan
bir dastanın ömrüdü
Sənin mübarək ömrün!!!

## BU DÜNYA SƏNSİZ DEYİL

Kiminsə kölgəsinə,
şöhrətinə qısılmaz,
Kimin isə əlindən,
ayağından asılmaz,
Uca dağlar həmişə
basılmazdı, basılmaz, –
Dağ başı da heç zaman
dumansız, çənsiz deyil,
Sən varsan bu dünyada,
bu dünya sənsiz deyil.

Min illərdi qayalar
bir-birinə çataqlı,
Qaya meydan sinəli,
qaya meydan otaqlı,
Allah nə yaradıbsa,
hər şey yerli-yataqlı, –
Arı balsız, pətəksiz,
bülbül çəmənsiz deyil,
Sən varsan bu dünyada,
bu dünya sənsiz deyil.

Vaxtımız, zamanımız,
ayımız, ilimizsən,
Tarix kitablarında
danışan dilimizsən,
Gələcək əsrlərə
çatan mənzilimizsən, –
Dil sözsüz, quş yuvasız,
könül vətənsiz deyil,
Sən varsan bu dünyada,
bu dünya sənsiz deyil.

## HEYDƏR İNAMI

Bölünmür, parçalanmır,
bütöv olur, tam olur,
Nə zaman ki insanın
Qanında, qeyrətində
sarsılmaz inam olur.
Bütün böyük inamlar
dağın, daşın, qayanın,
Günəş adlı qüdrətin,
torpaq adlı mayanın
Tumundan, toxumundan,
cövhərindən yoğrulur.
Ömür-gün yollarında
Ən çətin imtahanlar,
Ən qorxulu sınaqlar
bu inamla doğrulur.
İnam varsa, həyat var,
İnam varsa, həyatda
Ən qatı dumanları
yarmaq üçün qanad var.
İnamı olanların
Qəlbində, ürəyində
Ölçüsüz bir mənzərə,
hüdudsuz kainat var.
Belə bir inam oldu
xalqa Heydər inamı!
Millətə kişi sözü,
dövlətə ər inamı!
Azərbaycan adında
batan bir gəmi vardı,
Yaralı ürəklərin
çəkilməz qəmi vardı.
Gözü nəmdən qurtaran,
Qəlbi qəmdən qurtaran,

Duyğuları, hisləri
Dərd, ələmdən qurtaran
Bir inam gərək idi
bu xalqa, bu millətə,
Son versin, nöqtə qoysun
hər ağrıya, illətə.
O sənin inamındı!
Yaraya məlhəm oldu,
ağrıya əlac oldu,
Bu dövlətin haqqını
özünə qaytarmağa
Bir kişi inamına
arzu, ehtiyac oldu.
O inamın eşqinə
Aydınlaşdı qaranlıq,
gecəmiz səhər oldu,
Bircə çağrışın ilə
Millət qalxdı ayağa,
Vətən səfərbər oldu.
Bu inama güvəndi
səsinə səs verənlər,
Gözə nur, qola qüvvət,
qəlbə həvəs verənlər.
Hər çıxışın, hər sözün,
söhbətin adı – inam!
Sevginin, məhəbbətin,
qeyrətin adı – inam!
İzdihamın, dalğanın,
ləngərin adı – inam!
Döyüşün, mətinliyin,
səngərin adı – inam!
Qasırğalar önündə
qaya kimi sərtləşən,
Uca boyun-buxunun,
gur səsin adı – inam!

Sinələri qabardan
nəfəsin adı – inam!
Alacaq qisasını
qarlı qasırğalardan,
Bu inam qurtaracaq
Azərbaycanı dardan.
Alacaq qisasını
kəmfürsətdən, yağıdan,
Bu sərt inam olacaq
buludları dağıdan.
Alacaq qisasını
hər alçaqdan, vəhşidən,
Bu qətiyyət olacaq
Qarabağı qaytarıb
öz xalqına bəxş edən.

"Dalğalan, qabar, çəkil,
Arazlaş, Kürləş" dedin,
"Son qoy ayrılıqlara,
yumruqtək birləş" dedin.
"Xilaskarı özünsən,
düşün, fikirləş" dedin,
Ağıl oldun, tac oldun
başa, Heydər inamı!
Tufanlar, qasırğalar
keçsə də sağ-solundan,
Bircə an çəkinmədin
həqiqətin yolundan.
Yıxılmaq istəyənin
tez yapışdın qolundan,
Güc verdin bu torpağa,
daşa, Heydər inamı!

Yemək istəyən nə çox,
yeyilməyə qoymadın,
Döymək istəyən nə çox,
döyülməyə qoymadın,
Sən ki bu məmləkəti
əyilməyə qoymadın,
Yaşa, Heydər varlığı,
yaşa, Heydər inamı!!!

## SƏNİN YARATDIQLARIN

Bütün çətinliklərə
tunc sinəni gərənsən,
Bütün inamsızları
inama döndərənsən.
Zamanın axarını
dəyişdirən cəsarət,
Tarixin təqvimini
təzələyən ərənsən.
Göyərtdin nəfəsinlə
səhradakı qumları,
Bu torpağın bətninə
səpdin saf toxumları.
Səpdiyin hər toxumdan
halal nemət göyərdi,
bar-bərəkət göyərdi.
Hər inamlı baxışdan
bir məhəbbət göyərdi.
Özündən almışdılar,
Təzədən nəfəs dərib
millət özünə gəldi,
Quruyan bulaqların
suyu gözünə gəldi.

Vətən sənin işığın,
sən onun pərvanəsi,
Bir ağıldan su içdi
üç dəniz əfsanəsi.
Döndərmək istədilər,
inadından dönmədin,
Bir an həvəsdən düşüb
səngimədin, sönmədin.
Sərrast baxışlarınla
Görürdün üfüqdəki
ən uzaq qaraltını,
Həmin yerin üstünü,
həm də yerin altını.
Allah verən fəhm, ağıl,
zəka, düşüncə, beyin,
İşləyirdi saatın
əqrəblərindən yeyin.
Dedilər "əfsanədi,
belə həqiqət olmaz,
Bu qədər ağırlığa
kim gəlib çiyin verər?
Heç kimdə belə qüvvə,
belə cəsarət olmaz".
Bəlkə haqlıydı onlar,
Tarix, zaman bu boyda
cəsarət görməmişdi,
Əfsanələr bilirdi,
həqiqət görməmişdi.
Dost sevindi,
heyrətdən düşmən dondu
yerində,
Azərbaycan adında
bir sevinc dalğalandı
Sabahları düz görən
işıqlı gözlərində.

Sən inamsızların
boş taxtını devirdin,
Ən böyük əfsanəni
həqiqətə çevirdin.
Gətirdin ölkələri
bu yurdun ayağına,
Xalqı belə ucaldıb,
yurdu belə sevirdin.
Yaratdığı gün qalır,
saat qalır, an qalır,
Zamanın yaddaşında
ancaq yaradan qalır.
Neçə möhtəşəm saray,
neçə ölməz əsərdi,
Səngərimdə silahdı,
qılıncımda kəsərdi.
Vaqifin məqbərəsi,
Cavidin türbəsidi,
Həqiqətin düşmənə
ən ağır zərbəsidi.
Tarixə sərvət olmuş
neçə-neçə kitabdı,
Qaranlıq suallara
ən işıqlı cavabdı
Sənin yaratdıqların!!!
Yaradanın bizlərə
bəxş etdiyi vergidi,
Duymaq üçün dərinlik,
baxmaq üçün sərgidi.
Qorqudun bu dünyaya
ikinci gəlişidi,
Füzulinin yenidən
Haqqa yüksəlişidi,
Ələsgərin Göyçədən
dünyaya çıxmağıdı,

Gözümüzün işığı,
qarasıdı, ağıdı.
Xalçaçı barmağında
naxışlar, ilmələrdi,
Yaddaşından süzülən,
Kitablara düzülən
ən nurlu kəlmələrdi
Sənin yaratdıqların!!!
Bu torpağı qoruyan
ruhdu, qandı, sipərdi,
Bizi mətinləşdirən
güc-qüvvətdi, təpərdi.
Mömünə xatınların
gözəlləşən yurdudu,
Hərbi nizam-intizam,
əmrə hazır ordudu.
Nişanı, nişangahı
düzgün seçən silahdı,
Əbədi yaşamağa
ümid verən sabahdı.
Yurdu saxlamaq üçün
sağlam özül daşıdı,
Qoşqarla, Savalanla,
Şahdağla yanaşıdı
Sənin yaratdıqların!!!

Dövlət ilə millətin
birliyi, vəhdətidi,
Gələcək nəsillərin
gələcək sərvətidi.
Sevənlərin nur dolu
sevgisidi, camıdı,
Bəstəkarın bəstəsi,
şairin ilhamıdı.
Uzaq yol gedənlərin
ümidi, pənahıdı,

Dünənin bu günüdü,
bu günün sabahıdı.
Yer kimi gözəlləşər,
göy kimi ətirlənər,
Min il gəlib-keçsə də,
hörmətlə xatırlanar.
O böyük Yaradanın
DÖVLƏT yaradan oğlu,
Saf arzular övladı,
səhər oğlu, dan oğlu!
Allahın, Yaradanın
bizə hədiyyəsidi,
Ruhun xəzinəsidi,
yerin dəfinəsidi,
Zəlimxanın hər zaman
haqq bağıran səsidi
Sənin yaratdıqların!!!

## SƏNİN ADIN GƏLƏNDƏ

Leysan kimi tökülərəm,
yağış kimi yağaram,
Günəş olub hər səhər
dan yerindən doğaram.
Bütün qaranlıqları
öz əlimlə boğaram
Sənin adın gələndə!

Danışan dilim deyil,
saf ürəyim danışır,
Təmiz arzum, niyyətim,
saf diləyim danışır.
Keçmişim işıqlanır,
gələcəyim danışır
Sənin adın gələndə!

Susan hörmətlə susur,
dinən hörmətlə dinir,
Zaman möhtəşəm olur,
tarix hörmətə minir.
Buz bağlayan ürək də
alovlanır, isinir
Sənin adın gələndə!

Hər şey sevgiyə dönür,
məhəbbətə çevrilir,
Ən böyük arzular da
həqiqətə çevrilir.
Tayfa dönüb xalq olur,
xalq millətə çevrilir
Sənin adın gələndə!

Tanrıdan nə gəlirsə,
bütöv gəlir, tam gəlir,
Sevib-sevilənlərə
şərbət gəlir, cam gəlir.
İnamsız olana da
Haqdan bir inam gəlir
Sənin adın gələndə!

Əbədiyyət də, an da,
hər saat da mənimdi,
Bu varlıq da, işıq da,
bu həyat da mənimdi,
Yer, göy də, asiman da,
kainat da mənimdi
Sənin adın gələndə!

Adın mənim əsrimin,
zamanımın sürəti,
Adın mənim ömrümün
müddətsiz bir müddəti.

Qucaram qollarımla
qocaman təbiəti
Sənin adın gələndə!

Güc gəlir, təpər gəlir
qollara, qanadlara,
Şöhrətindən pay düşür
doğmalara, yadlara.
Nur düşür, işıq düşür
gör nə qədər adlara
Sənin adın gələndə!

Canımda neçə ürək,
gör neçə can birləşir,
Can cahana çevrilir,
cahanda can birləşir.
Bütün damarlarıyla
Azərbaycan birləşir
Sənin adın gələndə!

## ƏSRİN HEYDƏR TARİXİ

Dərdi varsa, dərmanı da
var bu millətin,
Dərd düşməndən, dərman dostdan,
güc Haqdan gəlir.
Onu torpaq yaddaşından
ayırmaq çətin,
Güvəndiyi hər nə varsa
torpaqdan gəlir.

El arxası, yer ürəyi,
yurd dayağıydı,
Yaddaş adlı bir torpaqdan
dikəldi Heydər.

Ona görə arxamızda
Qafqaz dağıydı,
Ona görə qəlbimizdə
heykəldi Heydər.

Haqdan gələn bir işarə
onun bəsiydi,
Dövlət qurdu, millət sevdi,
torpaq saxladı.
O, Tanrının bu millətə
hədiyyəsiydi,
Bir kök üstə gör neçə min
budaq saxladı.

Sinə gərdi yad əllərdən
atılan daşa,
"Yaşa" dedi, "yurdum yaşa,
torpağım yaşa".
Ürəyində fırtınalar
verdi baş-başa,
Sinəsində odu sönməz
ocaq saxladı.

Hünərini, təpərini,
hirsini verdi,
Haqqımızı dananların
dərsini verdi.
Dünya ona ən möhtəşəm
kürsünü verdi,
Qoca tarix qarşısında
ayaq saxladı.

Bu, tarixdi, hər adamı
almır eyninə,
Hər adamı yada salmır,
yadda saxlamır.

Dadı alır, dadı verir,
dəyişir həyat,
Qoca dünya hər tikəni
dadda saxlamır.

Bu, tarixdi, birdən-birə
oxumaq olmur,
Onu gün-gün, saat-saat
dərk edəcəksən.
Böyük olan həqiqətə
açıb qəlbini,
Xırda, cılız fikirləri
tərk edəcəksən.

Bu, tarixdi, kim yaratdı,
kim yaşatdısa,
Yaddaş onun, kitab onun,
əsər onundur.
Gələcəyi qucaqlayan
məhəbbət onun,
Qılınclardan kəskin olan
kəsər onundur.

Öz tarixim küncdə qaldı,
bucaqda qaldı,
Oxutdular axtalanmış
axta tarixi.
Başı çəkib, gözü görüb
ağ yalanları,
Millət daha yaxın qoymaz
saxta tarixi.

Fikir çaşmaz, dil dolaşmaz,
ağıl büdrəməz,
Gördüyünü olduğutək
düz yazan olsa.

Heç bir zaman tərəzinin
əyilməz gözü,
Hər zamanın tarixini
düz yazan olsa.

Nə itirdik, nə qazandıq,
yıxıldı getdi,
Bir də gərək yıxılmasın
qalalarımız.
Ölməyini istəmirəm,
şəhid olmasın,
Şəhidliyə hazır olsun
balalarımız.

Bu, tarixdi, özgələr yox,
özümüz yazaq,
Silah bəlli, səngər bəlli,
söz bəlli olsun.
Əsarətin caynağında
qeyrət olmasın,
Doğru bəlli, yalan bəlli,
düz bəlli olsun.

Xeyrimizə işləməyib
bizdən yazanlar,
İzimizi itirməkçün
tarix yazıblar.
Tarixin də ölümü var,
soyqırımı var,
Bizi qətlə yetirməkçün
tarix yazıblar.

Əsrin Heydər tarixidi
mənim yazdığım,
Hər kim yazsa, onun üçün
şərəf-şandı bu.

Alim üçün siyasətin
şah damarıdı,
Şair üçün ən sınaqlı
imtahandı bu!

O, həqiqət tarixiydi,
gün kimi aydın,
İki əsri qucaqladı
isti nəfəsi.
Millətinə yaxından da
yaxın olanın
Uzaq-uzaq əsrlərdən
gələcək səsi.

O, məhəbbət tarixiydi,
sözlü, nəğməli,
Hər baharda təzə açan
çiçək kimiydi.
Sevgisində günəş kimi
odlu-alovlu,
Qəzəbində yer titrədən
şimşək kimiydi.

O, cəsarət tarixiydi,
cəsur, basılmaz,
Ordulara qalib gələn
ordu kimiydi.
Səxavətdə, bərəkətdə
torpağı kimi,
Xasiyyətdə xalqı kimi,
yurdu kimiydi.
O, qətiyyət tarixiydi,
yenilməz, mətin,
Onu millət oğlu kimi
mərd gördü dünya.

İldırımlar bir tükünə
toxunammadı,
Onun polad xislətini
sərt gördü dünya.

O, şəxsiyyət tarixiydi,
ucadan-uca,
Bu dünyanın hər yerindən
boyu göründü.
Hansı xalqın övladıdı,
tanıdı dünya,
Əsli, kökü varaqlandı,
soyu göründü.

Tarix idi, tarixləri
yaxşı bilirdi,
Çıxartmışdı dərinlərdən
üzə tarixi.
Min-min bağlı dəfinələr
itib-batacaq,
Əgər yazıb-çevirməsən
sözə tarixi.

O bilirdi nə deməkdi,
kimlər deməkdi
Raket əsri, qılınc əsri,
nizə tarixi.
Köhnə tarix min illərdən
qaynaqlanırdı,
Zaman ondan başlamışdı
təzə tarixi.
Yerişi də, duruşu da,
danışığı da,
Kəlmə-kəlmə öyrədirdi
bizə tarixi!

## DAVAM EDİR BU TARİX

Davam edir bu ömür,
davam edir bu həyat,
Fikirdə, düşüncədə,
təfəkkürdə, ağılda,
Davam edir bu ömür
Bakıdan Ceyhanadək
Üç dənizlə birləşən
əfsanədə, nağılda.
Davam edir bu ömür
Heydər adlı atanın
bu millətə verdiyi
İlham adı daşıyan
İlham adlı oğulda!
Arzu eləmək asan,
arzuya çatmaq çətin,
Dövləti qurmaq asan,
onu yaşatmaq çətin!
Yox, çətin olmayacaq
bu dövləti yaşatmaq,
Çünki onun başında
ilhamlı rəhbər durur!
Çünki onun yanında
millət səfərbər durur!
Getməlidi bu yolu
millət onunla birgə,
Qarşıda mübarizə,
qarşıda zəfər durur!
Sinələrə sığışmır,
duyğular çalır qanad,
Davam edir bu ömür,
davam edir bu həyat –
Min-min çətin suala
düz tapılan cavabda,

Məktəbdə, mədrəsədə,
müəllimdə, kitabda.
Uca bir dağ kəndinin
Ən ucqar nöqtəsində
açılan məktəbə bax!
Gəl bu açılış günü
Bayram təntənəsində
adətə bax, dəbə bax!
Kəsilən qurbana bax,
yaxılan xınaya bax!
Gözləri gülən qıza,
sevinən anaya bax!
Bu gün mənim xalqımın
Dərs kimi öyrənilən,
dərslik kimi oxunan
Ulu öndər adında
dərsliyi, kitabı var.
Bu gün bu məmləkətdə
məktəb inqilabı var!
Bu gün öz yerindədir
məmləkətin rəhbəri,
İnam ilə açılır
hər açılan səhəri.
Uğurlu fərmanlara
imza atır, qol çəkir,
İllərlə yol görməyən
Zirvələrin qoynuna
cığır açır, yol çəkir.
Yollar ən saf arzudan,
ən saf diləkdən keçir,
Təkcə dərə-təpədən
keçib-getmir bu yollar,
Min-min gözdən od alır,
min-min ürəkdən keçir.

İstedaddan, bilikdən,
ağıldan, yaşdan keçir,
Uçrumdan, sıldırımdan,
qayadan, daşdan keçir.
Yarğanlar basa-basa,
uçrumlar yara-yara,
Böyük ömrün davamı
böyük savaşdan keçir.
Bu yol ata yoludu,
oğul çatdırır başa,
Baxmağa dörd göz gərək,
tamaşadır, tamaşa!
Baxmır yolları kəsən
doludumu, qardımı,
Uçrumları qorxulu,
keçidləri dardımı?
Zirvəyə yol çəkilir,
Sevincindən gözəllər
xına yaxır əlinə.
Muştuluq, xeyir-xəbər
nabat kimi paylanır
hər qıza, hər gəlinə!
Yol yarı yolda qalmır,
Gedir sonuncu evə,
sonuncu kəndə qədər.
Yaradanın özü də
Bu müqəddəs işlərə
sevinir bəndə qədər.
Allahın böyük adı
Yaradandı, Yaradan,
Sən ürəklə girişsən,
O, hər bir çətinliyi
qaldıracaq aradan!
Min illər yadigarı
bizim qoca Bakımız

Ruhumuz, düşüncəmiz,
ağlımız, idrakımız.
Dincəlmək nədi bilmir,
hey vuruşur, əlləşir,
Daş-daş qalxan evlərin
tozu da gözəlləşir!
Sevənlər bir-birinə
güc verir, ilham verir,
Heykəllər şəhərində
Nizami Füzuliyə,
Nəsimi Cabbarlıya,
Mirzə Cəlil Vurğuna
ürəkdən salam verir.
Bu salınan körpülər
Təkcə abadlıq deyil,
Təkcə rahatlıq deyil,
Təkcə ötəri sevinc,
keçəri şadlıq deyil.
Qadir insan əliylə
Tarixin yaddaşına
vurulan bir möhürdü.
İlahi bir gözəllik,
Tanrısal bir sehrdi.
Sabahın əllərindən
tutan əldi körpülər,
Daş muzey, daş abidə,
daş heykəldi körpülər.
Halal əl qabarıdı,
Zəhmətkeş alnındakı
qızıl tərdi körpülər.
Bakı adlı gözəlin
Belini qucaqlayan
bir kəmərdi körpülər.
Körpüdən aylar keçər,
körpüdən illər keçər,

Gələn nəsillər keçər,
gedən nəsillər keçər.
Hər körpüdən keçəndə
Daha da işıqlanar
Qəlbimizin işığı,
gözümüzün şüası.
Güclənən, gözəlləşən
uca bir məmləkəti
Sağ-salamat saxlayar
xalqın xeyir-duası.
Ey mənim əsrdaşım!
Məsləkdaşım, sirdaşım!
Keç inam körpüsündən!
Keç Heydər körpüsündən!
Keç İlham körpüsündən!
Keç bu yurda məhəbbət,
Ehtiram körpüsündən!!!
Oğluna nişan apar,
qız balana nişan tax!
Yurduna, torpağına
doğma bir nəzərlə bax!
Dostların ad gününə
dəstə-dəstə gül apar,
Gül ətrinə bələnmiş
nurlu bir könül apar!
Daş körpü də sənindi,
uca məğrur saray da,
Sarayın içindəki
O bayraqdan boylanan
doğma ulduz da, Ay da!
Yol sənin, cığır sənin,
İş sənin, uğur sənin,
Sevinən körpələrin
Üzündəki təbəssüm,
gözündəki nur sənin!

Ey mənim əsrdaşım!
Bakıya su çəkilir
dağların ürəyindən,
Su dad alır torpağın
gülündən, çiçəyindən.
Şəhərə su çəkilir,
şəhərə saflıq gəlir,
Hər ömrə, hər ocağa
duru şəffaflıq gəlir.
Su duruluq, təmizlik,
su aydınlıq, su həyat!
Hər elə qismət olmur
bu gözəllik, bu həyat!
Su şəhər qucağında
yaşıl meşə deməkdi,
Yollar kənarındakı
yaşıl ağac deməkdi.
Çəmən sinəsindəki
əriş-arğac deməkdi,
Dumduru səs deməkdi,
təzə nəfəs deməkdi!
Qızıl qumlar üstündə
qızılgüllər əkdirən,
Bakıya su çəkdirən
Yüz il bizdən əvvəlin
qəhrəmanı Hacıydı,
Onun xeyirxahlığı
Zamanın şan-şöhrəti,
elin ehtiyacıydı.
Həmin xeyirxahlığı
Bu gün bu məmləkətdə
cavan bir rəhbər görür!
Bir ağıldan güc alan
Sevgi çeşmələrinin
Qazancını, xeyrini
kənd görür, şəhər görür!

Kimdi qıraqda duran
bu hünər yarışında,
Rəhbər xalqa güvənir,
O, hamını bu işdə
hazır, səfərbər görür!
Su da, yol da, körpü də,
məktəb də həyatımız,
Bax, beləcə yaradır
Əsrin əfsanəsini,
əsrin möcüzəsini
Bizim hər saniyəmiz,
bizim hər saatımız.
İlhamlı çağlarını
yaşayır bu gün Vətən,
Xalqın da, rəhbərin də
qəlbi yanan şam olur.
Rəhbər rəhbər olanda
Millət də sağlam olur,
dövlət də sağlam olur!
Küləklərə yem olub
səpələnmir, dağılmır,
Torpaqdan su içəndə
şöhrət də sağlam olur.
Güvənəcək millətin
ən qeyrətli oğluna
Bu müqəddəs torpağın
hər dağı, hər zirvəsi.
Azərbaycan naminə
qoruyacaq İlhamı
Ömrün Heydər qalası,
ömrün Heydər zirvəsi!!!

## ÖMRÜN HEYDƏR ZİRVƏSİ

Zaman endirə bilməz
eşqin köhlən atından,
Sizə çəkib kökləri
yerin yeddi qatından.
Əbədiyyət boylanır
ömrün hər saatından,
Nə tufanda dağılan,
nə dumanda itəndi
Ömrün Heydər zirvəsi!!!

Göylər üçün yaranıb
üfüqlərin şahini,
Analardı yetirən
yenilməzi, dahini.
Özünə dost elədi
Tanrını, İlahini,
Tanrılara qovuşan,
fələklərə yetəndi
Ömrün Heydər zirvəsi!!!

Bu hünər hardan gəlib,
qüdrət nədən yaranıb,
Səhəndə, Savalana,
Qoşqara tən yaranıb.
Göygöl kimi bir qəfil
möcüzədən yaranıb,
Neçə dağa yaraşıq,
neçə zirvəyə təndi
Ömrün Heydər zirvəsi!!!

Şimşək bircə daşını
qoparıb ata bilmir,
Nə tufan, nə qasırğa
şöhrətə bata bilmir.

Buludlar əl qaldırır,
boyuna çata bilmir,
Nə qədər zirvələr var,
hamısını ötəndi
Ömrün Heydər zirvəsi!!!

Dəyirmandı bu dünya,
dəyirmanda ömür dən,
Hamı üyünüb gedir,
nədir qalan ömürdən?
Minillik tağlar qurub
dağdan, daşdan, dəmirdən,
Qocaman dağlar kimi
göyərəndi, bitəndi
Ömrün Heydər zirvəsi!!!

Zamanın salnaməsi,
tarixin yaddaşıdı,
Yaşı dünənin deyil,
min illərin yaşıdı.
Çiynində millət yükü,
dövlət yükü daşıdı,
Azərbaycan adlanan
mübarək bir Vətəndi
Ömrün Heydər zirvəsi!!!

Nə ölən, nə itəndi!
Fələklərə yetəndi!
Neçə zirvəyə təndi!
Göyərəndi, bitəndi!
Müqəddəs bir Vətəndi!
Ər oğlu ər zirvəsi!!!
Ömrün Heydər zirvəsi!!!

## O, MƏNİM XALQIMIN ŞAH VÜQARIDI!

Öyündüm adıyla,
istedadıyla,
Uçdum üfüqlərdə
qol-qanadıyla.
Duruşu sədd oldu,
sinəsi sipər,
Gözündən od aldım,
sözündən təpər.
Zamanın qədəmi
sayalı oldu,
Əsrimin ilinə,
ayına düşdü.
O, mənim ömrümün
xoşbəxtliyinə,
O, mənim baxtımın
payına düşdü.
Hər dəfə əlləri
qalxıb-enəndə
Qəlbim də o əllə
qalxıb-enirdi.
Arzular güləndə
baxışlarında
Toxum ümidlərim
çiçəklənirdi.
Onun gəlişiylə
dəyişdi dövran,
Nə yaxşı bu xalqın
bəxti yarıdı.
Şöhrəti şahlardan
uca dayandı,
O, mənim xalqımın
şah vüqarıdı!

Yasımda qəmləndi,
toyumda güldü,
Gah toydan söz açdı,
gah yasdan dedi.
Hər ildə bir yeni
tarix yaratdı,
Hər günün eşqinə
bir dastan dedi.
Endi tarixlərin
dərinliyinə,
Qorquddan söz açdı,
Manasdan dedi.
Füzuli yenidən
gəldi dünyaya,
"Varam mən sizinlə
hər zaman", – dedi.
Yurduna qayıtdı
Cavid Sibirdən,
"Sizdən ayrılmadım
bircə an", – dedi.
Əsrin son sözünü
əsrin sonunda
Heydər ucalıqda
bir azman dedi.
O, xalqı qaldırdı
şahlıq taxtına,
Xalq ona "əbədi
qəhrəman", – dedi.
Vətən vətəndaşla
kamala çatır,
Sevilən çiçəkdi,
sevən arıdı.
O, mənim xalqımın
baş ucalığı,
O, mənim xalqımın
şah vüqarıdı!

Zirvələr qoynunda
meydanlar verir,
Ucaldır qartalı,
şahini zaman.
Hər dəfə dünyaya
dahi gələndə
Silir ürəklərdən
ahını zaman.
Yüz ildə bir dəfə
gələ-gəlməyə,
Hər gün yetişdirmir
dahini zaman.
Nə yağış qorxudar,
nə tufan, nə qar,
Göydə günəş kimi
doğulanları!
Dünyaya Allahın
özü göndərir,
Nur olub hər yana
dağılanları.
Mənim qəhrəmanım
tək dünənin yox,
Gələcək uğurlu
sabahlarındı.
Adı naqislərin,
naşıların yox,
Dünyanın sirrindən
agahlarındı.
Onun insan eşqi
yer, göy, kainat,
Onun Vətən eşqi
zirvə qarıdı.
O, mənim himnimin
gurlayan səsi,
O, mənim xalqımın
şah vüqarıdı!

Yolçu Haqq yolçusu,
yol Allah yolu,
Bu yol bir uğurlu
dərgaha gedir.
Əvvəli sevənin
ürəyindədir,
Sonu gələcəyə,
sabaha gedir.
Ürəkdən od alır
böyük sevgilər,
Bəndədən başlanır,
Allaha gedir.
Tanrıya qovuşur
haqq yol tutanlar,
Bu yolu çaşanlar
günaha gedir.
Böyük işlər üçün
yarananların
Üzü zaman-zaman
Haqqa sarıdı.
Qoymadı haqqımız
tapdalanmağa,
O, mənim xalqımın
şah vüqarıdı!

Adı çəkiləndə
elə bilirəm
Yerin qismətidi,
göyün baxtıdı.
O, mənim ruhumun
işıq qaynağı,
O, mənim könlümün
nur paytaxtıdı.
Ona nə dedimsə,
ürəkdən dedim,

Ondan nə yazdımsa,
ürəklə yazdım.
Çəkildim min ilin
qədimliyinə,
Neçə şam əritdim,
lələklə yazdım.
Tək yaza bilməzdim
bu dastanı mən,
Gecə də, gündüz də
mənə "yaz!" deyən
Cəbrayıl adında
mələklə yazdım.
Qələm götürmədim
adi həvəslə,
Ən şirin arzuyla,
diləklə yazdım.
Əlinin istisi
əllərimdədi,
Gözünün işığı
gözümdə qalıb.
Şah fikri, şah sözü,
şah deyimləri
Ən şirin, ən güclü
sözümdə qalıb.
Ruhunu, adını,
xatirəsini
Qəlbimdə əzizdən
əziz saxladım.
Qoymadım bu eşqə
ləkə düşməyə,
Zirvə qarı kimi
təmiz saxladım.
Məni əbədilik
ona bağlayan
İşıqlı aləmi
tutdu qolumdan.

Hər görüş çevrildi
bir kitab oldu,
Dəftəri, qələmi
tutdu qolumdan.
Bir dadlı meyvə də
mənəm bağında,
Vətən bağçasıdı,
millət barıdı.
O, mənim xalqımın
xaqan zirvəsi,
O, mənim xalqımın
şah vüqarıdı!

Milləti millətdi,
dövləti dövlət,
Tarixi tarixdi,
şöhrəti şöhrət.
Baxışı dan yeri,
ürəyi ocaq,
Torpağı torpaqdı,
bayrağı bayraq.
Obanın, oymağın,
elin oğludu,
Yağışın, buludun,
selin oğludu.
Bir məslək, əqidə,
bir din oğludu,
Başı buludlarda,
kökü dərində,
Azərbaycan adlı
yurdun oğludu.
Bağın bağbanıdı,
ağacın barı,
Min ilə bəs edər
yaratdıqları.

Yeraltı, yerüstü
xəzinələrtək
Yerin sərvətidi,
yurdun varıdı.
O, mənim xalqımın
tükənməzliyi,
O, mənim xalqımın
şah vüqarıdı!

Gedəni qaytaran,
itəni tapan,
Yoxu var eyləyib
yoğuran, yapan,
Xaraba üstündə
abadlıq quran,
Yumruğu havanın
bağrını yaran,
Dara düşənləri
dardan qurtaran,
Çiynini dağların
altına verən,
Dəli tufanlara
köksünü gərən,
Bəndənin Allaha
yetişən əli,
Siyasət elminin
məğrur heykəli,
Dözümün timsalı,
səbrin qayası,
İnamın özülü,
gücün mayası,
Dövlətin dayağı,
elin dirəyi,
Zamanın dühası,
əsrin ürəyi,

Yaddaşın sultanı,
sözün zərgəri,
Fikrin, düşüncənin
solmayan zəri,
Sınan ürəklərin
sökülən danı,
Dövranın ən böyük
qan yatırdanı,
Barışın ustadı,
sülhün memarı,
Adın ucalığı,
şöhrətin barı,
Hünər kitabıdı,
dövlət yarıdı,
Ən uca zirvədi
minilliklərə,
O, mənim xalqımın
şah vüqarıdı!!!

## ONUN BAYRAQ SEVGİSİ

Götürdü mayasını
ananın laylasından,
Düzlərin zəmisindən,
dağların yaylasından.
Ürəyində qaynadı
ən xoş duyğular kimi,
Qovuşmaqçün çaylara
axdı gur sular kimi.
Eniş-yoxuş görsə də,
nə susdu, nə yoruldu,
Duruldaqca duruldu,
vurulduqca vuruldu.
Saf arzularla gəldi
duruluğa, saflığa,

Bulanmadı, qovuşdu
əbədi şəffaflığa,
Bulaqlardan güc aldı
onun bulaq sevgisi!

Öz əliylə ömrünü
əkdi qara şum kimi,
Kök atdı dərinlərə
sağlam bir toxum kimi.
Çəkdi ciyərlərinə
göylərin yağışını,
Yığdı baxışlarına
torpağın naxışını.
Meşədə palıd oldu,
dağda möhtəşəm qaya,
Sığmadı bu cahana,
sığışmadı dünyaya.
Xırmanda bar-bərəkət,
dəyirmanda dən oldu,
Vətəndən deyə-deyə
böyüdü Vətən oldu.
O, nəyi sevirdisə,
varlığıyla sevirdi,
Bütün Azərbaycanı
and yerinə çevirdi,
Can verdi torpaqlara
onun torpaq sevgisi!

Alışdırdı təzədən
sönüb gedən şamları,
Aydınlığa çıxartdı
qaranlıq axşamları.
Əritdi ürəklərin
şaxtasını, buzunu,

Yandırdı baxışların
Ayını, ulduzunu.
Qızdı üşüyən əllər,
qızdı donmuş ayaqlar,
Göz vurdu bir-birinə
sevincindən çıraqlar.
Həyat gəldi yenidən
ocaqlara, közlərə,
Verdi öz işığını
könüllərə, gözlərə,
Gücü Günəşdən aldı
onun ocaq sevgisi!

Dövlətin başı üstə
doğan Günəş deməkdi,
Şəhidlərin qəlbində
yanan atəş deməkdi,
Üfüqlərin qoynunda
alışan zər deməkdi,
Namus, qeyrət, şan-şöhrət,
sevinc, zəfər deməkdi.
Göylərin cilvələnən
əlvan rəngi deməkdi,
Çırpınan könüllərin
xoş ahəngi deməkdi,
Məğlub olmaq bilməyən
bir qətiyyət deməkdi,
Müqəddəs arzu, dilək,
təmiz niyyət deməkdi,
Cəsur əsgər, yorulmaz
qalib ordu deməkdi,
Qoşunun sərkərdəsi,
elin mərdi deməkdi,
Hədəfini düz vuran
sərrast silah deməkdi.

Nur içində parlayan
aydın sabah deməkdi,
Hamıdan "can!" eşidib,
hamıya "can!" deməkdi,
Öz haqqına qovuşan
Azərbaycan deməkdi.
Səsini eşidəndə
qəlbimiz dağa döndü,
Bayraqdan deyə-deyə
bu gün bayrağa döndü,
Onun bulaq sevgisi!
Onun ocaq sevgisi!
Onun torpaq sevgisi!
Onun bayraq sevgisi!

## MƏN AZƏRBAYCANLIYAM!

Öyünürdü, öyünür,
öz xalqının adıyla,
Öyünürdü bu xalqın
böyük istedadıyla.
Onun üçün dünyada
Ən böyük şərəf idi
azərbaycanlı olmaq,
Həmişə mərd, mübariz,
həmişə canlı olmaq.
Hər dəfə ucalırdı
göyün yeddi qatına,
Xalqın adını çəkib
"Azərbaycan!" deyəndə,
Saf poladdan tökülmüş
heykələ bənzəyirdi
Azərbaycan eşqinə
vətənə "can!" deyəndə.

Bilirdi bu torpağın
nələr keçib başından,
Sular göl-göl olubdu
gözlərinin yaşından.
Oğulları, qızları
güllələrə yem olub,
Sərvəti çox olsa da,
son qazancı qəm olub.
Hansı dağa əl atsan,
altından qızıl çıxıb,
Mənim qızıl baxtımı
qara pula döndərən
Nə qədər yağı çıxıb,
nə qədər rəzil çıxıb.
Ən güclü tufanlara
dağ kimi gərib sinə,
Yenə dözüb, dayanıb
Ən acı tarixlərin
ən ağır zərbəsinə.
Çox olsa da yer üstə
öldürənlər, ölənlər,
Çox olsa da bu yurdu
böldürənlər, bölənlər,
Öldürə bilməyiblər
milləti millət kimi,
Qalıb adı, ünvanı,
Qalıb yeri, nişanı
Tarixlərə həkk olan
böyük həqiqət kimi!
Ona görə deyirdi
qürurla, iftixarla,
ən böyük bir vüqarla:
"Nağıllı, əfsanəli,
şeirli, dastanlıyam,
Həmişə fəxr etmişəm,
mən azərbaycanlıyam!

Başım ucadan uca,
                    köküm dərindən dərin,
Mayasını məndə gəz
                    qədim əsatirlərin.
Qobustana həkk olub
                    naxışlarım, izlərim,
Qobustan qayasıyam!
Yağıların önündə
Əyilməyib qamətim,
                    bükülməyib dizlərim.
Bəy kimi bəyliyim var,
                    xan kimi xanlığım var.
Bu qocaman dünyada
Mənim gəncliyim olub,
                    mənim cavanlığım var.
Qorqud qocalığımsa,
Babəkdir cavanlığım,
Xətai qılıncıdır
                    əsl qəhrəmanlığım!
Heç kəs məcbur etməyib
Tanrını, İlahini,
Tanrı bizə bəxş edib
                    on üç yaşlı dahini,
"Koroğlu"yam, "Sənsiz"əm,
Bülbüləm, Üzeyirəm,
Mən Vətəndən nə desəm,
                    var səsimlə deyirəm.
Varlığının işığı
Aydan, Günəşdən gələn,
Adının hər mənası
                    oddan, atəşdən gələn,
"Odlar yurdu" deyilən
                    əbədi nişanım var,
Bu adda, bu nişanda
                    şöhrətim var, şanım var.

Od oğlu olmasaydım,
Saçımdan dırnağıma
atəşlə dolmasaydım,
Çoxdan söndürmüşdülər
işığımı, nurumu,
Çoxdan sındırmışdılar
sınmayan qürurumu.
Tufanların əlində
didərdilər tükümü,
Baltalara güc verib
kəsərdilər kökümü.
Günəşin işığıyla
bacara bilmədilər,
Bac vermədim düşmənə,
bac ala bilmədilər.
Tufanlı dənizlərdə
sərrast üzən gəmiyəm,
Vətənin düzlərində
bərəkətəm, zəmiyəm.
Ruhumla, nəfəsimlə
Qoca Şərqin ən dolu,
ən zəngin aləmiyəm.
Yenə də ayaqdayam!
Millətəm, millət kimi!
Dövlətəm, dövlət kimi!
Hər gün çiçək açıram,
hər gün bar gətirirəm
ana təbiət kimi!
Keçmiş uludan ulu,
tarix qədimdən qədim,
Xalqımı, millətimi
Mən bütün tarix boyu
uca görmək istədim.
Haqqım var bu istəyə,
Ən böyük ümidlərim
bağlıdı gələcəyə.

Bəyli, bəyzadəliyəm,
                xaqanlıyam, xanlıyam,
Həmişə fəxr etmişəm,
                mən azərbaycanlıyam!

Xalqımızın adında
                "can" sözü var, "can" sözü,
Canımızdan ayrılıb
"Can Azərbaycan!" sözü.
Neçə min il yol gəlib
                muğamıyla, sazıyla,
Bülbülləri mat qoyub
                sehrkar avazıyla.
Kim danışa bilirsə
Azərbaycan dilində,
Demək, danışa bilər
Bütün dünya dilində,
                bütün cahan dilində.
Bu dil sevgi dilidir,
Anamızın dilidir,
                atamızın dilidir,
Sevgilimizin dili,
                butamızın dilidir,
Dünyanın ən sevilmiş,
                ən saf, gözəl dilidir.
Misraları qanadlı,
                sətirləri cığalı,
Dilin zərifliyidir
                ruhumuzun sığalı.
Toxumu kol-kol olmuş
                torpaq dilidir bu dil,
Saçağı tel-tel olmuş
                bayraq dilidir bu dil.
Kitab dili, ruh dili,
                əsər dilidir bu dil,

Mərdlik, qətiyyət dili,
kəsər dilidir bu dil.
Ruh dili, can dilidir,
Azərbaycan dilidir
mənim danışdığım dil,
Eşqinə, sevgisinə
hər gün alışdığım dil.
Mən bu dildən almışam
ruhumun mayasını,
Mən bu dildən almışam
gözümün ziyasını.
Mən bu dilə bağlanıb
arzulara çatmışam,
Hər şairin eşqinə
bir məqbərə yapdırıb,
Hər alimin adına
bir heykəl yaratmışam.
Çiçəyini, gülünü
ürəyimdə əkmişəm,
Mən bu xalqın dilindən
şəhdi-şirə çəkmişəm.
Azərbaycan eşqinə
Neçə-neçə sınaqdan
mən üzüağ çıxmışam,
Güvənmişəm adına,
qəlbinə, qeyrətinə,
Mən ona güvənəndə
Ölümlərin içindən
həmişə sağ çıxmışam.
Mənə ölüm yoxdu, yox,
ölümü öldürmüşəm,
Sanıram səksən il yox,
min il ömür sürmüşəm.
Xalqım varsa, mən varam,
O, məni darda qoymaz,
mən onu tək qoymaram.

Neçə ki bu dünya var,
Mən onun ruhundayam,
qəlbində, qanındayam.
Dünən olduğu kimi,
Bu gün olduğu kimi,
Sabah da, biri gün də
Hər zaman mən onunla
Döyüş meydanındayam,
hünər meydanındayam!
Bu xalqın məhəbbəti
Məni ərlər içində
ər oğlu ər elədi,
Bir evin Heydəriydim
bu dünyaya gələndə,
Bu xalq məni qaldırıb
Bütün zamanlar üçün
əsl Heydər elədi.
Azərbaycanım kimi
Diriyəm, əbədiyəm,
möhtəşəməm, canlıyam,
Həmişə fəxr etmişəm –
mən azərbaycanlıyam!".

## HƏR YERDƏ QARŞIMA SƏN ÇIXACAQSAN!

Neçə min illərdi
yol gəlmişik biz,
Başımız bu qədər
ucalmamışdı.
Bir Vətən övladı,
bir Vətən oğlu
Torpaqdan bu qədər
güc almamışdı.

Mənim əsrimin də,
əsərimin də
Sənsən baş igidi,
baş qəhrəmanı.
Rəssam qardaşımın
fırça hünəri,
Memar qardaşımın
daş qəhrəmanı!
Fikrə getmişəmsə,
xəyallarımda,
Şeir yazmışamsa,
əsərimdəsən.
Evə gəlirəmsə,
yerin başdadı,
Yola çıxıramsa,
səfərimdəsən.
Arana enirəm,
yaşıl bağça-bağ,
Dağlara qalxıram,
qaynar bulaqsan,
Hər yerdə qarşıma
sən çıxacaqsan!

Gəzirəm başabaş
Azərbaycanı,
Hardasa sevinc var,
hardasa qəm var.
Hər addımbaşında
səninlə bağlı
Heç vaxt unudulmaz
bir xatirəm var.
O da bir fürsətdi,
uçdu beləcə,
O da bir ömürdü,
keçdi beləcə.

Qələmim, dəftərim,
şeirim, ilhamım
Səni baş qəhrəman
seçdi beləcə.
Ulu millətimin
bağrından qopan,
Yağıştək torpağın
bağrına hopan,
Hünər dağlarını
külünglə deyil,
Dözümlə, ağılla,
səbirlə çapan
Bir igid yaratdı
səni təbiət,
Millətin yolunda
qurban olmağa
Bir şəhid yaratdı
səni təbiət.
Harda addımlasam,
harda dolansam,
Ruhumu qızdıran
odsan, ocaqsan.
Hər yerdə gözlərim
baxacaq sənə,
Hər yerdə qarşıma
sən çıxacaqsan!

Vaxtında qaladın
öz ocağını,
Özgə ocağında
heç qızınmadın.
Sındırmaq istədi
xəbislər səni,
Heç vaxt əyilmədin,
heç vaxt sınmadın.
Bizi tufan yıxmaz,
sel oymaz daha,

Sən bizim çəkimiz,
                    ləngərimizsən.
Sabaha İlhamla
                    gedən dövləti
Qoruyan səsimiz,
                    səngərimizsən.
Heç vaxt yorulmadı
                    səndən yazanlar,
Ümidlər, inamlar
                    güc aldı səndən.
Hər kəs ömür verdi
                    öz sənətinə,
Xəyallar, ilhamlar
                    güc aldı səndən.
Haqqı tapdalanan
                    bir cəmiyyətin
Qaytardın özünə
                    haqqı-sayını.
Qaytardın özünə
                    sən bu millətin
Azadlıq adlanan
                    halal payını.
Qəlbində yaratdın,
                    qəlbində qurdun
Vətən sevgisinin
                    baş sarayını.
Allah da, bəndə də
                    çox gözəl bilir,
Getdiyin yollarda
                    haqq oğlu haqsan.
Mən səndə tapmışam
                    həqiqətimi,
Hayana boylansam,
                    hayana getsəm,
Hər yerdə qarşıma
                    sən çıxacaqsan!

## HEYDƏR ZİYARƏTGAHI

Düşüncələr içində
　　　　ən kövrək bir andayam,
Yenə ziyarətində,
Fəxri xiyabandayam.
Qarlı bir qış günündə,
Başım sinəmin üstə
　　　　dayanmışam önündə.
Yenə əlim göydədi,
　　　　yenə dilim duada,
Rəhmətlər oxuyuram
　　　　bu ünvana, bu ada.
Dua Haqq pıçıltısı,
　　　　dua Allah kəlamı,
Haqqa qovuşanlara
　　　　qalanların salamı.
Sağ-solunda təpələr
　　　　yarı yaşıl, yarı ağ,
Təbiətin işidir
　　　　otu yaşıl, qarı ağ.
Burda da xidmətində
　　　　baş-başadır qışla yaz,
Fəsillərin heç biri
Ruhunu, diqqətini
　　　　bir an səndən ayırmaz.
Zoğalı rəngindəki
　　　　məğrur qranit qaya –
Heykəlinə çevrilib
Öz sözünü çatdırır
　　　　burdan bütün dünyaya.
Üzün millətə doğru,
　　　　əl Allaha doğrudur,
Düz tapıb heykəltəraş,
Belə daha yaxşıdır,
　　　　belə daha doğrudur.

Göylərə dirək bilib
göyə qalxan əlini,
Qəlbimə köçürmüşəm
Yaşıl dağlar içində
ucalan heykəlini!
Həyatda olduğutək
Məğrur heykəlində də
alın açıq, üz gülər,
Anam Azərbaycanın
canlı xəritəsidir
üzündəki cizgilər.
O canlı xəritədə
Biz Şahdağa baxırıq
dolu dəfinə kimi,
Biz Xəzərə baxırıq
sonsuz xəzinə kimi.
Biz Göygölə baxırıq
nurlu baxtımız kimi,
Biz Bakıya baxırıq
nur paytaxtımız kimi.
Bu torpağın ətrini
Canımıza çəkirik
Ağrıların məlhəmi,
dərdin əlacı kimi!
O canlı xəritədə
İnamla təzələnir
Yer üzünün tək yolu,
Dünyanın bu başından
o başına uzanır,
qıvrılır İpək yolu,
gül yolu, çiçək yolu,
O yolları çəkənin
əqidə, məslək yolu!
Zoğal rəngindəki
qranit qaya Heydər!

Yaxşı bax ətrafında
Çalxalanan dənizə,
kükrəyən çaya, Heydər!
O, sevgi dənizidi,
dalğası şahə qalxır,
Sənə məhəbbət ilə
Oxunan duaların
səsi Allaha qalxır!
O, sevgi çaylarıdı,
burda verib baş-başa,
Bu möhtəşəm ziyarət
Zaman üçün sərgidi,
dünya üçün tamaşa!
Sən ki həyatın boyu
elnən, millətnən oldun,
Sən ki həyatın boyu
söznən, sənətnən oldun,
Alimnən, bəstəkarnan,
heykəltəraşnan oldun,
Kaşanələr yaratdın,
torpaqnan, daşnan oldun,
Hər qaya heykəl olsa,
heykəl halaldır sənə,
Hər ürək məşəl olsa,
məşəl halaldır sənə.
Bəstəkarın bəstəsi,
laylası, şikəstəsi,
Şairin ən qiymətli
sözü halaldır sənə.
Çiçəklər dənizində
məzarın üzən gəmi,
Qönçələrin, güllərin
gözü halaldır sənə.
Təkcə mən deyiləm ki,
səni sevən, istəyən,

Dünyanın hər yerində
səni sevənlər yaşar,
Sevgisi, məhəbbəti
Tanrıya tənlər yaşar.
Əli sənə yetməyən,
səsi sənə çatmayan,
Ziyarətin eşqinə
gecə-gündüz yatmayan
Nə qədər tamarzılar,
həsrətlər var dünyada,
İmkansızlar, qəriblər,
qürbətlər var dünyada.
Qəriblərin adından,
qürbətlərin adından,
Vətəndən uzaqdakı
həsrətlərin adından
Türbənə, heykəlinə,
qəbrinə baş əyirəm.
Elə bu sevgiylə də
Adı səninlə bağlı
gücüm nəyə çatırsa
Yaratmaq istəyirəm,
yaşatmaq istəyirəm.
Çox "dostlar"ı tanıyıb
çıxarmışam sınaqdan,
Dünən yaxın olanlar
bu gün baxır uzaqdan.
Ürəyimə, qəlbimə
Səndən əziz, vəfalı,
səndən yaxın DOST hanı?
Hələ nöqtə qoymuram,
Hələ davam edəcək
Böyük ömrün dastanı!!!

Neçə sönməz ocağın,
yanan şamın eşqinə,
Müqəddəs əqidənin,
saf inamın eşqinə,
Bu gün hamının olan
tək İLHAMIN eşqinə
Salamlar olsun sənə!
Bir vaxt məzar daşımın
Üstündə yazılanda
daş soyadım, daş adım,
Qəmim yox bu dünyada:
Sənintək şəxsiyyətin
vaxtında çaldım qələm,
Sənintək bir KİŞİNİN
zamanında yaşadım.
Baxıram, ellər yenə
sel-sel, axın-axındı,
Bu yerdə Haqq evinə
insan daha yaxındı.
Şair, sən də qəlbini
yandır indi, yax indi,
Dərdinə əlac oldu
Heydər ziyarətgahı!

Gözlərin yaşına bax,
kirpiklərin neminə,
Dünya təsəlli verir
bir millətin qəminə.
Çiçəklər xalı kimi
sərildi qədəminə,
Min əriş-arğac oldu
Heydər ziyarətgahı!

Əsirgəməz canını,
hər nəyi var verəcək,
Bağından ətir saçıb,
dağından qar verəcək.

Min il gəlib-keçsə də,
gül açıb, bar verəcək,
Qurumaz ağac oldu
Heydər ziyarətgahı!

Gözündə zirvə eşqi,
alnında dan yeri var,
Tarixi yazmaq üçün
dan yeri, şan yeri var.
Hər xalqın, hər millətin
ruh yeri, can yeri var,
Ruha ehtiyac oldu
Heydər ziyarətgahı!

Xalqın abrı, isməti,
qeyrəti, arı burda,
Xalqın dostu, sirdaşı,
arxası, yarı burda,
Zəhmətinin meyvəsi,
bəhrəsi, barı burda,
Başımızda tac oldu
Heydər ziyarətgahı!

## ŞEİRLƏRİN SİRDAŞIYDI, ŞAİRLƏRİN QARDAŞI

Sözün sirli qalasında
bir möcüzə ucaldı,
Böyük sözün adamıydı,
böyük sözə ucaldı.
Dediyi söz Haqdan gələn,
İlahinin sözüydü,
Bizim üçün əziz olan
bir dahinin sözüydü.

O bilirdi hər söhbətin
çeşidini, rəngini,
Sözün üstə kökləmişdi
səsinin ahəngini.
Divar-divar ucaldırdı
kərpic sözü, daş sözü,
Başdan uca saxlayırdı
baş kəlməni, baş sözü.
Gözlərinin işığıydı
Haqdan gələn şairlər,
Göydən enən sevincini
yerlə bölən şairlər.
O bilirdi hansı əsər,
hansı kitab yazılıb,
Hansı sual baş qaldırıb,
hansı cavab yazılıb.
Niyyətindən, nəfəsindən
tanıyırdı şairi,
Vergülündən, nöqtəsindən
tanıyırdı şairi.
Gözlərindən yayınmırdı
heç bir kəsin zəhməti,
Öz vaxtında bilinirdi
onun qədri, qiyməti.
Hamı ondan gözləyirdi
hər qayğını, diqqəti,
Böyükləri böyüdürdü
onun ağlı, hikməti.
Sözlərindən güc alırdı
ən möhtəşəm kürsülər,
Sinəsində çağlayırdı
gur çeşmələr, gur sular.
Ellər onu hər elmdən
yaxşı halı bilirdi,
Söhbətini dilimizin
yağı-balı bilirdi.

Gördüyündən götürürdüm,
şagird məndim, məktəb o!
Məna oydu, məzmun oydu,
məqsəd oydu, mətləb o!
Onun üçün ən işıqlı,
ən mənalı şeirdi
Bu vətənin hər qarışı,
hər qayası, hər daşı,
Şeirlərin sirdaşıydı,
şairlərin qardaşı!

O bilirdi "boy boylamaq"
nə mübarək kəlmədi,
O bilirdi "soy soylamaq"
hansı eldən gəlmədi.
O bilirdi şeirimizin
çəkisini, yükünü,
O bilirdi qədim "Xəmsə"
hardan alır kökünü.
O bilirdi "can!" nə sözdü,
sözdə olan can nədi,
Min-min əsrə işıq salan
bir "Şəbi-hicran" nədi.
O bilirdi Füzulinin
fəryadını, ahını,
Söz sultanı necə tutub
Tanrının dərgahını.
O bilirdi şair üçün
Sibir nədi, qəbir nə,
Cavid kimdi, həsrət nədi,
dözüm nədi, səbir nə?
O bilirdi Sabir üçün
ürəyi şişmək nədi,
O bilirdi Vurğun olub
xərçəngə düşmək nədi.

O, bilirdi nədən ötrü
Şəhriyarı sevirdi,
Şəhriyarın nəfəsində
Üzümüzə həsrət qalan
bir diyarı sevirdi.
O bilirdi Bəxtiyar
niyə "Gülüstan" dedi?
Ayrılıqdan söz açdı,
dərdinə dastan dedi.
O bilirdi nə vulkandı
Xəlil Rza vulkanı,
O bilirdi nə tufandı
Məmməd Araz tufanı,
O bilirdi nə meydandı
Zəlimxanın meydanı.
O bilirdi bu milləti
söz qaldırır ayağa!
And içəndə şeir ilə
and içəcək bayrağa!
Ona görə hava kimi
ciyərinə çəkirdi
Sözümüzün şirəsini,
şeirimizin ətrini,
Ona görə çox bilirdi
şairlərin qədrini.
Nə bitəndi, nə tükənən
şeiri, sözü, söhbəti,
Şair, indi hünərin var
o xəznədən var daşı,
Şeirlərin sirdaşıydı,
şairlərin qardaşı!

O, sözə güvənirdi,
sözə arxalanırdı,
Sözdəki uzaqgörən
gözə arxalanırdı.

Dahilər dodağında
söz səngərdi, silahdı,
Söz hüdudsuz zamandı,
söz axşamdı, söz sabah.
Dünyanı "Ol!" sözündən
yaratmadımı Allah?!
Silahı söz olanlar
sınmadı, qısılmadı,
Hər yerdə qalib oldu,
heç zaman basılmadı.
Söz ürəkdi, söz könül,
söz başdı, söz beyindi,
Onun uçuş zirvəsi
güllələrdən yeyindi.
Öndərin nəzərində
söz Xətai qılıncı,
Nəsimi inadıydı,
Söz Tanrı pıçıltısı,
söz mələk qanadıydı.
O, şairə baxırdı
Sənətin peyğəmbəri,
sözün Allahı kimi,
O, şairə baxırdı
Azərbaycan dilinin
sultanı, şahı kimi.
Şeir ürəyin səsi,
şair ər oğlu ərdi,
Onun hansı məclisi
şairsiz ötüşərdi?
Ulu sözün sehrini
düşünəndə, duyanda
Ən uca zirvələrdə
olduğunu görmüşəm.
Onun öz tarixiydi
şeirin minillik yaşı,
Şeirlərin sirdaşıydı,
şairlərin qardaşı!

## ONUN SƏSİ

Hər kəlməsi
Anaların laylasıtək
ürəklərə yatan kişi,
Səksən yaşda şəhidliyin
zirvəsinə çatan kişi,
Hər sözünü
Düşmənlərin cərgəsinə
Güllə kimi, mərmi kimi,
silah kimi atan kişi,
Sevgisiylə nur selitək
könüllərə axan kişi,
Qəzəbiylə baxışlarda
şimşək kimi çaxan kişi,
Sınıq-salxaq körpüləri
sağ-salamat keçən kişi,
Nişan alıb hədəfini
doğru-düzgün seçən kişi.
Ordu, qoşun, mərmi, silah
bir ürəyə yerləşəndə,
Onu görən izdihamlar
yumruq kimi birləşəndə,
Rəqiblərin silahını
əllərindən aldıranda,
Gur səsiylə salonları
ayaq üstə qaldıranda
Bilirdilər, görürdülər
Bu məğrur səs,
Bu gur nəfəs,
Yeri, göyü qucaqlayan
Sonsuz həvəs
Bir nəfərin işi deyil!
Bir Ali Baş Komandanın,
Bir əsgərin işi deyil!

Elin gücü, yelin gücü,
selin gücü, əlin gücü,
Səs verirsə həmin səsə,
Sığışmırsa dar qəfəsə,
Bu, Allahın hikmətidir,
bu, bəşərin işi deyil!
Yeddi yerə xidmət edib,
üzə maska geyənlərə,
İçi qarpız qafaları
boş-boşuna öyənlərə,
Yeddi cildə, yeddi rəngə,
yeddi rola girənlərə,
Sürtülmüş bir qalay kimi
üzü üzlər görənlərə
Qılınc kimi sıyrılırdı
qətiyyəti,
Bildirirdi qəzəbini
aydın, qəti:
"Mövqeyini açıq bildir!
Baş açmıram
Sən getdiyin hansı yoldur,
Danışdığın hansı dildir?
Danışanda mızıldama,
Mövqeyini açıq bildir!".
Öz mövqeyi göylər kimi
aydın idi,
Qılınc kimi kəskin idi.
Böyüklüyü qarşısında
Çox "böyüklər" cılız idi,
xırda idi, miskin idi.
Ürəyində öz xalqının
ağrıları, əzabları,
Ürəyində ağrı dolu
sualları, cavabları,

Oxumuşdu
Hər sətrinə, cümləsinə
qan çilənmiş kitabları.
Dağ çəkməzdi,
Gəmi, qatar daşımazdı
o çəkən iztirabları!
Ən dəhşətli tufanlara
sinəsini gərmişdi o,
Millətinin ən ağrılı
günlərini görmüşdü o.
Dövlət adlı bir sarayı
Kərpic-kərpic ucaltmışdı,
divar-divar hörmüşdü o!
Bu sarayın bünövrəsi
Axı niyə dağılmalı,
axı niyə uçmalıydı?
Hamı onun qurduğunu
Həyat kimi qorumalı,
bala kimi qucmalıydı.
Səs qalxırdı ürəyindən
dalğa kimi, tufan kimi,
Qabarırdı, çəkilirdi
ümman kimi.
Səs deyirdi:
– Mən qoymaram kimsə gəlib
təhqir edə millətimi,
talan edə sərvətimi.
Mən qoymaram
yadlar gəlib viran qoya
cənnətimi.
Azərbaycan ancaq özü
qoruyacaq
Namusunu, qeyrətini,
dövlətini, millətini!!!

Səs deyirdi:
– Mən bu xalqın ürəyində
sarı siməm,
Mən uluyam, mən qədiməm!
Heç bir qüvvə
məni yoldan döndərəmməz,
ocağımı söndürəmməz.
Öz yolumda öz qatarım
çıxıb yola,
Tarix deyir:
– Uğur ola! Uğur ola!
Mənimkidi hava yolu,
dəniz yolu, dəmir yolu,
Yarı yolda qoymaz məni
sabahlara doğru gedən
ömür yolu!
Səs deyirdi:
– Yurdam, evəm, aşiyanam,
Qayğınızı öz çiynimdə
daşıyanam.
Sizi nurtək yaşadanam,
Sizin ilə sonsuzluğa
çatanadək yaşayanam!
Səs deyirdi:
– Mən bir diləm,
Azərbaycan ətri verən
ana dili,
Beşik dili, layla dili,
məna dili.
Süleymanın anladığı
quş diliyəm,
Zəhmət dili, qayğı dili,
iş diliyəm,
Torpaq dili, toxum dili,
xış diliyəm.

Səs deyirdi:
– Düşmənçilik toxumunu
köklərindən qoparanam,
Qəlbinizə dəyən olsa
Dalğa kimi hayqıranam,
Dəniz kimi qabaranam,
Eşqimizi bayraq kimi
sabahlara aparanam!
Mən bu yurda keşikçiyəm,
Bu torpağa gözətçiyəm.
O xəzinədə nələr varsa,
mənə güvən.
Apar, atam, apar, anam!
Səs deyirdi:
– Mən şöhrətəm, mən dövlətəm,
Qələbəyəm, qətiyyətəm!
Azadlığın, istiqlalın
məbədiyəm!
Tarix kimi möhtəşəməm,
dünya kimi əbədiyəm!!!

## OXUNACAQ BU DASTAN

Onsuz da ucalardan
ucada durur adı,
Yazsam da, yazmasam da
bilir vətən övladı.
Mən öz borcumu verdim
mənə qiymət verənə,
Ruhuma sığal çəkib,
sözə zinət verənə.
Keçirdim hər kəlməni
ürəyimin qanından,
Burda da dada çatdı,

Məni özü çıxartdı
sözün imtahanından.
Mənim ayaq basdığım
mübarək bir astana,
Səksən illik bir ömrü
çevir dedi dastana.
Elə bir dastana ki,
Ustadnamə yerində,
Vücudnamə yerində,
Qıfılbəndi yerində,
Müxəmməsi yerində,
Zili, bəmi, avazı,
Enən səsi yerində,
Qalxan səsi yerində!
Elə bir dastana ki,
Onun deyiş meydanı,
Onun döyüş meydanı,
Hərbəsi-zorbası var,
Qəfil gələn hücumu,
sərt olan zərbəsi var.
O, bir "Ustadnamə"di,
hər kəlməsi həqiqət,
O, bir "Vücudnamə"di,
başdan-başa təbiət.
O, bir qıfılbənddi ki,
Nə qədər açılsa da,
Ömrün hər dönəmində
açılmamış sirr qalır.
Bir fikrə gəlirsən,
Yenə onunla bağlı
Nə qədər deyilməmiş
söz qalır, fikir qalır.
O, atalar sözüdü,
Yaddaşlarda qalacaq
əbədi möhür kimi.

Gələcək nəsilləri
hər gün sehrləyəcək
Sirr kimi, sehr kimi!
Ən incə mətləblərə,
Ən zərif duyğulara
toxunacaq bu dastan.
Xalqın saf ləhcəsində,
elin şirin dilində,
Füzulinin, Sabirin,
Üzeyirin dilində
Oxunacaq bu nəğmə,
oxunacaq bu dastan!

Təkcə əziz anası
İzzətdən doğulmadı,
Suyunu Haqdan içən
məhəbbətdən doğuldu.
Onu tarixə çəkdi
tarixin qaynaqları,
Döyüş meydanı seçdi,
cəsarətdən doğuldu.
Qılıncı iti gördü,
inamı qəti gördü,
Ruhu Babəkdən gələn
bir millətdən doğuldu.
Gördü onu sıxırlar
hər yandan, hər tərəfdən,
Şərəfsizlər sürüsü
Onu salmaq istəyir
ən uca bir şərəfdən.
Arxada, öndə düşmən,
Gündə şər, gündə düşmən.
Gördü xalqının qanı
axır küçələr boyu,
Qız-gəlinlər saç yolub,
ağlayır şəhər boyu.

Kim ağlayır, kim gülür,
kimdi alan nəzərə? –
Titrətdi varlığını
bu dəhşətli mənzərə:
Əzilən bir millətin
hayına çatmaq üçün,
Can verən bir xəstəni
Bu həyata qaytarıb,
sağlam yaşatmaq üçün
Dağdan yel kimi gəldi,
daşdan sel kimi gəldi,
Qoşun kimi yeridi,
ağır el kimi gəldi.
Xızır kimi yetişdi,
xilaskar kimi gəldi,
Həqiqətə bir dayaq,
Haqqa yar kimi gəldi.
Qurtardı xalqı dardan,
qurtardı xalqı yasdan, –
Gələcək nəsillərin
düşməyəcək əlindən,
Varaq-varaq çevrilib
oxunacaq bu dastan!

İnam ilə başlanıb
hər sətri, hər kəlməsi,
Yazdığım hər nə varsa,
mən inanıb yazmışam.
Gecəm gündüzə dönüb
inamın işığında,
Şam kimi ərimişəm,
yanıb, yanıb yazmışam.
Bir-birinin dalınca
axıb gələn fəsillər
Hava kimi ruhumda
bəstələnib, yazmışam.

Məhəbbət yollarında
        ömrü girov qoymuşam,
Mən onun xəstəsiyəm,
        xəstələnib yazmışam.
Yazan kim, yazdıran kim,
Haqqa yaxşı bəllidir,
Ürəyimin hökmüdür,
        sifariş Haqdan gəlib.
Çiçək ətri, gül suyu,
        bal şirəsi qatılıb,
Onu yazan qələmin
        gücü torpaqdan gəlib.
Ona ilham deməzdim,
Bu adın həvəsiylə
        çay kimi coşmasaydı.
Ona könül deməzdim,
Elin xilaskarına
        nəğmələr qoşmasaydı.
Ona şair deməzdim,
Ana öz balasını
        bağrına basan kimi,
Bu mübarək mövzunu
        bağrına basmasaydı.
Yaza bilərdimmi mən
        bu odlu sətirləri,
Xalq ürəkdən dinləyib,
        el qulaq asmasaydı?
Onu danışdıracaq
        qopuz kimi, ud kimi,
Oğullar yetişəcək
Dədə sözün dədəsi
        dədəmiz Qorqud kimi.
Nə deməkdi ətlə qan,
Nə deməkdi ruhla can, –
Bax beləcə bağlanıb
        duyğulara, hislərə,

Bax beləcə qarışıb
nəğmələrə, səslərə
Oxunacaq bu nəğmə,
oxunacaq bu dastan!

Zaman dedi: "Nə yazmısan,
layiqdimi öndərə,
Sözün varmı, tarix onu
sabahlara göndərə,
Şeirin varmı, dodaqlarda
kəlmə-kəlmə oxuna,
Fikrin varmı, ürəklərdə
xalı kimi toxuna,
Sətrin varmı, çiçək kimi
tumarlana, öpülə,
Yağış kimi nur yağdıra,
çiçək kimi səpilə?".
Mən zamanın sualına
qətiyyətlə "var", – dedim,
"Həqiqəti istəyirsən,
gəl sinəmi yar", – dedim.
Bu əsəri kimlərəsə
xoş gəlməkçün yazmadım,
Sözün canı nədədirsə,
mən o canı yazmışam.
O, nə zaman qaldırırdı
yumruğunu havaya,
O dalğanı, o tufanı,
o meydanı yazmışam.
Saya gəlməz duyğularla
hər gün verib baş-başa,
Pillə-pillə Haqqa varan
adı-sanı yazmışam.
Ümid yeri, iman yeri,
güman yeri bilmişəm,

Talelərə ünvan olan
bir ünvanı yazmışam.
Doğum günü var olsa da,
ölüm günü yoxdu, yox,
Ölümlərə qılınc çəkən
bir insanı yazmışam.
Neçə ildi içərimdə
nur çeşməsi qaynayır,
Dastan mənə dayaq olub,
mən dastanı yazmışam.
Onu görüb, onu duyub,
onu sevib həyatda
Zəlimxanın içindəki
Zəlimxanı yazmışam.
Qoca dünya, qoca tarix
öz işini görəcək,
Ağılların, ilhamların
meyvəsini dərəcək.
Açılacaq aydın səhər,
söküləcək qızıl dan,
Oxunacaq!
Oxunacaq!
Oxunacaq bu dastan!!!

## GÖYLƏRDƏN GÖNDƏRDİ YARADAN SƏNİ!

Sönən ocaqları alovlamağa,
Başsız küləkləri cilovlamağa,
Yatan taleləri oyandırmağa,
Qardaş qırğınını dayandırmağa,
Kini, küdurəti yığışdırmağa,
Min qəlbi bir cana sığışdırmağa,
Qidasız ruhlara qida verməyə,

Üşüyən əlləri oda verməyə,
Xalqı xatalardan sovuşdurmağa,
Yerləri göylərə qovuşdurmağa
Allah səni seçdi, səni bəyəndi,
Gözündən qoymadı bircə an səni,
Göylərdən göndərdi Yaradan səni!

Bağlanan qolları açmaqdan ötrü,
Nuru könüllərə saçmaqdan ötrü,
Paslı qıfılları sındırmaq üçün,
Ümid çırağını yandırmaq üçün,
Buludun torpağa yağışı kimi,
Günəşin üfüqdən doğuşu kimi,
Yanan ürəklərə sərinlik kimi,
Acı talelərə şirinlik kimi,
Xəyala ucalıq, fikrə genişlik,
Ağla, düşüncəyə dərinlik kimi,
Xalq üçün həmişə oyaq olmağa,
Yıxılan dağlara dayaq olmağa,
Gördü gücü çatmır yerdəkilərin –
Gördü hava sərtdi, uçurum dərin,
Bildi dərdlilərə bir dərman səni,
Göylərdən göndərdi Yaradan səni!

Yoxsa başbiləni, qədirbiləni,
El rahat yaşamır, can rahat olmur.
Ocaq alışmasa, təndir qızmasa,
Xoş gün, xoş güzəran, xoş saat olmur.
Hər kəs öz yerini tanımayanda
İnsanın həyatı bir həyat olmur.
Dövləti yoxdursa, millət də yoxdu,
Dövlətdən, millətdən uzaq olana
Yer olmur, göy olmur, kainat olmur.
Günəşi, ulduzu, Ayı yerində,
Gəldin ömrümüzə bir həyat kimi.

Əqrəbi qırılan, çarxı paslanan,
Yerində dayanan vaxtı, zamanı
Qurdun əllərinlə bir saat kimi.
Hər şey nizamlandı, sahmana düşdü
Yer kimi, göy kimi, kainat kimi.
Basdı öz bağrına bu cahan səni,
Göylərdən göndərdi Yaradan səni!

Atanın adında iki isim var,
Biri Əlidirsə, biri Rzadı.
Haqqı sevənlərin, sevilənlərin
Önündə açılan geniş fəzadı.
Səni duyanların haqqı məhəbbət,
Səni dananların payı cəzadı.
Əgər sən varsansa bu yer üzündə,
Bütün arzuların üzü bahara,
Bütün istəklərin üzü yazadı.
İnandı gücünə, məhəbbətinə,
İnandı Allaha sədaqətinə,
Seçmədi bu ali sıradan səni,
Peyğəmbər sifətli bir insan kimi,
Göylərdən göndərdi Yaradan səni!

Yerin səddi də var, sərhədi də var,
Sonsuz üfüqlərin ölçüsü yoxdur.
Hələ ki Allahın bu yer üzündə
Peyğəmbərdən sonra elçisi yoxdur.
Hər kimi peyğəmbər seçirsə Allah,
Ağrını, əzabı ona göndərir.
Dünyanı nizama salmaqdan ötrü,
Müqəddəs kitabı ona göndərir.
Kəsəndə qarşını ağır suallar,
Ən dürüst cavabı ona göndərir.
Sözə baxmayanda qövmü, tayfası,
Dərdi, iztirabı ona göndərir.

Yolunu azanda insan övladı
Çəkilməz bu dərdlər, bu yüklər olur,
Cılızlar dolaşır ələ, ayağa,
Böyük dərdi çəkən böyüklər olur.
Sayı çoxalanda ağır yasların,
Gözləri qızanda ehtirasların,
Suyun qabağını kəsəndə yağı,
Yerdən üzüləndə haqqın ayağı,
Gözləri sel kimi yaş aparanda,
İnsan vəhşiləşib baş aparanda,
Ürəyi dəmirlər qan axıdanda,
Oğula, uşağa, gəncə baxmayıb,
Yezidlər, şümürlər qan axıdanda,
Gəldi, bu millətə yazığı gəldi,
Dedi "qoy tanısın bu cahan səni",
Göylərdən göndərdi Yaradan səni!

*2007, 5 yanvar-23 dekabr*

## ALLAHIM, MƏNƏ BİR AĞSAQQAL YETİR

Allahım, mənə bir ağsaqqal yetir,
Ona söylənəsi ağrım, acım var.
Oğul deyə-deyə sızlayan anam,
Qardaş deyə-deyə yanan bacım var.
Havalı dağların havası kimi,
İnsanı yaşadan hava, su kimi,
Bu gün ağsaqqala ehtiyacım var,
Allahım, mənə bir ağsaqqal yetir!

Allahım, mənə bir ağsaqqal yetir,
İstər yerdən çıxart, özün bilərsən,
İstər göydən endir, özün bilərsən,
Məsləhət sənindir, özün bilərsən.
İstər Cavanşiri qaldır yerindən,
İstər Xətaini təzədən gətir.
Yarat nəvəsini Dədə Qorqudun,
Qədim tarlamıza təzə dən gətir.
Baş ver, başımızda tac ola bilsin,
Ruh ver, qolumuzda güc ola bilsin.
Sevgi ver, dost ilə könül bağlasın,
Nifrət ver, düşməndən öc ala bilsin.
Özünü tox görüb harınlaşmasın,
Xalqı ac görəndə ac ola bilsin.

Dönsün nəsillərin ziyarətinə,
Məkkə ola bilsin, Hac ola bilsin.
Ayrı-seçkiliyin, tayfabazlığın,
Taxtını biryolluq devirmək üçün,
Adamı insana, kütləni xalqa,

Tayfanı millətə çevirmək üçün,
Allahım, mənə bir ağsaqqal yetir!

Palıd elə yanır, elə qovrulur,
Salamat bir quru çöp ələ gəlmir.
Düyün tilsimlidi, kələf dolaşıq,
Yumaq dığırlanır, ip ələ gəlmir.

İpi suya verib, böyüklərimizin
Çiynində dağ olub bu yüklərimiz.
Bütün ürəklərin arzularını
Bir sinə altında yerləşdirməyə,
Bütün inamları, əqidələri
Bir bayraq altında birləşdirməyə,
Allahım, mənə bir ağsaqqal yetir!

Bir şair oğluna dəyən güllənin,
Bir xalqın qəddini əyən güllənin,
Hər gün başımızın üstündən keçib,
Hər gün qapımızı döyən güllənin,
Ağrısı, göynəyi, sızıltıları
Prezident oğluna, nazir oğluna,
Deputat oğluna yer eləmirsə,
Yerini, yurdunu başda seçənlər,
Yerindən, yurdundan ar eləmirsə,
Bu xalqın çörəyi, bu xalqın suyu,
Kəmfürsət gözünü kor eləmirsə,
"Atılan toplara diksinməyənin",
Top da qulağını kar eləmirsə,
Allahım, mənə bir ağsaqqal yetir!

Üzmüşəm əlimi yerdəkilərdən,
İlahi, göylərdən bir kişi göndər.
Min ildi Savalan dağında yatan,
Hələ ayılmamış dərvişi göndər.

Gəlsin bu günümə yel qanadıyla,
Gəlsin bu günümə köhlən atıyla.
Qoy bilsin, qəm səpib, dərd əkirəm mən,
Qoy görsün günümü, nə çəkirəm mən.
Qeyrət qılıncını sıyıra, bəlkə,
Yaxşını yamandan ayıra, bəlkə.
Qurula meydanda haqq tərəzisi,
Çəkə ağılları, çəkə başları.
Layiq olanları taxta qaldıra,
Taxtından endirə yekəbaşları,
Allahım, mənə bir ağsaqqal yetir!

Allahım, mənə bir ağsaqqal yetir,
Düşmənə yem olan bir məmləkəti
Yağılar dişindən saldıra bilsin!
Dərələr dibinə düşən milləti,
Dağlar zirvəsinə qaldıra bilsin!
"İstiqlal marşı"yla səfərbər olub,
Qələbə himnini çaldıra bilsin!
Allahım, mənə bir ağsaqqal yetir!
Allahım, mənə bir ağsaqqal yetir!

# QURTULUŞ DASTANI

Dərya kimi çalxanır Bakı qanlar içində,
Qasırğalar qaynaşır sərt tufanlar içində.
Millət tanıya bilmir şəri, naxələfləri,
Allah da aça bilmir dolaşan kələfləri.
Allahı da çaşdırıb
Allahsız olanların fəndi-feli, düyünü,
Yatıran oğul gərək zamanın hay-küyünü.
Dizi heydən üzülüb,
Əli göydən üzülüb,
Millət bilmir neyləsin, dərdin kimə söyləsin?
Kimə tutsun üzünü,
Kimə desin sözünü.
Kimdən umsun haqqını?
Kim yerbəyer eləsin
Qocaman bir millətin haqqını, nahaqqını?!
Hər daş altda bir fitil, hər dağ altda bir lağım,
Məmləkət min yerindən dağılır dağım-dağım.
Hərə bir yana dartır, hərə bir yana çəkir,
Biri Talışa dartır, bir Muğana çəkir.
Dağılır Nizaminin, Cavad xanın Gəncəsi,
Qardaşı rüsvay edir qardaşın işgəncəsi.
Azərbaycan can verir ölümcül bir can kimi,
Yapışır boğazından xəyanətin pəncəsi.
Qızışdırır başları vəzifənin havası,
Gündə bir ev dağıdır kürsülərin davası.
Gündə bir şəhər keçir erməninin əlinə,
Nə uşağa hay çatır, nə qıza, nə gəlinə.
Qarabağ bir tərəfdən hey alına-alına
Dönür yağı malına.
Dava gedir Bakıda, qızışır ehtiraslar,
Qarışır bir-birinə intiqamlar, qisaslar.

Bakıda dava gedir, şan-şöhrətin davası,
Rəsmilərin hay-küyü, rəsmiyyətin davası.
Beş-on prezidenti var, beş-altı baş naziri,
Balaca bir dövlətin...
Di gəl, bircə başçısı başbiləni, başı yox
Bu boyda məmləkətin.
Döyüş gedir Bakıda – kor döyüşü, davası,
Qızışdırır başları kürsü, stol havası.
Qorxur vəzifəbazlar
Bütün vəzifələrdən yüksəklərdə dayanan
Bir kişinin adından.
Uça bilməsin deyə
Yapışmaq istəyirlər uçağın qanadından.
Biri deyir gətirək, biri deyir gəlməsin,
Biri deyir batıraq, heç səsi yüksəlməsin.
Acı bağırsaq kimi, uzandıqca uzanır.
Xalqın dərdə tuş günü
Başbiləni yoxdursa,
Sərkərdəsi yoxdursa,
Yoxdu xalqın, millətin əsl Qurtuluş günü!
Son hökmü zaman verir,
Azərbaycan dövləti
Tarixlər qarşısında ağır imtahan verir.

Onu çıxarmaq üçün bu ağır imtahandan,
Gəlir, o qüdrət gəlir!
Dözüm, qətiyyət gəlir!
Adını eşidəndə millət qalxır ayağa,
Gözə işıq, cana od, qəlbə cəsarət gəlir!
Ruhunda bir zəlzələ, canında qeyrət gəlir!
Ağır döyüşlər üçün sinəsi sipər olur,
Sərhədlər qorumağa kirpiyi çəpər olur!
Bu gəlişi hiss edib
Daş da qalxır ayağa, dağ da qalxır ayağa,
Qarışır bir-birinə iqtidar-müxalifət,
Sol da yerindən durur, sağ da qalxır ayağa!

Şux yeriyir, şax durur, mərd dayanır, sərt baxır,
O gəldiyi yollara neçə ümid boylanır,
Neçə ağır dərd baxır.
Bir qüdrətli əl gəlib, silib-süpürməsəydi
bu qaragüruhları,
Daşaltıda, Şuşada, Xocalıda, Laçında
Şəhid olanlarımın kiriməzdi ruhları.
Düşünəndə adamın biz-biz olur tükləri,
Kəlbəcər yox, Göyçə yox, Qarabağ yox, Şuşa yox,
Göyüm-göyüm göynəyir
Ələsgərin, Vaqifin, Nəvvabın sümükləri?!
Ey insan haqlarına dəm tutub, dəm verənlər,
Dərdə salıb milləti, bu xalqa qəm verənlər,
İnsan haqları deyib, bağıran təşkilatlar,
Dünyanı həqiqətə çağıran təşkilatlar,
Niyə qorumadınız bir millətin haqqını?
Niyə bizə gələndə kar oldu bu dünyanın
eşidən qulaqları?
Budur insan haqları?!
Gözlərimdən qan damır, əsəbiyəm, gərginəm,
Öz evimin içində qaçqınam, didərginəm.
Çadırlardı beşiyim, çadırlardı məzarım,
Harda bina qurmuşam, hara düşüb güzarım?
Qoca Şərqin köksündə qocaman bir ağacın
Baltalanır gövdəsi, doğranır budaqları.
Budur insan haqları?!
Niyə mənim fəryadım
Yandırmır yaxınları, göynətmir uzaqları,
Budur insan haqları?!
İndi gecəbəgündüz dolaşıb ayağına,
Təpə ağıl öyrədir siyasətin dağına.
Böyük-kiçik bilinmir, bilinmir böyük-kiçik,
Kimdi böyük bilinmir, yerini bilmir kiçik.
Siyasət dədəsinə durub ağıl öyrədir,
Siyasət uşaqları,
Budur insan haqları?!

Mənim millət haqqımı,
Mənim dövlət haqqımı,
Gəlir, qaytaran kişi!
Dəmir, polad sinəsi
Fırtınalar, tufanlar, cəbhələr yaran kişi!
Quş qəfəsdən qurtulur!
Can məhbəsdən qurtulur!
Dövrün, zamanın canı
Qaç, atım basdılardan, kəshakəsdən qurtulur!
Yaraqlılar dəstəsi yarağını saxlayır,
Kürəyə bıçaq vuran bıçağını saxlayır,
Xainlərə tuş gələn xəyanətdən qurtulur!
Ürəkləri göynədən bu qanlı səhnələrə
Baxıb, xəcil olanlar xəcalətdən qurtulur!
Kiməsə atmaq üçün ətəyə daş yığanlar
Tökür ətəkdən daşı, ətək daşdan qurtulur,
Ürəklər intizardan, gözlər yaşdan qurtulur!
Ən uca kürsülərə gərir öz sinəsini,
Yavaş-yavaş qaldırır öz xalqının səsini.
Əli qalxır göylərə, yumruq yarır havanı,
Silkələyir qəzəbi döşəməni, tavanı!
Təklif nə qədər ağır, tələb nə qədər çətin,
Tələb edir haqqını əzilən bir millətin.
Qoy, səsi guruldasın bu gün altı qitədə,
Odur məndən ötəri ATƏT də, BMT də!
Gəlib, o kişi gəlib!
Xalqın xeyrinə sarı çərxin gərdişi gəlib!
Millətinə, xalqına birləş deyir, qalx deyir!
Öz haqqına güvənir, haqq danışır, haqq deyir!
Əlli milyona çatmış Azərbaycan dünyası
"Qurtuluş nəğməsi"ni oxuyur bir himn kimi,
Bir səslə, bir avazla "Heydər!" – deyir, "xalq!" – deyir.
Ən böyük qurtuluşu millətə qaytarmağa,
Birləş, ey qoca millət, ayağa dur, qalx! – deyir!!!

***1997, aprel***

## AZƏRBAYCAN OXUSUN

Bu gün mənim ürəyim Azərbaycan boydadır,
Ürəyim Azərbaycan bütün cahan boydadır!
Elə hey daş atırlar qəlbimin aynasına,
Elə hey çalışırlar daş dəyə, ayna sına.
Elə hey çalışırlar varlığıma qəsd ola,
Könlüm uça, dağıla, mənliyim şikəst ola!
Uğrunda illər boyu sərt qayalar çapdığım,
Qanımın bahasına qazandığım, tapdığım,
Azadlıq dediyimiz ən müqəddəs neməti,
Əqidəni, inamı, hünəri, cəsarəti,
Zərin, zorun gücünə əlimdən almaq üçün,
Ucalan bir bayrağı ayağa salmaq üçün,
Ölən var, sıxılan var,
Yanan var, yaxılan var!
Yadların ayağına çul kimi döşənən var,
Qul kimi yıxılan var!
Bu boyda məmləkəti daşıynan, qayasıynan,
Minillik tarixiynən, minillik mayasıynan
Yağlı bir vəzifəyə sərvət kimi satan var,
Nə qədər quldur, qaçaq, nə qədər şarlatan var!
Dinini də satar o – tək vəzifə ver ona!
Donunu da satar o – tək vəzifə ver ona!
Torpaq satdı doymadı, meşə satdı, doymadı,
Laçın satdı doymadı, Şuşa satdı, doymadı!
Silah satdı, doymadı, sursat satdı, doymadı,
Diri satdı, doymadı, ölü satdı, doymadı,
Bir "malades" sözünə eli satdı, doymadı,
Millətin düşmənləri indi də millət satır!
Dövlətin düşmənləri indi də dövlət satır!
Satır, elə bilir ki, yad ona yağ-bal verir,
Verən yaxşı bilir ki, yad itinə yal verir!

Saz bir boğazdan ötrü, tox bir qarından ötrü,
Dünyanı gözdən salan dünya varından ötrü
Satır vətənini, elini satır,
Ağzından çıxarıb dilini satır.
Satır torpağını yağıya, yada,
Satır anasını, bacısını da!
Beləcə satılıb min illər boyu,
Dağdan ucalığım, bağdan dirliyim.
Belə parçalanıb, belə bölünüb,
Mənim bütövlüyüm, mənim birliyim!
Kimdi bulandıran axar suları?
Bulanan çeşmələr durulmalıdı!
Satqına məhkəmə otlaqlarda yox,
Geniş meydanlarda qurulmalıdır!
Arxadan kürəyə vurulan bıçaq,
Sinəyə sancılan ox daha bəsdi!
Piylilər, harınlar, yekəqarınlar
Nə qədər oldusa tox, daha bəsdi!
Çuval ağızları, xurcun gözləri,
Qazan mədənləri doydurmaq olmur.
Bir loxma çörəklə gün keçirən var,
Boylu gədələri doydurmaq olmur.
Millətə tutulan təxribatların
Təxtini bir yolluq devirməliyik!
Satqının himini kökündən qazıb,
Altını üstünə çevirməliyik!
Vətəndaş vətənin görən gözləri,
Əsgər səngərində gərək yatmasın.
Vuruşma dayanıb, döyüş səngiyib,
Sakitlik heç kəsi qoy aldatmasın!
Soyuq çadırlarda donur körpələr,
Qaçqınlar hələ də amanda, ahda.
Ən güclü, ən kəskin mübarizəmiz,
Hələ qarşıdadı, hələ sabahda!
Azadlıq ən uca sözdü həyatda,
Onu az düşünüb, az anmamışıq.

Biz onu zamanın əlindən aldıq,
Kiməsə verməyə qazanmamışıq!
Bəli, mən azadlığı,
Heç kəsdən almamışam sovqat kimi, pay kimi.
Mənim müstəqilliyim –
Mənim ən böyük arzum, ən ulu niyyətimdi.
Doxsanın yanvarında axan qızıl qanımdı,
Əqidəm, məsləkimdi, dinimdi, imanımdı!
Neçə arzular yorub, neçə sular yarmışam,
Mən onu əjdahanın ağzından çıxarmışam!
Ey nəfsi, iştahası əjdahaya dönənlər,
Ağzını açan kimi bayquş kimi dinənlər,
Aydındı hər bir kəsə əməliniz, işiniz,
Yeddi başınız olsa, qırılacaq dişiniz!
Yeddi canınız olsa, dağılacaq leşiniz!
Yeddi yerə söykənib, yeddi dayaq tapsanız,
Yeddi başa güvənib, yeddi ayaq tapsanız,
Cəsarətin əliylə kəsiləcək ayaqlar!
Həqiqətin gücüylə sökülüb töküləcək,
Kökü çoxdan çürümüş ətrafı boş dayaqlar!
Dünyanın ən bahalı sərvətindən, zərindən,
Ləlindən, daş-qaşından, ən böyük gövhərindən,
Mənim müstəqilliyim min-min dəfə bahadı!
Dönüş yoxdu geriyə, üzümüz sabahadı!
Əgər sən doğrudan da millətin oğlusansa,
Ruhunla, varlığınla torpağa bağlısansa,
Çıxart ürəyindəki kini, dedi-qodunu,
Böyük diləklərə ver ürəyinin odunu!
Sevgini, istəyini torpağa ver, daşa ver,
Qoşuna, sərkərdəyə, başçıya ver, başa ver!
Demə ki, bu torpağın sahibi, yiyəsi yox,
Demə kəsmir qılıncım, sapı var, tiyəsi yox.
Bu millətin başında başçı da var, baş da var,
Vətənə sahib olan əsl Vətəndaş da var!
Nə baxışda xəyanət, nə ürəkdə kin olsun,
Təki görməyə gözün, duymağa qəlbin olsun!

Kim bu xalqın önündə getməyi bacarırsa,
Tilsimləri sındırır, tufanları yarırsa,
Ən qorxulu nöqtəyə kişi kimi gedirsə,
Ən ağrılı yerlərə igid kimi varırsa,
Kişi odur, mərd odur!
Onun tərəfində dur!!!

Millət kimin eşqinə dəniztək qabarırsa,
Xəyanətin başında tufanlar qoparırsa,
Kim xalqı bayraq kimi üfüqlərə qaldırıb,
Kim xalqı qoşun kimi ardınca aparırsa,
Qaya odur, sərt odur!
Onun tərəfində dur!!!

Kim topları susdurur ağlıyla, əsəriylə,
Kim qanı dayandırır sözünün kəsəriylə,
Kim xalqa dərədən yox, zirvələrdən baxırsa,
Yağıların başında şimşək kimi çaxırsa,
Dünyanın hər yerinə
Azərbaycan xalqının qanadını açırsa,
Onu görən düşmənin rəngi, ruhu qaçırsa,
Haqlı odur, haqq odur!
Haqqın tərəfində dur!!!

Ey mənim müdrik xalqım,
ey qəhrəman millətim!
Ey yeraltı xəzinəm, ey yerüstü sərvətim!
Daş daşa söykənəndə çevrilib divar olur,
Dağ dağa söykənəndə zaman-zaman var olur!
El elə güvənəndə yurdu basılmaz olur,
Əl ələ güvənəndə güllər açır, yaz olur!
Mənim bu dediklərim tərsinə çevriləndə,
Xoşbəxtliyin sarayı uçanda, devriləndə,
Vətən də yalqız olur, millət də yalqız olur!
Vətən də yazıq olur, millət də yazıq olur!

Şər özünü yormasın, bu qüdrət tutmaz ləkə,
Nə bu millət kölədi, nə torpaq müstəmləkə!
Bayraq azadlığım var, başım üstə yellənir!
Torpaq azadlığım var,
Dağları zirvələnər, düzləri sünbüllənər!
Torpaq azad olanda çiçəklənər, güllənər!
Dəniz azad olanda hey qabarar, çəkilər,
Çeşmə azad olanda aşar, daşar, sellənər!
İnsan azad olanda duyğuları tellənər!
Tellən, bayrağım mənim!!!
Güllən, torpağım mənim!!!
Oxu, dodağım mənim!!!
Alış, ocağım mənim!!!
İstiqlal havasını, xoşbəxtlik nəğməsini
Ürəkdə yanan işıq, damarda qan oxusun!
Ölməz Əhməd Cavadın "Azərbaycan" şeirini,
Ölməz Səməd Vurğunun "Azərbaycan" şeirini,
Azərbaycan oxusun!!!
AZƏRBAYCAN OXUSUN!!!

***1994, dekabr***

## EY VƏTƏN OĞULLARI!

Ey Vətən oğulları!
Çalın zəfər zəngini,
Bu torpağın səsinə, sorağına çevrilin!
Yandırın işıqları yurdun kəhkəşanında,
Gözümüzün nuruna, çırağına çevrilin!

Son nöqtəsi qoyulsun kədərin də, yasın da,
Analar saç yolmasın oğulların yasında.
Eşqiniz rəngə dönsün rəssamın fırçasında,
Şairin qələminə, varağına çevrilin!

Haqq özü şölə salsın həqiqətin yoluna,
Millətimiz dönməsin əsarətin quluna.
Qolu kəsilənlərin qanadına, qoluna,
Ayaq itirənlərin ayağına çevrilin!

Kökümüz baltalandı, soyumuz harda qaldı,
Torpağımız, havamız, suyumuz harda qaldı.
Yas dalınca yas gəlir, toyumuz harda qaldı,
Körpəsiz anaların qundağına çevrilin!

Kəsin bəndi-bərəni, aşın dağı-dərəni,
Qalxın Çənlibellərə, çəkin dəli nərəni.
Tanrım darda qoymasın əri, mərdi, ərəni,
Dağ kimi duranların dayağına çevrilin!

Gələn uğurlu səhər, sökülən dan eşqinə,
Dizin-dizin sürünüb üzülən can eşqinə,
Göydə Allah eşqinə, yerdə insan eşqinə,
Ordunun silahına, yarağına çevrilin!

Sinəmiz nişandadı, düşmən kəsib qarşını,
Yağılara verməyin bir qarışı, arşını.
Oxuyun bir ağızdan istiqlalın marşını,
Qələbənin, zəfərin bayrağına çevrilin!

Ey Vətən oğulları!
Bu gün əlimdə qələm, bu gün sinəmdə dəftər,
Sizin haqqınızdadır,
Yaralı ürəyimdə yaralanmış bir əsər!
Sizin kəsərinizdir sözümdəki güc, kəsər!
Sizin işığınızdır üzümə doğan səhər!
Səs səsə verək bu gün,
Bu xalqın xidmətində mən bir şair, siz əsgər!
Mənim misralarımı
Düşmənin ürəyinə atın güllə yerinə,
Mənim sətirlərimi
Düşmənin sifətinə çırpın şillə yerinə!
Mənim şeirlərimi
Qələbə çalanların ayaqları altına
Atın çiçək yerinə!
Vətən çağırır sizi!
Qoy heç kəs sinəsində
Qara daş gəzdirməsin duyan ürək yerinə!

Ey Vətən oğulları!
Öndə güllə yağışı, arxada Vətən durur!
Qoruyun zəmiləri, qoruyun sünbülləri,
Biçilməmiş zəmidə döyülməmiş dən durur!
Torpağı ana kimi, daşı sevgili kimi,
Yurdun hər qarışını ağzında dili kimi,
Qoruyanın, sevənin adı, sanı, şöhrəti
Tarix kitablarında tarixlərlə tən durur!

Ey Vətən oğulları!
Allahdan aşağıda mənim allahımsınız!
Orduları sarsıdan gücüm, silahımsınız!

Sizi qalib görəndə mən şahlıq taxtındayam!
Sizi məğlub görəndə,
Dözülməz ağrımsınız, çəkilməz ahımsınız!

Ey Vətən oğulları!
Bu Vətən nələr görüb?
Hər dəfə göz açanda,
Oğlunu şəhid görüb, qızını mələr görüb.
Bu xalqın, bu millətin hər evinə yas düşüb,
Bu gün onun bəxtinə
Ölümə ölüm düşüb, qisasa qisas düşüb.
Qonşu müxənnət çıxıb, dostu yağıya dönüb,
Ağılar deyə-deyə ömrü ağıya dönüb.

Ağlamazdım,
Gülərdim, ağlamazdım.
Bilsəydim vəfan buymuş,
Sənə bel bağlamazdım.

Bu, anamın səsiydi, bu, atamın səsiydi,
Oğluna güllə dəymiş hər adamın səsiydi!

Tüstünün, dumanın içindən çıxıb,
Bu səs qan qoxuyur, zəhər dadırdı.
Yol üstə boynunu bükən analar,
Yaralı ceyranı xatırladırdı.

Nifrətə çevrilib, qəzəbə dönüb,
Qılıncdan gəlirdi, qından gəlirdi.
Qanı tökülənin ahı-naləsi
İlikdən, damardan, qandan gəlirdi.
Haqqın yaxasından yapışmaq üçün,
Allaha tutmuşdu üzünü bu səs.
Bizim səsimizi kimdi batıran,
Bilmək istəyirdi düzünü bu səs.

Eşidə bilmirsə ana səsini,
Göylər göylüyünü qoy yerə qoysun.
Allah götürərmi, intiqamımı
Bu tarix, bu zaman məhşərə qoysun.

Allah qoy əl çəksin allahlığından,
Bu zülmü görməyə gözü yoxdusa,
Haqq ilə nahaqqı yerbəyer edib,
Zalıma deməyə sözü yoxdusa!

Dözüm çox yaxşı şeydi, onun da bir həddi var,
Səbir çox yaxşı şeydi, onun da sərhəddi var.
Bu xalqın yaddaşında,
Bir görün neçə-neçə qanlı 37-i var!
Bizi kimlər gətirdi göylərin qəzəbinə,
Dözməyin bir millətin bu qədər əzabına!

Gözümüz yumulub bu gerçəkliyə,
Duya bilməmişik səbrin səsini.
Niyə unutmuşuq, görəsən niyə,
Səbrin qəbir ilə qafiyəsini?

Qəbrə çağırırmış, sən demə bizi
Səbrə çağıranlar, dözüm deyənlər.
Gözünü tökürmüş xalqın, millətin,
Yalandan Vətənə gözüm deyənlər!

Dünya bizdən ötrü fil qulağıymış,
Yatdıqca sozalıb yatmışıq elə.
Dərs verə bilmədi dərdimiz bizə,
Batdıqca günaha batmışıq elə.

Vətən oğulları, vətən qızları,
Deyəsən çox şeyi tərs öyrənmişik.
Qonşular cəsarət dərsi keçəndə,
Biz dözüm haqqında dərs öyrənmişik.

Qasırğa qalxanda keçər demişik,
Tufana dözmüşük, selə dözmüşük.
Zəngəzur gedəndə səbrə güvənib,
Göyçə boşalanda belə dözmüşük.

Əgər öyrəndinsə vətənsizliyə,
Dənizdən balığın yoxa çıxacaq.
Başının üstündən çəkiləcək göy,
Göylərdən xalıqın yoxa çıxacaq!

Meşədə palıdın yıxılan kimi,
Ordu dağılacaq, qoşun gedəcək.
Ürəkdən təpərin, candan qeyrətin,
Başından kamalın, huşun gedəcək.

Qılınc ol, polad ol, dəmir ol, daş ol,
Ağlama, sızlama, kövrəlmə, millət!
Yaxınlaş, doğmalaş, sıxlaş, dəmirləş,
Dağılma, sökülmə, seyrəlmə millət!
Təbrizsiz qalmağa öyrəndin, yetər,
Dərbəndsiz qalmağa öyrəndin, yetər,
Göyçəsiz qalmağa öyrəndin, yetər,
Şuşasız qalmağa öyrənmə millət!
Laçınsız qalmağa öyrənmə, millət!
Vətənsiz qalmağa öyrənmə, millət!

Üç yüz ildən çoxdu ki,
Üz-üzə dayanmışıq,
Tülkünün quyruğuyla, canavarın dişiylə.
Üz-üzə dayanmışıq,
Pəncəsi gödən sökən qocalmış bir ayının
Allahsız iştahıyla, amansız vərdişiylə!

Ey Vətən oğulları!
Ayının pəncəsini əzmək vəzifəsini,
Tülkünün quyruğunu kəsmək vəzifəsini,

Canavarın dişini qırmaq vəzifəsini,
Çaqqalların boynunu burmaq vəzifəsini
Sizə tapşırıb Vətən!
Tarixin səhnəsinə kişi kimi gəlməyi,
Kişi kimi yaşayıb, kişi kimi ölməyi,
Sizə tapşırıb Vətən!

Bu tapşırıq sizlərə Quranın ayəsidir,
Bu tapşırıq sizlərə,
"Torpağı qoru" – deyən babaların səsidir!
Bu tapşırıq kəskindir sıyrılmış xəncər kimi,
Bu tapşırıq böyükdür "Allahu-əkbər" kimi!

Ey Vətən oğulları!
Qoruyun bu torpağı!
Bu, elə nemətdi ki,
Yamyaşıl çəməni də, sapsarı şoranı da,
Qupquru səhrası da, dağı da, aranı da,
Gözümüzün giləsi, ağzımızın dadıdır.
Qorunmasa bu torpaq,
Ananın ah-naləsi, atanın fəryadıdır!
Qorunmasa bu torpaq,
Şikəst olmuş körpədir, yazıq olmuş qocadır,
Odu sönmüş ocaqdı, tüstüsüz bir bacadı!
Əsir düşən oğuldu, yasa batmış gəlindi.
Qorunmasa bu torpaq,
Millətlərin içində "mən də millətəm" deyib,
Dövlətlərin içində "mən də dövlətəm" – deyib,
Yaşa görüm, gəl indi!
Alınmasa bu torpaq – dil gödək, baş aşağı,
Yediyin çörək zəhər, su zəhrimar, aş ağı!
Alınmasa bu torpaq – üz qara, göz kölgəli,
Allahın işinə bax,
Özgənin hesabına
Yurdsuzlar yurddaş olur, ölkəsizlər ölkəli!

Qorunmasa bu torpaq
Qanımız bahasına,
Canımız bahasına,
Allahımız, tanrımız, dilimiz bahasına,
Düşmənə nifrətimiz, kinimiz bahasına,
Alınmasa geriyə –
Bir də bizim millətin,
Günü çox çətin doğa,
Bəxti çətin yeriyə!!!
Torpaq əqidəmizdir,
Əqidənin yolunda,
Qovrulmasaq köz kimi, ərimısək şam kimi,
Dilimiz olarmı ki,
Adamlıqdan söz açıb danışaq adam kimi!

Ey Vətən oğulları!
Nə kənara çəkilin, nə qoltuqda gizlənin.
Vətən adlı Günəşin,
Nurunda, atəşində durulun, təmizlənin!
Od Vətənin odudu,
Su Vətənin suyudu!
Ona arxa çevirsən,
Axırda aqibətin
Ya şərəfsiz bir ölüm, ya qırx arşın quyudu!
Düşdün, çıxmağın çətin,
Endin, qalxmağın çətin.
Söndün, kül olacaqsan,
Bir də oda çevrilib,
Bir də çaxmağın çətin!
Fərari dedilərsə bircə dəfə adına,
Allahın özü belə,
Nə qədər istəsə də, çata bilməz dadına!
Fərari dedilərsə bircə dəfə adına,
Xoş günü, xoş saatı bir də salma yadına!
Bir daha sən onları görə bilməyəcəksən,

Xoşbəxtlik qapıları taybatay açılsa da,
Sən onun heç birindən girə bilməyəcəksən!
Əl uzatmaq istəsən,
Qapının dəstəkləri əlini yandıracaq,
Dodağın quruyanda içmək istədiyin su
Bir parça oda dönüb dilini yandıracaq!
Boyun uca olsa da,
Sən xalqın nəzərində yumağa dönəcəksən,
Ağ paltarda qapqara yamağa dönəcəksən!
İndi özün fikirləş,
Şərəfli ölüm gözəl, ya şərəfsiz bir həyat?!
Şərəfsiz bir həyatdan ölüm yaxşıdı qat-qat!

Altı ilin qovğası dizlərini yordumu?
Qaniçənlər zəlitək damarını sordumu?
Qələbəsiz, zəfərsiz ordu da bir ordumu?
Dayananda şax dayan, yeriyəndə sərt yeri!

Burax bu oyunları, burax bu uşaqlığı,
Bada verər milləti əsgərin yumşaqlığı.
Dağlar çəksə üstünə, əldən vermə şaxlığı,
Tarixin sabahına mətin yeri, mərd yeri!

Laqeydin nə vecinə, nə gedib eldən gedib,
Şuşa dünya gözəli, kəməri beldən gedib.
Baxma ki, bir bu qədər torpağın əldən gedib,
Təpiyi bərk vur yerə, nə küs, nə də pərt yeri!

Yurdun əlindən çıxan qalanı, bürcü qaytar,
Xalqın cibindən gedən mayanı, xərci qaytar.
Vətən borcu deyilən müqəddəs borcu qaytar,
Ürəklərdə qalmasın yara yeri, dərd yeri!

Sağda tülkü hiyləgər, solda ayı pəncəli,
Qələbəyə gedən yol əzablı, işgəncəli.

Aşılmaz zirvələr var, üstündən aşmalısan,
Yatağına sığmayan çay kimi daşmalısan!
Zir-zibil harda varsa süpürüb atmalısan,
Tufanları döşləyib döşünə qatmalısan!

Dan yerindən hər səhər günəş kimi doğmağın,
Zülməti, qaranlığı beşiyində boğmağın,
Yağıların başına atəş kimi yağmağın,
Yolsuzluğun içində yolunu tapmalısan!

Sonuna yetmək olmur, qayğı dəniz, qayğı su,
Axı nə qədər olar bu millətin qayğısı?!
Əqidəni, inamı başda qızıl tac elə!
Bu torpağın dərdinə özün bir əlac elə!

Qoy oynasın qolunda çaylar əzələ kimi,
Xəyanətin evini dağıt zəlzələ kimi.
Silaha dön, sursat ol, ayaqdan ələ kimi,
Olsa da işin ağır, olsa da yolun çətin,
Gözü sənə dikilib bu boyda məmləkətin!
Ürəyini ovsa da şər-böhtanın gülləsi,
Üzünü yandırsa da xəyanətin şilləsi,
Sənsiz atılan deyil zəfərlərin pilləsi.
Hələ çox işimiz var, mətin ol, ancaq mətin,
Gözü sənə dikilib bu boyda məmləkətin!

Minillik ordular var, min bir sınaqdan çıxıb,
Şaxta kəsib, buz yarıb, qardan-sazaqdan çıxıb.
Torpağın ciyərində şirəsi var, kökü var,
Tarix boyu daşınan şərəfi var, yükü var!
O kökdə ən qüdrətli qolun biri sən idin!
O qolda ən işıqlı yolun biri sən idin!
Səndən ayrı saldılar Atillanı, Meteni,
Taladılar torpağı, dağıtdılar vətəni!
Türk sözü deyən kimi kəsdilər nəfəsini,

Səndən ayrı saldılar Atatürkün səsini!
Xilaskar libasında qızıl-qızıl ordular,
Qüdrətini, əzmini,
Yora-yora qırdılar, qıra-qıra yordular!
20-nin aprelində,
Tufanların selində,
Bir gecənin içində
Səkkiz generalımı Lenin güllələməsə,
Səsmi çata bilərdi bu gün məndəki səsə!?
Bu günə də çox şükür,
Min dəfə öldürüblər, sən yenə dirilmisən,
Ox kimi sıxılmısan, yay kimi gərilmisən!
Hələ təzə başlanır sənin savaş günlərin,
Qurtar bizi əlindən,
Qara xəbər, qara rəng, bu qara daş günlərin!

Ey Vətən oğulları!
Qələbə yollarında,
Hər qarışda ölüm var, hər addımda təhlükə,
Bu ağrının yükünü kim çəkməyə, kim çəkə.
Millət yükü, el yükü
Çəkənə bir şərəfdir, çəkməyənə bir ləkə!
Qalxın, ayağa qalxın!
Mürgüləyən qayanı, yatan daşı qaldırın!
Dilində vətən bitən vətəndaşı qaldırın!
Həqiqətin yolundan nə yayının, nə sapın,
Düşmən səddi keçilməz çətin bir dağa dönsə,
Siz onu parça-parça qırın, dağıdın, çapın!
Ən yırtıcı vəhşini ayağa saldırmağa,
Qalaları top kimi yerindən qaldırmağa,
Canda inam, əqidə, qanda güc, qüvvət tapın!
Bir ordunun üstünə təkcə yerimək üçün
Qəlbinizdə yenilməz hünər, cəsarət tapın!
Sizdən sonra dünyaya gələn nəsillər üçün,
Gələcək illər üçün,
Əvəzsiz bir xəzinə, tükənməz sərvət tapın!

Əlinizi öyrədin ilan başı əzməyə,
Sizdən sonra yetişən oğulların yanında
Sabah haqqınız olsun başı uca gəzməyə!
Ey Vətən oğulları!
Bəndə öz Allahına,
Əsgər öz silahına,
Peyğəmbər Quranına,
Millət öz imkanına,
İnsan haqqın adına,
Ata öz övladına,
Nə qədər güvənirsə,
Mən elə güvənirəm sizin qeyrətinizə!
Xəyanətin dilləri düzü tərsə yozsa da,
Xəyanətin əlləri sıranızı pozsa da,
Bu qarışıq zamanda
Qansoranlar millətin başında turp əksə də,
Düşmən dəyirmanına su tökən nanəciblər
Əl-ayağa dolaşıb əl-ətəkdən çəksə də,
Söndürün eşqinizlə şər-böhtanın odunu!
Yaxına buraxmayın heç bir dedi-qodunu!
Nə küsün, nə inciyin,
Nə küsün, nə pərt olun!
Qasırğalar önündə,
Qaya kimi sərt olun!
Oğul kimi yorulmaz,
Kişi kimi mərd olun!
Siz bu inadınızla
Düşmənin ürəyində çəkilməz bir dərd olun!

Ey Vətən oğulları!
Sizin sıx cərgənizdə bu gün bir əsgərəm mən!
Sazımla, qələmimlə,
Sevincimlə, qəmimlə,
Atəş xəttinə doğru hər gün səfərbərəm mən!

Bu gün şairliyimi
Tanka, topa, mərmiyə, silaha döndərməsən,
Bu gün etiqadımı
Yerə, göyə hökm edən Allaha döndərməsəm,
Adına and içdiyim bu millətin yolunda,
Haqqın, mübarizənin xeyli çətin yolunda,
Zülmü, şəri, böhtanı öz əlimlə boğmasam,
Yağıların başına dolu kimi yağmasam,
Qoy Allah özü versin ən böyük əzabımı!
Nəfəsim orduları ayağa qaldırmasa,
Sındırın qələmimi, yandırın kitabımı!
Zaman başqa zamandır!
Tək əsərlə, kitabla, tək qələmlə kar aşmır!
Səngər çağırır bizi!
Otaqlara sığınıb qalmaq bizə yaraşmır!
Dar günüdür Vətənin!
Yuxulu gözlər, haray!
Mürgülü başlar, haray!
Qəlbi soyuqlar, haray!
Ürəyi daşlar, haray!
Süd gölündə üzənin
Qan gölündə üzəndən yoxdu xəbər-ətəri.
Köklər, harınlar haray!
Gönüqalın, yekəbaş, yekəqarınlar, haray!
Xəbəriniz varmı ki, qalamızı sökürlər,
Gözümüz görə-görə gözümüzü tökürlər!
Ağdamın sayagəlməz əlvan otaqlarını,
Kəlbəcərin tükənməz qızıl yataqlarını
Daşıyıb aparırlar!
Şuşanın tarix olan əlvan naxışlarını,
Daşdan, divardan silib, dəmirdən qoparırlar!
Xəbəriniz varmı ki, bu torpağın daşı nur,
Laçından, Qubadlıdan, Cəbrayıldan, Şuşadan,
Karvan-karvan yığılıb İrəvana daşınır!
Top atılsa ayılmaz qulağının dibində,
Vətən indi hardadır? Rüşvətxorun cibində!

Vətənsizlər vətəni minib çapır at kimi,
Dollar kimi yığşırıb əridir manat kimi!
Vəzifə havasına xumarlanıb yatanın,
Xəzinəyə, qızıla, mirvariyə batanın,
İmişlinin düzündə
İlan çalan uşaqdan xəbəri hardan olsun!
Laqeydin, biganənin, kəmfürsətin, alçağın
Beyləqanın içində,
Odu sönmüş ocaqdan xəbəri hardan olsun?!
Qaçqınlar ordusunda
Həftələrlə çörəyin üzünə həsrət qalan,
Təknəsinin içində sonuncu qismət qalan,
Yenə də ürəyində xalqa məhəbbət qalan,
Xalqa mərhəmət qalan,
Yenə də varlığında vətənə hörmət qalan
Ağbirçəkdən, anadan xəbəri hardan olsun?!
Gözü yollara baxıb əli qoynunda qalmış,
Solub getmiş sonadan xəbəri hardan olsun?!

Ey Vətən oğulları!
Yaralı bir şairin eşidin harayını,
Siz uçurun başına namərdin sarayını!
Qalxın qasırğa kimi, qopun zəlzələ kimi,
Xalqın dərdi ürəkdə açılmaz düyün olub,
Xalqın dərdi kürəkdə qalmasın şələ kimi!

Qarabağa bahar gəlir, qanlı bir bahar,
Bu il gələn baharımız qan üstündədir.
Ordan ayrı neçə cavan qocaldı, getdi,
Ordan ötrü neçə xəstə can üstündədir.

Qarabağa bahar gəlir, yetim bir bahar,
Ordan ayrı ömürlər var, əriyib gedir.
Dəlidağsız oğullar var, dəliyə dönüb,
Yavaş-yavaş içəridən çürüyüb gedir.

Necə deyim dağ vüqarlı dağlar oğluyam,
Bu gün mənim söykənməyə dağım yoxdusa.
Payız vaxtı bostanından heç nə gözləmə,
Bahar vaxtı çiçəklənən tağın yoxdusa.

Nifrətindən, qəzəbindən yatağa sığmır,
Tərtər yenə havalanıb, cilov gəmirir.
Güllə dəyib gözələ də, gözəlliyə də,
Zalım ovçu yaralanmış bir ov gəmirir.

Heç bilmirəm xilasımı kimdən gözləyim,
Əsir qalmış, yesir olmuş, bir ovam indi.
Yalançının bağırmağı bağrımı yarıb,
Talançının əllərində girovam indi.

Ötən bahar Taxtadüzdə minib çapdığım,
Dəlidağın köhlən atı yadıma düşdü.
Bu gün mənim şair könlüm qan ağlasa da,
Könül açan bir bayatı yadıma düşdü.

Zülfün tök üzə, neylər,
Sallan gəl düzə, neylər.
Ov bizim, ovlaq bizim,
Yad ovçu bizə neylər.

Gözəllərin havasıyla gəzən oğullar,
Gördünüzmü yad ovçular bizə neylədi?
Ayaq açdı, şər-böhtanın atı yeridi,
Gördünüzmü yad ovçular düzə neylədi?

Gördünüzmü yad ovçunun yamanlığını?
Quş başıtək başımızı üzməyə hazır.
Yüz illərdi yavaş-yavaş görür işini,
Tələ qurur, ayaq eşir, quyular qazır.

İdarələr, kabinetlər “gözəllə” doldu,
Meylimizi qıza verdik, qadına verdik.
Ondan başqa gözlərimiz heç nə görmədi,
Bu milləti nəfsimizin badına verdik.

Gözümüzə pərdə çəkdi ehtirasımız,
Allah bunu götürmədi, işə bax, işə.
Bu torpağı parça-parça qurban vermişik,
Bir görüşə, bir öpüşə, bir nəvazişə.

Azərbaycan torpağının məğlubiyyəti,
Başlanıbdı nazirlərin otaqlarından.
Min kişinin damarına zəhər yeriyib,
Bir erməni qancığının dodaqlarından.

Selə verib xalqımızın xoş həyatını,
Bəlkə onda oxumuşuq bu bayatını:
“Ov bizim, ovlaq bizim,
Yad ovçu bizə neylər”.

Dayan, eloğlu dayan!
Dayan, Vətəndaş dayan!
Yandırdı yanağımı gözdən axan yaş, dayan!

Pusqunu qurmadınsa,
Bərədə durmadınsa,
Vaxtında vurmadınsa,
Ov sənin ola bilməz!

İzi izləmədinsə,
Döşü dizləmədinsə,
Fürsət gözləmədinsə,
Ov sənin ola bilməz!

Gülünü üzmədinsə,
Balını süzmədinsə,

Üstündə gəzmədinsə,
Oylaq səninki deyil!

İçmədinsə suyunu,
Sevmədinsə boyunu,
Çalmadınsa toyunu,
Bulaq səninki deyil!

Becərib əkmədinsə,
Nazını çəkmədinsə,
Üstə tər tökmədinsə,
Torpaq səninki deyil!

“Ov bizim, ovlaq bizim”,
Dayan, müğənni qardaş.
Oxuma bu mahnını,
Oxusan, qan eylərəm!

Şah kimi fərman verib,
Bu şeiri birdəfəlik,
Mən qadağan eylərəm!

Sənin ola bilərmi qarlı dağın zirvəsi,
Bir dəfə zəhmət çəkib sən o dağa çıxmasan?!
Sənin ola bilərmi yaşıl tala, göy çəmən,
İstəkli bala kimi öz bağrına sıxmasan?!
Sənin ola bilərmi yollar, izlər, cığırlar,
Əllərindən çıxırsa, gözlərindən itirsə.
İnsan ayaqlarına həmişə həsrət qalan,
Cığırların içində boz qanqallar bitirsə.
Sənin ola bilərmi yurdun bir qarış yeri,
Bağça salıb, ev tikib, daş üstə daş qoymasan?!
Demə ki, torpağın var,
Torpaq dara düşəndə,
Uğrunda can verməsən, yolunda baş qoymasan.

Sənindirsə səf çəkən qayaların duruşu,
Sənindirsə şimşəklə qayaların vuruşu,
Qeyrətindi, adındı!
Sənindirsə zirvələr, sənindirsə ətəklər,
Sənindirsə çiçəkdən axan ballar, pətəklər,
Ləzzətindi, dadındı!
Bənövşənin, nərgizin, qızılgülün, lalənin,
Salxım-salxım tökülüb sallanan şəlalənin,
Sənə dəxli yoxdursa,
Vətən adlı Məkkənin, torpaq adlı türbənin,
Şəhərə düşən odun, kəndə dəyən zərbənin,
Sənə dəxli yoxdursa,
Günlərin bir günündə göz açıb görəcəksən
Gördüyün hər nə varsa yağınındı, yadındı!
Bax onda deyəcəyəm qəlbi, ağlı korlara,
Vətən qədri bilməyən vətənsiz nankorlara,
Dünənki laqeydliyin
Kefini, ləzzətini yavaş-yavaş dad indi!!!

Nələr düşdü yadıma:
Ötən günlərə doğru xeyli baxdım uzaqdan,
Daş-torpaq oda döndü canımdakı sazaqdan!
Harda nakam Müşfiqi dəldi-deşdi güllələr,
Harda Əhməd Cavadı vaxtsız ölüm haqladı –
Azərbaycan xalqının sarsılmaz dayaqları
Bax, o zaman laxladı!!!
Nə zaman ki, xəyanət yırtıcı qurda döndü,
Heykəlləşən Cavidi öz yolundan saxladı –
Zəngəzurun, Göyçənin, Şuşanın dayaqları,
Bax o zaman laxladı!!!
Fasiləsiz zərbələr xalqın qəddini əydi,
37-ci ildə sərt açılan güllələr,
Doxsanın yanvarında gəldi Bakıya dəydi!
Təkcə Bakımı çəkdi bu ağrının altını,
Təkcə Şuşamı çəkdi bu ağrının yükünü?

Bu ağrı zədələdi
Azərbaycan adlanan
Beş min illik ağacın budağını, kökünü!!!
Ey xalqın şairləri!
Çərxi-fələk min dəfə dəyişsə də qurğunu,
Hörmətlə xatırlayır dünya Səməd Vurğunu!
Ellər ondan halıydı, o ellərdən halıydı,
O, şeirin, sənətin də,
Döyüşün, səngərin də əbədi marşalıydı!
İlhamının mayası anaların südüydü,
Ən odlu silahımız "Anamın öyüdü"ydü!
Görüb çətin yolların yağışını, qarını,
O zaman yazmadımı Rəsul "Bəxtiyar"ını?
Onda yazılmadımı "Vur, başına dönüm, vur!"
"Buz heykəl"in heykəli onda qoyulmadımı?
Faşizmin kor gözləri,
Yazıçı qələmiylə hər gün oyulmadımı?!
Neçə-neçə şairin alov saçan nəfəsi
Uçururdu zindanı, dağıdırdı qəfəsi!
Dünənki qələbədə
Söz onların sözüydü, pay onların payıydı.
Tarixə şərəf olmaq
Tarix yaradanların halal haqqı-sayıydı!
Biz niyə susmalıyıq?
Niyə nəfəsimizi mərmiyə döndərmirik?
Niyə son tikəmizi
Boğazımızdan kəsib cəbhəyə göndərmirik?
Bundan çətin imtahan, bundan ağır günmü var?
Bundan çətin dolaşıq açılmaz düyünmü var?
Bundan odlu haraymı, bundan artıq ünmü var?
Sabah qələbə çalsaq,
Üzümüz olacaqmı xalq içinə çıxmağa?
Əlimiz gələcəkmi
Qələbə çalanların əllərini sıxmağa?

Ey xalqın həkimləri!
Allah bizə dərd verib, siz xalqa dərman verin!
Nəfəsi tutulana dağ havası gətirin,
Gülləyə tuş gələnin damarına qan verin!
Millətin içindəki hər ağrını, azarı,
Araqarışdıranı, pisi, mərdiməzarı,
Kəsin, atın bir yana, mahir bir cərrah kimi,
Çatın harayımıza, hökm edin Allah kimi!

Ey xalqın rəssam oğlu!
Sən bu xalqın çəkdiyi çəkilməz dərdi göstər!
Yaxşını pisdən ayır, mərdi, namərdi göstər!
Oynadığı, şahmatı,
Udduğu, uduzduğu oyunu, nərdi göstər!
Düşmənin üzündəki min cür sifəti göstər!
Dostun ürəyindəki gücü, qüdrəti göstər!
Baxışda inam adlı yenilməz silahı ver!
Fərarinin, alçağın,
Çəkdiyi cəzanı ver, batdığı günahı ver!

Ey qarışıq zamanın siyasi xadimləri!
Tərpədin ürəkləri, çalın sarı simləri!
Dünyanın harasında haqqı susduran olsa,
Harda bircə nəfəri arxadan vuran olsa,
"Azadlıq" deyə-deyə bar-bar bağırardınız!
Dövləti ədalətə, haqqa çağırardınız!
İnsanı fəlakətin əlindən alardınız,
Həyəcanlar qaldırıb, təbillər çalardınız!
Niyə sönüb nəfəslər?
Niyə batıb o səslər?
Niyə kar olub görən,
Həqiqətin səsini eşitməyən qulaqlar?
Ağrını, müsibəti niyə görmür uzaqlar?
Xəbəriniz varmı ki,
Ən qədim bir millətin taleyinə qəsd olur!

Şəhid xiyabanları ayaq açıb yeriyir,
Ölənlər ölüb gedir, qalanlar şikəst olur.

Ölümlərə hədəf mənəm!
Öldürülən tərəf mənəm!
Canda ruhum, yerdə daşım, göydə quşum
güllələnir,
Yaddaşıma güllə dəyir, ağlım huşum güllələnir!
Köləliyin əllərindən xilas yolu tapan kimi,
Azadlığım, istiqlalım, qurtuluşum güllələnir!
Deyən yoxdur, cahil insan,
Təzə açan çiçəyə bax, tər budağı güllələmə!
Nəğməsinə, sözünə bax, gül budağı güllələmə!
Körpələrin üzündəki təbəssümü güllələmə!
Pərdə üstə dalğalanıb ötən simi güllələmə!
Toy gecəsi gəlinlərin xınasını güllələmə!
Övladını yetim qoyub anasını güllələmə!
Bu güllələr evlər yıxdı, ara vurdu,
Bu güllələr neçə xalqa yara vurdu.
Mən bilirəm, qamətini kimlər əydi Azərbaycan!
Mən bilirəm, güllə sənə hardan dəydi,
Azərbaycan!
Hər gün səni vurmaq üçün bostanına daş atdılar,
Hər gün səni qırmaq üçün
Dildə zəhər, dişdə bıçaq yaşatdılar!
Gedən getdi, ölən öldü, bəsdi daha!
Kəsən kəsdi, bölən böldü, bəsdi daha!
Mən heç kəsin torpağında torpaq üstə
ölməmişəm,
Mən heç kəsin torpağını bölməmişəm!
Qəssab əlli, cəllad üzlü,
Ayı canlı, iblis gözlü qan düşmən,
Qarış-qarış dərimizi soymadınmı,
"Gülüstan"da gözlərimi oymadınmı.
"Türkmənçay"da imza atıb,

Məni hərrac bazarına qoymadınmı?
Ölür insan, yanır millət,
Sən içdiyin laxta-laxta bu qanlardan
doymadınmı?
Hansı şeytan, hansı cinsən, tanıyıram!
Hansı dövlət, hansı dinsən, tanıyıram!
Nə alçaqsan, nə xainsən, tanıyıram!
Nə "Zəbur"da, nə "Tövrat"da,
Nə "İncil"də, nə "Quran"da,
Heç bir yerdə, heç bir yanda yazılmayıb
Sən özgənin torpağını yandırasan, qəsb edəsən!
Sən özgənin torpağıyla qazanc, maya kəsb
edəsən!
Kimlər sənə haqq verir ki,
Bu dənizdən o dənizə yol çəkəsən!
Kimlər sənə haqq verir ki,
Bir millətin taleyinə,
Kefin necə istəyirsə eləcə də qol çəkəsən?!
Tanıyırıq gedişləri, yolları biz!
Tanıyırıq imzaları, qolları biz!
Yediyiniz, içdiyiniz bəsdi daha!
Əkdiyiniz, biçdiyiniz bəsdi daha!
İmkan verin, öz əlim, öz başım olsun!
İmkan verin, öz divarım, daşım olsun!
İmkan verin, torpağımı şumlamağa
Öz kotanım, xışım olsun!
İmkan verin, istəyimcə öz baharım,
İstəyimcə qışım olsun,
Qaçqın da mən, köçkün də mən, girov da mən,
Ovçuların əllərində parçalanmış bir ov da mən!
Yad ağzında yağlı aş da,
Süfrəsində plov da mən!
Yanan da mən, yaman da mən!
Gördüyündən gözü çıxan,
Qəlbinə qan daman da mən!
Öldürdünüz, ölüm bəsdi,

Yandırdınız, zülüm bəsdir!
Qovurdunuz, külüm bəsdi!
Doğram-doğram doğradınız,
Tikələndi dilim, bəsdi!
Eşit məni, ey işğalçı, ey qəsbkar,
Eşit məni, harayları eşitməyən qulağı kar.
Eşit məni,
Gördüyünü görməzliyə vuran kəslər!
Eşit məni, bayquş səslər, buz nəfəslər!
Zaman keçib, vaxt dolanıb, elə bir an yetişəcək,
Dizdə təpər, canda qeyrət, damarda qan
yetişəcək!
Uzun çəkməz qaranlığın yamanlığı,
Nurlu səhər, işıqlı dan yetişəcək!
Çirkabların, dumanların arasında baş qaldırıb,
Aydan arı, sudan duru,
Büllur kimi Azərbaycan yetişəcək!
Bu gün bir az ləngiyənlər,
Öz haqqını almaq üçün
Nəfəsləri təngiyənlər,
Dərindən bir nəfəs dərib,
Tufanlara sinə gərib,
Zirvəsini, şöhrətini, Şuşasını qaytaracaq!
Aranını, yaylağını, meşəsini qaytaracaq!
Üzü ancaq sabahadır millətimin,
Sözü ancaq silahadır millətimin!
Vətən oğlu, Vətən qızı!
Mən üzümü sənə tutdum,
Sən üzünü torpağa tut!
Sən üzünü Məmməd Əmin qaldırdığı bayrağa tut!
Vətən səni çağırırsa,
Nə yaxanı qırağa çək, nə üzünü qırağa tut!
Yağıları dizə çökdür, yağılara diz çökmə!
Nisgil olub qəlbə, cana, duman olub gözə çökmə.

İyirminci əsr səni yaraladı,
Neçə yerdən tikələdi, paraladı.
İyirmi birin qarşısına ürəyində yara getmə!
Gələn günə, gələn əsrə bütöv yeri, para getmə!
Sən mənimçün canda nəfəs, nəfəsdə can
olmalısan,
Təbrizin də, Dərbəndin də, Borçalının,
Göyçənin də,
Qaynadığı, qovuşduğu,
Xatalardan, bəlalardan, zərbələrdən sovuşduğu,
Qırx milyonun yumruq kimi birləşdiyi,
Qırx milyonun bir ürəyə yerləşdiyi,
Bütöv, məğrur, qalib, cəsur,
AZƏRBAYCAN OLMALISAN!
AZƏRBAYCAN OLMALISAN!

***1994, aprel-may***

## LEFORTOVO ZİNDANI

Balaca tarix deyil
minillik bir ərəfə,
Zaman atıb bu yolda
hərəni bir tərəfə.
Kimi şərəfsiz çıxıb,
kimi çatıb şərəfə.
Xəqani "Həbsiyyə"si
anılanda hər dəfə,
Keçir gözüm önündən
dəmir bir qəfəs yolu,
Xəqanidən Xəlilə
yol gəlir, məhbəs yolu.

Biganələr nə bilsin
gövhər nədi, inci nə,
Kimdi baxan insanın
qocasına, gəncinə.
Şairlərdi atılan
zindanların küncünə,
Daraldıqca meydanı
sıxılır nəfəs yolu.
Xəqanidən Xəlilə
yol gəlir, məhbəs yolu.

Birinin gözündə nur,
birinin gözündə qan,
Ata "can-can" deyənə
oğul söylədi "qan-qan".
Mənuçöhr sevəni
rədd elədi Axsitan,

Xəqaninin qazancı
oldu axırda zindan,
Bağlandı bir dahinin
uçuş yolu, səs yolu,
Xəqanidən Xəlilə
yol gəlir, məhbəs yolu.

Zindanların tarixi
neçə min illər qədər,
Zindanların qədəri
bağlanan dillər qədər.
Zindanların şöhrəti
Nazim Hikmətlər qədər,
Musa Cəlillər qədər.
Nahaqdan yana-yana
haqq basılır zindana,
Zaman çətin düzəldir
əyri yolu, nəs yolu,
Xəqanidən Xəlilə
yol gəlir, məhbəs yolu.

Axı, o, öz şeirini
şaha hədiyyə verdi,
Xəqaniyə fitvanı kim verdi,
niyə verdi.
Onu həbs edənlərə
o, bir "Həbsiyyə" verdi.
O, Tanrı vergisidi,
sönmədi həvəs yolu.
Xəqanidən Xəlilə
yol gəlir, məhbəs yolu.

"Lefortovo dəftəri"
"Həbsiyyə"nin davamı,
Qırmızı imperiya

Qara-buza döndərib
mənim isti yuvamı.
Qan ilə zəhərləyib,
Zəhər ilə doldurub
saf suyumu, havamı,
Tufanlı günlərimdə
Xəlil Rza qeyrəti
çəkdi mənim davamı.
Onu qorxudammadı
Qaniçən yağıların
"doğra" yolu, "kəs" yolu,
Xəqanidən Xəlilə
yol gəlir, məhbəs yolu.

Qızıl qanlar içində
bir şeir gülüstanı,
Bu gülüstan xalqımın
göz yaşıyla isdanı.
Köləliyə, zülmətə
Tərsinə bir şillədir
"Lefortovo dastanı!"
Cəhənnəmlər içində
sözdən cənnət yaratdı,
Yerə, göyə sığmayan
bir məhəbbət yaratdı.
"Sizin o divarınız
bizə vız gəliyor, vız!" –
Nazim cəsarətiylə
daşları qum elədi.
Kitabları əritdi,
dəftəri şum elədi.
Azərbaycan şeirinin
qeyrət damarı kimi,
"Lefortovo" adında
bir səltənət yaratdı.

Təbriz cəsarətiylə
bir neçə boy ucaldı,
Şəhidliyin, mərdliyin
ülvi, müqəddəs yolu,
Xəqanidən Xəlilə
yol gəlir, məhbəs yolu.

Xəqanini tutduran
istedada paxıllıq,
çirkin dedi-qoduydu.
Şeytanın fitnə-feli,
məkrin sönməz oduydu.
Onu özümüz olduq
zindanlara atdıran,
Şabran adlı qalada
Qoluna qandal vurub,
qəlbini qanatdıran.
Bu gün Şabran qalası
uçuq, xarabalıqdı.
Yaşayan Xəqanidi,
Dahilərin sirdaşı
yaradandı, xalıqdı.

Xəlili həbs etdirən
Yıxılan imperiyanın
kəmfürsət niyyətiydi.
Lefortovo adında
Zindana baş əyməyən
şair şəxsiyyətiydi.
Bu qətiyyət, bu vüqar
Xəlil Rza donunda
Əhməd Cavad xisləti,
Cavid qətiyyətiydi.

“Bir xırda vergül qədər”
sınmaq, əyilmək olmaz, –
Böyük Xəlil Rzada
fikir, məram qətiydi.

Həqiqəti gizlədib,
haqqı dana bilmədi,
Gördü, gördüklərinə
heç inana bilmədi.
Cəhd elədi qanmağa,
ancaq qana bilmədi.
Məhbusa bax, eşqə bax!
Söz güllə, qələm silah,
Döyüşə bax, məşqə bax!
Ömrü boyu bu zindan
Nə belə şair görüb,
nə belə bir qəhrəman.
O, əyilmir zamana,
ona diz çökür zaman,
Zindanbaşı mat qalıb
Basılmaz bir şairin
inadına, səbrinə.
Şair baxıb tüpürür
Qanlı imperiyanın
məzarına, qəbrinə.
Yox, şair dustaq deyil,
Yox, şair əsir deyil.
Xəlil Rza mərdliyi
Aydın bir həqiqətdir,
heç bir kəsə sirr deyil.
Dəydikcə zərbə, yumruq,
tərpənir divarda daş.
Kökündən, məhvərindən
Ölümə doğru gedir
hər saatı, hər anı,
Lefortova zindanı!

Kimdi böyük şairin
burda könül dostları:
Homer, Dante, Nizami,
Sabir, Füzuli, Cami,
Vurğun, Aşıq Ələsgər.
Neçə əli qələmli,
neçə sinəsi dəftər.
Kimdi böyük şairin
qəhrəman qardaşları:
Atilla, Babək, Mete,
Şah İsmayıl, Nəsimi.
Hər biri baş qaldırıb
tarixin yaddaşından,
Xəlil, əyilmə deyir,
eşit mənim səsimi!
"Moabit"dən bu səsə
Musa Cəlil səs verir,
"Xəlil, əyilmə!" – deyir.
Bu səs Xəlil Rzaya
ikinci nəfəs verir,
"Xəlil, əyilmə!" – deyir.
Ölümə göndərdilər
Xəlili daş zindana,
O zindanın içindən
Xəlil dirildi çıxdı.
Düşmənlərin gözünə
atıldı güllə kimi,
Ox kimi itiləndi,
yaytək gərildi çıxdı.
Çəksə də dərdli başı
min qadanı, min qanı,
Xəlili əyəmmədi
Lefortovo zindanı!

Kimdi böyük şairin
qəlbinin şah damarı,
Ağrı və ah damarı:
Azərbaycan adında
yaralı bir məmləkət.
Ana yurda sevgidə
nə ölçü var, nə sərhəd.
Silinib getməlidir
qara-qara ləkələr.
Uçub dağılmalıdır
qanlı müstəmləkələr!
Yazılan hər sətirlə
candan tikan çıxacaq.
Bu xaraba zindandan
Xəlil Rza adında
Yenilməz, məğrur, mətin
Azərbaycan çıxacaq!
Haqqın qələbəsiylə
nahaqqın çıxır canı.
Məğlub olur şairə
Lefortovo zindanı!

Kimdi böyük şairin
gözlərinin işığı,
ömrünün yaraşığı,
Məsləkdaşı, sirdaşı,
ərşə ucalan başı.
Kimdi böyük şairi
Ağır dəqiqələrdə
sağ-salamat saxlayan,
Ümidini, eşqini
yerə-göyə bağlayan.
Sevgilisi, əzizi,
istəkli Firəngizi.

Ona əsər yazdırır,
ona kitab yazdırır
Firəngizsiz günlərin
hər saatı, hər anı.
Ha çalışır, sevgiyə
Bir sərhəd çəkə bilmir
Lefortovo zindanı!

Ruhuma, varlığıma
Xəlil Rza şeirindən
düşən izə baxıram.
O izin sağ-solunda
Firəngizə baxıram.
Firəngiz deyiləndə
Şair gözlərindəki
gül-nərgizə baxıram.
Firəngiz Xəlil üçün
əsən nanə yarpağı.
Xəlil Rza ömrünün
Vəfalı qadın kimi
tək nişanı, yarpağı.
Əsla Allahın altda
Hər şairin bəxtinə
belə bir qadın düşə.
Firəngizlə Xəliltək
tarixə adın düşə.
Kimin olsa belə bir
mərd, cəfakeş qadını,
Ulduzlara qaldırar
ər kişini qadını,
Ulduzlara qaldırar
ər kişinin adını.
Yarı arif olanda,
Ruhu zərif olanda,
Şair, şair olmaz ki,
çevrilib Allah olar.

Çıxar sevgi taxtına,
fərman verən şah olar.
Necə ki, Xəlil Rza
Zindanda qul olmadı,
zindanlara şah oldu.
Onu uca saxlayan
Firəngiz məhəbbəti
Böyük şairlik üçün,
Böyük kişilik üçün
ən ulu dərgah oldu.
Firəngizi, Aytacı, Gültacı
sevə-sevə
Şair baxışlarında
sökülür eşqin danı.
Tarixində ilk dəfə
Sevgiyə məğlub olur,
Şairə təslim olur,
Lefortovo məhbəsi,
Lefortovo zindanı!!!

***27.04.2006***

## XALQIN EHTİYACI VAR

Elin dar ayağında,
Xalqın haqlı günündə,
Müqəddəs duyğuların
Boğanaqlı günündə,
Öldürülmüş hislərin
Dirilən vədəsində,
Əsəblərin sim kimi,
Gərilən vədəsində,
Xalqın ehtiyacı var,
Əsil Vətəndaşlara!
Döyünən ürəklərə,
Düşüncəli başlara!
Xalqın ehtiyacı var,
Hava kimi, su kimi,
Ən böyük bir həqiqət,
Ən şirin arzu kimi,
Yaşayan oğullara!
Çiynində el yükünü
Daşıyan oğullara!
Bir az sərt, bir az dəli,
İnamlı, əqidəli,
İnadıyla dağ yarıb,
Daş oyan oğullara!
Arxalı köpəklərin
Dişini qırmaq üçün
Güc gərək, kömək gərək
Yalqızlara, təklərə.
Xalqın ehtiyacı var,
Bugünkü Babəklərə!
Böyük imkanlı "dostlar"

Böyük həqiqətimi
Bürüyürlər pərdəyə.
Xalqın ehtiyacı var,
Ən güclü şəxsiyyətə,
Ən böyük sərkərdəyə!
Gör nələr deyilmədi
Xalqımın ünvanına.
Öz evimin içində
Qaçqınam, didərginəm!
Dəniz qədər tufanlı,
Çaylar qədər gərginəm!
Bu gün yaman durublar
Dilimin, tariximin,
Millətimin qəsdinə.
Vallah, mənə baxanda
Min şükür Afrikaya,
Min şükür Fələstinə!
Hər deyilən nahaq söz,
Ürəyimi yandırır.
Gör düşmən nələr deyir,
Özü inanmasa da,
Özgəni inandırır.
Olan ancaq o olub,
Mən heç mən olmamışam!
Mən torpaq olmamışam,
Mən Vətən olmamışam!
Olmayıb bu dünyada
Nizami Gəncəvi də,
Məhəmməd Füzuli də!
Dünyanı sehrləyən
Füzulinin dili də!
Dünənimin qeyrəti
Dədə Qorqudum da yox.
Bu günümün şöhrəti
Alovum, odum da yox.

Pay-pay böldülər məni,
Payımı gizlədilər.
Oxumu atsalar da,
Yayımı gizlədilər.
Neçə dəfə saydılar,
Sayımı gizlədilər.
On səkkiz milyon nədir,
O tayda lap az oldum.
O qədər saydılar ki,
Axır sayılmaz oldum.
Zarafata salıblar
Taleyini millətin.
Bu ağır zarafatdan,
Yaxa qurtarmaq çətin.
Qumara qoyulmuşam,
Qumarbazlar əlində.
Azım çoxlar əlində,
Çoxum azlar əlində.
Düşünürəm, görəsən
Nədir mənim günahım?
Bəlkə əliaçıqlığım,
Səxavətim günahkar?
Bəlkə ədalətsizə
Ədalətim günahkar?
Bəlkə də həqiqətin,
Düzün günahkarıyam?
Adı "ənəlhəqq" olan
Sözün günahkarıyam?
Bəlkə zamanın özü
Meydan açır əyriyə?
Geniş meydan verir ki,
Xəyanət at oynada,
Həm yeyə, həm səyriyə?
Yox, bu daha ağ olar,
Nahaqqa meydan verib,
Haqqı alçaltmaq olar!

İnandığım həqiqət
Mən səni tanıyıram,
Sən alçalan deyilsən.
Boş şöhrətə, alqışa
Çəpik çalan deyilsən.
Xəyanətin bağrına
Saplanan bir süngüsən!
Sən Koroğlu qılıncı,
Sən Fərhad külüngüsən!
Xalqımın tarixində
Sənə qaralar yaxan
Neçə namərd görmüşəm.
İt hürər, karvan keçər,
Qranit qayalartək
Mən səni sərt görmüşəm!
Mən sənə güvənmişəm,
Həqiqətin gəncliyi,
Gəncliyin həqiqəti,
Çaşma yolundan qəti.
Bu günün gənci kimdi,
Sabahın ağsaqqalı!
Gəlin, daha birləşək,
Olaq dünəndən halı.
Gəlin, Təbrizdən əvvəl
Özümüzdə birləşək,
Gözümüzdə birləşək.
Cənginin səslədiyi
Doğma səsdə birləşək.
Bir canda, bir ürəkdə,
Bir nəfəsdə birləşək.
Kökümüz bir olubsa,
Soyumuz bir olubsa,
Havamız bir olubsa,
Suyumuz bir olubsa,
Niyə bizim işimiz,
Sözümüz bir olmasın?

Nə üçün astarımız,
Üzümüz bir olmasın?
Nə üçün avandımız,
Tərsimiz bir olmasın?
Yazılan kitabımız,
Dərsimiz bir olmasın!
Bu gün də birləşməsək,
Birləşməyə çağıran
Yolu fikirləşməsək,
Yönü fikirləşməsək,
Onda yenə artacaq
Gündən-günə səhvimiz.
Səhvimizin nöqtəsi
Birdəfəlik məhvimiz!
Boylananda arxaya,
Babəkin səhvinə bax!
Getdi, Səhl-Sumbatı
Özünə dost elədi.
Səhl-Sumbat Babəkə
Dağ çəkdi, qəsd elədi!
Xətai boyda dahi
Şərəfimi, adımı,
Göylərə qaldıranda,
Bircə səhvin ucundan
Vuruldu Çaldıranda!
Bölündük, parçalandıq
Neçə-neçə xanlığa!
Başımız hazır oldu
Həmişə qurbanlığa!

Səttarxan səhv elədi,
Şah sözünə aldanıb
Tehrana qayıdanda.
Ən böyük əməlləri
Satqınlığın əliylə
Batdı qırğında, qanda!

Burda çar ayaqladı,
O yanda da şah məni!
Dünənki səhvlərimdən
Dərs götürə bilməsəm,
Bugünkü səhvlərimdən
Saxlasın Allah məni!
Dərman əlac eləmir
Qəlbə düşən xallara!
Xalqın ehtiyacı var,
Əsl ağsaqqallara!
Ağsaqqalın sözünün
Oduna ehtiyac var,
Qoruna ehtiyac var.
Ağsaqqalın üzünün
Nuruna ehtiyac var!

Ağsaqqala ehtiyac,
Təəssüflər yaradan
Qəlbin ahından doğur.
Dumanlı keçmişlərin
Min günahından doğur.
Nurla dağıtmaq gərək
Qatılaşan dumanı.
Buludlar çəkiləndə
Vətənin göylərindən
Yenə şimşəklər bizə
Verməyəcək amanı.
Əgər yoxsa başçımız,
Əgər yoxsa başımız,
Onda bədən neyləsin.
Qoruya bilmədiksə
Şərəfini, adını,
Buna torpaq neyləsin,
Buna Vətən neyləsin!

Bizə ağsaqqal gərək,
Yurdu yada verməsin!
Bizə ağsaqqal gərək,
Xalqı oda verməsin!
Xalqı qana, qırğına,
Dərdə, oda verməsin!
Bizə ağsaqqal gərək,
Qiblə bilək, and içək,
Qeyrətinə, adına!
Gənclik dara düşəndə
Çatsın onun dadına!
Bizə ağsaqqal gərək,
Biz döyüşə gedəndə
O, bizə səngər olsun!
Cövhərində kişilik,
Sözündə løngər olsun!
Adı çəkilən kimi,
Buyruğuna, əmrinə
Ellər səfərbər olsun!
Bizə ağsaqqal gərək,
Güvəndiyi həqiqət,
Dayağı bəşər olsun!

***1992***

## TANI MƏNİ, AMERİKA

Amerika dövləti!
Məni dəvət etmisən,
bu dəvətin mübarək!
Mənə hörmət etmisən,
bu hörmətin mübarək!
Dünyanın o başından
bu başına gəlməyə
Səxavət göstərmisən,
səxavətin mübarək!
Şan-şöhrətin, ad-sanın,
böyüklüyün, möcüzən,
Varlığın, gözəlliyin,
təravətin mübarək!
Məcrasına sığmayan
gur çayların mübarək!
Buludlardan nəm çəkən
sarayların mübarək!
Min zəfər kitabına
sığışmayan, sığmayan
Ağlı heyrətə salan
əzəmətin mübarək!
Görüşünə gəlmirəm
sadə kef-damaq üçün,
Beş-on gün ləzzət alıb,
gözəl yaşamaq üçün.
Su kimi hara gəldi
axmaq üçün gəlmirəm,
Ağ evə, Parlamentə,
Senata, Konqresə
Seyrçi bir nəzərlə
baxmaq üçün gəlmirəm.

Yaşım o yaş deyil ki,
Baxdığım mənzərələr
xəyalımı çaşdıra,
Gördüyüm parıltılar
gözümü qamaşdıra.
Yaşım o yaş deyil ki,
zövqüm məni aldada,
Məndən ötrü həyatın
yalanı da bal dada.
Təkcə şair deyiləm,
Coşsun, çağlasın təbim,
Ya, bir xoş xatirəylə,
Ya, gözəl bir şeirlə
bitsin sözüm, mətləbim.
Təkcə şair deyiləm,
Göylərin durnasına,
Göllərin sonasına,
Daşların xınasına,
Gördüyüm şəhərlərin
göydələn binasına
Ətirli misraları
səpəm gül-çiçək kimi,
Çiçəklərə, çöllərə
qonam kəpənək kimi.
Vəkiləm bir millətə,
vəkiliyəm millətin,
Yüküm ağırdan ağır,
işim çətindən çətin.
Bircə yarpaq düşürsə,
budağa cavabdehəm,
Bir qarışı yanıbsa,
torpağa cavabdehəm.
Bir əsrin tarixində
İki dəfə yüksələn
bayrağa cavabdehəm.

O qədər qövr edib ki,
ürəyimin yarası,
Sənə yetirmək üçün
Nə fikrim bitəsidi,
nə sözüm qurtarası.
Od tökülüb, qor dolub
saçımdan dırnağıma,
Yana-yana kül olar
kim çıxsa qabağıma.
İztirab var, ağrı var,
faciə var, əzab var,
Çürütməli, çözməli
nə qədər haqq-hesab var.
Daşdı səbrim, dözümüm,
dağdı çiynimin yükü,
Biz-biz olub qəzəbdən
yenə başımın tükü!
Dərd ağır dalğa-dalğa,
duman kəsir üstümü,
On illərdi yanıram,
görən yoxdu tüstümü.
Yandım qır qazanında,
Bişdim kor qazanında,
Qovruldum qovut kimi,
Fitnə, şər qazanında.
Bu gün mənim sirdaşım
nə saz, nə kaman, nə tar,
Nə ovçuyam, nə səyyah,
nə alim, nə bəstəkar.
Nə mən tamaşaçıyam,
nə də sən bir tamaşa,
Baxım parıltılara
gözüm nurdan qamaşa.
İşim dönüb tərsinə,
ağzım dirənib dağa,

Gəlirəm, Amerika!
Gəlirəm, dur hazırlaş
məni qarşılamağa!
Qasırğayam, dalğayam,
fırtınayam, tufanam,
İllər boyu qaynayan,
Bircə anda püskürən
zəlzələyəm, vulkanam.
Gəlirəm, Amerika,
tufan kimi gəlirəm.
Qayaları sovuran
vulkan kimi gəlirəm.
Ya miskin bir ölümdü,
ya məğrur yüksəlişdi,
Bu, başqa cür gəlişdi!
Tək mən deyiləm gələn:
Çıxıb uzaq bir yola,
verib mənlə qol-qola,
Böyük bir arzu gəlib
həqiqət olmaq üçün,
Böyük bir ümid gəlib
məhəbbət olmaq üçün.
Dağdan ağır dərd gəlib,
gələn dərdim sərt gəlib.
Səndən qüvvət istəyir
cəsarət olmaq üçün.
Ruhumda bir od gəlib,
canımda bir can gəlib,
İliyimdə, qanımda
bir Azərbaycan gəlib.
Mənim üçün hər şeydən
uca, müqəddəs olan,
Dilimdə, dodağımda
nəğmə olan, səs olan,

Udduğum təmiz hava,
çəkdiyim nəfəs olan,
Dərdli bir Vətən gəlib.
Onun dərdi həmişə
zirvələrlə tən gəlib.
Yolum çətin, işim zor,
Dinlə, cənab senator!
Bilsən də, bilməsən də,
Azərbaycanla bağlı
bir az təqdimat verim,
Qəlbinə bir genişlik,
ruhuna qanad verim.
Tanı, yaxından tanı
bizim Azərbaycanı!
Xəzər yaxasında Kürlü, Arazlı,
Göygöllü, Şahdağlı bir dövlətəm mən!
Şeirimdə Nizami yüksəkliyi var,
Peyğəmbər zirvəli bir sənətəm mən!
Bir dövlət qurmuşdum beş yüz il əvvəl,
Xətai imzalı cəsarətəm mən!
İnsanı qaldıran tanrı taxtına,
Nəsimi möhürlü həqiqətəm mən!
Fikirlər, duyğular zəlzələsiyəm,
Sabir möcüzəli səltənətəm mən!
O tayda Təbriz var, bu tayda Bakı,
Ortadan ikiyə şaqqalanmışam,
Dünyada ən böyük bir həsrətəm mən!
Torpağı min yerə parçalansa da,
Sevgisi bölünməz məhəbbətəm mən!
Körpə azadlığı qana bələnmiş,
Dağılmış, talanmış bir sərvətəm mən!
Bu gün gözü yaşlı, qəlbi təlaşlı,
Üsyanam, gileyəm, şikayətəm mən!
Mən deyim, sən dinlə, yaddaşına yaz,
Ən kövrək, ən qəmli hekayətəm mən!

Düz iki yüz ildi ki,
dağılmış, parçalanmış,
Yadellilər əlində
yurd-yuvası talanmış,
Yenilməz oğulları
Nizələrə taxılmış,
alovlara qalanmış,
Taleyi düyünlənib,
işləri tərsə düşən,
Bir payı rusa düşən,
bir payı farsa düşən,
Təbrizi yaralanmış,
Dərbəndi paralanmış,
Ağrılar sinəsində
dağlartək sıralanmış,
Sellərə dönmüş qanam,
qanlara dönmüş seləm,
İki yerə bölünmüş
bir Vətənəm, bir eləm!
Bir körpüyəm, keçidəm
Şərqlə Qərb arasında,
Ömrüm, günüm, taleyim
sülhlə hərb arasında.
Düşünəndə az qalır
başıma gəlsin hava,
Mənim bəxtsiz millətim
Bir parça torpaq üstə
min qan görüb, min dava.
Mənə millət göstərin,
keçsin otuz milyonu,
Danışmağa öz dili,
Yazmağa öz qələmi,
öz kitabı olmasın.
Mənə millət göstərin,
Mənim millətim qədər
dərdi, əzabı olsun.

Axıtdılar dalbadal
xalq oğlu Səttarxanın,
Şeyx Xiyabaninin,
cənab Pişəvərinin
Qan dolu göz yaşını.
Mənə millət göstərin,
Mənim millətim qədər
Bir əsrdə üç dəfə qopartsınlar bədəndən
onun qanlı başını.
Qafqazın sinəsində
ən möhtəşəm bir dağam,
Qoca Şərqdə ilk dəfə
Müstəqillik adıyla
dalğalanan bayrağam!
Bircə gündə əlimdən aldılar şadlığımı,
Qan içində boğdular
Üç yaşına çatmamış
körpə azadlığımı.
Dişində şirə qalıb,
axıdır qanı düşmən,
Bu gün də aralanmır,
tutub hər yanı düşmən,
Yolum çətin, işim zor,
Dinlə cənab senator!
Bağışla, bəlkə, bir az
çox alıram vaxtını,
Axı, ziyarətdəyəm,
Azadlıq ölkəsinin
azad bir paytaxtını.
Başında duman oynar,
gözlərində çən olar,
Bizlərdə bir məsəl var,
"dərdli deyingən olar".
Axı, sən konqresdə,
axı, sən senatdasan,

Hər yerdə sözün keçir,
Həm aşağı qatdasan,
həm yuxarı qatdasan!
Heç bir kəsin yanında
sözü keçməyən mənəm!
İllər ilə alışan,
odu keçməyən mənəm,
közü keçməyən mənəm!
İlan kimi qıvrılan,
Tüstülənən, qovrulan
Azadlıq şərbətini
Bircə dəfə doyunca
alıb içməyən mənəm!
Təzə oyun tapıblar, indi bir təzə oyun
Avropa, Amerika
Bu işdə can-ciyərdi,
bu əməldə qol-boyun.
Tapılan bəhanəyə
əcəb ad da veriblər: "Erməni soyqırımı".
Olubsa, doğrudan da,
erməni soyqırımı,
Bəs onda kimlər açdı
Türkün torpaqlarında
Bir bu qədər uçrumu,
Bir bu qədər yarğanı,
bir bu qədər şırımı?!
Amerika hələ ki, yaranı
yüngül vurub,
Oyunda birincidir,
Fransa lap gül vurub!
Maya qoyub, xərc verib
bu daşnaq yuvasına,
Avropa dövlətləri
Gecə-gündüz oynayır
erməni havasına.

Söhbətin sərt yerində
bir azca yumşalıram,
Bir kövrək, bir yaralı
xatirəyə dalıram.
Bayatı oxuyuram, ingilisə bayatı,
Dörd misranın içindən
Güzgü kimi boylanır
Vətənimin taleyi, millətimin həyatı.

"Ay amandı,
Xalların nə yamandı.
Namərd mərdə güc gəlir,
Qoymayın, ay amandı".

Tərcüməçim yetişir
elə bu vaxt dadıma,
Qoşulur bayatıdan
Qızıl qantək fışqıran
ahıma, fəryadıma.
Hər sözdə bir təravət,
hər cümlədə bir ətir,
Azərbaycan dilindən
ingilisə çevrilir sözbəsöz,
sətir-sətir.
Senator hər fikirlə
yaxından maraqlanır,
Dəftər kimi yazılır,
kitabtək varaqlanır.
Diqqət ilə baxıram rənginə, baxışına
Tutur bizi dalbadal suallar yağışına.
Sual dalınca sual,
cavab dalınca cavab,
Hər sualda bir ağrı,
hər cavabda bir əzab.

* * *

Amerika dövləti!
Çin ölkəsi deyilsən,
söz qoşam gözəlinə,
İran deyilsən, səni
Bürüyəm başdan-başa
Sədinin hikmətinə,
Hafizin qəzəlinə.
Qədim Misir deyilsən,
Ehramların önündə
Ucalam, qədimləşəm,
mən də bir ehram olam.
Şərq gözəli deyilsən,
Gözəlliyin önündə
əriyəm, bir şam olam.
Sən Tac-Mahal deyilsən,
heyran olam tacına,
Baxdıqca gözüm dola
daşına, ocağına.
Sən İstanbul deyilsən,
Ən qədim muzeylərin
Ən qədim tarixlərə dura meydan oxuya.
Ulu Məkkə deyilsən,
Hər qarışın, addımın
Peyğəmbər təravəti,
Quran ətri qoxuya.
Sənin bir sovqatın var,
azadlıq ölkəsisən!
Ədalətin beşiyi,
azadlığın səsisən!
Nemətlərin içində
ən böyük nemət olan,
Çoxlarını gözlədən,
azına qismət olan,

Allahı qanun olan,
qanunu Allah olan,
Ədalətə sərkərdə,
azadlığa şah olan
Ən böyük bir məmləkət,
ən ali bir ölkəsən!
Mənim fikrimə meydan,
Mənim hökmümə dərman,
sən verəsən, bəlkə, sən!
Mən nə pula, nə qazanca,
nə sərvətə gəlmişəm,
Ədalət istəyirəm,
ədalətə gəlmişəm!
Arxalı köpəklərin
zəncirini dart bir az,
Bir azca nəfəs dərim,
yüngülləşsin dərd bir az.
Eşitmişik, görmüşük
Qonşular arasında
söz olar, savaş olar,
Bir artıq-əskik düşər,
bir dava-dalaş olar.
Ağsaqqal ayırd edər,
Kimin sözü düz çıxar,
kiminki çaş-baş olar.
Heç yerdə görməmişik
Qonaq gəlib deyə ki,
evin sahibi mənəm,
Buludların son qatı,
dəryanın dibi mənəm.
Dünyanın heç yerində
bir bu qədər şər olmaz.
Yox, belə insan olmaz,
yox, belə bəşər olmaz.
İddiası başından,
bəlkə, min dəfə yekə,

Erməni xəstəliyi
Tək mənim üçün deyil,
Sabah sənin üçün də
 ən böyük bir təhlükə!
Vaxt çatıb, Amerika!
Ayır yaxşıdan pisi,
Arxasında durmasan
Heç bir iş görə bilməz
 nə erməni barmağı,
 nə erməni lobbisi!

* * *

Hörmətli konqresmen!
Buyur, bu mən, bu da sən,
 dinlə məni ürəkdən!
O konqres deyilmi,
Düz on il bundan əvvəl
 əl-qolumu bağlayan?
Salıb məni hasara,
 sağ-solumu bağlayan?
O konqres deyilmi,
Ədalətin adıyla
 xəyanətə yol verən?
Öpüb cinayətkarı,
 cinayətə yol verən?
Yaxşımı pisə yozub,
 düzümü tərs oxuyan?
İnsan haqları haqda
 dünyaya dərs oxuyan?
Konqres bilməliydi,
Oğru kimdi, doğru kim,
İşğalçı, talançı kim,
Fitnəkar, yalançı kim.
Konqres bilməliydi,

İrəvan hansı gündə
dönüb Yerevan olub.
Bu yer dünənə qədər
Kimlərin məskəniydi,
kimlərə meydan olub.
Unutdu bir millətin
tarixi şərəfini,
Saxladı fitnəkarın,
Bircə ilin içində
İki yüz kənd yandıran daşnakın tərəfini.
Konqres bilməliydi, həmişə mənim olmuş,
yurdum, vətənim olmuş
Ermənistan adlanan
bugünkü məmləkətdə
Azərbaycanla bağlı
nə iz qalıb, nə ləpir.
Bu gün bütün dünyaya
daşnaklar qırğın salıb,
nifaq toxumu səpir.
Konqres bilməliydi,
qara nədir, ağ nədir,
Bakı harda yerləşir,
Dağlıq Qarabağ nədir.
Nədir Şuşa yanğısı,
nədir Xocalı dərdi,
Konqres bilməliydi,
Osventsim kədərindən,
Buhenvald harayından
Xocalı faciəsi
daha beşdi-betərdi.
Düz yüz əlli ildi ki,
Qurana, Məhəmmədə,
bütöv İslama qarşı,
İstanbuldan başlamış
Hələbə, Şama qarşı,

Türk oğlu türkə qarşı,
Ankaraya, Bakıya,
Təbrizə, Ərkə qarşı,
Azərbaycana qarşı,
Azərbaycanla bağlı
bütün cahana qarşı
Kimlər, nələr birləşib,
Neçə böhtan övladı,
şər oğlu şər birləşib.
Hörmətli konqresmen!
Azərbaycan başa-baş
od içində yananda,
dəniztək çalxananda
Qırılan ümidlərin,
daranan qəfəslərin,
Tüstülərin içində
boğulan nəfəslərin,
Halal haqqı yeyilmiş
haqq bağıran kəslərin,
Ahların, harayların,
nalələrin, səslərin,
Ata-ana deyilən
ruhu müqəddəslərin,
Faciəli taleyi qulağına çatdımı?
Qulağına çatan səs
Tükünü tərpətdimi,
Ruhunu oynatdımı?
Silah kimin silahı,
əllər kimin əliydi?
Xocalı soyqırımı kimlərin əməliydi,
Heç vardınmı fərqinə?
Bu bəla hardan gəlir,
Boylandınmı ölkənin şimalına, şərqinə?
Dostunla düşmənini seçməyi bilmədinsə,
Mənim üçün səninlə qaniçən ermənin
fərqi nədi, fərqi nə?!

Qanunlara ad verib,
adını qoyursunuz
"Ədalətin təməli",
Biz necə başa düşək
sizin tərəfinizdən
Başımıza açılan
Əsassız imtahanı,
ədalətsiz əməli?!

* * *

Amerika!
Xəyalımda gərdiş edib,
ürəyimdə bir az gəzsən,
Yəqin, mənim sözlərimdən inciməzsən.
Biz qalmışıq
Neçə məkr, neçə hiylə,
neçə oyun arasında,
Biz qalmışıq
qurdla qoyun arasında.
Biz qalmışıq
odla suyun arasında.
Suya doğru qayıdırıq,
su yandırır,
Oda doğru yeriyirik,
od yandırır,
Kəlbəcərə, Cəbrayıla əlim çatmır,
Odu sönmüş ocaqları
orda bu gün yad yandırır.
Anasının bətnindəcə
Ölüb getmiş uşaq oldu
BMT-nin qətnaməsi.
Arxivlərdə çürüməkçün
Bir saralmış varaq oldu
BMT-nin qətnaməsi.
Azərbaycan xalqı üçün

Yaxşıca bir sınaq oldu
BMT-nin qətnaməsi.
Azərbaycan su yoluna dönüb daha,
Diplomatlar axın-axın.
Mənim ağır dərdlərimə
Kimi uzaq, kimi yaxın.
Ütülənmiş təklifləri
                    həddən aşır,
Qovluqları kağızlarla
                    dolub, daşır,
İçinin bir faydası yox,
                    mayası yox,
Diplomatın haqq mövqeyi,
                    erməninin həyası yox.
Bu oyunlar, oyunbazlar
Hər gün bizi qana çəkir, Amerika!
Rusun fikri, farsın fikri,
Fransada bir tərs oğlu tərsin fikri
Balıq-xərçəng oyunutək
Taleyimi qoyub hərrac bazarına,
Hərəsi bir yana çəkir, Amerika!
Yer üzündən silmək üçün
                    alçaqlığı, rəzaləti,
Kəsmək üçün faciəni,
                    qovmaq üçün fəlakəti,
Bütün dünya səndən umur
                    düzgünlüyü, ədaləti!
Cənab katib! BMT-nin baş katibi,
Ruhu incə, qəlbi kövrək,
                    özü həssas
Bir millətin sözlərinə
                    lap yaxından, gəl, qulaq as.
BMT-nin binasına
                    boylanırsan, papaq düşür,

Görkəmində bir kəsir yox,
bir qalıq yox,
Duruşunda bir heyrətli ucalıq var,
Əməlində, işindəsə ucalıq yox!
Lap gözünün önündədir,
Bayraqların cərgəsində
baxmısanmı bayrağıma?
Bircə dəfə gəlmisənmi
qan çilənmiş torpağıma?
Səndən əvvəl gələnlər də
çadırları görüb, gedib,
Çadırlardan çıxmaq üçün
şirin vədlər verib, gedib.
Daha, yağlı yalanlara inanmırıq!
İnanmırıq iki yana baxanlara,
İki yana baxa-baxa
evimizi yıxanlara!
İnam ölməz işıqlı bir
ümid olsa,
Nahaq haqqı zorlayanda
inam ölür.
Ağ yalanlar bir şah kimi
taxta çıxıb,
Şər işləri korlayanda
inam ölür.
Böyük-böyük dövlətlərin
baxışları
Kiçikləri xorlayanda
inam ölür.
İnam öldü, insan öldü –
fərqi yoxdur,
İnam öldü, vicdan öldü –
fərqi yoxdur.
İnam ölməz, arxalansan
həqiqətə!

İnam ölməz, meydan versən
cəsarətə!
İnam ölməz, qənim olsan
xəyanətə!

* * *

Amerika! Eşit məni!
İçərimi eşir bu dərd.
Ürəyimi tikan kimi deşir bu dərd.
Axşam-sabah yemək üçün
Qazanımda xörək kimi
yanır bu dərd, bişir bu dərd.
Əgər sən də yetişməsən imdadıma,
Yetişməsən harayıma, fəryadıma,
Sülh sözünü arxivlərə ataq gərək!
Sülh sözünü ocaqlara
çataq gərək!
Haqqımızı almaq üçün
Yeri-göyü bir-birinə
qataq gərək!
Səkkiz milyon əsgər kimi
səngərlərdə yataq gərək!
Mənim bircə silahım var,
Ümid ancaq haqq adlanan
silahadı.
Ümid ancaq yer üzünün
qeyrətinə,
Ümid ancaq göy üzündə Allahadı,
Şərin yolu qaranlıq bir
mağaraya,
Haqqın yolu işıqlı bir
sabahadı.
Bircə qarış torpağını
əldən verməz Azərbaycan!

O, şirindi, o, əzizdi, o, bahadı!
Ürəyimin Şuşa adlı
bir dağılmış sarayı var,
Qulağımda bir Daşaltı
harayı var.
Əldən gedib Ağbabanın
oylaqları,
Əldən gedib Zəngəzurun
yaylaqları.
Əldən gedib Basarkeçər,
Zəngibasar,
Düşmən ilə danışığa
getməz bu xalq,
Barışığa daha çətin
qulaq asar.
Tanrı mənə Əhriməni
qonşu verdi,
Allah mənə qara baxdı,
Amerika!
Bu gün mənim əqidəm də,
inamım da,
Bu gün mənim əsərim də,
ilhamım da,
Bu gün mənim ölümüm də,
həyatım da,
Qarabağdı!
Qarabağdı!
Qarabağdı!
Amerika!

* * *

Düz əlli min əsgərini
itirmisən Vyetnamda,
Mövqeyini, səngərini
itirmisən Vyetnamda,

Sən bilirsən güllələrin dimdiyində
Zəhərlənmiş bulud nədir,
Amerika!
Sən bilirsən qara parça, qara taxta,
tabut nədir, Amerika!
Sən bilirsən nə deməkdi
surğuclanmış dəmir qutu,
Allah özü poza bilmir
qəbirdəki daş sükutu.
Vaşinqton, Parlamentin
lap yanında
Bu şəhərin ən geniş bir
meydanında
Ustaların əlləriylə
Daş işlənib, daş qazılıb,
Qara mərmər lövhələrə
düz əlli min ad yazılıb.
Bir Allaha şikayəti,
insanlara gileyi var,
Hər imzanın arxasında
bir əsgərin taleyi var.
Hər gələnin ürəyində
ağrı gəlir, acı gəlir,
Qan-qan deyən cəbhələrə
Oğul vermiş ana gəlir,
qardaş vermiş bacı gəlir.
Sükut edib, ayağını
saxlayanlar gördüm burda,
Hönkür-hönkür
ağlayanlar gördüm burda,
Gör, aradan neçə-neçə
illər keçib, Amerika!
Göz yaşından çaylar axıb,
sellər keçib, Amerika!
Baxdım, yenə gözlərdəki
yaş qurumur, Amerika!

Yaralanmış ürəklərdən
qəm tökülür,
Kədərlənmiş baxışlardan
nəm tökülür,
Yaş qurumur,
yaş qurumur,
Amerika!
Yaşıl çəmən, qara mərmər,
qızıl yazı,
Bu lövhəyə baxdıqca mən
Hərbə qarşı baş qaldırır
ürəyimin etirazı.
İstəmirik silahların
son hökmünü, qərarını,
İstəmirik biz savaşan
təkrarını.
Yaşamaqçün yaranmışdır
yer üzünün hər insanı,
İstəmirik kimsənin
bircə damla axsın qanı.
Ermənistan orda-burda
axtarmasın dayağını,
Çəksin mənim torpağımdan
birdəfəlik ayağını.
Günahkardı, qoy, bizi də
batırmasın günahlara,
Güvənməsin Rusiyadan
pay aldığı silahlara!
Güvənməsin yardımların
milyonuna, manatına,
Güvənməsin Fransanın
senatına!
Hara gedib çıxasıdı
yalanları sata-sata,
Güvənməsin Nyu-Yorkda
apardığı təbliğata!

Türk şeirinin şah beytini
saldım yada,
Tofiq Fikrət çatdı dada:
"Zülmün topu, tüfəngi var,
tələsi varsa,
Haqqın da bükülməz dizi,
dönməz üzü vardır!"
Yalanla.......... qırx gün çəkər
axırı,
Yeddi dəfə qalayla,
üzə çıxar paxırı.
Oyunbazlar nə qədər
sırtıqlaşır, sırtılır,
Bir o qədər açılır,
maskaları yırtılır.
Yalan bu qədər olmaz!
Talan bu qədər olmaz!
Yalanı, fırıldağı
Satan bu qədər olmaz,
Alan bu qədər olmaz!
Dərdimizlə baş-başa
çox dolandım dünyanı,
Eşitməyən, bilməyən,
eşitmək istəməyən,
Azərbaycan dərdinə
biganələr də gördüm.
Dərdi görəndə qaçan
Ağciyər fərarilər,
divanələr də gördüm.
Özünü bizdən ötrü
oda yaxıb yandıran,
Azərbaycan dərdinə
pərvanələr də gördüm.
Qürbət ölkədə belə
ölümündən qorxmayan,

Mərdlər, kişilər, ərlər,
mərdanələr də gördüm.
Erməni yalanları
qanqal kimi bitsə də,
Mənim həqiqətlərim
Yavaş-yavaş göyərir,
bitir çiçəklər kimi.
Dünya ayılır daha,
Yalanları tanıyır
şeytan hiyləsi kimi,
Gerçəkləri tanıyır
əsl gerçəklər kimi.
Xəyanətin min üzü,
min sifəti olsa da,
Həqiqət təmiz olur
göydə mələklər kimi.

* * *

Allah mənə bir balaca vətən verib,
Elə bil ki, Allah deyil,
Kimsə onu
elə yoldan ötən verib.
Ona minnət, buna minnət,
Ona rüşvət, buna sərvət,
Biri gəlir yaralayır,
Biri gəlir paralayır.
Biri gəlir,
üstümüzdən qələm çəkib qaralayır.
Biri gəlir,
özümüzü özümüzdən eləməyə,
Biri gəlir,
canımızı gözümüzdən eləməyə.
Biri gəlir, eli eldən ayrı salıb,
dağı düzdən eləməyə!

Böyüklərin dərdi xırda,
kiçiklərin dərdi yekə,
Bölünmüşük parça-parça,
bölük-bölük, tikə-tikə.
Bölünməzdik, böldürdülər,
Gözlərimiz baxa-baxa
diri-diri öldürdülər.
Çaş-baş salıb bayramları,
Toyumuzda ağlatdılar,
yasımızda güldürdülər.
Yaxınlardan çox "yarıdıq",
İndi bizə uzaqlardan
qanun gəlir, qayda gəlir,
Bu qanundan, bu qaydadan,
Guya bizə xeyir gəlir,
guya bizə fayda gəlir.
Başlamışıq oynamağa
Qərb adlanan bir aləmin
tapşırığı, nazı ilə.
Barışmışıq qismət ilə,
qədər ilə, yazı ilə.
Unuduruq ruhumuzu,
itiririk kökümüzü,
İtiririk dağdan ağır
çəkimizi.
Ölkələrin geyindiyi
dəblər bizə bir dəb olur.
Həyasızlıq abır-həya,
ədəbsizlik ədəb olur.
Unuduruq əslimizi,
çürüdürük kökümüzü,
Başdan gedir papağımız,
heç tərpətmir tükümüzü.
Belə getsə, bizdən sonra gələnlərin
Nə ruhunda od qalacaq,
nə dilində bayatı.

İstəmirəm, istəmirəm
Özgələrə yamaq olan,
Ögeylərə calaq olan,
Əqidəsi şikəst olan,
Kişiliyi çolaq olan,
Yaşıl-yaşıl çəmənində
Qanqal olan, alaq olan
Bir vərdişi, bir həyatı.
Belə getsə, əriyəcək zərrə-zərrə,
Birdən-birə yox olacaq
Qoca Şərqin muğamatı.
Özgələşib yada dönsəm,
Yad ağzında dada dönsəm,
Özgələrin ocağını isitməkçün
Közə dönsəm, oda dönsəm,
Bir quruca çöpə dəyməz,
Mənə versən kainatı!
Tutduğunu tutammaram,
Etdiyini edəmmərəm, Amerika!
Sənin yolun başqa yoldu,
Mən o yolla gedəmmərəm, Amerika!
Yarı arvad, yarı kişi,
Yarı erkək, yarı dişi
olanlardan qorxuram mən.
Əsl insan gözəlliyi yalan olsa,
Ruhumuza hücum çəkən
talanlardan qorxuram mən.
Küçələrdə çılpaq gəzmək
azadlığı,
Baxıb-baxıb, buna dözmək
azadlığı,
Kişilərin qadın kimi geyinməyi,
Qadınların çılpaqlıqla öyünməyi,
Oğlanların burnundakı halqa, dəmir,
Çirkinlikdən hər şey deyir,

Gözəllikdən, məhəbbətdən,
zəriflikdən, təravətdən
Heç nə demir,
Heç nə demir, Amerika!
Azadlığın axşamüstü
küçələrdə dolub-daşan itlərdisə,
Azadlığın it ilə qol-boyun olan
Təpə-dırnaq lütlərdisə,
Mədəniyyət əgər busa,
Onda gərək birdəfəlik
göz bağlana, könül susa.
Mədəniyyət mənim üçün
abrımızdı, həyamızdı!
Ruhdan gələn adətimiz,
kökdən gələn mayamızdı!
Bütün nemətlərin başı
İnsanlığın bünövrəsi,
ailənin özül daşı
Əsl insan məhəbbəti
Qəlbimizdə işığımız,
kökümüzdə ziyamızdı!
Bu yazılmış qanunlardan
Çox-çox əvvəl qanunlaşan
Yasımızdı, toyumuzdu!
Odumuzdu, suyumuzdu!
Palıd kimi məğrur olan qamətimiz,
Çinar kimi uca duran boyumuzdu.
Babalardan nəvələrə
Zərrə qədər ləyaqəti itirməyən
kökümüzdü, soyumuzdu.
Səndən gələn azadlığı istəmirəm.
Bu azadlıq millətimə
gərək deyil, Amerika!
Bu azadlıq Millətimin ismətinə
gərək deyil, Amerika!

Mən uydumsa bu dəblərə,
Mən uydumsa bu mətləbsiz
mətləblərə,
Demək, onda köksümdəki
Qara daşdır, ürək deyil, Amerika!
Yox, mən belə mədəniyyət istəmirəm,
Çılpaq arzu, çılpaq niyyət istəmirəm.
Qanunların işindədi saat kimi,
Bax, mən səndən o saatı istəyirəm.
Gecə-gündüz qaynayırsan həyat kimi,
Bax, mən səndən o həyatı istəyirəm!
Hər şey axır bu ölkədə:
İşıq axır, fikir axır, beyin axır,
Ağıl sənin sürətindən yeyin axır.
Axır gəmi, axır maşın, axır qatar,
Bu axına qarşı gedən qüvvə varmı?
Buna kimin gücü çatar?!
Bax, mən səndən bar gətirən, var gətirən,
Axşam-sabah aşıb-daşan,
Səmalarla qucaqlaşan,
Amazonka, Missisipi çaylarıtək
Nərə çəkən axınları istəyirəm!
Mənə uzaq olanları istəmirəm,
Ruhu mənə yaxınları istəyirəm!
Hardan tapdıq bu cazibə qüvvəsini?
Hardan aldıq yer üzündə birincilik həvəsini?
Möcüzədir bir bu qədər gediş-gəliş,
Möcüzədir bu tərəqqi, bu yüksəliş.
İtirməli nəyin varsa itirərəm,
Götürməli nəyin varsa götürərəm.
Gördüklərim hər nə varsa,
bir heyrətdir, heyrət mənə.
Möcüzənin, tərəqqinin, yüksəlişin,
Öz dili var, sən o dili
öyrət mənə!

O dənizi, o dəryanı, o sahili
öyrət mənə!
Əzəmətin heyran qoyur adamları,
Sehr kimi ürəklərə axmağın var.
Vətəndaşı vətən qədər uca tutub,
Əsgərinə Allah kimi baxmağın var.
Ölüsünə, dirisinə hörmət qoyan,
Hər kəsə öz gücü qədər qiymət qoyan,
Ədalətin səngərisən!
Tarix boyu yenilməyən
o səngəri istəyirəm!
O duruşu, ucalığı,
o ləngəri istəyirəm!
Gördüklərim bir tərəfə,
Sevdiklərim hər nə varsa,
ver aparım sovqat kimi.
Mən də keçim sən keçdiyin
o yolları,
Basım səni öz bağrıma,
susmayan bir həyat kimi!

* * *

Alt qatını görmək üçün
illər gərək,
Amerika, üst qatını
görə bildik.
Yüz illərlə formalaşan
bir ölkədə
Beş-on günlük həyatını
görə bildik.
Halal elə bir şairin
güzarını,
Seyr elədik neçə-neçə
gülzarını.

Gülzarında cənnətini
görə bildik.
Cənnətində sərvətini
görə bildik.
Çəmənlərdə çiçəklərin
çələngini,
Meşələrdə ocaqların
nəhəngini,
Yollarında genişliyin
heyrətini,
Varlığında var olmağın
qüdrətini,
Şəhərində abadlığı
görə bildik.
İnsanında azadlığı
görə bildik.
Həm yoxsulu, həm zəngini
görə bildik.
Hər şeyin var, heç bir şeydən
korluğun yox,
Heç bir şeydən çətinliyin,
zorluğun yox.
Dükanların dolub daşır
ağzınacan,
Sənin üçün dərdə dərman
dərdi yoxdur.
Bərəkətdə, duz-çörəkdə
qıtlığın yox,
Hərəkətdə küçə, meydan
dərdin yoxdur.
Özün üçün azad dünya
yaratmısan,
Paxıl qonşu, şərlə böhtan
dərdin yoxdur.
Aclığın yox, ac olana
ağlayasan,

Taxıl dərdin, kotan-xırman
dərdin yoxdur.
Qarabağ nə, Fələstin nə,
Kəşmir nədir,
Bir cahansan, sənin cahan
dərdin yoxdur.
Bu gün səndə Ermənistan
qayğısı var,
Bu gün səndə Azərbaycan
dərdi yoxdur.
Mənim dərdim yerə-göyə çətin sığa!
"Sən yanmasan,
mən yanmasam,
biz yanmasaq,
necə çıxar qaranlıqlar aydınlığa?"
Yollardayam, qaranlıqdan
aydınlığa çıxmaq üçün,
Yollardayam, öz haqqımın
əllərini sıxmaq üçün.
Hara getsə əvvəl-axır
haqqındı yer, Amerika!
Dağa-daşa salma məni,
haqqımı ver, Amerika!
Mən heç kəsin qapısını döyməmişəm,
Gərək qapım döyülməsin, Amerika!
Mən heç kəsin qismətini yeməmişəm,
Gərək haqqım yeyilməsin, Amerika!
Ədaləti tərəzidə elə çək ki,
Şərə doğru əyilməsin, Amerika!

* * *

Hər gün sənin dəvətinlə
minlər gəlir, minlər gedir,
Milyonlardan biri kimi
mən də gəlib-gedəcəyəm.

Boşaldıram ürəyimin
nə ki, ağrı-acısı var,
Öz dərdimi, sevincimi
sənlə bölüb gedəcəyəm.
Məndən sonra varaqlanar
mən yazdığım xatirələr,
Hərənin bir can borcu var,
mən də ölüb gedəcəyəm.
Baxdığım göy, gəzdiyim yer,
çıxdığım dağ,
Dəli dalğa, çılğın dəniz,
odlu torpaq,
Söykəndiyim xınalı daş,
güvəndiyim məğrur ağac,
Çəmənlərin xalısında
min rəng alan əriş-arğac,
Adı baha, özü ucuz
İçdiyim su, daddığım duz,
Halallıq ver qonağına!
Gözəl ömür, şirin həyat,
yağın olsun, balın olsun,
Qollarınla quc dünyanı,
dürlü-dürlü halın olsun.
Allah verib, bəndə görüb,
hər nə var halalın olsun,
Halallıq ver qonağına!
Ruhum duyan, qəlbim sevən,
gözüm görən hər nə varsa,
Gördüyündən nə götürüb,
duyduğundan nə aparsa,
Halallıq ver qonağına!
Bu yollarda yeridiyim
hər addıma, hər qarışa,
Bu səfərdə keçirdiyim
hər xoş ana halallıq ver.

Doğan günə, batan Aya,
axan suya, əsən yelə,
Boylandığım al səhərə,
nurlu dana halallıq ver.
Sevdi-seçdi, gördü-duydu,
nə kar gəldi, nə lal getdi,
Ürəyində dərd gətirdi,
gözlərində məlal getdi.
Məmləkətdən məmləkətə
halal gəldi, halal getdi,
Bir qonaq da Zəlimxandı,
Zəlimxana halallıq ver!

***2001, iyun-iyul,***
***Vaşinqton-San-Fransisko-Nyu-York-Bakı.***

## BORÇALIDA QALAN İZLƏR

Dağa arxalandı, düzə can atdı,
Şəlalə səsini qayadan aldı.
Hər kim bir sehrli aləm yaratdı,
Gücünü xalq adlı mayadan aldı.

Güvəndi gücünə, istedadına,
Vətəndən, torpaqdan mayalı Vurğun!
Bir gün Borçalını saldı yadına,
Qədəmi hər yerdə sayalı Vurğun!

Başından aşsa da qayğısı, işi,
Xəyal köhlənini min yerə sürdü.
Onu Borçalının ulu keçmişi,
Bugünkü taleyi düşündürürdü.

Xalqın hər sevinci – şərəfi, şanı,
Xalqın hər kədəri onun yasıydı.
Qəlbitək sevirdi Azərbaycanı,
Borçalı qəlbinin bir parçasıydı!

O ağır yerişi, o dağ duruşu
Görənin heyrətdən baxışı dondu.
Gəzdi göy üzündə bir dövlət quşu,
Faxralı kəndinin çiyninə qondu!

Şeirsiz özünü xoşbəxt sanmayıb,
Nəğmədir torpağı, daşı bu kəndin.
Tarixi illərlə hesablanmayıb,
Şeirlə ölçülüb yaşı bu kəndin.

Arzular tükənməz, arzular şirin,
Vurğunla bu yerdə ellər görüşdü.
Baharda dünyaya gələn şairin
Uğuru baharlı bir elə düşdü.

Sənət çırağına, sənət oğluna
Gözündə nur kimi baxdı Borçalı.
Görüşlər, vidalar çatmadı sona,
Sellər, sular kimi axdı Borçalı!

Gəldi Kəpənəkçi, gəldi Borçalı,
Qoçulu, Qaçağan döndü karvana.
Saraclı yeridi köklü, budaqlı,
Doğma oğul bildi onu hər ana.

Bir uşaq doğmaca atası kimi,
Özünü şairin üstünə atdı.
Uşağın bir damla xoş təbəssümü
Vurğunun qəlbində ümman yaratdı!

Dağlardan güc alan el məhəbbəti,
Dünyanı başına yığa bilərmiş.
Nələrə qadirmiş eşqin qüdrəti,
Bir mahal bir kəndə sığa bilərmiş!

Şairi görməyə can atdı hamı,
Şöhrəti çağırdı doğmanı, yadı.
Faxralı kəndində payız axşamı
Vurğunlu məclislər belə başladı.

Heyrətlə boylandı silsilə dağlar,
Mübarək yoluna axdı bulaqlar.
Kiridi nəğməli, neyli dodaqlar,
Şairin səsini eşitmək üçün.

Sanki cilovlandı, çaylar axmadı,
Buludlar dayandı, şimşək çaxmadı.
Kimlər boylanmadı, kimlər baxmadı
Şairin səsini eşitmək üçün.

Belə bir qonağı kim sevməzdi, kim,
Diləklər qovuşdu ən xoş çağına.
Xoşbəxtlər xoşbəxti Hacı müəllim
Açdı qollarını öz qonağına.

O ağır danışıq, o ləngərli səs,
Hələ də çoxunun qulağındadır.
İşığa çevrildi doğma bir nəfəs,
İstisi hamının ocağındadır.

Şair heç olarmı yollar yorğunu,
"Yoruldum" sözünü dilə gətirməz.
Tale yetirmişdi bizə Vurğunu,
Tale yetirəni tarix itirməz!

Vurğunlu saatlar, vurğunlu anlar,
Ömrün də, günün də qızıl anları.
Heç yaza bilərmi tarix yazanlar,
Bir xalqın qəlbinə yazılanları.

Söhbət od alırdı candan, ürəkdən,
Səhər şəfəqiydi, dan işığıydı.
Çəkirdi şirəni güldən, çiçəkdən,
Danışıq Vurğunun danışığıydı!

Ürək kövrələndə, gözlər dolanda,
Uşaqlıq çağları tez xatırlanır.
Keçdiyi yollara nəzər salanda
Cığır yada düşür, iz xatırlanır.

Baş vurur uşaqlıq xatirəsinə,
Qazax, Qarayazı düşür yadına.
Dostlar səs verəndə onun səsinə
Yenidən güc gəlir qol-qanadına.

Çıraq öləziyir, işıq sozalır,
Azalmır, tükənmir sözü Vurğunun.
Getdikcə gecənin ömrü azalır
Daha da nurlanır gözü Vurğunun.

Duyğular sel kimi axır qanında,
Deyir: – Dayağımdı bu sel, bu Vətən.
"Hələ yer üzündə, insan yanında
Deyib danışmaqdan doymamışam mən!"

Söz sözə qovuşur, söhbət söhbətə,
Məclis hey özünə çəkir şairi.
Ürəkdən bağlanır bu məhəbbətə
Düşüncə şairi, fikir şairi.

Sevinən görəndə aşıb-daşardı,
Sünbüllü, saçaqlı zəmiydi Vurğun.
Qəmlənən görəndə ağırlaşardı,
Qəm yükü daşıyan gəmiydi Vurğun!

Göz gözə bağlanıb, söz də ki, sözə,
Şeir qıfıl olub, söz kəmənd olub.
Söhbət bir ovsundu, məclis möcüzə,
Duyan sehrlənib, görən bənd olub!

İnsafmı saatlar tez gəlib keçə,
Şair könüllərə yaz gətirib, yaz.
Faxralı kəndinin bir yanı köçə,
Xəbəri vaxtında bilən tapılmaz!

Hacının anası Sənəm qarının,
Bu gün qapısında toy-bayramıydı.
Evində əyləşən qonaq-qaranın
Hər biri gözündə yanan şamıydı.

Sığışmır sevinci bir belə kəndə,
Axşamdan bəridir almır dincini.
Analar belədir, qonaq gələndə
Bölər, bölüşdürər öz sevincini.

Şair diqqət ilə baxanda ona,
Elə bil sevincə qarışdı kədər.
– Sənin ki, zəhmətin çox olub, ana,
Niyə yatmamısan bu vaxta qədər?

– Vurğuntək qonağı olan bir ana
Yerində dincəlib, yatmaz, ay oğul!
Bir gecə gözlərim çimir almasa,
Dünyanın bir yanı batmaz, ay oğul!

Təki sənin kimi qonağım gələ,
Mənim də bir azca ömrüm uzana.
Nə qədər xoşbəxtəm bu gündən belə,
Şükür bu günləri bizə yazana.

Yaman incitdilər səni, can bala,
Meylin nə çəkirsə hazıram, buyur!
Ana qonağını çəkir suala,
Qonaq zarafatla şeir oxuyur:

Acı sarımsaqlı,
Yuxa yarpaqlı,
Üstü cızdaqlı,
Yanı araqlı
Xəngəl pis olmaz!

Yadigar qalırdı bu söz, bu söhbət,
Zamandan-zamana uzanasıydı.
Analar gözündə sönməz məhəbbət,
Hər ana Vurğunun öz anasıydı!

* * *

Vurğun dedi: – Söylə görüm, ay Hacı,
Hanı mənim həsrətimin əlacı?
Doymaz könül aşıq acı, el acı,
Dilləndirə xəstəni də, sağı da,
Aşıq gərək dərdimizi dağıda!

Bu torpağın hər damarı, hər qatı,
Ulu səsli “Cəngi”, “Misri”, “Heyratı”!
Bir ömürdü hər oxunan bayatı,
Ruhumuz var oxşamada, ağıda,
Aşıq gərək dərdimizi dağıda!

Qəmlənəndə göz yaşımız göllənib,
Sevinəndə sevincimiz sellənib.
O tellərdə dilə gəlib dillənib
Günümüzün qarası da, ağı da,
Aşıq gərək dərdimizi dağıda!

Tufan var ki, əsib keçməz uzaqdan,
Başım çəkib, gözüm qorxmaz sazaqdan,
Yanan çoxdu, su gətirin bulaqdan.
Dərd istər ki, Vurğun boyda dağ uda,
Aşıq gərək dərdimizi dağıda!

Hər görüşdə xalqa sevinc paylayan,
Dərdi niyə gətirirdi dilinə?
Axı onu qaldırmışdı bu dövran
Şöhrətinin zirvəsinə, zilinə!

Bu torpağın işığıydı, nuruydu,
Güvənmişdi qələm tutan əlinə.
Böyük qəlbi saf sulardan duruydu,
Dərdi niyə gətirirdi dilinə?

Bir insan ki, təbiətdən güc alıb,
Təbi dönüb bu dağların selinə.
El gözündə Qoşqar kimi ucalıb,
Dərdi niyə gətirirdi dilinə?

Kül törəyər hər alışan ocaqdan,
Xeyrin şəri, toyun yası varıymış.
Nahaq yerə söz çıxmazdı dodaqdan,
Hər kəlmənin öz əsası varıymış.

Sel dağların sinəsini oyantək
Ağrı onu içəridən oyurdu.
Bəlkə vaxtsız ağrı tapan bir ürək
Sahibini yaşamaqdan qoyurdu?

Öz atını oynatsa da qarlı qış,
Üşüməzdi qarın, buzun içində.
Əriyirdi yaş əlliyə çatmamış,
Üşüyürdü qırx doqquzun içində.

Qəlbə şübhə, gözə duman gətirib
Uçururdu şeirimizin taxtını.
Vaxtsız əcəl insafını itirib,
Vurğun ilə keçirirdi vaxtını.

Bu dəm yenə xəyalından keçirdi:
Dərd istər ki, Vurğun boyda dağ uda,
Aşıq gərək, dərdimizi dağıda!

Kimsə səslədi birdən:
– Yan durun, aşıq gəldi,

Elə yaraşıq gəldi.
Üstünüzə gün doğsun,
Gözümə işıq gəldi.

Aşıq Nəsib məhəbbətlə baş əydi,
Sinəsində çarpazladı əlini.
Bu məclisi, bu cəlalı görəndə
Xoşbəxt saydı obasını, elini.

Hörmət ilə şair qalxdı ayağa,
Salam aldı, salam verdi dostuna.
Qəlbi döndü min çeşməli bir dağa,
Elə bil ki, nur ələndi üstünə.

Arzusuydu çiçəklənən, güllənən,
Aşıq Nəsib taleyindən razıydı.
Bir dahinin eşqi ilə dillənən
Borçalıda bu gün onun sazıydı!

Vurğun dedi: – Buyur görək, ay Osman,
Söz sənindi, saz aşığın, el bizim.
Elə çağla dilə düşsün bu dastan,
Dövran bizim, meydan bizim, yol bizim.

Bir məclisdə əyləşib iki sənətkar insan,
Biri yaşından qoca, biri yaşından cavan.
Birinin tunc alnında qat-qat olub qırışlar,
Birinin alnındasa nə qat var, nə qırış var.
Birinin nəzərində hüdudsuz bir kainat,
Birinin nəzərində elə bağlı bir həyat.
Birinin səs-sorağı Londondan, Çindən gəlir,
Birinin təmiz eşqi
Dağ döşündə qaynayır, elin içindən gəlir!
Vurğun Osmandan deyir, sənətdən söz düşəndə,
Osman daşır, qaynayır, Səməddən söz düşəndə.

Hər ikisi nəğməkar, hər ikisi vətəndaş,
Osman Vurğuna sirdaş, Vurğun Osmana qardaş.
Bu məhəbbət, bu birlik
Ləyaqətin, qeyrətin baldan şirin barıdır,
Elə bil ki, bu dostluq
Vaqiflə Vidadinin
Yaratdığı dostluğun bənzərsiz təkrarıdır!
Budağın barı çoxsa, hünər kökündür demək,
Yaşaya bilmisənsə,
Ömür gözəl ömürdür, gün gözəl gündür demək.
Bu yollarda otuz il köhləni qoşa çapan,
Əsl səadətini
Elin qəlbində gəzib, xalqın içində tapan,
Niyyəti təmiz olan,
Adı, şöhrəti halal, eşqi bir dəniz olan,
Şöhrətdən qaça-qaça şöhrətinə çatanlar,
Ana laylası kimi ruhumuza yatanlar,
Ucalığı, zirvəsi doğma ellərə bəlli,
Bu Vurğun Səmədimiz,
Bu Osman Sarıvəlli!
Hər ikisi dinləyir elin sənətkarını,
Şeirin bağbanı kimi dərir sözün barını.
Aşıq Nəsib od olub, od qarışır simlərə,
Vurğun deyir: – Yox daha
Bir sözüm, ehtiyacım dərmana, həkimlərə!
Hər sözdən ürəklərə bir toxumluq dən düşür,
Söz qayıdır dünənə, söhbət keçmişdən düşür!
Bir vaxt elə burdaca
Meydan açıb, söz qoşub
Çıldırlı aşıq Şenlik, Faxralı şair Nəbi,
Onda da üzə gülüb,
Onda da hasil olub elin muraz, mətləbi.
Qurbanidən bağlama, Ələsgərdən qıfılbənd,
Məclis bir ay uzana, doyası deyil bu kənd.
Aşıq yenə dəyişir söhbətin axarını,

Sözü Osmandan açır, şeiri Vurğundan deyir,
Məclis hər kəlməsinə "can" – söyləyir,
"can" – deyir.
Yenə "Müxəmməs" olur məclisin son naxışı,
Yağır aşığın üstə, yağır "sağ ol" yağışı!

Deyəndə Nəbinin "Dünya" şeirini,
Aşıq lap Vurğunu sehrləmişdi.
"Tapar qiymətini, tapar yerini
Elin sənətkarı ölməz" – demişdi!
"Qılıncın qınsızdı, qolun qüvvətli,
Baxmadın qocaya, cavana dünya!"

– Ay Osman, gör şair nə gözəl deyib,
Ağlının barıdır, qəlbinin səsi.
Çatdıraq ellərə, heyifdir, heyif,
İt-bata düşməsin bircə kəlməsi.

Vaxtında olmasaq hər sözdən halı,
Sözlər də qəmlənib bürünər yasa.
Dili bağlı qalar, gözü qapalı,
Yayılıb, səslənib dərk olunmasa!

"Oxucum, belədir aqil babalar,
Bir dastan yaradır ikicə sözlə!"
Əgər oğulsansa, bu dastanları
Qoru oğul kimi ürəklə, gözlə.

Bu günün sabaha heç nəyi qalmaz,
Qara bir daş olluq, quru bir kəsək.
Kimə arxalanar bu söhbət, bu saz,
Babalar deyənə qiymət verməsək.

Osman gülə-gülə deyir, ay Səməd,
"Yenə şairliyin baş aparır, haa!
Solarmı gözəllik, ölərmi qüdrət,
Şeirinlə gedərik gələn sabaha!"

Qoşa bülbül kimi verir səs-səsə,
Dost dostu dinləyir, qardaş qardaşı.
Yüz yaşlı qoca da gəlir həvəsə,
Atır qocalığı, unudur yaşı.

Xəyal qanadlanıb gəzər göyləri,
İnsana aşılmaz dağlar aşdırar.
Şeir bir loğmandır əzəldən bəri,
Duyan könülləri cavanlaşdırar.

Qayalar başından səs yüksəlirdi,
Çəkilib gedirdi dağların çəni.
Dağlardan Şəmşirin ətri gəlirdi,
Vurğun oxuyurdu: "Yada sal məni".

Arabir havanı yarırdı əli,
Ömrə yazılırdı "Bu saat, bu dəm".
Qaynar baxışları bayram məşəli,
Vurğun oxuyurdu: "Mən tələsmirəm!"

Sərhədlər aşırdı fikri, niyyəti,
Torpaq nəfəsiydi, bərəkət canı.
Ruhunda bir xalqın mədəniyyəti,
Vurğun oxuyurdu "Azərbaycan"ı!

Onun nəzərində seçilərdimi
Alim kim, şair kim, çoban kimiydi.
Bir şəxsiyyət kimi kiçilərdimi,
Nə fərqi qoca kim, cavan kimiydi!

Hamı yüksələrdi eyni zirvəyə,
Sanardın eynidir hamının yaşı.
Yaradın, yaşadın, ucalın deyə,
Sabaha səslərdi hər vətəndaşı!

Ömründə, günündə barı bir kərə,
Heç yerdən biganə keçmədi Vurğun!
Ayırıb çinlərə, vəzifələrə,
İnsanı insandan seçmədi Vurğun!

Elin məclisindən ayaq kəsmədi,
Həm yasda, həm toyda gördülər onu.
Dağın görüşünə kim tələsmədi,
Hər yerdə dağ boyda gördülər onu.

* * *

Faxralı kəndinin doğma məktəbi,
Yenə ağzınadək dolub adamla.
Elə bil hamının daşacaq təbi,
Sevinci ümmandı, kədəri damla.

Şairin gözündə tükənməz varaq,
Baxır bu torpağın körpələrinə.
Oxuyur hər ömrü o varaq-varaq,
Fikri, düşüncəsi gedir dərinə.

Baxır qaragözlü şən uşaqlara,
Hər üzdə ağ gündən bir nişan görür.
Fikri qanadlanır hey uzaqlara,
Hər gözdə sökülən qızıl dan görür.

Uşaqlıq illəri, gənclik illəri,
Yenidən canlanır xatiratında.
Neçə il keçsə də o vaxtdan bəri,
Hər günün çeşidi qalıb yadında.

Məktəb illərini həsrətlə andı,
Alın düyünlənib çatılanda qaş.
Gözünün önündə gəlib dayandı,
Böyük bir müəllim, böyük vətəndaş!

– Şagirdi olaydım Firidun bəyin,
Dünənki günlərim qayıdaydı kaş.
Heyif, istəyini vermir ürəyin,
Nə yersiz həyəcan, nə artıq təlaş.

Yaddaşın gücünə, qüdrətinə bax,
Bir anda nələri gətirir yada.
Həyat öz hökmünü yeridir ancaq,
Zaman qayıdarmı xatırlansa da!

Fikirdən ayırır şairi səslər,
Körpələr "Dağlar"ı əzbər oxuyur.
Axdıqca ruhuna doğma nəfəslər,
Qəlbində yenilməz bir qüvvət duyur.

"Balalar quş kimi verir səs-səsə",
Danışır Şəmistan, Bəxtiyar, Cəlal.
Qoşa qanad olur dinləyən kəsə,
İnsanı göylərə qaldırır xəyal.

Şeir demək üçün çəkilən hər ad,
Elə bil məclisin qəlbi, canıdır.
Eldarla Şahsuvar, Vaqiflə Fərhad,
Hər biri şairin qəhrəmanıdır!

Bu nə xoş saatdır, bu nə əziz gün,
Haqqım var, eşqinə dəli çay desəm.
Vurğunun ömrünü uzatmaq üçün
Yüz Humay səs verər, bir "Humay" – desəm!

Sığmır duyğuları misraya, bəndə,
İlhamsız ötüşmür bircə anı da.
Şair seviləndə, şair sevəndə,
Şairtək sevilir qəhrəmanı da!

Üzlərdən nur yağdı, gözlərdən işıq,
Yetişdi yerinə elin arzusu.
Yurdun tarixinə vüqar, yaraşıq,
Məktəblə məktəbin görüşüydü bu.

Özümü o yerdə bəxtəvər sayıb,
Qəlbim yollarında yandırardı şam.
Niyə o günlərə yaşım çatmayıb,
Niyə o görüşdə mən olmamışam!

Özümü arxalı bir dağ sayardım,
Saçının ağlığı qarım olardı.
Onu torpaq kimi qucaqlayardım,
Varlığı çiçəyim, barım olardı!

O sənət tanrısı əsirgəməzdi,
Şirin söhbətindən dad götürərdim.
Elə ki, gözləri üzümdə gəzdi,
Odlu baxışından od götürərdim.

Çəkib ciyərimə gur nəfəsini,
Udardım, içərdim hava, su kimi.
Qəlbimə yazardım hər kəlməsini,
Bülbülün ən şiri avazı kimi.

Özümdən xəbərim olmazdı mənim,
Bir də görərdim ki, dolub daşmışam.
Vurğuna dönərdi çölüm, çəmənim,
Bir də görərdim ki, Vurğunlaşmışam.

Zamanı yolundan kim saxlardı, kim,
Yazan da, pozan da onun əliydi.
Ya mən bu dünyaya tez gəlməliydim,
Ya o bu dünyadan gec getməliydi!

Yetə bilməsəm də bu səadətə,
Mən də öz şeirimlə muraza çatdım.
Baxıb sənətinə, düşüb heyrətə,
Vurğuna qəlbimdə heykəl yaratdım.

Gözümdə gül açıb arzu da, kam da,
Nə dərdim, düşsə də saçlarıma dən.
Onun sağlığında yaşamasam da,
Onun zamanında yaşayıram mən.

Sınaqlardan keçir hər şərəfli yol,
Eşqi böyüklərin ölməz adı var.
Zəlimxan, qəm yemə, sən arxayın ol,
Bu xalqın yaşatmaq istedadı var!

Yetirdi özünü ayrılıq çağı,
Kövrələn gözdürsə, dolan ürəkdir.
Gördü yola düşür elin qonağı,
Yenə Sənəm qarı bayatı çəkdi.

Dəryada dəryalıqlar,
Suda oynaq balıqlar.
Görüşlər nə gözəlmiş,
Olmasa ayrılıqlar.

Kövrəltdi şairi qoca Borçalı,
Ürək "getmə" – dedi, vaxt "gedək", – dedi.
Elə bil hamının fikri, xəyalı
"Ömür qısa olur, vaxt gödək", – dedi.

Yarımçıq yazılar, böyük qayğılar,
Çəkdi sənətkarı Bakıya sarı.
Yoluna nə qədər göz dikənlər var,
Vurğunla bağlıdır çox arzuları.

Biryolluq "sağ ol"un deyib getmədi,
Dünyanı sevincə bələdi getdi.
Bir qismət çörəyi yeyib getmədi,
Çoxunu çörəkli elədi getdi.

Dildə tükənməyən sözü, söhbəti,
Eldə naxışları, izləri qaldı.
Çəkilməz olsa da şair həsrəti,
Təsəlli, yadigar sözləri qaldı!

Arzular, diləklər döndü bir neyə,
Ölüm ürəklərin eşqini qırdı.
"Vurğunu dağlara çağıraq", – deyə
Başkeçid görüşə hazırlaşırdı!

Danışım hansını, deyim hansını,
Dünyada dünyalar tapardı Vurğun.
Bəlkə də "Borçalı" poemasını
Qəlbində torpağa apardı Vurğun!

SON SÖZ

Vurğun deyib saf duyğular göz açar,
O, tarixdən, tarix ondan söz açar.
Yaddaşlarda cığır salar, iz açar,
Borçalıda qalan izlər pozulmaz!

Qarlı qışın sərt tufanı qopsa da,
Dəli şimşək sal qayanı çapsa da,
Yağış olub göylər yerə hopsa da,
Borçalıda qalan izlər pozulmaz!

Belə görüş, belə söhbət, belə saz,
Hər torpağın qismətinə yazılmaz.
Vurğun olub Borçalının vurğunu,
Borçalıda qalan izlər pozulmaz!

# CAVİDİN QIZ BALASI

*Turan Cavidə*

Onda lap uşağıydı,
Uşaq ağlı dünyanı təzə-təzə kəsirdi.
Bəxtinə qənim olan,
Acı yellər yoxuydu,
Dəli sellər yoxuydu,
Başının üstündən yaz küləyi əsirdi.
Onda hələ yoxuydu saçlarının gümüşü,
Onda ətir saçırdı dodağının gülüşü.
Çöldə, bağda, bağçada qayğısız uşaqlığı,
Evdə ata əlinin sığalı, yumşaqlığı.
Böyüdürdü körpəni hər gün qəmsiz, kədərsiz,
Yumruq boyda ürəkdə sevinc vardı qədərsiz.
Tanımırdı həyatda nə nisgili, nə yası,
Cavidin qızılgülü,
Cavidin qız balası!

Gözü-könlü, dünyası min bir diləklə dolu,
Ürəyi saf şeirlə, şeiri ürəklə dolu,
Ata varıydı, ata!
Çağırırdı qızını,
Nurlu bir gələcəyə, işıqlı bir həyata!
Turan qoymuş olsa da körpəsinin adını,
“Nənəsim” – deyə-deyə,
Öpər, əzizləyərdi, oxşardı övladını.
Turan da həvəsindən sığışmazdı aləmə,
Ürəklər şad olanda sevinc gəlməz qələmə!
Səsdən qüvvət alardı, sözdən xumarlanardı,
Gülün ləçəyi kimi,
Ata-ana əliylə tez-tez tumarlanardı.

Min arzuyla açardı hər açılan səhəri,
Xəyalın qanadında,
Uçardı gələcəyə,
Dumanlı sabahından,
Ağır gələcəyindən olmasa da xəbəri.

Körpə hardan biləydi gələcək nə cür gəlir,
Rahat gəlir, kür gəlir?!
Körpə nə biləydi ki,
Ata əlindən tutub məktəbə getməyi də,
Məktəbdən gəlməyi də,
Küsüb ağlamağı da, danışıb gülməyi də,
Əsl səadət imiş, əvəzsiz bir səadət!
Körpə nə biləydi ki,
Qapının ağzındaca,
Güdür onu faciə, pusur onu fəlakət.
Körpə nə biləydi ki,
Həyatın yollarında xeyir varsa, şər də var.
Atalı günlər kimi,
Onun tale payında atasız günlər də var!
Yaşayırdı hələ ki,
Gözləri göz yaşından, könül qəmdən xəbərsiz,
Baxışlar çən-dumandan, yanaq nəmdən xəbərsiz,
Ürək ahdan, amandan, can sitəmdən xəbərsiz.

Evlərində hər gecə yanan işıq varıydı,
İşığın yaratdığı bir yaraşıq varıydı.
Evlərində hər gecə yanan ocaq varıydı,
Bu ocağın başında,
Xalqına şöhrət olan,
Əvəzsiz bir xəzinə,
Tükənməz nemət olan neçə qonaq varıydı!
Burda Şaiq əyləşər, Əhməd Cavad gələrdi,
Müşfiqin gəlişiylə
Deyilən hər kəlməyə təzə həyat gələrdi!

Əsəblər gah dincələr, gah da ki gərilərdi,
Xoş arzular bağından meyvələr dərilərdi.
Qanadlar açılardı,
Duyğular saçılardı.
Bunları görə-görə, bunları duya-duya,
Gah dalardı xəyala, gah gedərdi yuxuya.
Şeirlə yatar, durar, sözlə əzizlənərdi,
Damla boyda sevinci coşub dənizlənərdi!
Şahbudağın qönçəsi, göy çəmənin lalası,
Cavidin sonbeşiyi, Cavidin qız balası!

Gecənin bir aləmi qapıları döyüldü,
Yox, deyəsən bu xına o xınadan deyildi.
Gələnlər kimlərdisə qonağa oxşamırdı,
Onda vaxt eləydi ki,
Bircə səsdən ürəyə min bir şübhə damırdı!
Adam yeyən əlindən,
Qapı döyən əlindən evlər gələrdi təngə,
Hər gecə ağız açıb,
Dönərdi əjdahaya, çevrilərdi pələngə!
Girərdilər içəri,
Baxışları buludda,
Dodaqları sükutda,
Üzü boz, sifəti sərt,
Başdan-ayağa namərd!
Evyıxan, buyruqqulu,
Gəlsə elə gələrdi,
Kimi yatmış olardı,
Kimi yarıyuxulu!
Həyatın düşmənləri,
Həyatın dostlarına neçə qəbir qazdılar,
Ayılıb düşünənə ölüm hökmü yazdılar.
Bu fürsət yoxsulları,
Yatanı ayılmağa ömründə qoymazdılar!
Gecələrin birində,
Bax beləcə döydülər qapısını şairin.

Bu zaman yan otaqda yatırdı şirin-şirin,
Açılan sabahından ağır zərbə alası,
Şairin ər çiçəyi,
Cavidin qız balası!

İllər tufana döndü, çaxdı ildırım kimi,
Sinələr dərd əlində açıldı şırım kimi.
Döyülməzdi, döydülər!
Əyilməzdi, əydilər!
Bəlkə də həqiqətin
Kökünü kəsərdilər,
Alçaqlar ucalarla bacara bilsəydilər!
Şimşəklər şığıyanda,
Söyüd qaldı kölgədə,
Palıd qaldı kölgədə, zərbə palıda dəydi,
Namərd yana çəkildi, mərdə min qada dəydi!
Hər qasırğa qopanda neçə gəmi batırdı,
Hər dalğanın içində bir əjdaha yatırdı!
O yedikcə insanı, dişində şirə qaldı,
Ağrı, nisgil, intizar, acı xatirə qaldı!
37-ci ildən
Sonra gələn illərə,
Ağrı, nisgil, intizar, acı xatirə qaldı!
Dağdan bir qaya kimi qopardılar Cavidi!
Gecələrin birində apardılar Cavidi!
Nələr gördü dünyadan gözü eynəkli Cavid,
Nadanlar tənəsindən qəlbi göynəkli Cavid!
Sıxdı şair qəlbini qara əllər, pəncələr,
Başladı, nə başladı əzablar, işgəncələr!
Böhtan işini gördü,
Tufan işini gördü, şair getdi sürgünə,
Həqiqət çox can atdı,
Çıxammadı bir yana, çıxammadı bir günə.
Yağış kimi, qar kimi dərd üstə dərd ələndi,
Xəyanət taxta çıxdı, həqiqət pərdələndi!

Onda beləydi dünya,
Yağlı dillər varıydı, qırx qazana çalası!
Nə çəkdi dildən çəkdi,
Fitnədən, feldən çəkdi.
Cavidin ərköyünü,
Cavidin qız balası!

Şair getdi sürgünə,
Neçə yarımçıq qalan əsərindən nigaran,
Canı qədər sevdiyi,
Kitabından nigaran, dəftərindən nigaran!
Arxasının dayağı bir oğuldan nigaran,
Hələ tələbə olan Ərtoğruldan nigaran.
Ömrünün yaraşığı Müşkünazdan nigaran,
Gözlərinin işığı dərdli qızdan nigaran!
Nigaran getdi Cavid yurdundan, yuvasından,
Ürəyi şan-şan oldu ayrılığın yasından.
Nöqtəsi qoyulmamış neçə əlyazması var,
Onların hər birində,
Dünya boyda sevinci, dünya boyda yası var.
Düşündü öz-özünə:
"Görən "Xəyyam" bircə yol səhnəyə çıxacaqmı?
"Telli saz"ım, "Knyaz"ım mənsiz darıxacaqmı?
Görən "Topal Teymur"a
Yenə toxunacaqmı ağlı, qəlbi çolaqlar?!
Yenə vurulacaqmı,
Əsl bar ağacına cır meyvədən calaqlar?!
Uçurumdan yazırdım,
Qismətə bax, özüm də uçurumlar qaşındayam!
Əlli yaşı keçmişəm, yüz əlli yaşındayam".
Yaman sıxdı Cavidi amansız düşüncələr,
Bir şair ürəyində daşınan qayğıları,
Qarlı bir dağa yığsan dağ yanar, daş incələr!
Düşündürür şairi əlyazmalar, kitablar,
Gündən-günə çoxalır,
Ruhunda çırpıntılar, qəlbində iztirablar.

Suallar yığın-yığın,
Kimdən soruşmaq olar, sükutdadır cavablar!
Şair getdi qatarda işıqdan qaranlığa,
Ömrü-günü tuş oldu böyük nigaranlığa.
Turan öz atasını tez-tez görür yuxuda,
Hey çağırır, yalvarır,
Haraya yetmir Allah, köməyə yetmir Xuda!
Nə qədər ömrü var,
Yollara göz dikəsi, fikri yolda qalası,
Şairin ümid yeri,
Cavidin qız balası!

Arabir məktub gəlir,
Dünyanın o başından dünyanın bu başına,
Müşkünazın adına – yarına, yoldaşına!
Kağızlar parça-parça, sətirlər qırıq-qırıq,
Yazanın yazısında,
Görüşməyə bir ümid.
Oxuyanın qəlbində fəryad, nalə, hıçqırıq.
Hər məktubun sonunda,
Turanını tapşırır yeganə qardaşına,
Evdən gedən nə bilsin,
Evdə qalan nə bilsin nələr gəldi başına!
Arabir məktub gəlir,
Məktubun üzərində ünvan: MAQADAN–BAKI!
Həsrətdir, intizardır,
Hər sözün qəlbindəki, hər sətrin başındakı.
Sahibinin göz yaşı, könül səsi olsa da,
Ümid, təsəlli vermək vəzifəsi olsa da,
Məktub insan deyil ki, nəfəsi yox, canı yox,
Danışmağa qüdrəti, dinməyə imkanı yox!

Buz oldu ata yeri,
Bəllidi xata yeri.
Məktublar selə dönsə,
Heç verməz ata yeri.

Ən böyük dəhşət nədir?
Əziz bir adamının,
Yollarına göz dikib intizarla gözləmək!
Eşqini ürəyində,
Adını dodağında,
Yaralı bir ney kimi oxşamaq, əzizləmək!
Ən böyük dəhşət nədir?
Ovu ələ keçməyən,
Yorğun ovçular kimi,
Yolu, izi, cığırı izlədikcə izləmək!
Birən gəlib-keçəndə,
"Xəbərim olmaz" – deyib yolları təmizləmək!
Dərdin dağ ola-ola,
Nə yaxına, nə yada,
Ürəyini açmamaq, kədərini gizləmək!
Ən böyük dəhşət nədir?
Tənhalığın əlində,
Saniyənin saata, ayın ilə dönməsi!
Ocağın ola-ola,
Üşüməyin, donmağın,
Günəşin ola-ola işığının sönməsi!
Ən böyük dəhşət nədir?
Bir insan ömrü qədər həsrətin uzanması!
Arzuların puç olub, ümidlərin yanması!
Nisgilli baxışların qapıya dikilməsi!
Təbəssümün, gülüşün,
Yağlı bir əppək olub göylərə çəkilməsi!

Mən aşıq, gözdə qara,
Sürmədən göz də qara.
Yollarına baxmaqdan
Qalmadı gözdə qara.

İlk dəfə kim oxuyub görən bu bayatını,
Silkələyib naləsi göyün yeddi qatını.

Oğulumu çağırıb,
Qardaşımı,
Ərimi?
Dünyanın bir bu qədər çəkilməz dərdi varsa,
Nə yaxşı qoca dağlar gilə-gilə ərimir?!
Bu dərdi çəkə-çəkə
Dirsəkləri dizində,
Əlləri çənəsində,
Zaman-zaman düşünüb xəyallara dalası,
Cavidin həsrətlisi,
Cavidin qız balası!

Ağrılar ayağında, sərt tufanlar başında,
Cavid köçdü dünyadan yaşamalı yaşında!
Qazdılar məzarını,
Doğma torpağında yox,
Sibirin sinəsində, Sibirin sərt qışında.
Dərdindən, dərmanından xəbərimiz olmadı,
Sızıldayan canından xəbərimiz olmadı!
"Sızıldayan" sözünü deyən düz işlətmədim,
Cavid bir kişi kimi,
Kişilərdən danışdı,
Kişilik haqda yazdı.
O ölüm ayağında heç vaxt sızıldamazdı!
Cavidim can verəndə,
"Vaxtın tamamdır", – deyib,
Ölüm fərman verəndə,
Dilində kəsik-kəsik,
Doğranan sözlərindən xəbərimiz olmadı!
Göməşən ayağından,
Göynəyən dizlərindən xəbərimiz olmadı!
Allah tutdu elə bil,
Gözümüzü bağladı,
Tutulan gözlərindən xəbərimiz olmadı!
Ürəyindən nə keçdi, son nəfəsdə, son anda,

Kim yetişdi hayına,
Qarın, buzun içində üşüyəndə, donanda!
Qəmli-qəmli baxanda qırılmış qanadına,
Kimləri xatırladı, kimlər düşdü yadına?
Kim keçdi xəyalından – dostumu, düşmənimi?
Kim oldu xoşbəxtliyin qapısını bağlayan,
Kim oldu ağ günlərin qaniçəni, qənimi?
Yetişən olmasa da harayına, ününə,
Bakını xatırlayır,
Doğma Naxçıvan gəlir gözlərinin önünə.
Gör neçə illər keçib, Bakıdan xəbəri yox!
Azərbaycandan ayrı axşamı, səhəri yox!
Azərbaycanın necə,
Görən varmı xəbəri, oğlu Cavid hardadı?
Gecə-gündüz xəyalı göylərlə qucaqlaşan,
İlhamı aşıb-daşan,
İstedadın sahibi azaddır, ya dardadı!
Cavid can üstündədir, qalıb darda çırpınır,
Özü harda keçinir, fikri harda çırpınır.
Sualların hər biri əlçatmaz dağa dönür,
Bəxtinə yağış yağır, gözü bulağa dönür.
Düşünür, hey düşünür,
Görən, Turan həkimlik məktəbinə girdimi?
Ərtoğrul məktəbini,
Arzu etdiyitək əlaçı bitirdimi?
Görəsən, harda qaldı Müşkünazın axırı?
Onun çiyninə düşdü qayğıların ağırı.
Görən, yenə vədəsiz döyülürmü qapılar?
Hər döyülən qapının gecələr arxasında,
Neçə könül yarılar, neçə könül çapılar?!
Çəkir sorğu-suala,
Yerdəki bəndəsini, göydəki Allahını,
Bilənmir təqsirini, bilənmir günahını!
Buluda qarışdırır,
Canının yanğısını, ürəyinin ahını,
Tapammır günahını!

Qarışıq salıb daha,
Dumanlı keçmişini, qarışıq sabahını,
Tapammır günahını!
Cavid ata! Bağışla, mən deyim günahını,
Sən doğru danışdığın sözün günahkarıydın.
Əyrilər tanıyırıq,
Lap bu gün də yaşayır,
Sən isə həqiqətin, düzün günahkarıydın!
Nəydi bəs Nəsiminin suçu, günahı nəydi?
"Ənəlhəq" söylədiyi bir kəlmə sözün üstə,
Cəllad xətrinə dəydi, zaman qəlbinə dəydi.
Cordano Brunonu alovun qızıl dili,
Böyük əqidəsindən əyə bilmədi qəti.
Lap bu gün də yaşayır,
Sabah da yaşayacaq Qaliley həqiqəti!
Heç vaxt barışa bilmir həqiqətlə xəyanət,
Xəyanətin önündə
Kişiyə bir şey qalır: mərdlik, dözüm, dəyanət!
Cavid ata! Heyif ki,
Özün görə bilmədin,
Aldın bəraətini 56-nın yazında.
Döndün şeirə, nəğməyə,
Şairlərin sözündə, aşıqların sazında.
İnandığın həqiqət,
Axır ki, üzə çıxdı, haqqın səsi batmadı!
Bu günləri görməyə heyif, ömrün çatmadı!
Gözümüzün önündə,
Xalqın dostuna döndü "xalq düşməni" olan kəs,
Sən bir də təsdiqlədin,
Öldürəmmir şairi,
Susdurammır nəğməni nə sürgün, nə də məhbəs!
Nə yaxşı ki, həyatda,
Can torpağa dönsə də, ruh, ölmür, nəfəs ölmür!
Yaddaşlara yazılır, nəğmə susmur, səs ölmür!
Gedən gedir dünyadan,
Qalanın ürəyində məhəbbət, həvəs ölmür!

Dərd didərgin salsa da bir yenilməz ordunu,
Vurub dağıda bilməz sənətkarın yurdunu!
Əsl sənət oğlunu
Vaxtsız öldürsələr də,
Onun ölümsüzlüyü bir yerdən nişan verər!
"Könül var ki, alov kimi vulkan saçar hər yana,
Haqq söyləyən ilhamları ölmüşlərə can verər!
Bir gün onu söndürüb də anarlar yana-yana,
Yalnız sovrulmuş külləri məzarlara şan verər!"
Dözülməz təhqirlərə sinəsi hədəf oldu,
Cavid özü demişkən,
Öldü, ölümüylə də torpağa şərəf oldu.
Turan ata yurdunun ocağıdı, qorudu,
Atasının adını təhqirlərdən qorudu,
tənələrdən qorudu.
Oldu ismət qalası,
Oldu qeyrət qalası.
Cavidin cəfakeşi,
Cavidin qız balası!

Uddu Ərtoğrulu da bir gün qanlı cəbhələr,
Tanımasın dünyada,
Heç kəsin qapısını acı rüzgar, bəd xəbər!
Tanıdısa – qəlbini pencər kimi sıxacaq,
Gəlib-gedib axır ki, axırına çıxacaq!
Ərtoğrulu həyatdan,
Faşistin süngüsü yox,
Düşmənin gülləsi yox,
Ciyərində kök atan ağrı, vərəm apardı!
Daşıdığı ağır yük, çəkdiyi qəm apardı!
Dəmir deyil, daş deyil,
Buna ciyər neyləsin, buna ürək neyləsin,
Min dərd hücum çəkəndə bir adam tək neyləsin.
Cavid kimi atanı itirmək asandımı?
Məlhəmsiz yaraların ağrısı susandımı?

Ata faciəsini,
Ana fəlakətini,
Bacı sızıltısını,
Qardaş müsibətini,
Ellərə yaymaq üçün,
Açmışam ürəyimi, vermişəm qələmə sirr,
Yazmağı bacarmıram, əlimdə qələm əsir!
Tez getməsə həyatdan Ərtoğrul ər olardı,
Möhnətə sinə gərib dərdə çəpər olardı.
Rəssam ola bilərdi,
Dünyanı naxış-naxış bəzəyərdi fırçası,
Yaratdığı lövhələr,
Olardı təbiətin bir müqəddəs parçası.
Şair ola bilərdi, misralar dolu, dəli,
Yazdığını yazardı inamlı, əqidəli!
Enərdi şeirimizdə enilməyən qatlara,
Uçardı, güvənərdi qırılmaz qanadlara!
Üzeyirin, Bülbülün istəklisi, əzizi,
Bir bəstəkar olardı,
Səsi səslər içində həmişə var olardı!
Çox şey ola bilərdi,
Od üstünə qar yağıb keçməsəydi gur ocaq.
Ərtoğrul bu həyatda,
Bir çaxım şimşək ömrü yaşaya bildi ancaq!
Bacılar çəkə bilməz, qardaş dağı yamandır,
Qardaşsız bacıların qəlbi qırıq kamandır!
Ata dərdi azıymış,
Turan gördü indi də qardaşının dağını,
Dilində dağ elədi can yandıran ağını.

Bu ocağa gəlin gəlməz,
Vayım dönməz toya, qardaş!
Bir həsrətdi, bir də mənəm,
Vermişik boy-boya qardaş!
Bu ocağın qızı köçməz,
Zəhər içən şərbət içməz!

Bu dünyanı gözüm seçməz,
Çatan olmaz hoya, qardaş!
Ayrılıq, dərd, həsrət, zülüm,
Söndü odum, qaldı külüm.
Məni də aparar ölüm,
Bəlkə gözü doya, qardaş!

Səhəri axşam oldu, gündüzü zülmət gecə,
Bu dözülməz itkiyə,
Bu çəkilməz ağrıya,
İyirmi yaşlı bir qız necə dayansın, necə?!
Ömrü boyu dünyada qəm sazını çalası,
Yurdumun qəmgin qızı,
Cavidin qız balası!

Bir ocağın odunda,
İsidərdi qəlbini, qızdırardı əlini,
Gəlin ola bilərdi, bir ananın gəlini.
Ana ola bilərdi,
Çəkərdi körpələrin qayğısını, nazını,
Görməsəydi rüzgarın qarını, ayazını.
Bir xoşbəxtlik tapardı hər körpənin səsində,
Həyat üzə gülərdi ananın nəfəsində.
Beşik yırğalayardı, allı-güllü bir beşik,
Nəğmələrlə dolardı həyat, baca, ev-eşik.
Dilində bala dönər şirin sözlər, kəlmələr,
Əziz balalarına layla çala bilərdi.
Laylalar qanadında,
Səadət uçub gələr, bəxt ucala bilərdi.
Dadardı bu dünyanın ləzzətindən, dadından,
Alardı təsəllini oğlundan, övladından.
Görün nədən danışıram, nədən söhbət açıram,
Bədbəxtlik olan evdə xoşbəxtliyin adından!

Gedən qardaş qayıtmaz,
Gedən ata qayıtmaz.
Bu həyatdan gedənlər,
Bu həyata qayıtmaz!

Baxmaz qıza-oğula,
Dönər qəmli nağıla.
İstər dünya dağıla,
Dünya bata, qayıtmaz!

Nə çəkibsə dünyada on dörd yaşından çəkib,
Ona elə gəlir ki, on dörd yaşından deyil,
Yaranışından çəkib!
Qəlbini heç kəsə yox, o ancaq qəmə verdi,
Sükuta, sakitliyə, yasa, matəmə verdi.
Çoxunun ürəyindən arzu kimi keçsə də,
O, heç kəsə sevgili, heç kəsə yar olmadı!
Sevgisi buza döndü, eşqi bahar olmadı!
Niyə bu yolu seçdi, görəsən, Turanımız?
Küskün bənövşə kimi boynunu buranımız!
Bu gün yaşayan nəsil Cavidi görəmmədi,
Heç olmasa Cavidin nəvəsini görərdi!
Nəslinin davamını,
Cavidin oxşarını, əvəzini görərdi!!!
Bir də, Turan neyləsin?
Keçmişi itən kəsin,
Böyük gələcəyinə ümid yeri vardımı?
Etiqad yaralanıb, əqidə sarsılanda,
Ümidə, təsəlliyə bir imkan qalardımı?

Mən nə hayda, o nə hayda,
Məsləhətdən nədir fayda.
Fəlakətlər daşan çayda,
Üzən xoşbəxt olardımı?

Sirdaş olub hər əzaba,
Dönüb bağlı bir kitaba,
Göz yaşını qabdan-qaba,
Süzən xoşbəxt olardımı?

Gedən gəlməz olan yerdə,
Tale gülməz olan yerdə,
Dərd dözülməz olan yerdə,
Dözən xoşbəxt olardımı?

Kimi sayaq günahkar?
Yanaqların gülünü yaş soldurdu, nəm yedi,
Ürəyin həvəsini kədər uddu, qəm yedi.
Ömrün təravətini,
Qəlbin səadətini kim taladı, kim yedi?!
Qardaş yası saxladı, ata yası saxladı,
Qəm onu qucaqladı, o, qəmi qucaqladı!
Beləcə ömür sürüb,
Yavaş-yavaş saralıb, yavaş-yavaş solası,
Cavidin cəfakeşi,
Cavidin qız balası!

Həsrət qaldı ömürlük,
Dilbər öz Müşfiqinə,
Müşkünaz Cavidinə,
Şükriyyə Cavadına!
Bu otuz yeddinci il,
Silinməz bir ləkədir,
İlin, ayın, zamanın ünvanına, adına!
Nəydi, günahı, nəydi?
Neçə qəlbi təmizin, bədbəxtin, günahsızın?
Yol gözləyən ananın, gözü yol çəkən qızın?
Otuz yeddinci ildə toylar, nişanlar olub,
Şadlığın şiddətindən qanı coşanlar olub.
Toy şamını yandırıb sevənlər, sevilənlər,

Dövran sürmək istəyib,
Bu həyatın qədrini həyat qədər bilənlər.
Nəsillər arasında salıb təzə körpülər,
Gəlib dünya üzünə şirin-şəkər körpələr.
Onda da Günəş doğub,
Onda da işıq saçıb, nur çiləyib dan yeri,
Ocaq kimi alışıb göyün qızaran yeri.
Onda da sarı bülbül nəğməsini oxuyub,
Onda da yaşıl çəmən xalısını toxuyub.
Onda da torpağında açıb qızıl lalələr,
Dağların eşqi kimi,
Dağlardan saçaq-saçaq tökülüb şəlalələr!
Bəxtə bax ki, bunların heç biri düşmür yada,
37 rəqəmi gözə görünən kimi,
Yada düşür ayrılıq, ölüm, sürgün, qan-qada!
Qəbri, yeri, ünvanı itənlər yada düşür,
Bağrımızın başında,
Həsrət ağacı kimi bitənlər yada düşür.
Elə bil ki, o zaman,
Nə insan ürəyində bir damla sevinc olub,
Nə könüllər arxayın, nə qulaqlar dinc olub.
Səksəkənin, təlaşın,
Təhlükənin əlində adamlar gülünc olub!
Gedənlərin hamısı,
Quran, yazan, yaradan, cavan olub, gənc olub.
Müşfiq bəraət aldı,
Cavid bəraət aldı!
Haqq, ədalət qayıdıb öz yerini tapsa da,
Alınan bəraətin,
Qayıdan ləyaqətin,
Gecikən səadətin,
Müşfiqə varmı xeyri,
Cavidə varmı xeyri?
Hanı Əhməd Cavadın odlu-alovlu söhbəti,
Hanı odlu Müşfiqin canlı nəğməsi, şeiri?!

Dəhşətə bax, dərdə bax,
Dərd adlı namərdə bax!
Başına gələnləri yazırsan, varaq yanır,
Dinirsən, dil alışır, deyirsən, dodaq yanır!
Hər sinənin altında,
Tüstüsü göz çıxardan,
"Ah"dan, "uf"dan yaranmış sönməz bir ocaq
yanır!
Min illərdir insana sevinc tanış, qəm tanış,
Qəm üstündə köklənən
Bu qoca dünya tanış, bu sirli aləm tanış.
Ancaq mənim yazdığım bu qəm o qəmdən
deyil,
Təkcə gözə enən çən, saça düşən dən deyil.
Qıfıllanmış ağızdı, kilidlənmiş dodaqdır!
Susdurulmuş nəğmədir, söndürülmüş ocaqdır!
Təhqir görmüş əqidə, zəncir görmüş biləkdir!
Ağız açan qasırğa, zəhər yayan küləkdir!
Üzə dəyən şillədir!
Qəlbə dəyən güllədir!
Kəsilən qız döşüdür!
Tökülən ər dişidir!
Qan ağlayan anadır!
Boyun bükən sonadır!
Ağı deyən bacıdır!
Çəkilməyən acıdır!
Buza dönmüş bədəndir!
Qan rəngində kəfəndir!
Hər sətri, səhifəsi qan ləkəli kitabdır,
Oxumaq da əzabdır, düşünmək də əzabdır!
Öləsən, məzarını qazanlar tapılmaya,
İtəsən, ünvanını yazanlar tapılmaya,
Buna dözmək olarmı?
Heç kəs yayına bilməz,
Hamı üçün bu dünya sınaqdır, imtahandır!

Yaxşının da, pisin də son hakimi zamandır!
37-yə bax sən,
87-ci ildə gəlib imtahan verir,
Xəyanət xırıldayır, ölə bilmir, can verir!
Üzə çıxır həqiqət,
İndi bizə çatır ki,
Başçı oyunbaz olub, xalq isə bir oyuncaq!
Analar yuxusunda,
Dərd görüb dalğa-dalğa, qan görüb
qucaq-qucaq!
Sehrləyib dünyanı, başçı sehrbaz olub,
Onun hər göstərişi,
Millətin təpəsinə vurulan qapaz olub!
Qarmaqarışıq düşüb adilərlə dahilər,
"Allah"a qurban gedib,
İstedadı, ilhamı, qüdrəti ilahilər.
O qədər qan töküb ki, gözlərini qan tutub,
"Xalq atası" xalqının
Saysız oğullarına nə qədər divan tutub!
Yaxşı ki, qışdan sonra gələn bahar varıymış,
Yaxşı ki, Günəş görüb əriyən qar varıymış.
Yaz gəldi, yavaş-yavaş şaxtanın şaxı sındı,
Ədalətin nurunda
İsinənlər isindi, qızınanlar qızındı.
Tarix uzunömürlü,
Tarixi yaradan xalq təmkinli, tədbirlidir.
Görür, o, yaxşı görür,
Kimin qəlbi təmizdir, kimin qəlbi kirlidir.
O izləyir hamının sevincini, yasını,
Qoymur, heç kəsdə qoymur heç kəsin qisasını!
Ana ağladanların ağladır anasını,
Şöhrət göyə dəysə də,
Dağıdır sarayını, uçurur binasını.
Hansı rəhbər "mən" – deyib xalqı salmadı saya,
Məzarının üstündə əlçatmaz dağa döndü,

"Lənət" – deyə atılmış, yağdırılmış daş-qaya!
Cəllad getdi dünyadan, goru lənət qazandı,
Cavid köçdü dünyadan, əbədiyyət qazandı!
Kimin ürəyi daşdı, kimin ürəyi buzdu,
Həyatın yollarında kim uddu, kim uduzdu.
Zaman göstərir bizə!
Haqqı nahaqqa vermir, yaman göstərir bizə!
Elin bir hikməti var:
"Yerdən göyə küp düzsələr,
Bir-birinə bərkitsələr,
Altından birini çəksələr,
Gəl onda gör gumbultunu!"

Nə yaxşı ki, o küplərin
Altından biri çəkildi.
Ədalət qol açan yerdə,
Xəyanət geri çəkildi.

Ömür gödək, həyat şirin,
Qılınc qanlı, yara dərin.
Gəlib çatan xoş günlərin,
Nə qədər yeri çəkildi.

Yada düşdü dostum, yadım,
Koroğlunu xatırladım:

"Mərd dayanar, namərd qaçar,
Meydan – gumbur-gumburlanı.
Dəlilərim meydan açar,
Düşmən gumbur-gumburlanı.

Top açılar qalasından,
Haqq saxlasın balasından.
Koroğlunun nalasından,
Hər yan gumbur-gumburlanı."

Hərə bir cür ömür edir bizim ulu dünyada,
Kimi onu qocaldır, kimi heç düşmür yada.
Hər xalqın, hər millətin,
Kişiyə məhəbbəti, nakişiyə nifrəti,
İlikdədi, qandadı!
İllər ötüb-keçsə də,
Koroğlu at belində, Həmzə dəyirmandadı!
Zamana heyranam mən!
Varı yoxa çevirdi, yoxusa var elədi.
Baharı qışa dönən,
Zülüm, məşəqqət görən,
Neçə insan ömrünü nurlu bahar elədi.
Üzməmişdi əlini, bu günə inanırdı,
İnanırdı, zamanın hökmünə inanırdı.
Yaşamağa, duymağa özünü borclu saydı,
Bircə gün yaşamazdı,
Cavid gələcəyinə Turan inanmasaydı!
Yaşadı da, gördü də zəhmətinin barını,
O qaytardı həyata,
Bir ata ürəyinin donmuş arzularını.
Ata yadigarıtək,
Saxladığı nə varsa,
Qoruduğu nə varsa,
Əlaların əlası!
İgid ömrü yaşadı
Cavidin silahdaşı,
Cavidin qız balası!

İki dəfə qazıldı bir şairin məzarı,
Biri qürbətə düşdü, biri doğma yurduna.
41 illik həsrətin inam qırdı belini,
Qurtardı intizardan obasını, elini.
Göz açdığı torpaqda qucaq açdı yurd ona!
Sibirin sərt yerindən gətirdilər Cavidi,
Gül-çiçəyin içində itirdilər Cavidi!
O sitəmli günlərin ağrısını çəkəndə,
Dərd onun sinəsini kotan kimi əkəndə,

Gözünün giləsində son işartı sönəndə,
Bu işıqlı dünyamız,
Fikrində, xəyalında qaranlığa dönəndə,
Ağlına gələrdimi belə bir gün olacaq,
Açılmaz düyünləri açmaq mümkün olacaq!
Özü gəlməyən yerə cənazəsi gələcək,
Sükutun ürəyindən,
Sakitliyin içindən,
"Şair, burdayam!" – deyən haqqın səsi gələcək!
Ağlına gələrdimi,
Qorxudan, qadağadan,
Bircə kəsin dilində adı çəkilməyən kəs,
Yenə duyan ürəyə, yazan ələ dönəcək!
"Cavidabad" adlanan neçə kəndin, şəhərin,
Ürəyinin başında tunc heykələ dönəcək!
Ağlına gələrdimi,
Onu deyə bilmərəm.
Tək onu bilirəm ki,
Onda da gəlib ilham, onda da yazıb qələm!
Kağız tapılmayanda daşa, divara yazıb,
Necə görüb – ağı ağ, qaranı qara yazıb!
Ucuzlaşıb, varını heçliyə döndərməyib,
Xilas üçün rəhbərə mədhiyyə göndərməyib.
Bəzən də yazdığını oda atıb yandırıb,
Onun nifrətinə də,
Onun qəzəbinə də,
Tarix haqq qazandırıb, zaman haqq qazandırıb!
Ömür sürür həyatda,
Kimi sevinc qazanır, kimi kədər qazanır,
Əqidəsiz olanlar itirir dünyasını,
Bu dünyada inamlar, əqidələr qazanır!
Gözü vaxtından əvvəl itirsə də nurunu,
Əymədi vüqarını, satmadı qürurunu!
Hər kimin ki, tanrısı "gözəllikdi, sevgidi",
Hər kim bu Vətən üçün, torpaq üçün dəlidir,
O, Cavid düşüncəli, Cavid əqidəlidir!

Hər kimin ürəyində tükənməzdir həsrəti,
Bakı vuran ürəyi, Təbriz yanan əlidir,
O, Cavid düşüncəli, Cavid əqidəlidir!
Hər kim doğma yurdunu bütöv görür, tam görür,
Bölünən torpağının bölünməz sevgisinə,
Böyük bir inam görür,
Kürlə Araz qəlbinin qoşa dinən telidir,
O, Cavid düşüncəli, Cavid əqidəlidir!
Tüstüsüz ocaqmı var?
Duymayan yana bilməz!
Əqidə deyilən şey heçdən yarana bilməz!
İnsanın damarına süddən, sümükdən gəlir,
Nəsillərin qəlbinə çəkilən ağrılardan,
Nəsillərin çiynində daşınan yükdən gəlir.
Süddə, qanda yetişir,
Sınaqlarda bərkiyir,
İmtahanda yetişir!
Xalqımın ürəyində
Əqidənin, məsləkin özülü var, himi var!
Tarixin yaddaşında,
İmadəddin Nəsimi, Fəzullah Nəimi var!
Əqidə zirvəsini görmək istəyən olsa,
Babəki göstərərəm!
Bax deyərəm, bax ona, gör bu xalqın kimi var!
Kökü Babək olan kəs,
Cılız budağa dönüb cır meyvə verə bilməz!
Turan bir övlad kimi vaxtında dərk elədi,
Mənim atam kim olub, özüm kim olmalıyam!
Başqa yol yoxdur mənə:
İntizara, həsrətə,
Ya qələbə çalmalı, ya təslim olmalıyam!
Çaldı, qələbə çaldı,
Ata şöhrəti qədər bala eşqi ucaldı!
Turan – ata yurdunun çırağını yandıran!
Tufanların içində sal qayanı andıran!

Cavid öz taleyiylə
Daşa çevrilən insan, insana çevrilən daş,
Turan – ata heykəli yaradan heykəltəraş!
Turan – qardaş əvəzi, rəssam, şair, bəstəkar,
Dərdini danışanda Müşfiqin çaldığı tar!
Turan – tale çiçəyi, yalqız qalan bənövşə,
Gül ömrünü yaşamaq – bəlkə ən çətin peşə!

Turan deyər: qar daşı,
Qarlı dağdan qar daşı.
Xəstə könlü nar istər,
Mənim könlüm qardaşı.

Turan deyər: daşda məni,
Daş götür, daşda məni,
Qəmli yerdən kağız var,
Yazıblar başda məni.

Turan deyər: daşdı canı,
Kəkliyin daşdı canı,
Bilən yox nə çəkirəm,
Deyirlər daşdı canı.

Turan – bayatı çəkən,
Turan – göz yaşı tökən,
Turan – nağıl danışan.
"Ata-ana" nağılı, "Bacı-qardaş" nağılı,
Danışmaqla tükənməz,
Könüldəki intizar, gözdəki yaş nağılı!
Dövr edib dolansa da aylar, illər, fəsillər,
Gəlsə də yer üzünə yeni-yeni nəsillər,
Bu xalqın ürəyində,
Tarixin yaddaşında
Zaman-zaman qalası,
Ərtoğrulun bacısı!
Müşkünazın əzizi!
Cavidin Turan qızı!
Cavidin qız balası!

# İNSAN

*Xudu Məmmədovun xatirəsinə*

Xalqın sırasından getdi,
Elin arasından getdi,
Yanaqlarda yaşa döndü,
Gözün qarasından getdi.
Daşıdığı ağırlığa
Ürək dözmədi, dözmədi!
Şaxta, ayaz yaman vurdu,
Çiçək dözmədi, dözmədi!
Alim kimi alimiydi,
İnsan kimi insanıydı.
Təpədən-dırnağa kimi,
İnsafıydı, vicdanıydı.
Elin vicdanından getdi,
Üzeyirin "Sənsiz"indən,
Söz Allahı Füzulinin,
"Şəbi-hicran"ından getdi!
Zehnimizin, fikrimizin
Doğan nurlu səhərindən,
Sökülən danından getdi!
Qəlbimizin sədasından,
Gözümüzün nurundan getdi!
Bayatılı Qarabağın
"Segah"ından, "Şur"undan getdi!
İlmə-ilmə naxışların
Danışan dilindən getdi!
Dədəm Qorqud çalan sazın
Bəmindən, zilindən getdi!
Dillənərdi asta-asta,
Danışardı şirin-şirin.

Söz-söhbəti uzatmazdı,
Cümlə qısa, mətləb dərin.
Nə geyimdə, nə duruşda,
Adilərdən seçilmədi.
Bu adilik, bu sadəlik
Gözümüzdə, könlümüzdə,
Gündən-günə böyüyərdi,
Bircə dəfə xırdalanıb,
Bircə dəfə kiçilməzdi!
Bir ürəkdən min ürəyə
Ziya saçan ziyalıydı.
Ünvanına tərif desən,
Uşaq kimi qızarardı,
Körpə qədər həyalıydı!
Tək kitabdan almamışdı savadını,
Bu torpağın hər qatından
Şirəliydi, mayalıydı!
Dağı-daşı oxumaqdan yorulmazdı,
Qayaları qat-qat olan
Daş yaddaşı oxumaqdan yorulmazdı.
Düşüncələr ümmanında qəvvas idi!
Allah! Necə həssas idi!
Bu dağın yaşı neçədi?
Ondan soruş, o bilərdi!
Bu düzün daşı neçədi?
Ondan soruş, o bilərdi!
Bu daş hansı qaladandı?
Ondan soruş, o bilərdi!
Bu gül hansı taladandı?
Ondan soruş, o bilərdi!
Görüşərdik Borçalıda,
Görüşərdik Qarabağda.
Qurulardı məclisimiz
Gah aranda, gah da dağda.
Ələ fürsət düşən kimi,
“Ruhani”ni, “Dilqəmi”ni çaldırardı.

Hər havanın möcüzəsi
Onun tərlan xəyalını
Yerdən göyə qaldırardı!
Onun qəlbi həm sazıydı, həm tarıydı,
“Segah”ıydı, “Şüştər”iydi, “Qatar”ıydı.
Öz xalqını elə-belə tanımırdı,
Dağı daş-daş, qaya-qaya tanıyırdı,
Düzü rəng-rəng, boya-boya tanıyırdı.
Ayağında dəmir çarıq,
Əllərində dəmir əsa,
Qarlı yollar basa-basa,
Fikir verib hər addıma, hər qarışa,
Hey çıxardı
Azərbaycan torpağını axtarışa!
Hər axtarış ürəyinin ağrısıydı, əzabıydı!
Hər səfərin bar-bəhrəsi
Əl-əl gəzən, el-el gəzən
Bir mənalı kitabıydı!
Kitabları – bizim “Qoşa qanad”ımız!
Kitabları – varlığımız, həyatımız!
Xalqı üçün, eli üçün
Canı qurban edənlərin,
Düşüncələr dəryasında
Çox dərinə gedənlərin,
Dərdi qat-qat, qəlbi şan-şan,
Bağrı zədən-zədən olur!
Sonra durub deyirik ki,
Vaxtsız ölüm nədən olur?!
Xudu alim!
Xudu xəttat!
Xudu rəssam!
Elmin yanan gur çırağı,
Birdən-birə sönən bir şam!
Alim kimi bir ömürdə,
Neçə ömür yaşayırdı.

İnsan kimi,
Daşınması çətin olan,
Çox yükləri daşıyırdı.

Millət yükü!
Qeyrət yükü!
Təbriz boyda həsrət yükü!
Düşmənlərə nifrət yükü!
Neçə eldən, neçə dildən,
Neçə yerdən, neçə qatdan,
Tükənməyən bu həyatdan
Zərrə-zərrə topladığı sərvət yükü!
Biz nə qədər dəmir desək, polad desək,
Bər-bəzəkli min ad desək,
Ürək nədir?
Bir parça ət!
Yarı sevgi, yarı nifrət!
Daş vurdunsa, sınasıdır,
Od vurdunsa, yanasıdır!
Bircə dəfə soyuq baxsan,
Buz baxışdan donasıdır!
Adam kimi ayaqdan da ayaq olan,
"Böyüklər"in başı üçün papaq olan,
Əli üçün yaraq olan,
"Böyüklər"in süfrəsində
Qaşıq olan, çəngəl olan,
Elmin nurlu yollarında
Yeriyənə əngəl olan,
Alimciyəz adamlara
Dağlar boyda kini vardı!
Onun ayrı əqidəsi,
Onun ayrı dini vardı!
Bu din onun keçmişinə məhəbbəti!
Bu din onun dünəninə sədaqəti!
Bu din onun övladına –
Toğruluna tapşırığı, əmanəti!

Təzə-təzə dərk edirik özümüzü,
Təzə-təzə zaman açır gözümüzü.
Təzə-təzə axtarırıq kökümüzü,
Təzə-təzə daşıyırıq yükümüzü.
Belə gündə bu millətə
Ön cərgədə yeriyənlər gərək olur.
Taleləri tarix kimi yazmaq üçün,
Şama dönüb əriyənlər gərək olur.
Bu gün bizə sən gərəksən,
Torpaq kimi, hava kimi,
Ocaq kimi, yuva kimi!
Bu gün bizə sən gərəksən,
Hikmət yazan qələm kimi!
Neçə-neçə sağalmamış
Yaralara məlhəm kimi!
Özün yaxşı bilirdin ki,
Hamı sevib sevilsə də,
Hamı yanmır Kərəm kimi!
Düşünürəm öz-özümə:
Niyə səni bəd nəfəsdən,
Sırtıq üzdən, yaman gözdən qorumadıq!
Niyə səni hərzə sözdən,
Acı sözdən qorumadıq.
Səndən nələr gözləyirdik,
Neçə qatı açılmamış
Təzə hikmət, təzə soraq,
Təzə xəbər gözləyirdik.
Arzumuzdan yarımadıq,
Heyif! Səni yaşatmadıq,
Heyif! Səni qorumadıq!
Yaxşıları qorusaydıq,
Heç bu günə qalardıqmı?
Min bir yerə parçalanıb,
Bölük-bölük olardıqmı?
Dünən elə itirirdik,
Bu gün belə itiririk.

İtiririk, qazanmırıq,
Qardaş, hələ itiririk!
Gözəl alim!
Böyük insan!
Mərd vətəndaş!
Sözümüzə baxmır bu gün,
Gözümüzdən tökülən yaş!
Bu yaş nədir?
"Nə tez getdi" yanğısıyla
Könüllərdən qopan haray!
Bu yaş nədir?
Coşan dəniz, dalğalı çay!
Baxışlara enən bulud,
Dodaqlara çökən sükut.
Çiyinlərdə gedən tabut
Çox görmüşəm,
Belə axar, belə ləngər,
Belə axın görməmişəm!
Məhəbbəti bir bu qədər
Haqqa yaxın görməmişəm!
El sevgisi, xalq istəyi
Dərya olur, dəniz olur.
Xatirəyə dönən insan,
Əzizlərdən əziz olur.
Əbədiyyət yollarında ölməz olur bu xatirə!
Xalqın yaddaş çəmənində solmaz olur bu xatirə!

# ƏLLİ YAŞIN DASTANI

## DÜŞÜNCƏLƏR

Nigaran, narahat bir sualım var,
Görəsən, məndəki bu təlaş nədir?
Mənim yaradana bir sualım var,
Görən, insan üçün əlli yaş nədir?

Dağlarda kükrəyib gur sellər kimi,
Düzlərdə lillənib durulmaqdımı?
Səslənib gümüşü, ağ tellər kimi,
Səs-səs bu dünyaya vurulmaqdımı?

Ağrının, azarın içində itib,
Ağır yük altında boğulmaqdımı?
Yenidən göyərib, yenidən bitib,
Məsum körpə kimi doğulmaqdımı?

Ömrün şaxtasında, vaxtın qışında,
Ruhunu göynədən dərd-əzabdımı?
Geriyə boylanıb əli qaşında
Özünlə çəkdiyin haqq-hesabdımı?

İllərlə yığdığın günahlarını
Bəlkə, yumaq üçün fürsətdi bu yaş?
Dünənə döndərib sabahlarını,
Tarixə çevirən qismətdi bu yaş?

Axdı sular kimi il dalınca il,
Niyə bel bağladım mən bu faniyə?
Bəlkə, yaşadığım əlli il deyil,
Vur-tut yaşamışam əlli saniyə?

Var Ələsgər yaşı, var Müşfiq yaşı,
Bu, Vurğun yaşıdı, möhürü bəlli.
İçimə süzülür gözümün yaşı,
Heç nəymiş, heç nəymiş, heç nəymiş əlli.

Baxdım bu dağların şax duruşuna,
Bu dağlar əbədi, mən müvəqqəti.
Ayağım tutduqca gəzdim dünyanı,
Doymadım, doymadım, doymadım qəti.

Orta dayanacaq, möhlət tən yarı,
Ömrüm həmi şəhər, həmi kənd olub.
Həyatın düyünlü müəmmaları
Mənimçün açılmaz qıfılbənd olub.

Sanki dünən olub nağıl həqiqət,
İlk şeiri yazdığım qarlı qış günü.
Təpədən-dırnağa sevgi, məhəbbət,
Şair taleyimin ilk naxış günü.

Elə bil dünəndi göy meşələrdə,
Yaşıl çəmənlərdə şehə batdığım.
Dəli bir köhlənin yalına yatıb,
Qarlı gədiklərdə at oynatdığım.

## HARDAN GƏLİR ZƏLİMXAN

Hardan gəlir Zəlimxan, anasının südündən,
Atasının insanı yüksəldən öyüdündən.
Pir olmuş babasının pirləşən ağılından,
Nur olmuş nənəsinin bal kimi nağılından.
İnsanın, insanlığın Adəmindən, Nuhundan,
Yaradanın eşqindən, yaranmışın ruhundan.

Sevib sevilənlərin bir damla göz yaşından,
Məcnunlaşan dünyanın odundan, ataşından.
Ulduzun baxışından,
Buludun yağışından,
Şimşəyin çaxışından.
Hardan gəlir Zəlimxan, İlahinin nurundan,
Düzlərin sərvətindən, dağların qürurundan,
Atilladan, Metedən, Oğuz xandan, Bilgədən!
Doğu-Batı arası,
Gözlərimin işığı, ürəyimin parası,
Ruhların dolaşdığı neçə-neçə ölkədən.
Yeri-göyü titrədən Teymur cəsarətindən,
Abayın boz çöllərə dil verən sənətindən.
O boyda Türküstanı qəlbində yerləşdirən,
Ceyhun ilə Seyhunu ruhunda birləşdirən,
Qoca Məxdumqulunun dil-dil ötən sazından,
Nəvainin göylərə hökm edən avazından.
Nəfəsi davamıdı sazın, qopuzun, udun,
Halalca nəfəsidir ulu Dədə Qorqudun.
Min ildir ki, yorulmur, dərs öyrənir "'Manas"dan,
Türkün öz taleyidi,
Təpədən-dırnağacan Zəlimxandı bu dastan.
Dünənin işi deyil, Zəlimxan başdan gəlir,
Gültəkinə, Orxona, Yeniseyə yazılıb,
Qisməti daşdan çıxır,
Tarixi daşdan gəlir.
Bir əli yer üzündə, bir əli də haqdadı,
Xəyalı göylərdədi, mayası torpaqdadı!

## SİZƏ HARDAN DEYİM...

Sizə hardan danışım, əzəl başdan binadan,
Mübarək bir atadan, müqəddəs bir anadan.
Atamın dünya boyda qəlbi, ürəyi vardı,
Elin ağır yükünü çiynində qaldırardı.
Yerişi sərt, özü mərd, addımları qətiydi,
Kişilər yaraşığı, mərdlik səltənətiydi.
Xeyirdə də, şərdə də görərdilər boyunu,
Onsuz keçirməzdilər elin bircə toyunu.
Hər məclisin başından onun səsi gələrdi,
Səsində yerin, göyün zəlzələsi gələrdi.
Əqidəsi dosta dost, düşmənə düşmən idi,
Hər ağır iş, çətin gün saçında bir dən idi.
Hesab müəllimiydi, bilirdi hesabını,
Savadlı şagirdlərin başına and içərdi,
Savadsızın illərlə çəkərdi əzabını.
Kim hansı məsələni dolaşdırıb qalanda,
Ondan öyrənərdilər ən dürüst cavabını.
Peyğəmbəri müəllim, Məkkəsi məktəb idi,
Ən gözəl kitabları sevə-sevə oxumaq
Onda lap körpəlikdən adət idi, dəb idi.
Anamı kədər üstə kökləmişdi Yaradan,
Qaçammırdı fikirdən, çıxammırdı qaradan.
Ömrü boyu qəlbini qəmli, təlaşlı gördüm,
Dilini bayatılı, gözünü yaşlı gördüm.
Nə atası, anası, nə qardaşı varıydı,
Talan olmuş ürəyi, dərdli başı varıydı.
Başında yuva salan yetimlik havasıydı,
Dili də, ürəyi də bayatı yuvasıydı.

Bir at mindim başı yox,
Bir çay keçdim daşı yox.
Burda bir qərib ölüb,
Qohumu, qardaşı yox.

Əzizim, mən də yetim,
Sən yetim, mən də yetim.
Sən yetdin mətləbinə,
Səs elə, mən də yetim.

Qar daşı,
Qarlı dağdan qar daşı.
Xəstə könlü qar istər,
Mənim könlüm qardaşı.

Fikri qəmin, həsrətin aranında, dağında,
Nağıllar sinəsində, dastanlar dodağında.
İpə-sapa düzürdü ömrünü, həyatını,
Necə sığışdırırdı bir sinənin altına
Bu qədər rəvayəti, bu qədər bayatını?
Bir-birinə can deyən,
Bir-birinin dərdinə
Söz qoşan, dastan deyən,
Mən bu iki varlığın vəhdətindən yarandım,
Südündən, mayasından, qeyrətindən yarandım.
Mən gələndə dünyaya,
Allah mənim bəxtimə sevinci, qəmi yazdı,
Əsrin tən ortasında mənim təvəllüdümə
Öz mübarək əliylə əlli rəqəmi yazdı.
İlahidən payıma
Bir əsrin içindəki ikinci əlli düşdü,
Taleyimə, bəxtimə
Ümid, həsrət, ayrılıq, sevinc, təsəlli düşdü.
İstəkli müəllimim öz doğma atam oldu,
Mənim nəzərlərimdə
Hər kəlməsi bir çıraq, hər sözü bir şam oldu.
Yaxşı oxuyan uşaq gözlərinin nuruydu,
Əla qiymət alanlar şərəfi, qüruruydu.
Bütün həyatı boyu yaxşıları axtardı,
Yaxşıları gəzdi o.

Elm oxumaq naminə
Doğma balasına da güzəştə getməzdi o.
Gör, yadıma nə düşdü,
Heç vaxt unutmadığım
Canlı bir səhnə düşdü.
Adicə bir misalı həll edə bilməmişdim,
Qulağımın dibindən elə dəydi şilləsi,
Elə bildim hardasa atıldı top gülləsi.
Qəfil bir səs başımda çaxdı ildırım kimi,
Əlinin yeri qaldı üzümdə şırım kimi.
Sonralar şeirə döndü atamın sərt şilləsi,
Mən o şillədən aldım
Yerə-göyə sığmayan eşqi, gücü, həvəsi.

Qanımda anamın qaynar nəfəsi,
Qəlbim oğulların sırasındadı.
Atamın vurduğu şillənin səsi,
Şeirimin ən güclü misrasındadı.

Şillə mənə deyirdi:
Aldığın bu şapalaq
Həmişəlik qoy olsun qulağının sırğası.
Qoy, səni sarsıtmasın
Torpağın zəlzələsi, dənizin qasırğası.

Şillə mənə deyirdi:
Dilin, dilçəyin olsun, danışanda titrəmə,
Kişi kimi addım at, yeriyəndə büdrəmə.
Görüb ömür yoluna yağan qarı, dolunu,
Həftədə bir dəyişmə əqidəni, yolunu.

Şillə mənə deyirdi:
Meydan vermə pislərə,
Düşmən ol rəzillərə.
Qənim ol xəbislərə,
Rəzillər, yaramazlar
Tarix boyu ləkədi ən müqəddəs hislərə.

Şillə mənə deyirdi:
Yaxşıları başında şöhrət elə, tac elə,
Yarasına məlhəm ol, dərdinə əlac elə.

Şillə mənə deyirdi:
Sabaha bax, sabaha,
Sabahın yollarında inamla addımlamaq
Daha çətindir, daha!
Bu millətin əzəldən düşməni çox, dostu az,
Başın ayıq olmasa,
Ruhun oyaq olmasa,
Hər oğul bu millətə
Arxa, dayaq olmasa,
Milləti millət kimi,
Dövləti dövlət kimi
Duruş gətirə bilib,
Bircə gün də yaşamaz,
Bircə gün də dayanmaz!

Şillə mənə deyirdi:
Adicə bir misalı həll edə bilmədinsə,
Necə həll edəcəksən
Sabah qarşına çıxan
Ən çətin misalları?
Zamanın gərdişindən başı çıxmayanların
Dəymişi dura-dura tökülləcək kalları.
Eşidən olacaqmı çağıranda səsini,
Necə həll edəcəksən
İki yüz ildən artıq
İşi düyünə düşmüş,
Yaman bir günə düşmüş,
Hələ dilində qıfıl, hələ əlində qandal,
Qolu bağlı, gözü kor, qulağı kar, dili lal,
Cənub məsələsini, Təbriz məsələsini?

Oxu bu bayatını,
dürüst qur həyatını:
Ağ dəvə düzdən gedər,
Yükü Təbrizdən gedər.
Təbriz dərdə düşübdü,
Dərmanı bizdən gedər.

Ərən dağlar,
Uzağı görən dağlar.
Xoyda bir igid ölsə,
Yasında Mərənd ağlar.

Şillə mənə deyirdi:
Tanıya bilmədinsə, düşmənini, dostunu,
Öyrənə bilmədinsə, düşmənlərin qəsdini,
Adicə bir misalı həll edə bilmədinsə,
Toplamalar, çıxmalar, bölmələr sınağında
Addımbaşı büdrəyib, çox gedə bilmədinsə,
Bir adı rus, erməni, bir adı fars olanlar,
Mənim xalqıma qarşı həmişə tərs olanlar,
İştahası İstanbul, Təbrizlə Qars olanlar,
Dişlərini qıcayıb qanıma susayanlar,
Canımı ət parçası, qanımı su sayanlar,
Hürürsə həftədə bir yenə bizlərə sarı,
Bildiyini edirsə siyasət dəllalları,
Çək saysız ağrıların çəkilməz əzabını.
Özgələri gözləmə,
Kəmfürsət alçaqların özün ver cavabını.

Şillə mənə deyirdi:
Neçə ki, Şuşa, Laçın, Kəlbəcər sənin deyil,
Haqqın yoxdur yatmağa,
Borclusan yatanları
Astagəl bir səslə yox,
İsrafilin suruyla yerindən oynatmağa.

Sənin taleyin üçün
Qarabağ bir məsələ,
Zəngəzur bir misaldı.
Bu müdhiş sualların cavabını tapmadıq,
Boynumuz da gödəldi, dilimiz də qısaldı...

## DOLAŞIQ AŞIRIMLAR

Vüsala can atdım mən ömrüm boyu,
Yapışdı yaxamdan hicranın əli.
Yas oldu yurdumun çalınan toyu,
Pis gəldi, nəs gəldi əsrin əvvəli.

Üçrəngli bayrağı əlimdən alıb,
Yerinə qırmızı bir bez taxdılar.
Məni təpiklərin altına salıb,
Oda qaladılar, közə yaxdılar.

Doxsanın yanvarında tankla, topla gələnlər,
İyirminci illərdə qılıncla, qanla gəldi.
Yox, bu əsrin ayağı millətimə düşmədi,
Gələn "inqilab" dedi, gələn üsyanla gəldi.
Bu üsyan, bu inqilab ağır qapaza döndü,
Dalbadal başımızda çaxdı ildırımları.
Ən böyük arzuları bircə gecədə söndü,
Tale qürbətə saldı
Məhəmməd Əminləri, Almas İldırımları.

Dilində yalan şüar, qəlbində gizli nifrət,
Torpağa qan, xalqa dərd, yurda ləkə gətirdi.
Leninin fitfasıyla qurulan bu məmləkət,
Müstəqillik vermədi, müstəmləkə gətirdi.

Adını qoysalar da qoca Şərqin Lenini,
Doktor Nərimanı da yaxşıca aldatdılar.
Şəhərini, kəndini, obasını, elini,
Bir keçi qiymətinə ermənjyə satdılar.

Nə gördü vətənimin ən böyük vətəndaşı,
Özünü yandırdılar qaladığı ocaqda.
Stalinə məktubu qan içində göz yaşı,
Öldürüb, dəfn etdilər torpağından uzaqda.

Ölkələr qan ağladı bir insanın əlindən,
Göz yaşları içində axan xalqın qanıydı.
Nələr çəkdi o dövrün, o zamanın əlindən,
Mirzə Cəlil millətin ağrıyan vicdanıydı.

Sabir – çaxnaşma, vulkan, Sabir – qasırğa, tufan,
Ciyər vərəm bağladı əlli yaşı çatmamış.
Hələ heç bir zəlzələ Sabir nəfəsi qədər,
Ürəklər silkələyib, beyinlər oyatmamış.

Qamətimiz düzəlmir Müşfiq nakam gedəndən,
Bir gecənin içində qanına qəltan oldu.
Ayırdılar sevgidən, sevgilidən, Vətəndən,
Böyük Əhməd Cavadın sinəsi şan-şan oldu.

Namərdlər at çapırdı, mərdin meydanı dardı,
Biz nə saymaq istədik, gör, bir fələk nə saydı.
Şekspir qüdrətiylə Hamletlər yaradardı,
Otuzuncu illərdə Cavid tutulmasaydı!

Bir də doğulacaqmı, nə bilim, nədən bilim,
Qoruya bilmədilər Üzeyir tək dahini.
Kəsildik parça-parça, doğrandıq dilim-dilim,
Çağıra da bilmədik tanrını, ilahini.

Qadağalar, həbslər, işlər çətindən çətin,
Ömür-gün yollarında döyüş olub, cəng olub.
Kimlər açıb yolunu qorxunun, xəyanətin,
Vurğun əlli yaşında nə üçün xərçəng olub?

Otuzuncu illərin alovundan çıxmamış,
Məmləkətə 41-in qanlı davası gəldi.
Qara xəbər donunda qapıları kəsdi qış,
Hər evə, hər ocağa ölüm havası gəldi.

Döndü qara kağızlar tökülən xəzəllərə,
Yarpaqların sayı var, kağızların sayı yox.
Nə deyəsən gözləri yol çəkən gözəllərə,
Silahın ürəyi yox, düşmənin vicdanı yox.

Tərs kimi bir işimiz avandına getmədi,
Kəsdi Heydər Hüseynov bağda öz damarını.
O, təkcə öz ömrünə, özünə qəsd etmədi,
Kəsdi fəlsəfi fikrin fəlsəfi damarını.

Birini susdurdular, birini asdırdılar,
Birini döyə-döyə laxta qan qusdurdular.
Qriqoryanlar fitfası, Markaryanlar əliylə
Bir gecənin içində minləri susdurdular.

Əlli il millətimin qara tale günləri,
Bir əsrin tən yarısı qanda-qadada getdi.
Dalbadal yasa döndü toyları, düyünləri,
Neçə-neçə nəsillər günahsız bada getdi.

Qanadlı arzuların yoldular qanadını,
Kişilərin həyatı ağır bir gündə keçdi.
Göstərdilər qürbətin "ləzzətini", "dad"ını,
Mənim öz nəslimin də ömrü sürgündə keçdi.

Biz qələbə çalanda "Allaha şükür" dedik,
"Ey insan, daha qorxma, dövranını sür", – dedik.
"Çıxmışıq azadlığa, qovuşmuşuq şadlığa,
Qəm-kədər qarşımızda boynunu bükür", – dedik.

Biz haradan biləydik,
Qan üstündə qurulan bu boyda bir ölkənin
Quruluşu da saxta,
Qələbəsi də saxta,
Varlığı da saxtadı.
Biz haradan biləydik,
Bu xalqın görəcəyi nəs günlər qabaqdadı.
Bir haradan biləydik,
Böyük şüarlarımız bir gün boşa çıxacaq,
Qapımızın ağzında yal içib yallananlar
Yağlı tikə görəndə hoppanıb, tullananlar
Ağlımızın ucundan,
Dönüb ev sahibinə, gəlib başa çıxacaq...

## MÜKAFATIM – AZADLIĞIM

Düşünürəm varlığı, düşünürəm həyatı,
Nədir əlli yaşımın ən böyük mükafatı?
Sual böyük sualdı, cavabında şərəf var,
Bu sualın içində
Halal haqqına çatıb, qalib gələn tərəf var.
Ən böyük mükafatım
Mənim müstəqilliyim, mənim azadlığımdı.
Azadlığım – ən böyük sevincim, şadlığımdı.
Əsrin əvvəllərində əlimizdən alınan,
Bizə haram buyrulub, daşdan-daşa çalınan,
Müqəddəs azadlığı yenidən qaytarmışam,
Dişimlə, dırnağımla sal qayalar yarmışam.
Bu yol çox çətin olub,
Dözüm, səbir, qələbə yenə millətin olub.

Azadlığım rəng alıb
Azərbaycan xalqının
"Azadlıq" deyə-deyə alovlanan çağından,
Böyük Məmmədəminin üçrəngli bayrağından.
Azadlığım rəng alıb
Bəxtiyarın yazdığı "Gülüstan"ın[1] ahından,
Əsl şair nəfəsi
Odludu düşmənlərin ən odlu silahından.
Azadlığım güc alıb
Böyük Xəlil Rzanın
Meydanları titrədən haray dolu səsindən,
Mən bu yolu başladım "Azadlıq meydanı"ndan.
Azadlığım rəng alıb
Qarabağda, Şuşada, Şəkidə, Lənkəranda
Şəhidliyə yüksələn oğulların qanından.
Yaşamağa haqqı var
Millətin – millət kimi!
Dövlətin – dövlət kimi!
Mən də yaşamalıyam
Ölkələrin içində yenilməz qüdrət kimi!
Nə köləlik yaraşır bizə, nə müstəmləkə,
Xalqın nə dərdi varsa, gərək xalq özü çəkə.
İçimdəki genişlik sığa bilməz darlığa,
Köləlik yaraşarmı
Böyük Babəkdən gələn böyük üsyankarlığa?
Diş ilə, dırnaq ilə alınan azadlığı,
Əsrlərlə qəfəsə salınan azadlığı
Gözün giləsi kimi qorumaq qəhrəmanlıq,
Yaşatmaq kişilikdir!
Kişiləri olmayan harda tayfa, nəsil var,
Ümidi parça-parça, eşqi çilik-çilikdir.
Müstəqildi dövlətim!
Müstəqildi millətim!

[1] B.Vahabzadənin "Gülüstan" poeması nəzərdə tutulur.

Bu günün şair oğlu, şirin nəğməkarı mən,
İkinci azadlığın meyvəsi mən, barı mən.
Mənim azadlığımın yaşı uşaq yaşıdı,
Təzəcə puçurlayan kövrək budaq yaşıldı.
O uşağın boyunu ərzə göstərmək gərək,
O budağın barını doyunca dərmək gərək.
Təzəcə qovuşmuşuq,
Ondan ötrü təşnəyik, ondan ötrü ləliyik,
Azadlığın yaşını illərin sayıyla yox,
Başa-baş əsrlərin yaşıyla ölçməliyik.
Bu yükü çəkmək üçün
Nə qədər dağlar çapıb, qayalar yarmalıyıq,
Bugünkü xoşbəxtliyi gələcək nəsillərə
Canla aparmalıyıq, başla aparmalıyıq.
Ruhumla, nəfəsimlə
Müqəddəs azadlığın şölələnən şanıyam.
Məhəmməd Əminlərin
Ruhunun davamıyam, səsinin davamıyam.
Azadlıq dediyimiz ən böyük xoşbəxtliyi
Cavidlər görməliydi!
Müşfiqlər görməliydi!
Cavadlar görməliydi!
Bu günlərin barını özləri dərməliydi!
Ən odlu şeirlərin,
Ən isti misraların
Nəğmələr çələngini özləri hörməliydi!
Cavidlərin ömrünü,
Müşfiqlərin ömrünü,
Cavadların ömrünü
Bu gün yaşayan mənəm!
Bu günün arzusunu
Gələcək nəsillərə çəkən, daşıyan mənəm!
Müstəqil gördüyümçün əzilən bir milləti
Günəş mən,
            çilçıraq mən,
                        saray,
                            aşiyan mənəm!

## MƏN DƏ YARADANIN BİR AŞIĞIYAM

Dünən körpəsiydim Kəpənəkçinin,
Atayam, babayam, əmiyəm indi.
Dünən bir dən kimi düşdüm torpağa,
Sünbülü tellənən zəmiyəm indi.

Bir gün dolu döyür, bir gün qar gəlir,
Meydandan çəkilmək mənə ar gəlir.
Üstümə dəlisoy dalğalar gəlir,
Tufanla çarpışan gəmiyəm indi.

Üzüm kədərədi, yönüm ahadı,
Qəm-kədər ucuzdu, sevinc bahadı.
Düşmənin hər biri bir əjdahadı,
Yeddi əjdahanın yemiyəm indi.

Mən də Yaradanın bir aşığıyam,
Ərköyün övladı, kür aşığıyam.
Məni sevənlərin yaraşığıyam,
Məni sevməyənin qəmiyəm indi.

Xatirəyə dönmüş neçə cığır var,
Sevgilim çiçəkdi, sevgim arıdı.
Qoynunda gəzdiyim yaşıl cığırlar
Şeirimin yamyaşıl misralarıdı.

Qarlı qış səhəri gəldim dünyaya,
Neçə yaz doğuldu qışımdan mənim.
Həyatın sevinci, müsibətləri
Yağdı yağış kimi başımdan mənim.

Ayna bulaqların, güzgü göllərin,
Mavi dənizlərin ətrinə batdım.

Qaynar çeşmələri, dənizləri də
Könlümdə təzədən özüm yaratdım.

Haqqın işığıyla gəldim dünyaya,
Dünyanın hər yeri gördüm işıqdı.
İşığa bağlıdı insanın canı,
Sevincim işıqdı, dərdim işıqdı.

Elə bu işıqla çıxdım yollara,
Qarşımda işıqlı yollar açıldı.
“Can” dedim həmdəmə, “dost” dedim yara,
Sinələr qabardı, qollar açıldı.

Elə bu işıqla gəldim Məkkəyə,
Kəbənin içinə girdim işıqla.
Adını qoysaq da gözəgörünməz,
Allahın özünü gördüm işıqla.

Dillərdə, yollarda, ellərdə gördüm,
Aşılmaz Çin səddi aşan ömrümü.
Çağlayan sularda, sellərdə gördüm
Qayğılar içində daşan ömrümü.

## MƏNİM ÖMRÜM

Əlli saniyə nə, əlli saat nə,
Beş yüz il yaşadım bu əlli ildə.
Rahat ömür nədir, sakit həyat nə,
Dərdim dastan oldu, gör, neçə dildə.

Azadlıq istədim, məhbəs verdilər,
Genişlik istədim, qəfəs verdilər.
Çağırdım, dadıma çatan olmadı,
Nə haray çəkdilər, nə səs verdilər.

Qaldı öz içimdə səs, mənim ömrüm,
Yumruğu daş elə, kürəyi sipər,
Dərdin qarşısını kəs, mənim ömrüm.

Qapını kəsəndə böhtan ilə şər,
Ürəklər qəzəbdən alışdı-yandı.
Üçrəngli bayraqdan yapışan əllər,
Yanvar gecəsində qana boyandı.
Amansız ağrılar qəlbimi sıxır,
Çəkilməz dərdim var, dərmanı yoxdur.
Məni öz haqqıma qovuşdurmağa,
Bəndənin gündə bir fərmanı çıxır,
Hələ ki, Allahın fərmanı yoxdur.
"Allah" de, ordunu köməyə çağır,
Qalma bu meydanda tək, mənim ömrüm.
Kökündən, soyundan zorla ayrılan,
Mənim qaçqın ömrüm, didərgin ömrüm.
Daşı, qayası, torpağı
Əsir yaşım, girov yaşım.
Canımda bir üşütmə var,
Saçlarımda qırov, yaşım.

Rahat yaşamağı haram buyrulan,
Hey narahat ömrüm, hey gərgin ömrüm.
Torpağım daşınır torbalar ilə,
Bacara bilmirəm zorbalar ilə,
Əgər belə getsə, başa çıxammaz,
Qəlbimi, ruhumu didər kin, ömrüm.

Kor olmuş gözlərim hər şeyi gördü,
Girov da, dustaq da, əsir də gördü.
Babək zirvəsinə qalxan qeyrəti,
Ayaqlar altında həsir də gördü.
Təbiət vurursa yara bağrıma,
Qarabağ dönürsə qara bağrıma,

Gündə tikə-tikə kəsirsə düşmən,
Çara tapılmırsa qara bağrıma,
Göyçə həsrətiylə yanır, tökülür,
Borçalı üstündə saz ağlayırsa,
Millətin gözündə yaz qışa dönüb,
Şairin qəlbində yaz ağlayırsa,
Dünyadan əlini üz, mənim ömrüm.
Əllidə heç nəyi bacarmadınsa,
Nəyinə gərəkdir yüz, mənim ömrüm?!

İki qanadı var mənim ömrümün,
Bir yanım Borçalı, bir yanım Bakı.
Ruhumun kökündə, mayasındadır,
Hislərin durusu, sözlərin pakı.
Şair taleyidi, şair baxtıdı
Bu uzaq yolların qucağındakı
Hər keçidə cığır, hər çaya körpü,
Ellərdən ellərə yol, mənim ömrüm.
Gündüz dincəlməyən, gecə yatmayan,
Yollarda əzabı bol, mənim ömrüm.

Olummu, qalımmı onun qisməti,
Bu xalqın baxtına fal açmaq çətin.
Verən qürrələnər, alan utanar,
Əl tutmaq asandı, əl açmaq çətin.
Dilin ağrısıdı, qəlbin əzabı,
Dilənə-dilənə əl açmaq çətin.
Əlində əsa var, gözündə eynək,
Əynində cırılmış bir qara köynək.
Cahan bir oğlanı nə günə salıb,
Alnındakı qırış, saçındakı dən,
Tut onun əlindən, tut, mənim ömrüm.

Bəlkə, dərdimizə biganələrin
Əlini cibindən çıxara bildin.

Qırx arşın quyuya düşən kəsləri,
Quyunun dibindən çıxara bildin.
Bəlkə, bir harını, yekəqarını
Oynadıb təbindən çıxara bildin.
Bəlkə, satqınları, yaramazları
Öz köhnə dəbindən çıxara bildin.
Ölüm bir savaşdı haqqın yolunda,
Çəkinmə, savaşa gir, mənim ömrüm.
"Uf" demə həqiqət axtarışında,
Səni parçalasa şir, mənim ömrüm.

Əsrin yarısıyla durdum yanaşı,
Mənəvi ömrümün yaşı bilinməz.
O qədər qədimdi ruhumun yaşı,
Saysalar kərpici, daşı bilinməz.
Qorquddan, Yunusdan Allaha çatdı,
Səsim qanadlandı, Allaha çatdı.
Saz mənim ömrümdü, söz mənim ömrüm,
Qabağa düşmüşəm Prometeydən,
Od mənim ömrümdü, köz mənim ömrüm.

Söhbətin şirini, sözün xasıyam,
Ruhun sevinciyəm, qəlbin yasıyam.
Dünyanın ən qədim əlyazmasıyam,
Tarixdə ən uzun yaş, mənim ömrüm.
Üstü min illərlə mamır bağlayan,
Ömrümə ikinci ömür bağlayan,
Qaya mənim ömrüm, daş mənim ömrüm.
Leyliyə Məcnunam, Şirinə Fərhad,
Kərəmə Əsliyəm, Qəribə ustad,
Mələklər yanında çalmışam qanad,
Merac gecəsində göy mənim ömrüm.
Füzuli ahından mayalanmışam,
Dodaqlar yandıran ney – mənim ömrüm.

Altaya qovuşan Anadoluyam,
Təbrizəm, Dərbəndəm, Qarsam, Boluyam.
Dünyanın nə qədər yolları varmış,
Yollara yol olan haqqın yoluyam.
Türkün xilaskarı qurd oğlu qurdam,
Doğudan Batıya bir ulu yurdam.
Bilgəyəm, Meteyəm, Osman Qaziyəm,
Ölçülər içində ölçüyəgəlməz,
Məkana sığışmaz bir əraziyəm.
Yer üstə ən böyük yer, mənim ömrüm,
21 yaşında İstanbul alan
Ağ atın üstündə ər, mənim ömrüm.

Yandırmır işığı, əritmir şamı,
Hamının dərdini daşımır hamı,
Dünyanın yükünü tək-təklər çəkir.
Ən böyük adamdı dərdin adamı,
Yükü də ən böyük ürəklər çəkir,
Həyatda ən ağır yük, mənim ömrüm.
Buludlar qoynunda ən hündür budaq,
Torpaqda ən dərin kök, mənim ömrüm.

Ulduzun ziyası, Ayın işığı,
İşıqlı dünyanın yar-yaraşığı,
Tanrının vergisi, haqqın aşığı,
Gündüzlər Günəşi, sabahlar mehi,
Gecələr sultanı Ay, mənim ömrüm.
Bəndənin hələ də görəmmədiyi,
Allahın verdiyi hay, mənim ömrüm.

Gözünün nurunu kitablar yeyən,
Suallar yedirən, cavablar yeyən,
Dərvişlər, ozanlar, qəriblər görüb
İçini həmişə əzablar yeyən,
Ürəyin qanından şərablar içən,

Qəlbinin ətindən kabablar yeyən,
Təpədən-dırnağa dərd, mənim ömrüm.
Bu dərdlər önündə duruş gətirən,
Duruşu yenə də sərt, mənim ömrüm.

Bu da iş otağı, şamdanım, şamım,
Səliqəm, səhmanım, işim, nizamım.
Bu da müqəddəsim, kitabxanamdı,
Anamdan sonrakı doğma anamdı.
Şirin həmsöhbətəm Dədə Qorquda,
Axır damarıma, hopur canıma
Udduğum hava da, içdiyim su da.
Əlimin altında "Oğuznamə" var,
Dilimin gücündə "Qudatqu bilik".
Homerdən, Dantedən üzü bəriyə
Hər biri ölməzlik, mərdlik, kişilik.
"Faust", "Leyli-Məcnun", "Şahnamə", "Xəmsə" –
Bəşər övladının neçə dastanı.
Hər dəfə qapını açıb girəndə
Bağrıma basıram bu gülüstanı.
Hər gün dahilərlə üz-üzəyəm mən,
Durmuşuq göz-gözə, nəfəs-nəfəsə,
Möcüzə içində möcüzəyəm mən.
Təpədən-dırnağa nur içindəyəm,
Hər şeydən ucadı nur, mənim ömrüm.
Dünyanın işığı azalan günü
İşıqdan bir dünya qur, mənim ömrüm.

Torpaq sızıltısı, yurd göynərtisi,
Şam kimi yandırıb, iç əridəndi.
Neyləyə bilərdi özgələr bizə,
Ən böyük bəlamız içəridəndi.
Bizi ətrafımız yedi, taladı,
Bayır dəyirmandı, içəri dəndi.

Yağmasa yağışı, axmasa suyu,
Göyərə bilərmi dən, mənim ömrüm?
Ürəkdən gülməyi yadırğamışam,
Bulud mənim ömrüm, çən mənim ömrüm.

Hələ də öz əlin, öz başın deyil,
Sənin keçmişini saxtalaşdırıb,
Sənin tarixini saxtalar yazır,
Qanı qarışıqlar, üzü dönüklər,
Ürəyi, qafası dönüklər yazır.
Quruyur yerində, doğru mat qalır,
Oğrunu balaca bərkə çəkəndə.
Ərəbə çəkirlər, farsa çəkirlər,
Müsibət başlanır türkə çəkəndə.
Dözə bilirsənsə sən bu dərdlərə,
Daha sözüm yoxdu, döz, mənim ömrüm,
"Desəm öldürəllər, deməsəm ölləm",
Yandırır dilimi köz, mənim ömrüm.

Ulu Füzuliyə eşqim, heyrətim,
Dədə Ələsgərə əcdadım deyən,
Vaqifə dilinin şəhdi-şirəsi,
Sabirə üsyanım, fəryadım deyən,
Baba Şəhriyara tüstüm, dumanım,
Vurğuna ən böyük ustadım deyən,
Bu qədər xəzinəsi olan kəslərin,
Nəyinə gərəkdi pul, mənim ömrüm.
Böyüklər yanında uşaqdan uşaq,
Ustadlar yanında qul, mənim ömrüm.
Səni yerə çəkən, göyə bağlayan,
Yerin bəndinə bax, göyün qatına.
Tanrı neçə gündə qurub dünyanı,
Bacara bilirsən, bax saatına.
Nə ki gördüyün var, görəcəyin var,
Hopdur damla-damla sən həyatına.

Qırx doqquz qapını açıb gəlmisən,
Əllinci qapını aç, mənim ömrüm.
Səpələ Allahdan aldığın nuru,
Bəndənin üstünə saç, mənim ömrüm.

Ağzından çıxmısan əjdahaların,
Salamat qalmısan, şir oğlu, şirsən.
Üstünə nə qədər daşlar atıldı,
Dözümdə, təmkində, bəlkə də, birsən.
Köçür varaqlara ürəkdə nə var,
Bir dəftər, bir qələm, bir gecə, bir sən.
Əkinçi taleyi yaxşı taledi,
Şumla, mənim ömrüm, ək, mənim ömrüm.
Bu vaxtın tək bircə Zəlimxanı var,
Qatlaş zəhmətinə, çək, mənim ömrüm.

***2000, yanvar***

# İÇİMDƏ AĞLAYAN KRIM

*(Məktub-poema)*

*Bu əsəri Krım türklərinin böyük dərd çəkəni, 60 ildir ki, Vətən həsrəti ilə qürbətdə sızlayan və hazırda Londonda yaşayan 91 yaşlı məşhur yazıçı Çingiz Dağçının adına bağışlayıram.*



## ÇİNGİZ DAĞÇININ MƏKTUBU

*Eşitdim Krıma gəlmisən. Həmişə bizim olan, indi bizim olmayan Krıma! Özü də Azərbaycandan gəlmisən. Bu şad xəbərə sevindim. Məni tanıyan, məni oxuyan və məni sevən bir Azərbaycan şairinin bura gəlişini çoxdan gözləyirdim. Sümüyümə dammışdı, ruhuma əyan olmuşdu ki, gələn olacaq. Sənin gəlişin qaranlıq dünyamı aydınlığa çevirdi. Ağməsciddən (indiki Simferopol) cəmisi dörd-beş kilometr bir məsafədə Çukurcada anadan oldum. Beşiyim burda yırğalansa da, məzarım qürbətə qismət olacaq. Qərib kimdir, qürbət nədir, sürgün olunmaq nə deməkdir hamısını gördü mənim kor olmuş gözlərim, hamısını eşitdi mənim bu kar olmuş qulaqlarım, hamısını çəkdi mənim bu bəlalı başım.*

*"Xanlıq dövründə beş milyon olan Krım tatarlarının sayı böyük köçlərdən və qətliamlardan sonra üç yüz minə endirilmişdir. Çar Rusiyasının Krımı Krım tatarlarından təmizləmək arzusunu İkinci dünya müharibəsinin sonunda Sovet Rusiyası bir həmlədə həyata keçirdi".*

*"Yansılar" adlı romanımdan gətirdiyim bu misal xəyal deyil, XX əsrin amansız həqiqəti, acı səhnəsidir. Biz Krım türkləri bu faciələrin günahsız qurbanlarıyıq, mənim oğlum!*

*Qələmini işə sal, fikrini cilovla, ilhamını çağır, ruhunu səfərbər elə, mənim dərdlərimi, bizim dərdimizi ozan dilində, oğuz, qopuz dilində dilə, qələmə gətir. Gör mən nə çəkmişəm. Gör biz nə çəkmişik və bu gün də nələr çəkirik, mənim oğlum!*

## ZƏLİMXAN YAQUBUN CAVAB MƏKTUBU

*Möhtərəm Çingiz ağa!*

*Səndən gələn məktuba cavab yazıram. Sənə yazdığım məktubu qoynunda göz açdığın, ayaq açıb yeridiyin, havasını, suyunu dərdinə dərman elədiyin, hər dəfə adı çəkiləndə səni göyüm-göyüm göynədən Krım torpağından yazıram. O Krım torpağından ki, onun dərdləri sənə "Yansılar", "Annəmə məktublar", "Yurdunu itirən adam", "Onlar da insandı", "O torpaqlar bizimdi", "Badam budağına asılan körpələr" adlı ağrılı-acılı əsərlər, təpədən-dırnağa, başdan-ayağa böyük əzablardan yoğrulmuş kitablar yazdırıb.*

*Biz ruh və qan qohumu olmaqla yanaşı, həm də dərd qohumuyuq. XX əsrin əvvəllərində və ortalarında – koxozlaşma dövründə və II dünya savaşı illərində Krım türklərinin başına açılan oyunlar elə həmin dövrlərdə və doxsanıncı illərdə biz Azərbaycan türklərinin, Qərbi azərbaycanlıların və Borçalı türklərinin də başına gətirildi, Çingiz Ağa!*

*Bir anlığa Qırğız türklərinin böyük oğlu, sənin məşhur adaşın Çingiz Aytmatovun Manqurt obrazını, doğmaca anası Nayman ananı tanımayan oğulun faciəsini, oğluna özünü tanıtdıra bilməyən ananın fəryadını gözlərinin önünə gətir. Bu gün Qərbin və Xristian dünyasının Türk və İslam aləminə qarşı ardı-arası kəsilməz gizli və aşkar hücumları Əfqanıstanda, İraqda, Fələstində, Kərkükdə, Mosulda, Qarabağda bizi manqurtlaşdırmaq üçün gecə-gündüz dəridən-qabıqdan çıxır.*

*Bu gün mənim çəkdiyim dərdləri dünən sən yetərincə çəkmisən, Çingiz Ağa!*

*Canın-qanın qədər sevdiyin, qəlbinin qanı, gözlərinin yaşı, ürəyinin ahı-naləsi hesabına yaratdığın bir-birindən maraqlı obrazları mən doğmaca atam, anam, qardaşım, bacım, oğlum-qızım kimi sevmişəm. Kommunizmə komolizmə deyən, Karl Marksa kala-mala deyən Bəkir ağanı, Çoban Seyidəlini, Aişənin dəli-divanəsi Rəmzini, "cinlər gavur məmləkətindən gəlir" deyən Molla Rəcəbi, Bərbər Hasanı, Əsmanı, doktor Zəminə Dağçını, ölüm ayağında olan körpələrin son ümidi, xilaskarı Mələk xanımı, Mustafa Dağçını, sekretar Bilalı, Cilingirli Səlimi doğulduğum Kəpənəkçi kəndinin adamları kimi sevib tanımışam.*

*"Hər şey bitdi! Hər şey sona çatdı mənim üçün burada. Mənim kəndimin evlərində ocaqlar yanmayacaq, süfrələr qurulmayacaq, əzanlar oxunmayacaq, ölülər məzarlara dəfn olunmayacaq; gün işıqlanmayacaq mənim kəndimdə; mənim kəndim Tanrısız, Peyğəmbərsiz, mələksiz bir kənd olacaq bundan sonra!" Bizim üçün həyatda ölüb sənin yazıçı qələmində dirilən, sənin rəssam fırçası ilə çəkdiyin Qızıldaşı, Ağlayan qayanı, Çatalqayanı, Quşqayanı, Gurzufu, Ayı dağını, Gəlinqayanı, Topqayanı, Dərmanköyü, Çadırdağı, Soyuqsu sahillərini, Uçan suyu, Qaranquş yuvasını unutmaq olmur, Çingiz ağa!*

*Qara dəniz sahillərindən dağlara boylanıram, dağlardan Qara dənizin dalğalarını, ləpələrini seyr edirəm. Hər yerdə səni, sənin yaratdığın obrazları, tanıdığın insanları axtarıram. Hara baxıramsa sənin gözlərinlə baxıram, sənin dilinlə danışıram, sənin ruhunla pıçıldaşıram. Sənin ayağınla yeriyirəm. Çalışıram ki, hər yeri piyada gəzim, nə bilmək olar, bəlkə, sənin ayaqların toxunan yerə, sənin qədəmlərin dəyən torpağa mənim də ayaqlarım dəyir, toxunur.*

*Çox sağ ol ki, bu gün it-bata düşən, tamam unudulmaq təhlükəsi ilə üzləşən, yaddan çıxan, biganəlik girdabında çırpınan, üstünü toz basmış yaralı tariximizi, böyük ağrılarımızı istedadın və zəhmətin hesabına bugünkü nəsillərə çatdıra bilmisən. Sənin əsərlərini mən dərdimizin dərsləri kimi oxuyuram.*

*Bu əsərlər həm bizim tükənməz dərdimizdi, həm də ibrət götürüləsi dərsimiz. Tarixdən ibrət dərsi götürmək, yenidən böyük səhvlərə yol verməmək, qaçqına, köçkünə, didərginə, qəribə, kimsəsizə, yetimə çevrilməmək, vətəni qürbətə döndərməmək üçün keçmişə dönə-dönə qayıtmalı, keçmişi və gələcəyi düzgün dərk etməliyik, Çingiz Ağa! Sirri olan özünə sirdaş axtarar, söhbətcil adam həmsöhbət gəzər, dərdli adam özünü yüngülləşdirmək üçün həmdərd tapar. Mən də sənin saydığın dərdləri içimdə gəzdirə-gəzdirə, qovrula-qovrula Krım dərdlərinin dərinliyinə enmək üçün həmdərd axtarırdım. Qocaları axtardım, ağsaqqalları gəzdim, tapa bilmədim. Ağsaqqalmı qalmışdı danışa, qocamı qalmışdı o dəhşətli illəri xatırlaya. Hamısının kökünü kəsmişdilər. Krım yaylalarında cavan oğlanlar, körpə uşaqlar vardı ki, onlarla danışmağa çətinlik çəkir, onların ürəyinə xal salmaq istəmirdim. Ümidim yenə təbiətə, daşlara, qayalara qaldı, Krımın dünyada bənzəri olmayan qayalarına! Axtara-axtara, gəzə-gəzə bir meşənin içində gedib "Ağlayan qaya"nı tapdım. Ömrü neçə min illərin sirrinə sirdaş, yoluna yoldaş olan bu qaya bədbəxt və talesiz, qərib və kimsəsiz bir insan kimi əməlli-başlı gecə-gündüz qan-yaş töküb ağlayır.*

*Dərd əymişi,*
*Budaqdan dər dəymişi.*
*Mən özüm dərd əhliyəm,*
*Tanıram dərd əymişi.*

*"Sən də yardan yaralısan,*
*Duruşundan qanıram mən".*

*İki dərdli bir-birini tapmışdı. Ağlayan qaya ilə söhbətimiz tutdu, səni tapa bilməsəm də mən öz həmdəmimi, həmsöhbətimi tapmışdım. İnsanlarla danışmaq mümkün olmayanda nə yaxşı qayalar varmış, sərt, uca, möhtəşəm, kövrək, sirr saxlayan, sirr açan qayalar!!!*

## NİYƏ AĞLAYIRSAN, AĞLAYAN QAYA?

Niyə ağlayırsan, Ağlayan qaya,
Dünyanın ən ağır qayğılarını
Yaralı çiynində saxlayan qaya!
Mən çox ağlamışam, nə qazanmışam,
Sən çox ağlayasan, nə qazanasan.
Tapdanan haqları yerinə qoymaq,
Sənə o qədər də gəlməsin asan.
Bir də görəcəksən, çox ağlamaqdan,
Tükənib, gözünün yaşı qalmayıb.
Bir də görəcəksən quma dönmüsən,
Qayanın bir parça daşı qalmayıb.
Sənə də, mənə də olanlar olub,
Ağlama, gözünün yaşını saxla.
Ögeylər gələndə doğmalar gedib,
Hara yol gedirik bu ağlamaqla.
Niyə ağlayırsan Ağlayan qaya,
Göz yaşı sel olub çağlayan qaya?
Səni nəfəsiylə gözəlləşdirən,
Müqəddəs anlarmı yadına düşüb?
Bu yerə qırx səkkiz xan gəlib-gedib,
Giraylı xanlarmı yadına düşüb?
Doğudan Batıya hökmü yeriyən
Ulu sultanlarmı yadına düşüb?
Çarın qəzəbinə tuş gələn günü
Başı bədənindən, dili dibindən,
Ayrılan canlarmı yadına düşüb?
Talanan şəhərlər, sınan körpülər,
Yollarda qırılan məsum körpələr,
Sökülən camelər, uçan türbələr,
Bir başa min dəfə dəyən zərbələr,
Türkə qənim olan illər, əsrlər,

Yıxılan qalalar, çökən qəsrlər,
Quruyan çeşmələr, bulanan sular,
Susan mədrəsələr, ölən arzular,
Yanan saraylarmı yadına düşüb?
Sürgünlər, qətllər, güllələnmələr,
Göyə dirənəndə, ərşə çıxanda,
Qalxan haraylarmı yadına düşüb?
Oğuza, qıpçağa gözdağı çəkən,
Ahlarmı, vaylarmı yadına düşüb?
Adı dilimizdə anda çevrilən,
Müqəddəs ruhlarmı yadına düşüb?
Müqəddəs ruhlara qənim kəsilən
Qaragüruhlarmı yadına düşüb?
Krım – bu dünyanın yaşıl adası,
Krım – bu dünyanın dünyaya dəyən
Sehri, gözəlliyi, səsi, sədası.
İşi nə çətindi Krım olmağın,
Dərdi nə böyükdü gözəl olmağın.
Bəd nəfəs toxunub, yad nəfəs dəyib,
Gül açan vaxtında xəzəl olmağın.
Sənə demirəm ki, qayıt keçmişə,
İtəni, batanı, öləni gözlə.
Heç vaxt ümidini üzmə həyatdan,
Ümidlə qarşıdan gələni gözlə!

## ÇİNGİZ DAĞÇININ QAYADAN GƏLƏN SƏSİ

Mən burdaydım dünya binnət olandan,
Mən burdaydım dünya cənnət olandan.
Bətni hələ bulaşmamış dünyada,
Təmiz sevgi, saf məhəbbət olandan.
Dözəmmədim gedənlərin dərdinə,
Ölənlərin, itənlərin dərdinə.

Mən bu dərdi çəkə-çəkə daş oldum,
Qayaların gözündəki yaş oldum.
Bir zamanlar Krım türkü mən idim,
Göyü duyan, yerin dərki mən idim,
Yerə-göyə haqqın ərki mən idim.
İstanbula gedən yollar var idi,
Gen qucaqlar, uzun qollar var idi.
Türküləri, şərqiləri qanadlı,
Dürlü-dürlü şirin hallar var idi.

Sevincini hər millətə pay verən,
Minarəsi əzanlara boy verən,
Gözlərində Qara dəniz gəzdirən,
Bayrağına ulduz verən, Ay verən,
Sarayları göyə meydan oxuyan,
Cameləri cənnət ətri qoxuyan,
Meşə idim, dəniz idim, dağ idim,
Bağban idim, bağça idim, bağ idim.
Təpə-dırnaq mən Krımın özüydüm,
Qəlbi, ruhu saf poladdan sağ idim.
İstanbula gedən yollar qapalı,
Sağalmıram bu dərd məni çapalı.
Nə toyumuz, nə vayımız bəllidi,
Başımızda qiyamətlər qopalı.

Xaqan öldü, xanlıq öldü, xan öldü,
Mən gördüyüm cahan öldü, can öldü.
Bu torpağa dəydi donuz nəfəsi,
Gözlərimdə ən müqəddəs an öldü.

Bu yerlərin Krımı var, Türkü yox,
Türk olanın heç bir şeyə ərki yox.
Uca-uca kürsülərdə səsi yox,
Ali məqam məclislərdə sözü yox.

Bu da bir cür manqurt olma yoludu,
Tarixi var, yaddaşı yox, özü yox.
Özgələri sahib olub saraya,
Yüz də danış kimdi çatan haraya.
Hamı tikər, hamı qurar, yaradar,
Ancaq ona torpaq olmaz, ev olmaz.
Hər kəs atar öz ovunu ovlayar,
Ancaq ona şikar olmaz, ov olmaz.
Türkü asdır!
Türkü basdır!
Türkü kəsdir!
Eybi yox.
Ancaq ona qorumaqçün özünü,
Atəş olmaz, çaxmaq olmaz, qov olmaz.
Hamı artar, hamı sevər, çoxalar,
Ancaq ona sevil olmaz, sev olmaz.
Milyondusa, az göstərər, min yazar,
Ünvanına nifrət yazar, kin yazar.
Guya burda heç olmayıb izləri,
Guya burda belə millət olmayıb.
Yer üzündə heç bir xalqa, millətə,
Belə zülüm, belə zillət olmayıb.

## ZƏLİMXAN YAQUBUN QAYADAN EŞİTDİYİ SƏSƏ CAVABI

Qəm kotanı sinəm üstən arx açıb,
Dərd içimdə şırım-şırım ağlayır.
Xəyalpərvər bir şairin halına,
Gah göy gülür, gah ildırım ağlayır.

Məni bura daha heç nə bağlamır,
Daşa dönüb, duyğularım çağlamır.

Ağlayan dağ boş-boşuna ağlamır,
Burda hər dağ, hər sıldırım ağlayır.

Gəlib görən xeyirdədi, nəfdədi,
Çal-çağırı cərgədədi, səfdədi.
Mən gördüyüm Krım ki var, kefdədi,
İçimdə bir qəmli Krım ağlayır.



## OSMANLI SULTANI BİRİNCİ ƏBDÜLHƏMİDİ KRIMDAN GƏLƏN QARA XƏBƏR ÖLDÜRDÜ

*Osmanlı-rus savaşı bütün şiddətiylə davam edirdi. Krım əldən getmiş, sərhədlərimizə hücumlar artmışdı.*

*Padşah I Sultan Əbdülhəmid savaşırdı. Vətənindən qoparılan hər qarış torpaq ürəyindən bir parça qoparır, içi qan ağlayırdı.*

*Bir gün qoca Yusuf Paşadan bir məktub gətirdilər. Düşmənin Özü qalasını ələ keçirdiyini və 25 min məsumun ruslar tərəfindən öldürüldüyünü öyrənincə sarsıldı.*

*"Ah, məlunlar!" – deyə bağırdı və taxtına yıxıldı...*

*Vəziyyəti həkimbaşı Həsən Əfəndiyə bildirdilər.*

*– Yetiş, həkimbaşı, Əfəndimizin halı ağırlaşdı.*

*Həkimbaşı padşahı müayinə edincə vəziyyəti anladı. Padşah üzüntüdən iflic olmuşdu.*

*Həkimbaşı:*

*– Sultanım, həyəcanlanmayın, – dedi.*

*Fəqət padşah acı-acı gülümsəyərək:*

*– Həsən Əfəndi, – dedi, – padşahına yaxşı bax, bu, son xidmətindir, artıq padşahını əlindən aldırdın.*

*Bu sözləri anlayan həkimbaşı özünü ələ ala bilməyərək hıçqırmağa başladı. Bir az sonra I Sultan Əbdülhəmid öldü...*

***(Yavuz Bahaduroğlu. Osmanlı Padşahları.***
***I cild, səh. 539)***

Qaranəfəs gəlir qara xəbərlər,
Döyür İstanbulu qara yel kimi.
Sarayda sultanı didir şübhələr,
Krımda türk qanı axır sel kimi.

Keçirir dumanlı xəyallarından,
Neçə sərkərdəni, neçə qazini.
Kimlər qazanmışdı, kimlər itirir,
Gör kimlər uduzur bu ərazini.

Gəraylar nəslinin başının üstə,
Deмək qılınc çəkib, at oynadır yad.
Kim kimə əzilir, kim kimi əzir,
Gör nələr baş verir, ey dadi-bidad.

Sıxır Ağməscidi, Bağçasarayı,
Sıxır hər tərəfdən qara pəncələr.
Göstərir gücünü, verir hökmünü,
Qırğınlar, ölümlər, sərt işgəncələr.

Saray sultan üçün dönür qəfəsə,
Çırpınır, tapammır xilas yolunu.
Xəbərlər titrədir şahın taxtını,
Xəbərlər sarsıdır Anadolunu.

Kaş o qara kağız yazılmayaydı,
Kaş o qara kağız oxunmayaydı.
Məğlubiyyət sözü, məğlub kəlməsi,
Türkün qüruruna toxunmayaydı.

Bütün baxışlarda ölü bir sükut,
Bütün ürəklərdə ağrı-acı var.
Bu gün İstanbulun Fateh Məhmədə,
Bir Sultan Səlimə ehtiyacı var.

Hər sözü fəlakət, hər sözü ölüm,
Yetişdi məktubu Yusif Paşanın.
Oğulsan partlama, oğulsan ölmə,
Seyrinə baxanda bu tamaşanın.

Krım əldən getdi! Qalibdi ruslar,
Yoxdu bundan böyük dəhşət, təhlükə.
Min il yağış yağsa yuyulan deyil,
Türkün tarixindən bu qara ləkə!

Sultan Əbdülhəmid gətirmədi tab,
Köklü ağac kimi qopdu yerindən.
Sultan yox, sultanlıq yıxıldı sanki,
İstanbul oynadı öz məhvərindən!

Elə bil ildırım palıdı vurdu,
Odlu sinəsini dağıdanda ah.
Ürək parçalandı sinənin altda,
Bir anın içində iflic oldu şah!

Gəldi həkimbaşı, gec idi artıq,
Nə desə, neyləsə əbəsdi, əbəs.
Dünyayla əbədi vidalaşırdı,
Dodaqda son cümlə, canda son nəfəs.

Bu ağır xəbərə canmı dözərdi,
Ruh çıxdı bədəndən uçan quş kimi.
Ölüm öz işini gördü bir anda,
Getdi yeri-göyü uçulmuş kimi.

Osmanlı tarixi beş gün içində,
Həm Krım itirdi, həm şah itirdi.
Krımı verməklə türkün dünyası,
Bəlkə də ən uca dərgah itirdi.

O gündən daş üstə qalmadı daşı,
Talandı, dağıldı Krım türkləri.
Dünənin ən böyük həqiqətiydi,
Bu gün bir nağıldı Krım türkləri.

Qan tökən doymadı qanlı savaşdan,
Göllər silələndi gözdəki yaşdan.
Asdılar boğazdan, kəsdilər başdan,
Qanında boğuldu Krım türkləri.

Krım türklərinin ağzının dadı,
Dilinin ləzzəti Krımla getdi.
Pay oldu hərəsi bir cəhənnəmə,
Əbədi cənnəti Krımla getdi.

Daşları yandırdı qəlbin harayı,
Dərd şair elədi Qazi Gərayı.
Soldu çiçək kimi Bağçasarayı,
Taxtı, səltənəti Krımla getdi.

Nəfəsi təngidi, canı sıxıldı,
Qovruldu, eşildi, yandı, yaxıldı.
Özülü laxladı, evi yıxıldı,
Puç oldu zəhməti, Krımla getdi.

Didildi pətəyi, dağıldı şanı,
Kəsildi taqəti, üzüldü canı.
Krım gəncliyinin toyu-nişanı,
Eşqi, məhəbbəti Krımla getdi.

## DƏYİŞİLƏN ADLARIN TALEYİ

*Dilənçi kökündə Poltavadan Yaltaya, Qızıldaşa gələn, orda el-obanın cəlladına, cəlladbaşıya çevrilən, bir gecənin içində kəndin say-seçmə kişilərini gedər-gəlməzə göndərən, qocalı-qadınlı, uşaqlı kəndi qurşuna düzən İvan Qızıldaşda donuz saxlamaq eşqinə düşür. Ancaq tərəddüd edir. "Donuz olsa belə, bu dərələrin içində donuz bəslənməz, donuzsuz torpaq kimə lazımdır!" Budur İvanın düşüncəsi. Bəli, özündən qabaq donuzu gəldi düşmənin. Adımızı, dadımızı, ünvanımızı dəyişmək onlar üçün oyun-oyuncaq oldu.*

Donuzları müqəddəs yer qoymadı,
Türk adını elədilər rus adı,
Qarı düşmən qan içməklə doymadı.
Ruhuna da, dilinə də susadı,
Dağda-daşda qoy adınız olmasın,
Şəcərəniz, soyadınız olmasın.
Qoca tarix qol gücünə zorlandı,
Yaddaşı da zədələndi, korlandı.
İzimizi, kökümüzü qazıdı,
İndi burda kitab başqa kitabdı,
İndi burda yazı başqa yazıdı.
Ayı dağın indi adı başqadı,
Yan-yörəsi, qol-qanadı başqadı.
Qarışdırıb doğmasını, yadını,
Bilən yoxdu Qızıldaşın adını.
Mən də gördüm, göz yaşına bələndim,
Ağlayan dağ görən niyə ağlayır,
Krım türkü, o dağ sənə boylanır.
Sənsiz qalan yerə-göyə ağlayır,
Dəmirqaya, Çatalqaya, Çadırdağ,
Şirin-şəkər dilin üçün ağlayır.
Ayvaslının, Dərmənköyün torpağı,
Perik düşmüş elin üçün ağlayır.

Gurzufun da toy murazı gözündə,
Gəlinqaya gəlin üçün ağlayır.

Obana bax, obana[1],
Vermə qızın çobana.
Qızını versən çobana,
Soxar başın tobana[2].

Qarabaş quzum duz istər,
Çoban ağam qız istər.
Qarabaş quzuya duz yoxdur,
Çoban ağama qız yoxdur.

Tatar qızı oxşamanı, laylanı,
Daha burda həzin-həzin oxumaz.
Sevgi üstə bəstələnən sözləri,
İlmə-ilmə, naxış-naxış toxumaz.

Cənnət Krım, Vətən qaldı yadlara,
Ayrılıqdan dağ-dağ oldu sinələr.
Qürbət eldə Krım dedi babalar,
Qürbət eldə Vətən dedi nənələr.

Arxamızdan ağladılar
                    ağac dalları,
Bizə haram oldu, aman,
Krım yolları.

Hansı qəlbin fəryadıdı, görəsən,
Bu sözləri dedirdən vay, deyən vay.

---

[1] Oban – baş çoban
[2] Tobana – samana

Köç günüdə qan-yaş töküb ağlayan,
Yas günündə qara paltar geyən vay.

Rənginizdi tez açılan, tez solan,
Bu boşluğu yox dolduran, yox dolan.
Qardaş deyib haray çəkən, saç yolan,
Oğul deyib, dərd içini yeyən vay.

Dost qəlbini düşmən məkri sıxanda,
Fənd işlədib təpə dağı yıxanda,
İlanlı çöllərdə canın çıxanda,
Döydürən vay, döyülən vay, döyən vay.

Tanrı qarğışımı keçib türklərə,
Qaraçay ağlayır, çərkəz ağlayır,
Yüz ildən çoxdur ki, çeçen ağlayır.
Şoranlı düzlərin duzlu suyundan,
İçməyən ağlayır, içən ağlayır.
Yurdunda tək qalıb göz yaşı tökən,
Yurdundan elliklə köçən ağlayır.
Özünü, sözünü tanıya bilmir,
Yüz ildən çoxdur ki, Kazan ağlayır.
Minbərdən dualar Allaha çatmır,
Kazanda çəkilən əzan ağlayır.
Qürbətdən Vətənə məktublar gəlir,
Yazdıran ağlayır, yazan ağlayır.
Mən də boğulmuşam, mən də dolmuşam,
Dəyişən adlara ağlayıram mən.
İtən nəsillərə, batan səslərə,
Batan soyadlara ağlayıram mən.

## BAĞÇASARAY FƏRYADI

Bağçasaray sarayı var,
xanı yox,
Görkəmi var, duruşu var,
canı yox.
Bağçasaray sultanı yox,
taxtı yox,
Taxt üstündə şahlıq edən
baxtı yox.
Quşu uçub fürsət çıxıb
əlindən,
Bir də dönüb xan olmağa
vaxtı yox.
Xəzan vurmuş bağçası var,
barı yox,
Xanımı yox, kənizi yox,
yarı yox.
Bağbana bax, yetim kimi
dolaşır,
Xandan gələn qazancı yox,
karı yox.
Əl isitmir daş-davarı
isinə,
Dil danışmır səs verəsən
səsinə.
Ögey ana yad övlada
yan baxar,
Zaman dönüb, yaman dönüb
pisinə.
Düzələrmi bu qurğular,
yapılar?

Açılarmı pəncərələr,
qapılar?
Nə bu yerin gedənləri
qayıdar,
Nə bu yurdun itənləri
tapılar!
Puşkin öyən fəvvarəsi
yoxdu, yox,
Layla deyən suyun səsi
yoxdu, yox.
Qəhər basıb, səs boğazda
boğulub,
Köhnə yurdun
təzə dərdi doğulub.
Nəğmə deyən tatar qızı
yoxdu, yox,
Başı üstə Ay-ulduzu
yoxdu, yox,
Sarayında dəm-dəsgahı
yoxdu, yox.
Üzə gülmür rəngi solmuş
otaqlar,
Sevən ölüb, sevgi şahı
yoxdu, yox.
Çeşməsində bircə damla
suyu yox,
Çal-çağırı, büsatı yox,
toyu yox.
Lal sükutun içində bir
haray var,
Gözdən düşən, yaddan çıxan
saray var.

Keçmişinə, dünəninə
ağlayır,
Yeddi arxa dönənine
ağlayır.
Külə dönmüş keçmişinə
yas tutur,
Ocaqların sönənine
ağlayır.
Ürəyimə zərrə işıq
düşmədi,
Hara baxdım muzey
məni üşütdü.
Elə bil ki, buz bağlayıb
donmuşam,
Qar-boranlı quzey
məni üşütdü.
Sultanları çağırmağın
xeyri yox,
Dada çatmaz nə Fateh,
nə İldırım.
Türk övladı, ləngimisən
bu yolda,
Sən istəyən nə Yalta var,
nə Krım.
Dilə gəlib babaların
ruhları,
Bağçasaray, Bağçasaray
deyirdi.
Sahibinə çatmayanda
əlləri,
Bağça haray, bağça haray
deyirdi.

## DAŞLAR DANIŞIRDI BAĞÇASARAYDA

Boşuna qoyulmur divara daşlar,
Boşuna ucalmır məğrur qalalar.
O daşın, divarın içindən keçir,
Qaliblər, məğlublar, dərdlər, bəlalar.

Cild-cild kitabların demədiyini,
Bəzən daş danışır, divar danışır.
Çözülür yaddaşı daş sandıqların,
Yaşında, başında nə var danışır.

Yansa da kitablar, kitabxanalar,
Nə yaxşı daşları yandırmaq olmur.
İnsan vüqarını sındırsalar da,
Qaya vüqarını sındırmaq olmur.

Eşitməyi də var, danışmağı da,
Nə qaya lal olur, nə daş kar olur.
Daşı daş dilində danışdıranda,
Hər şey bircə-bircə aşikar olur.

Ölən kim, ölümsüz olan kim olub,
Həqiqət kim olub, yalan kim olub.
Arxadan kürəyə bıçaq saplayan,
Xəbərçi kim olub, çuğul kim olub.
Krım deyiləndə, Krım deyəndə,
Tarixdə ad qoyan oğul kim olub,
Daşlar danışırdı Bağçasarayda.

Yalta, yal ətəyi, Krım yaylası,
Çingizoğulların yaylaq yeridi.
Ağyar[1], Yeniqala[2], Ağməscid[3], Kəfə,

[1] Ağyar – Sevastopol
[2] Yeniqala – Kerç
[3] Ağaməscid – Simferopol

Teymuroğulların oylaq yeriydi.
Fateh Məhəmməd də, Sultan Səlim də,
Dururdu arxada qara dağ kimi.
Osmanoğulların səsi gələndə,
Yağı titrəyirdi bir yarpaq kimi.
Osmanlı taxtından alıb gücünü,
Gəray xan adına pul kəsdirirdi.
Şimaldan sərt əsən qara yellərin,
Önünü kəsməyə tələsdirirdi.
Moskva Krıma vergi verəndə,
Düşmən yuxudaydı, ayılmamışdı.
Yox idi Pyotr, Yekaterina,
Rus bir dövlət kimi sayılmamışdı,
Daşlar danışırdı Bağçasarayda.

Qətlə yetirildi Məhməd Gəray xan,
Başlandı Krımın qara günləri.
Xanların ayağı büdrəyən günü,
Bir yasa çevrildi toy-düyünləri.
Krım da, Kuban da, Taman da getdi,
Sultanlıq yenildi qəddar çarlığa.
Ümid də qırıldı, güman da getdi,
Bir nöqtə qoyuldu bəxtiyarlığa,
Daşlar danışırdı Bağçasarayda.

Krımda tac qoydu Yekaterina,
O günü ən böyük bayram elədi.
Tutdu məmləkəti dədə malıtək,
Türkə türklüyünü haram elədi.
O müdhiş tarixin iki rəngi var,
Rusun bayramıydı, Türkün yasıydı.
Bugünkü qələbə, bugünkü süqut,
Taleyin millətə istehzasıydı,
Daşlar danışırdı Bağçasarayda...

Krım bir dastandı, bir qəmli dastan,
Sevgili, sevdalı, ələmli dastan.
Səsi var, qəlbi var, ruhu, canı var,
Bu ulu dastanın Yedigey kimi,
Şöhrəti Krımdan Altaya çatan,
Tarixə ün salan qəhrəmanı var.
Millətin ruhunu diri saxlayan,
Həlim Aydamak var, Çora Batır var.
Bu qədim torpağın hər qarışında,
Türkün əlləriylə haşiyələnmiş,
Sonsuz xəzinə var, zəngin yatır var,
Daşlar danışırdı Bağçasarayda.

Krım bir dastandı, bir ünlü dastan,
Ölümlü, itimli, sürgünlü dastan.
Taleyi əllərdən-əllərə düşdü,
Dastanı dillərdən-dillərə düşdü.
Bu gün də dilini ağı yandırır,
Bu gün də qəlbini yağı yandırır.
Bütün dodaqların qəmli nəğməsi,
Bütün qulaqların qəmli səsi var.
Tanrı qələmiylə, Rəbbin əliylə,
Çəkilmiş ilahi mənzərəsi var.
Dünya gözəlidi başı bəlalı,
Ürəyi nisgilli, qəlbi yaralı.
Bu gün də gözləri yollara baxır,
Öz ulu keçmişim gələcək deyə.
Üzmür ümidini öz Allahından,
Tarixim üzümə güləcək deyə,
Daşlar danışırdı Bağçasarayda...

## ÇİNGİZ DAĞÇININ MƏKTUBU

Xoş üzü, xoş sözü yoxsa zamanın,
İnsanın qəlbini açmaq çətindi.
Tükənən ümidnən, sınan ürəknən,
Qırılan qanadnan uçmaq çətindi.

Kökdən üzüləndə, yerdən qopanda,
Qayıdıb o yerdə bitmək çətindi.
Qürbətdən vətənə dönmək səadət,
Vətəndən qürbətə getmək çətindi.

Mənim o yerlərə əlim çatmadı,
Mənim o yerlərə ünüm yetmədi.
Həsrətin üzünə daş yamanaydı,
Bir addım qapımdan anrı getmədi.

Uzaq London hara, Çukurça hara,
Daş kimi atıldım, qürbətə düşdüm.
Yağının yazığı gəlmədi mənə,
Dəhşətdən ayrıldım, dəhşətə düşdüm.

Vətənin yoxdursa, özün də yoxsan,
Qürbət qəribləri eşidə bilməz.
Nə ayaz, nə şaxta, nə qar, nə boran,
İnsanı həsrəttək üşüdə bilməz.

Qayıdıb Krıma dönmək istərəm,
Gün keçib, vaxt ötüb, can ağırlaşıb.
Getmədim nə olsun, getdim nə olsun,
Duyğu yetim qalıb, ruh fağırlaşıb.

Nə söz tükənəndi, nə dərd qurtaran,
Əlli il Krımın dərdini yazdım.
Yazdığım əsərlər yaşatmasaydı,
Mən çoxdan ölərdim, heç yaşamazdım.

Krım torpağının dərinliyində,
Hələ deyilməmiş min dərdin yatır.
O böyük dərdləri sən gətir dilə,
Çox şükür sorağın hər yerə çatır.

Qoy səni oxusun, səni dinləsin,
Qəriblər, yazıqlar, tənhalar, təklər.
Mənim batan səsim eşidilmədi,
Sənin gur səsini eşidəcəklər.

Millətin yolunda cəfalar çəkib,
İsmayıl Xocanı yad elə, oğlum.
Hörmətlə xatırla Çobanzadəni,
Onun da ruhunu şad elə, oğlum.

Hələ ocağımız keçməyib tamam,
Külünü üfürsən qoru yanacaq.
Halal haqqımızı qaytarammasaq,
Ulu babaların goru yanacaq.

## ZƏLİMXAN YAQUBUN CAVAB MƏKTUBU

Yeddi yerdən qılınc kimi
çapdı məni,
Namən gəldi yaman yerdə
tapdı məni.
Buğum-buğum, damar-damar
ərimisən,
İçin-için ağlamısan,
kirimisən.
Cana çəkib dağın-daşın
sellərini,
Gözünə yaş bağlamısan,
Çingiz Ağa!

Ayrılığın xiffətinə
dözmək üçün
Bağrına daş bağlamısan,
Çingiz Ağa!
Elə bil ki, qürbət ellər
bir qəbiri,
Hər qərib bir başdaşıdı,
Çingiz Ağa!
Vətən yükü çəkənlərin
ağrıları,
Ağrı dağla yanaşıdı,
Çingiz Ağa!
Sənin başın nələr çəkib,
Dərk edirəm, anlayıram,
Çingiz Ağa!
Niyə səni sağlığında
görəmmədim,
Öz-özümü danlayıram,
Çingiz Ağa!
Sənin nələr diklərin
mənə bəlli,
Dada çatmır nə göz yaşı,
nə təsəlli.
Bu dərdlərin məzarını
birdəfəlik qazmaq gərək,
Hey dedikcə demək gərək,
hey yazdıqca yazmaq gərək.
Kimin əli tətikdədir,
kimin başı kötükdədir,
Bizə quyu qazanların,
düzü tərsə yazanların,
Növrağını birdəfəlik
pozmaq gərək.
Ağlamaqla kar aşarmı,
Bir bu qədər göz yaşları
türk oğluna yaraşarmı?

Xəyanətin köklərini
kəsmək üçün
Xəncərə dön, bıçağa dön!
Sən özünə qayıtdıqca
böyüyürsən,
Qayıt yenə Oğuza dön,
Qıpçağa dön!
Ayağa qalx Mete kimi,
güclən altı qitə kimi!
Qayna yenə Dəclə kimi,
Fərat kimi,
Yüksəl yenə Fateh kimi,
Səlim kimi, Murat kimi!
Hərəkət et, bərəkət ol,
çağla yenə həyat kimi!
Tapın Orxan Yeniseyə,
dilə gəlsin kitabələr,

Torpağı qaz, əllərinlə
abad olsun viranələr.
Çağır Əhməd Yəsəvini,
Mövlanını,
Dədə Qorqud, Yunus Əmrə,
Hacı Bəktaş Vəli gəlsin.
Çözələsin bu dərdləri,
Qoy yığılsın çırağına
türkəm deyən pərvanələr!
Bilirəm ki, türk ayağa
qalxan günü
Həqiqətə çevriləcək
çox nağıllar, əfsanələr!
Türk ayağa qalxan günü
Durulacaq türkün halı,
Onda ruhu şad olacaq,

Onda rahat uyuyacaq məzarında
İsmayıl bəy Qaspıralı!
Ayağa dur, türk övladı,
Qoy təzədən çiçəklənsin
Bağçasaray,
Krım yenə Krım olsun!
Çaldığımız hər qələbə,
Qoy düşmənin başı üstə
çaxan bir ildırım olsun!

## BİZDƏN SALAM OLSUN QASPIRALIYA

*Böyük Allahım! Altmış üç il yaşadım. Bu həyatın otuz beş ilini Müsəlmanların oyanması, tərəqqisi, taleyi və təkamülü uğrunda sərf etdim. Millətimin salamat və səadəti üçün əlimdən hər nə gəldisə, hamısını yapdım, Ya Rəbbi!..*

*Ey böyük Tanrım! Meydana gətirmək istədiyim bir çox şeylər daha vardı... fəqət buna müvəffəq ola bilməyəcəm... artıq... artıq nə varsa hamısı sənin, hər şey sənin əlindədir, Allahım!..*

***İsmayıl bəy Qaspıralının ölüm ayağında dilindən çıxan sözlər***

Türkün böyük oğlu,
böyük övladı,
Oyanış deyəndə
mən səni andım.
Keçdiyin yolları
dərk elədikcə,
Gah yandım, gah dondum,
gah havalandım.
İşində, dilində,
fikrində birlik,
Sözündə, yazında,
zikrində birlik.

Üzdün ən amansız
axına qarşı,
Getdin yağıların
oxuna qarşı.
Rus “parçala!” – dedi,
sən “birləş!” – dedin,
Türkə, “türklüyünü
fikirləş!” – dedin.
Aldın işığını Ulduzdan,
Aydan,
Səs kimi yüksəldin
Bağçasaraydan.
Bu səs yayıldıqca
qalxdı, yayıldı.
Eşidən dinlədi,
yatan ayıldı,
Urala, Altaya,
Sibirə çatdı,
Gəzdi Avropanı,
gəzdi Qafqazı,
Hara türk ayağı
dəyib, toxunub,
O yerdə təzə bir
hava yaratdı.
Türkün qulağına
pambıq tıxamaq,
Türkün gözlərini
kor etmək üçün,
Salıb haqqımızı
ayaqlar altda,
Ulu bir millətə
zor etmək üçün,
Silahdan, ordudan,
vuruşdan qabaq,

Avamlıq gəlirdi
bir tufan kimi,
Cəhalət gəlirdi
qasırğa kimi.
Mən türkəm, islamam,
mən Şərqəm deyib,
Asdın bu dünyanın
qulaqlarından
"Tərcüman" sözünü
bir sırğa kimi!
Daşdı dərya kimi
duyğular seli,
Xitabı səsləndi,
nidası gəldi.
Uzaq Hindistandan,
qoca Misirdən,
Ulu Türküstandan,
Anadoludan,
Kazan, Həştərxandan,
Qasğardan, Çindən,
Yurdun ürəyindən,
millət içindən,
Gəldi "Tərcüman"ın
sədası gəldi.
Bu səda "silkələn,
qalx, oyan!" – dedi,
"Öz haqqın uğrunda
alış, yan!" – dedi.

Ey Krım türkünün
sevinci, yası,
Ey dünya Türkünün
fikir babası,
Əyləşdiyin masa,
tutduğun qələm,

Oxuduğun kitab
ziyarətimdi.
Uca bir millətin
haqqı yolunda,
Çəkdiyin hər əzab
ziyarətimdi.

Əllərin toxunan,
nəfəsin dəyən,
Gözlərin oxşayan,
ürəyin deyən,
Nə varsa hamısı
müqəddəsimdi.
Bir qəlbin qeyrəti,
fədakarlığı,
Bir xalqın namusu
müqəddəsimdi.

Qısa görünərdi
boyu millətin,
Uca oğulları
boy atmasaydı.
Mürgülü başları
silkələməsə,
Yatanı vaxtında
oyatmasaydı.

Boylandım çatdığın
ucalıqlara,
Sən çıxan zirvəni
haqlayammadım.
Üzümü sürtəndə
qəbir daşına,
Gözümün yaşını
saxlayammadım.

Ömrünə nöqtədir
altmış üç yaş,
Əldən əl üzülüb,
candan can gedib.

Çox zaman dünyanı
mən belə gördüm,
Peyğəmbər işığı
düşən adamlar
Peyğəmbər yaşında
dünyadan gedib.

Gəray xan türbəsi
keşiyindədir,
Sənin məzarına
gur işıq verir.
Baxıram Zincirli
mədrəsəsinə,
O da məzarına
yaraşıq verir.

Tarix yada salar,
zaman yaşadar,
Haqq tapar yerini,
üzülər nahaq.
Bu gün mənim üçün
bir təsəlli var,
Evin ziyarətdi,
məzarın ocaq!

Bizdən salam olsun
Qaspıralıya,
İnsanın xasına
salamlar olsun.

Məzarın üstündə
zikr edənlərə,
Oxunan "Yasin"ə
salamlar olsun.

Dahilər xalqına
verməsəydi can,
Açılmazdı sabah,
sökülməzdi dan.
Şərəflə köçmüsən
qoca dünyadan,
Şərəfli yasına
salamlar olsun.

Həyatın bənzədi
əriyən şama,
Yaşadın qəlbindən
dərd dama-dama.
Səni bəxş elədi
Türkə, İslama,
Türkün dünyasına
salamlar olsun!

## BƏKİR ÇOBANZADƏNİN QƏRİB RUHU

Bəkir Çobanzadə – elmin sultanı,
Sultanlar taxtına yaraşan alim.
Oğuzun, qopuzun ruhundan gələn,
Böyük zəkalarla yarışan alim.

Bəkir Çobanzadə – çağlayan, axan,
Qəfil fitnələrə tuş gələn alim.
Taleyi hamını yandırıb-yaxan,
Şöhrəti hamıya xoş gələn alim.

Bir türk oğlu kimi gəldi dünyaya,
Bir millət oğlutək ucaldı getdi.
Qoca İstanbula, qədim Krıma,
Sevdalı Bakıya ün saldı getdi.

Krım doğulduğu müqəddəs məkan,
Krım sığındığı mehriban ana.
Onu töhvə kimi verdi Yaradan,
Verdi qoca Şərqə, Azərbaycana!

Əsrin zəlzələsi, vaxtın tufanı,
Onu da sındırdı, apardı getdi.
Kökü min illərə söykənən ruhu,
Sağlam bir bədəndən qopardı getdi.

Göyün Allahını unutmuşdular,
Göyün altındakı yer ilahları[1].
İblislə, şeytanla əlbir, əməl bir,
Fitnə ilahları, şər ilahları.

Mərmi yağışıydı sorğu-suallar,
Hər gün baş gedirdi, bədən gedirdi.
Hər gedən oğulla bir ocaq sönür,
Hər gedən atayla Vətən gedirdi.

Səkkiz dil bilirsə bir dil sahibi,
Bir də danışmasın, dilini kəsin.
Yüz əsər yazırsa bir əl sahibi,
Qoy bir də yazmasın, əlini kəsin.

Krım türklərinin düşünən başı,
Krım türklərinin yazan əliydi.

[1] İlah – bütpərəstlik dövründə bütlərə ilah deyirdilər.

O baş bir gecədə ağarmalıydı,
O əl bir gecədə kəsilməliydi.

Kürəyə sancılan qanlı nizəydi,
Ürəyə sancılan ox idi böhtan.
Səhranın qumundan dağın daşından,
Göyün yağışından çox idi böhtan.

Qarışıq yuxular görürdü dünya,
Bayquş nəfəsitək əsirdi yellər.
Bakıda qılınclar itilənirdi,
Sibirdə qılınctək kəsirdi yellər.

İz saldı alim tək yaddaşlarda o,
Dindi nəğmə kimi, ötdü sim kimi.
Zamanın amansız ittihamları,
Onu da dindirdi müttəhim kimi.

**MÜSTƏNTİQ:**
Qəlbindən nə keçir, nə düşünürsən,
Ovcumun içitək bilirəm bunu.
Birdi, gizləsən də, gizləməsən də,
Bilirəm mən sənin kim olduğunu.

**ÇOBANZADƏ:**
Mənim kimliyim də, nəçiliyim də,
Hamıya aydındı, hamıya bəlli.
Həqiqət hər şeydən ucadır, uca,
Budur dar ayaqda mənə təsəlli.

**MÜSTƏNTİQ:**
Onsuz da nə varsa dedirdəcəyəm,
Ancaq həqiqəti demirsənsə, sus.
Vurub öz möhrünü səni satanlar,
"Türkiyə agenti", "iranlı casus"!

**ÇOBANZADƏ:**
Mənim duyğularım nur içindədir,
Sən orda nə cürə yazırsansa, yaz.
Böyük ideallar adamıyam mən,
Elmlə şeytanlıq bir yerə sığmaz.

**MÜSTƏNTİQ:**
Krım firqəsinə rəhbər olmusan,
Maskadı qazanıb çatdığın ad-san.
Sovet dövlətini dağıtmaq üçün,
Turan dövlətinin xəyalındasan!

**ÇOBANZADƏ:**
Vəzifəm olubsa məmləkətimdə,
Burda xoşagəlməz bir cəhətmi var?
Türkəmsə, türklərə bağlıyam demək,
Milləti sevməkdə qəbahətmi var?

**MÜSTƏNTİQ:**
Pantürkist, millətçi, Turançı, türkçü,
Tutduğun işləri danmaq çətindir.
Dövlət əleyhinə iş aparmısan,
Bu, sənin ən böyük cinayətindir.

**ÇOBANZADƏ:**
Sevmişəm milləti, torpağı, yurdu,
Sevmək cinayətsə, cinayətkaram.
Məni öldürsən də, güllələsən də,
Bir həqiqət kimi dünyada varam.

**MÜSTƏNTİQ:**
Sənin varlığını yox etmək üçün,
Mənə bir saat yox, bir an bəsdi, bəs.
Barmaqdı, tətikdi, başdı, gülllədi,
Alnında açılan nişan bəsdi, bəs.

**ÇOBANZADƏ:**

Nə tətik çatandı, nə güllə batan,
Alnım üfüqlərdə ulduzdu, Aydı.
Millətəm, dövlətəm, Türkəm, Turanam,
Qəlbim dünya boyda geniş saraydı.

Uzandı aylarla, həftələr ilə,
Ruhu şikəst edən sorğu-suallar.
Nə qədər insanın ömrü tükəndi,
Bitib-tükənmədi bu qilü-qallar.

Pantürkist damğası, ölüm maşını,
Endi nur üstünə bir qara pərdə.
Bağlandı kitablar, kitabxanalar,
Alimlər can verdi məhkəmələrdə.

İblis libasına, şeytan donuna,
Cəllad sifətinə girdi o dövlət.
Krımda doğulan Çobanzadəni,
Bakıda güdaza verdi o dövlət.

Ən dəhşətli ağrı, ən acı güllə,
Krım türklərinin oğluna dəydi.
Böyük bir ürəyi deşən güllələr,
Türkün ürəyinə, ağlına dəydi.

Allahı yoxdumu arxasızların,
Güdaza gedənlər tənhamı, təkmi?
Özünə bir sual vermədi cəllad,
Bir də Çobanzadə yetişəcəkmi?

Bəkir əfəndiyə güllə dəyəndə,
Krımda ay tərsə, gün nəsə döndü.
Daraldı alimin, elmin göyləri,
Zindana, məzara, məhbəsə döndü.

Baş əydi bu dərdə qoca zirvələr,
Yeddi qat büküldü haça zirvələr.
Endi ucalardan uca zirvələr,
Dağ düzə çevrildi, zil pəsə döndü.

Dərmansız dərd ilə öldü dədələr,
Dildə zəhər oldu dolu badələr.
Getdi neçə-neçə Çobanzadələr,
Türk üçün gen dünya qəfəsə döndü.

## ÇİNGİZ DAĞÇININ KRIMA BİR MƏKTUBU

Ay-ulduz başın üstə
qızıl taca dönərdi,
Gecə-gündüz çimərdi
nurda, Krım tatarı.

Yurdda bayquş uladı,
susdurdu bülbülləri,
Yağı saldı talanı
yurda, Krım tatarı.

Bizi kimlər apardı
cənnətdən cəhənnəmə,
"Kim qırıldı, kim qaldı"
burda, Krım tatarı?

Taleyinə yazılıb
"yersiz gəldi, yerli qaç",
Quzuları verdilər
qurda, Krım tatarı.

Çatdı öz istəyinə
sənə tilov atanlar,
Çırpındın balıq kimi
torda, Krım tatarı.
Dirilər dirigözlü
tamahlara yem oldu,
Ölülər dincəlmədi
gorda, Krım tatarı.
Böyük arzularını
ocaqda yandırdılar,
Əridin odda, közdə,
qorda, Krım tatarı.
Min əyilməmişdin,
axır ki, sındırdılar,
Qatladılar dizini
zorda, Krım tatarı.

## SÜRGÜN YERİ

*Mənim kəndimin adı vardı. Yalnız kəndimin deyil, kəndimin dərəsinin, dağının, çaylarının, qayalarının, təpələrinin, çeşmələrinin, camilərinin də adları vardı. Buranın bir adı yoxmu?*

*"Var!" – dedi adam. Buranın adı Sürgün yeri!" Krımda doğulduğun kəndlə buranı nə az, nə çox 6 min kilometr məsafə ayırır.*

***"Yansılar"dan***

Kəsilən başlar oldu,
Tökülən yaşlar oldu.
Uçan uca divarlar,
Sökülən daşlar oldu.
Qırğınlar, qətliamlar,
Qanlı savaşlar oldu,
Biz sürgünə gedəndə.

Nifrət ilə süzdülər,
Qurşunlara düzdülər.
Açılan əlimizi
Yerdən, göydən üzdülər,
Biz sürgünə gedəndə.

Ağlayan ağlayırdı,
Ağladan ağladırdı.
Bəlalı başımıza,
Qara gəlmiş o tarix
Qaralar bağlayırdı.

Uyumurdu körpələr,
Sağalmırdı xəstələr,
Ölmüşdü içimizdə
Ağılar, şikəstələr.

Alışmırdı ocaqlar,
Odu söndürmüşdülər.
Yerimirdi qatarlar,
Vaxtı dondurmuşdular.
Bizdən böyük şeytanı,
Yaman qandırmışdılar,
Biz sürgünə gedəndə.

Allahsızlar at üstə,
Allahlılar piyada.
Didildik, parçalandıq,
Dağda, daşda, qayada.
Bir kimsə tapılmadı,
Bəxtimizi oyada,
Biz sürgünə gedəndə.

Göyün nuru yox idi,
Ayın bərqi yox idi.

Ölü, yoxsa diriyik,
Bizə fərqi yox idi.
Səsi dəfn eləmişdik,
Nəğmə, şərqi yox idi
Biz sürgünə gedəndə.

Ölü qaytarammadıq,
Diri qaytarammadıq.
Eldən ayrılanları,
Geri qaytarammadıq.
Zor Allahlıq elədi,
Yeri, yurdu, torpağı
Geri qaytarammadıq,
Biz sürgünə gedəndə.

Zəhərini tökəndə,
Yağını susdurmadıq.
Cəsəd çöllərdə qaldı,
Öləni basdırmadıq.
Bizə qan qusdurdular,
Yada qan qusdurmadıq,
Biz sürgünə gedəndə.

Bizi aparmışdılar
Otu bitməyən yerə,
Suyu axmayan yerə.
İnsan necə sığınsın,
Allah baxmayan yerə.

Dünyanın cəhənnəmi –
Qaçqın didərgin yeri.
Allah! Nə ağır olur
Ömrün, günün narahat,
Ruhların gərgin yeri.
Qəriblərin gözündə,
Bütün dünya xaraba,
Hər tərəf sürgün yeri!

Çingiz Ağa, hardasan,
harda yuva salmısan,
Nədir adı, ünvanı,
haradır sürgün yeri?
Cavabı xəncər kimi
içərimi doğradı,
Dedi bağrım başında
paradı sürgün yeri.
Qanı elə axıb ki,
gözü qaysaq bağlamır,
Dərmanı tapılmayan
yaradı sürgün yeri.
Talanıb bağ-bostanı,
dərdə sığmaz dastanı,
Axırda bizə qalmış
uradı sürgün yeri.
Yaş yanağı yandırıb
ürək atəş içində,
Gözlərimdən tökülən
qoradı sürgün yeri.
Biz onu axtarmadıq,
o bizi gəldi tapdı,
Bizi qarabaqara
aradı sürgün yeri.
Düşmür Ayın işığı,
axmır Günəşin nuru,
Zülmətin içindədi,
qaradı sürgün yeri.

Adımız çəkiləndə
düşmən yaramaz dedi,
Bütün "yaramaz"lara
yaradı sürgün yeri.
Bir qürbət var içimdə,
hey Vətən haraylayır,
Qəlbimin içinə bax,
oradı Sürgün yeri!

## ÇİNGİZ DAĞÇININ SUALI

Sürgünlərin tufanı
viran qoydu hər yeri,
Qocaman palıd kimi
Qopdularmı, görəsən?
Gedəndə bu torpağı
duztək yalamışdılar,
Yad olub yaddaşını
öpdülərmi, görəsən?

Daş atıb qırmışdılar
ruhunun aynasını,
O sınıq könülləri
yapdılarmı, görəsən?

Qürbətin atəşində
əriyib damla-damla,
Yerin yeddi qatına
hopdularmı, görəsən?

Yağan yağış, axan sel,
ələnən qar yerinə
Göz yaşını çöllərə
səpdilərmi, görəsən?

Yaddan dost tutdularmı,
dil də unudularmı?
Ağır savaş yolundan
sapdılarmı, görəsən?

Hər yerdə üzlərinə
yol bağlı, qapı bağlı,
Paslanmış qıfılları
çapdılarmı, görəsən?

Dolaşır göy üzünü
Türkün ulu ruhları,
Vətən itirmişdilər,
tapdılarmı, görəsən?

**ZƏLİMXAN YAQUBUN CAVABI**

Bir ruhdan, bir qandan, bir kökdən gələn,
O dəmlər, o vaxtlar, o çağlar hanı?
Niyə yeddi yerdən sındı, qırıldı,
O tellər, o bəndlər, o bağlar hanı?

Qara yellər kimi əsən kim oldu,
Yad olan, inciyən, küsən kim oldu.
Kəsdirən kim oldu, kəsən kim oldu,
Kökündən üzülən o tağlar hanı?

Bilirik bu xalqın düşməni kimdi,
Batan hər xatirə itən izimdi.
"Fərman padşahındı, dağlar bizimdi",
Bu gün bizim olan o dağlar hanı?

Bu günü dünəndən qoparmaq olmaz,
Dünəni bu günə bağlamaq gərək.
Bütün könüllərin arzularını,
Bir ruhun kökünə bağlamaq gərək.

Yalanlar tarixin başını qatdı,
Keçi qiymətinə bir xalqı satdı.
Kim harda doğuldu, harda boy atdı,
Onu öz mülkünə bağlamaq gərək.

Çox uzun sürməyib dünya üzündə,
Nə fitnə tarixi, nə şər tarixi.

Hələ də insaflı tarixçilərdən,
Halallıq gözləyir bəşər tarixi.

Qarşımda Krımla bağlı kitablar,
Qəlbimdə nisgil var, gözümdə yaş var.
Ruhumu göynədən ağrı-acılar,
İçimi yandıran ah var, təlaş var.

Allah unudulub, haq, yaddan çıxıb,
Nə varsa hər şeyi saxta yazıblar.
Bizim qəhrəmanlıq tariximizi,
Axta tarixçilər axta yazıblar.

İrtışdan Dunaya, Krıma qədər,
Avardan Xəzərə, Bulqara qədər,
Qıpçaq deyildimi atını çapan.
Sahibi kim idi Dəşti-qıpçağın,
Köhlən oynadanda, nərə çəkəndə,
Kim idi od kimi yerindən qopan?

Romanı, Bizansı dizə çökdürən,
Bir xalqın gücünü görmədinizmi?
Məğrur qalasını, uca dağını,
Yüksələn bürcünü görmədinizmi?

Bir-bir dillənəcək daş abidələr,
Dili açılacaq o qızıl çağın.
Hələ sinəsində çox sirlər yatır,
Böyük çöl deyilən "Dəşti-Qıpçağın".

Qayıdar Krıma o ulu türklər,
Yeriyər, Allahın altıyla gələr.
Kəssə qarşısını dağlar, dərələr,
Göylərin yeddinci qatıyla gələr.

Batmış bir sədanı, ünü qaldırar,
İmanı oyadar, dini qaldırar.
Göytürkü, Sakanı, Hunu qaldırar,
Oğuzun, Qıpçağın zatıyla gələr.

Buludu kişnəyər, yağışı yağar,
Həqiqət nahaqqı xırpalar, boğar.
Tarix Ərtonqanı təzədən doğar,
Atilla qılıncı, atıyla gələr.

Olsa da çiynində dağ boyda yüklər,
Daşın içində də eşqi çiçəklər.
Qayıdar Krıma o ulu türklər,
Qol-qola doğuyla, batıyla gələr.

***2010, may-avqust***
***Yalta-Bakı***

## MÜNDƏRİCAT

Əbədiyyət dastanı ........................................................ 5
Allahım, mənə bir ağsaqqal yetir ........................................ 178
Qurtuluş dastanı ........................................................ 181
Azərbaycan oxusun ........................................................ 185
Ey vətən oğulları! ........................................................ 190
Lefortova zindanı ........................................................ 213
Xalqın ehtiyacı var ........................................................ 222
Tanı məni, Amerika ........................................................ 229
Borçalıda qalan izlər ........................................................ 261
Cavidin qız balası ........................................................ 277
İnsan ........................................................ 300
Əlli yaşın dastanı ........................................................ 306
İçimdə ağlayan Krım ........................................................ 329

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

"Şərq-Qərb" Nəşriyyat Evinin məhsuludur.
www.eastwest.az
www.fb.com/eastwest.az

Buraxılışa məsul **SEVİL İSMAYILOVA**
Texniki redaktor **GÜLTƏKİN YUSİFOVA**
Dizayner **ELŞƏN QURBANOV**
Səhifələyici **XƏQANİ FƏRZALIYEV**
Korrektorlar **FƏRİDƏ SƏMƏDOVA**
**ELŞAD ÇOBANLI**
Nəşriyyat direktoru **RASİM MÜZƏFFƏRLİ**

Çapa imzalanmışdır:27.03.2013. Format 60x90 1/16. Ofset çapı
Fiziki çap vərəqi 23,5. Sifariş N 12 214. Tiraj 500

"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

"**Şərq-Qərb**" Nəşriyyat Evinin bütün kitablarının toplusu:
**http://www.eastwest.az/az/books/** ünvanda